Şeyx Süleyman bin Şeyx Əbdülvahab bin Süleyman bin Əli bin Əhməd bin Raşid bin Yezid bin Müşrif Nəcdi Hənbəli Vahabi firqəsinin banisinin qardaşı

(vəfat tarixi: hicri 1210)

# VAHABİLƏRƏ RƏDD CAVABI OLAN İLAHİ İLDIRIMLAR

(Səvaiqul-ilahiyyə fir-rəddi aləl-Vahabiyyə)

## Qardaşı Muhəmməd bin Əbdülvahaba rəddiyyə

Seyyid Səravinin tədqiqi ilə

313news

**Şeyx Süleyman bin Şeyx Əbdülvahab bin Süleyman bin Əli bin Əhməd bin Raşid bin Yezid bin Müşrif Nəcdi Hənbəli**
**Vahabi firqəsinin banisinin qardaşı**
**(vəfat tarixi: hicri 1210)**

# VAHABİLƏRƏ RƏDD CAVABI OLAN İLAHİ İLDIRIMLAR

## (Səvaiqul-ilahiyyə fir-rəddi aləl-Vahabiyyə)

**Qardaşı Muhəmməd bin Əbdülvahaba rəddiyyə**

**Seyyid Səravinin tədqiqi ilə**

**Layihə rəhbəri:** **313news.net**
**Tərcüməçi:** **Hacı Ramil Aslanlı**
**Redaktor:** **Peyman Məmmədov**

# MÜNDƏRİCAT

Tədqiqatçının müqəddiməsi ........ 6
MÜƏLLİF HAQQINDA ........ 26
Müəllifin müqəddiməsi ........ 28
BİRİNCİ FƏSİL ........ 37
Müsəlmanları təkfir etməkdən (kafir hesab etməkdən) çəkinmək ........ 37
İKİNCİ FƏSİL ........ 47
Cahil və xəta edənin üzürlü olması ........ 47
ÜÇÜNCÜ FƏSİL ........ 49
Müsəlmanda küfr və İslamın olması mümkündür ........ 49
DÖRDÜNCÜ FƏSİL ........ 50
Xəvaricin təkfir edilməməsi ........ 50
BEŞİNCİ FƏSİL ........ 54
Riddə əhlinin təkfir edilməməsi. ........ 54
ALTINCI FƏSİL ........ 58
Qədəriləri təkfir etməmək ........ 58
YEDDİNCİ FƏSİL ........ 61
Mötəzilənin təkfir edilməməsi. ........ 61
SƏKKİZİNCİ FƏSİL ........ 62
Murciənin təkfir edilməməsi ........ 62
DOQQUZUNCU FƏSİL ........ 64
Cəhəmiyyənin təkfir edilməməsi ........ 64
ONUNCU FƏSİL ........ 67
Sələfin rəyi islam firqələrini təkfir etməməkdir ........ 67
ON BİRİNCİ FƏSİL ........ 87
İman, küfr və nifaqın müsəlmanda cəm olması ........ 87
ON İKİNCİ FƏSİL ........ 89
Şəriət hökmlərinin batinə deyil, zahirə əsasən tənzimlənməsi ........ 89
ON ÜÇÜNCÜ FƏSİL ........ 94
Müsəlmanları təkfir etməyin caiz olmamasının dəlilləri ........ 94
ON DÖRDÜNCÜ FƏSİL ........ 100
Müsəlmanların təkfir edilməsinin caiz olmamasını başqa dəlilləri ........ 100
ON BEŞİNCİ FƏSİL ........ 107

Müsəlmanların təkfir edilməsinin caiz olmamasının başqa bir dəlili........................................ 107
ON ALTINCI FƏSİL........................................................................................................ 110
Müsəlmanları təkfir etməyin batil olmasının digər dəlili.............................................. 110
ON YEDDİNCİ FƏSİL.................................................................................................... 114
Cahil olaraq qəbirlər üçün qurban kəsənə küfr hökmü tətbiq olunmaz.................................. 114
ON SƏKKİZİNCİ FƏSİL ................................................................................................ 116
Peyğəmbərin (s) "Ümmətimdən bir tayfa haqq olaraq qalacaq" hədisi................................. 116
ON DOQQUZUNCU FƏSİL............................................................................................ 118
Peyğəmbərin (s) "Küfrün başı şərq tərəfdədir" buyurması ............................................. 118
İYİRMİNCİ FƏSİL ........................................................................................................ 122
Peyğəmbərin (s) "Məndən sonra şirk edəcəyinizdən qorxmuram" buyurması ........................ 122
İYİRMİ BİRİNCİ FƏSİL.................................................................................................. 125
Peyğəmbərin (s) "Şeytan ərəbistan yarmadasında ibadət olunmaqdan ümidsiz olmuşdur" buyurması ........................................................................................................ 125
İYİRMİ İKİNCİ FƏSİL ................................................................................................... 129
Peyğəmbərin (s) "Şeytan sizin torpaqlarda ibadət olunacağından ümidsiz olmuşdur" buyurması ........................................................................................................ 129
İYİRMİ ÜÇÜNCÜ FƏSİL ............................................................................................... 132
Peyğəmbərin (s) "Mədinə onlar üçün xeyirlidir. Əgər bunu bilsəydilər" buyurması................. 132
İYİRMİ DÖRDÜNCÜ FƏSİL ........................................................................................... 136
Peyğəmbərin (s) "Gecə və gündüz keçməmiş Lat və Uzza ibadət olunacaq". ........................... 136
İYİRMİ BEŞİNCİ FƏSİL ................................................................................................. 142
Şirk əhlinin məzhəbinin xüsusiyyətləri.......................................................................... 142
İYİRMİ ALTINCI FƏSİL ................................................................................................. 149
Müsəlmanın xüsusiyyətlərini bəyan edən hədislər ......................................................... 149
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..................................................................................... 169

## Tədqiqatçının müqəddiməsi

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Muhəmməd və onun pak Əhli-Beytinə salam və salavat olsun!

İslam dininin başqa dinlərdən fərqli cəhəti onun dünya və axirət dini olmasıdır. Məhz buna görə də müsəlman şəxs hər iki cəhətə əhəmiyyət verməlidir. Dünyası üçün çalışdığı kimi axirəti üçün də çalışmalıdır. Hal-hazırda yaşadığı dünya həyatında axirət həyatı üçün azuqə toplamalıdır. Necə ki, Allah-təala buyurur: ***“Və Allahın sənə vermiş olduğundan axirət evini qazan, dünyadakı (ömür və maldan olan) nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi sən də (başqalarına) yaxşılıq et və yer üzündə fəsad dalınca düşmə. Çünki Allah fəsad törədənləri sevməz”.***[1]

Buna əsasən də müsəlman şəxsə dini hökmləri yerinə yetirmək və ilahi qadağalardan çəkinmək vacibdir. Bir sözə imkan daxilində şəriətin qayda və qanunlara əməl etməli, gündəlik vacib olan beş namazı qılmalı, ramazan ayının orucunu tutmalı, malının zəkatını verməli, Allahın evini ziyarət etməli və xeyir işlərə dəvət etməlidir. Axirət xoşbəxtliyini əldə etmək üçün saleh əməl yerinə yetirməli və Allaha itaət etməlidir. Xüsusilə də, Qurani-kərim insanın taleyinin onun əməllərinin girovunda olduğunu təkid edir. Əgər əməllər xeyirlidirsə, onun taleyi də xeyirli, şərdirsə şər olacaq. Həmçinin Rəsulullahdan (s) və onun pak Əhli-Beytindən nəql olunan hədislər də, əzabdan xilas olmaq və Cənnəti qazanmaq üçün əməl və itaətin zəruriliyini təkid edir. Müsəlman şəxs şəriət hökmlərinə əhəmiyyət verməzsə, vacib əməlləri tərk edərsə və ya onlara yüngül yanaşarsa, başqa bir səbəbin onu xilas edəcəyini düşünməməlidir.

İnsan həvayi-nəfs istəklərinin təsirinə məruz qalır. O, bu cür xəlq olunmuşdur. Buna görə də insan xəta üzündən günah əməl edə bilər, Şeytan onu azdırar, onun toruna düşə bilər və ya istəmədən itaətdən çıxar

---

[1] Qəsəs, 77

və asi olar. Sonra tutduğu işə görə peşmançılıq hissi keçirər və vicdan əzabı çəkər. Bu halda o, ümidsiz olmalıdırmı? Allah-təala buyurur: ***"...Allahın qurtuluş və mərhəmətindən naümid olmayın ki, Allahın mərhəmətindən kafirlərdən başqa heç kim naümid olmaz".***[2] Əsla yox! Allahın rəhmətinə ümid bəsləməkdən və Onun lütf və ehsanını diləməkdən başqa onun yolu yoxdur. İslam dini peşman olan günahkar bəndənin qarşısında bağışlanmaq və arzu qapısı açmışdır ki, Rəbbinə dönərək inamla kamillik yolunda irəliləsin.

Həmin qapılardan biri Allahın tövhidinə dönmək, əmirlərini yerinə yetirmək, qadağalarından çəkinməkdir. Bütün müsəlmanların, hətta mütləq mənada ilahiyyatçıların hamısı ibadətdə tövhid prinsipinin Allaha məxsus olması məsələsində müttəfiqdirlər. Peyğəmbərlərin göndərilməsinin əsas məqsədi məhz budur. Allah-təala buyurur: ***"Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik. Onlardan bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə (Allahın əzəli elmi ilə) haqq yoldan azmalı olmuşdur. (Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı hesab edənlərin axırı necə oldu!"***[3]

Hətta bu prinsipin əhəmiyyəti o qədərdir ki, İslam onu müsəlmanların şüarı təyin etmişdir. Müsəlmanlar vacib və müstəhəb namazlarında ***"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!"***[4] sözünü dəfələrlə təkrar edirlər. Həmçinin Rəsulullah (s) və bütün peyğəmbərlər bütpərəstlərlə mübarizədə bu məsələni daha çox təkid emişlər. Bu, Qurani-kərimi mütaliə edən hərkəsə aşkar olan bir həqiqətdir.

Bir sözlə bu prinsipi inkar edən və ya onda şəkk edən bir müsəlman yoxdur. Sadəcə olaraq ibadətin meyarları və detalları barədə fərqli

[2] Yusuf, 87

[3] Nəhl, 36

[4] Fatihə, 5

fikirlər var. Məsələn, İbn Teymiyyə və ardıcılları peyğəmbərlərin nişanələri ilə təbərrük etmək, onlarla Allaha təvəssül etmək və bu kimi əməllərə görə başqalarını ibadətdə şirk etməkdə ittiham edirlər. İbadət məfhumunu qeyrisindən ayrıd etmək onların yeganə problemləri idi. Deməli, hər şeydən əvvəl Quran və sünnə əsasında ibadət məsələsi obyektivcəsinə tədqiq edilməlidir.

Belə deyirik: Bəzən ibadətə "mütilik və yalvarış" və ya "mütiliyin zirvəsi" tərifi verilmişdir. Lakin bu iki tərif naqisdir, Qurani-kərim və peyğəmbərlərin (əleyhumussalam) həyat tərzinə uyğun deyildir. Qurani-kərim insana valideyinlərinə qarşı müti olmasını əmr edərək belə buyurur: **"Onların hər ikisinə müti olaraq mərhəmət qanadının altına salıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de".**[5]

Əgər hər hansı şəxsə mütilik və təvazökarlıq ona ibadət etmək hesab olsaydı, Allah-təalanın bu əmri ibadətdə ona şərik qoşmaq hesab olunmalıdır. Həmçinin Allah-təala mələklərə Adəmə səcdə etməyi əmr edərək belə buyurmuşdur: **"(Ya Peyğəmbər!) Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə İblisdən başqa (hamısı) səcdə etdi".**[6] Halbuki səcdə etmək səcdə olunana nisbətdə mütiliyin ən son həddini ehtiva edir. Görəsən Allah-təala mələklərə ibadətdə şərik qoşamağı əmr edirdi?

Yusuf peyğəmbər mülk və səltənət taxtına əyləşdikdən sonra qardaşları və valideyinləri hamılıqla ona səcdə etmişlər. Allah-təala buyurur: **"Onlar (ata-ana və on bir qardaş) hamısı (hörmət əlaməti olaraq) onun qarşısında səcdəyə qapandılar.**[7]

---

[5] İsra, 23

[6] Bəqərə, 34

[7] Yusuf, 110

Bütün müsəlmanlar Rəsulullaha (s) iqtida edərək Müqəddəs Kəbənin küncündə olan qara daşı öpürdülər. Məlumdur ki, bu kimi hallarda öpmək mütiliyə dəlalət edir.

Deməli, Allah-təalaya məxsus olan və qeyrisinə icazəli olmayan ibadətin mənası sadəcə mütilik və təzim demək deyil. Bəs ibadətin həqiqəti nədir? Qurani-kərimə əsasən ibadətin həqiqəti söz və əməldə itaət olunanın ülulhiyyətinə (ilah olmasına) etiqadla yanaşı ona mütilik və təzim göstərməkdir. Əgər belə bir etiqad olmadan mütilik olarsa, ibadət deyildir. Yalnız Allah-təalaya ibadət etməyi əmr edən və başqasına ibadət etməyi qadağan edən Quran ayələri buna dəlalət edir. Məsələn, Allah-təala buyurur: **"Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur".**[8]

Bu məzmunda Qurani-kərimdə on və daha çox ayə var.[9] Ayəyə əsasən ilah olmayanın ibadət olunmağa haqqı və ləyaqəti yoxdur. Həmin ilah isə yalnız Allah-təaladır. Əgər hər hansı bir varlıqda ülulhiyyət vəsfi öz əksini taparsa, başqasına deyil, yalnız ona ibadət edilməlidir. Ülulhiyyətdən məqsəd Allaha məxsus olan sifətlərdir. Yəni zat, sifat və fellərdə müstəqillik nəzərdə tutulur. Bir sözlə bu kimi məsələlərdə hər hansı bir varlığın müstəqilliyinə etiqad etmək onun ülulhiyyətini qəbul etməkdir. Bütpərəstlərin əqidəsini araşdırdıqda görürük ki, Qurani-kərimin də təkid etdiyi kimi, tövhid mövzusunda ən çox zəlalət və azğınlıq rübubiyyət və idarəçilik məsələsində baş vermişdir. Müşriklər Allahın yaratmaq sifətini qəbul etməklə yanaşı bütün varlıqların Onun məxluqu olmasını qəbul edirdilər. Buna baxmayaraq Allahdan başqa rəblər də olduğuna etiqad edirdilər. Onların rübubiyyət və idarəçilik məsələlərində ilahlıq xüsusiyyətlərinə sahib olmalarına inanırdılar. Peyğəmbərin

[8] Əraf, 59

[9] Oxucu bu ayələrə müraciət edə bilər: Əraf, 65, 73, 85; Hud, 50, 61, 84; Ənbiya, 25; Muminun, 22-23; Taha, 14

dövründəki müşriklərin yaradılışda tövhid əqidəsinə inanmalarına dəlalət edən ayələrlə yanaşı onların Allah-təaladan başqa ilahlara inanmalarına da dəlalət edən ayələr var. Bu iki növ ayələrdən çıxarılan nəticə budur ki, həmin müşriklərin Allahdan başqasının üluhiyyətinə inanmalarının səbəbi rübubiyyət və idarəçilik məsələlərinə qayıdır. Həmçinin ayələr dəlalət edir ki, onlar şəfaət məqamına sahib olan ilahlar və rəblərin olduğuna, Allah-təalanın izni və razılığı olmadan onların şəfaət edəcəklərinə etiqad bəsləyirdilər. Uluhiyyət barədə dediklərimizə əsasən ibadətə ikinci bir tərif qeyd edə bilərik: İbadət məbudun abidin (ibadət edənin) varlığına bağlı keçmiş və gələcək işlərində ixtiyar sahibi olmasına etiqad edərək, yəni itaət olunanın rübubiyyətinə etiqad edərək ona mütilik göstərməkdir. Burada məbudun insanın bütün işlərində ixtiyar sahibi olmasına etiqad bəsləmək şərt deyil. Onun dünya və ya axirət həyatının müəyyən işlərində ixtiyar sahibi olmasına etiqad bəsləmək yetərlidir. İbadətin tək olan Allaha məxsus olmasını ehtiva edən bəzi ayələr məhz Onun Rəbb olmasını əsas gətirir. Həmin ayələrdən aşağıdakıları qeyd edə bilərik:

“**Şübhəsiz ki: “Allah Məryəm oğlu Məsihdir!” – deyənlər kafir oldular. Halbuki Məsih (İsa) belə demişdi: “Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!..**”.[10]

“**(Ey insanlar!) Həqiqətən, bu (tövhid dini olan islam) tək bir din olaraq sizin dininizdir. Mən də sizin Rəbbinizəm. Buna görə də yalnız Mənə ibadət edin!**”.[11]

“**Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!**”.[12]

Bunlardan başqa ibadəti rübubiyyətlə əlaqələndirən ayələr də var.

---

[10] Maidə, 72

[11] Ənbiya, 92

[12] Ali-İmran, 51

**Xülasə olaraq:** Mütilik itaət olunanın aləmin ilahı və ya rəbbi olmasına, yaxud aləmin bütün və ya bəzi işlərində, yaxud bəndələrin müqəddəratını həll etməkdə ixtiyar sahibi olmasına etiqad bəsləməkdən qaynaqlanır. Allah-təaladan qeyrisinə ən aşağı mərtəbədə belə növ etiqad bəsləmək ibadət hesab olunur. Allahdan qeyrisinə bu etiqadla itaət edən, müşrik hesab olunur. Bunun müqabilində isə bu etiqaddan qaynaqlanmayan itaət dayanır. Hər hansı bir varlığın ulhuhiyyətinə etiqad bəsləmədən ona itaət və hörmət sərgiləmək, hətta bu məsələdə mübaliğəyə varmaq şirk və həmin varlığa ibadət etmək hesab olunmaz. Belə bir itaətin haram olması mümkündür. Məsələn, aşiqin məşuqa, arvadın ərinə səcdə etməsi kimi. Bu, islam şəriətində haram olmasına baxmayaraq ibadət hesab olunmur. Bu əməlin haram olması başqa səbəbdəndir. Bəlkə də bunun haram olmasının səbəbi budur ki, səcdə ibadətin vasitəsi və bütün dinlərdə Allahın ibadət olunmasının əsas atributu hesab olunur. Buna əsasən də İslam dini hətta ibadət olmayacaq məqamlarda səcdə etməyi qadağan etmişdir. Burada başqasına səcdə etməyin haram olması İslam şəriətinin xüsusiyyətlərindən hesab olunur. Əks təqdirdə Yaqub və övladları ehtiram əlaməti olaraq Yusifə səcdə etməzdilər. Allah-təala buyurur: **“(Yusif) ata-anasını taxt (öz taxtının) üstünə qaldırdı. Onlar (ata-ana və on bir qardaş) hamısı (hörmət əlaməti olaraq) onun qarşısında səcdəyə qapandılar”.**[13]

Cəssas belə deyir: “Adəmin (ə) şəriətində məxluqlara səcdə etmək icazəli idi. Ola bilər ki, bu, Yusifin (ə) zamanınadək bu hökm davam etmişdir. Lakin Aişənin, Cabirin və Ənəsin Peyğəmbərdən (s) nəql etdiyi hədisə əsasən hörmət və salam məqsədilə məxluqa səcdə etmək hökmü ləğv edilmişdir. Həmin hədisdə Peyğəmbər (s) buyurur: “İnsanın insana səcdə etməsi gərəkməz. Əgər insanın insana səcdə etməsi düzgün olsaydı

[13] Yusuf, 100

ərin qadın üzərində olan haqqının böyüklüyünə görə qadının ərinə səcdə etməsini əmr edərdim”.[14]

Cəfər Sübhani belə deyir: “Peyğəmbərin, imamın, müəllimin və ya valideyinlərin əlini, yaxud Qurani-kərimi, müqəddəs kitabları, övliyaların zərihlərini (qəbirlərinin üzərinə qoyulmuş metal şəbəkə) və ya onların nişanələrini təzim və ehtiram məqsədilə öpmək ibadət deyildir. Bununla da aydın olur ki, Vəhabi firqəsinin Allahdan qeyrisinə ibadət, şirk kimi dəyərləndirdiyi məsələlər mütləq surətdə doğru deyildir. Bu əməllər bir cəhətdən şirk, digər cəhətdən isə sadəcə mütilik, təvazökarlıq və ehtiramdır. İtaət və hörmət olunanın üluhiyyətinə, yaratmaq, idarə etmək, diriltmək, ruzi vermək kimi ilahi xüsusiyyətlərə sahib olmasına, yaxud insanların dünya və axirət işlərinin onların ixtiyarında olmasına etiqad bəsləmək şirk hesab olunur”.[15]

Əgər belə bir etiqad olmazsa, qeyd olunan əməllər şirk hesab olunmaz. Əksinə ağıl və məntiqə əsasən əgər peyğəmbərlər, övliyalar, alimlər, salehlər, valideyinlər və tərbiyəçilər kimi itaətə layiq olan birinə qarşı belə bir ehtiram sərgilənərsə, bu çox faydalıdır. Necə ki, qeyd etdiklərimizə nisbətdə sərgilənərsə, faydasız və əbəs olardı.

Şəriətdə qəbul olunmuş qaydalaradan biri də müqəddəs şəriətin qadağan etmədiyi xüsusi və ya ümumi sözlər və əməllərin mübah (icazəli) hökm daşımasıdır. Bu qayda barəsində ağıl, nəql və icmaya əsaslanan dəlillər var. İbn Teymiyyə Minhacus-sünnə kitabında bu qaydanı təsdiqləmiş, “günahı olmayanın cəza çəkməsi” rəyini deyən əşərilərə cavab verərkən belə demişdir: “Bu, Qurana, sünnəyə və ağıla müxalifdir”.

Mən deyirəm: Həmçinin icmaya əsasən belədir. Çünki bütün müsəlmanlar, hətta başqa dinlərin mənsublarının nəzərində hər hansı

---

[14] Cəssas, “Əhkamul-Quran”, c. 1, s. 32.

[15] Cəfər Sübhani, “əl-İahiyyat”, c. 1, Tövhid mövzusu.

əməl şəriət tərəfindən qadağan edilmədiyi təqdirdə mübah və icazəli hesab olunur. Ağıl hökm edir ki, Allah bir şeyi qadağa etmədən əvvəl və ya Quran və Peyğəmbər sünnəsində öz əksini tapan qadağa ona çatmadan öncə bəndə həmin əməli edərsə, onun cəzalandırılması qəbahətlidir. Allah-təala Qurani-kərimdə buyurur: **"Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab vermərik!"**.[16]

Bu ayə peyğəmbər göndərilməyən ümmətlərə höccət tamamlanmadığı üçün onlara əzab verilməyəcəyini bəyan edir. **"...həlak olan aşkar bir möcüzə ilə (dəlillə) həlak olsun, sağ qalan da aşkar bir möcüzə ilə sağ qalsın..."**[17], **"Biz peyğəmbərləri (möminlərə) müjdə gətirən və (kafirləri) əzabla qorxudan kimi göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın..."**[18] Əks təqdirdə insanların əlində bəhanə olardı. Necə ki, Allah-təala buyurur: **"Əgər Biz onları (Məkkə müşriklərini) bundan (Peyğəmbər və Quran gəlməzdən) əvvəl əzabla məhv etsəydik, (qiyamət günü) mütləq belə deyəcəkdilər: "Ey Rəbbimiz! Nə üçün zəlil və rüsvay olmazdan əvvəl bizə bir peyğəmbər göndərmədin ki, Sənin ayələrinə (hökmlərinə) tabe olaydıq?!"**[19], **"...Hər hansı bir tayfa ora (Cəhənnəmə) atıldıqca onun gözətçiləri onlardan (məzəmmətlə): "Məgər sizə (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəlməmişdimi?" – deyə soruşacaqlar".**[20]

Bu ayələr dəlalət edir ki, cəhənnəm odunda əzab çəkənlərin hamısına əvvəlcədən dünya həyatında xəbərdarlıq olunmuşdur.

---

[16] İsra, 15

[17] Ənfal, 42

[18] Nisa, 165

[19] Taha, 134

[20] Mülk, 8

Allah-təala buyurur: **“Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə sizə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi? Onlar deyəcəklər: “Biz öz əleyhimizə şahidik!” (Peyğəmbərlər bizə pis işlərimiz barədə xəbərdarlıq etsələr də, biz onlara qarşı çıxıb günah işləməkdə davam etdik. Biz indi hər cəzaya layiqik). Dünya həyatı onları aldatdı və onlar kafir olduqları barədə öz əleyhlərinə şəhadət verdilər. Bu, (peyğəmbərləri göndərmək) ona görədir ki, Rəbbin məmləkətlərin əhalisini, onlar qafil ola-ola (özlərinə peyğəmbər gəlmədiyi üçün dini vəzifələrini bilməyib icra etmədikləri halda) zülmlə məhv etməyi özünə rəva bilməz!”**[21]

Bu ayədə cinlər və insanlar etiraf edirlər ki, onlara peyğəmbərlər göndərilmiş, peyğəmbərlər onlara ayələri söyləmiş, onlara vəzifələrini bildirmişlər. Lakin onlar Rəblərinin ayələrini təkzib edib peyğəmbərlərə qarşı çıxdıqları üçün Allah onları həlak etmişdir. Əks halda ayələrdən xəbərləri olmasaydı və xəbərdar edən peyğəmbərlər onlara göndərilməsəydi, onlara əzab verməzdi. Çünki Allah-təala buyurur: **“Allah bir tayfanı doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən onları (haqq yolundan) sapdırmaz! Həqiqətən, Allah hər şeyi (olduğu kimi, layiqincə) biləndir!”**[22] Yəni itaətə əmr etmək və günahdan çəkinmək barədə məsələləri onlara bəyan etmədən onlara əzab verməz. Əks təqdirdə bu, zülm olardı. Allah-təala özünü zülm etməkdən münəzzəh və pak tutaraq buyurur: **“(Ya Rəsulum!) Sənin Rəbbin mərkəzlərinə (ən böyük şəhərlərinə) ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş**

[21] Ənam, 130, 131

[22] Tövbə, 115

**məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!"**[23]

Ayə bəyan edir ki, cəhənnəm odunda əzab çəkənlər günaha bulaşmaqla, itaəti tərk etməklə özlərinə zülm etmişlər. Zalım olmayanın (günahdan çəkinənin və itaət edəninin) cəzalandırılması doğru deyidir. Əgər cəza verilərsə, bu zülmdür.

Bir sözlə qeyd etdiyimiz ayələr dəlalət edir ki, keçmiş ümmətlərin etdikləri əməlləri edənlər, yəni Allahın ayələrini və peyğəmbərlərini inkar edənlər, höccət tamamlandıqdan, ilahi mükəlləfiyyətlər, qadağalar bəyan olduqdan sonra inkar etdikləri, qəbahətli əməlləri yerinə yetirdikləri üçün cəzalanacaqlar. Allah-təala buyurur: **"Onlar ayələrimizin (möcüzələrimizin) hamısını yalan hesab etdilər. Biz də onları yenilməz qüvvət, qarşısıalınmaz intiqam sahibinə yaraşan bir əzabla yaxaladıq".**[24]

İlahi qadağalar bəyan olmadıqdan əvvəl cəza verilməz. Əgər bəyan olmazsa, Allahın insanların üzərində heç bir höccəti olmaz.

İbn Teymiyyə belə deyir: "Sələfin və əksəriyyətin qəbul etdiyi prinsip budur: Allah-təala heç kimi bacardığından artıq vəzifə ilə mükəlləf etməz. Vacib hökmlər qüdrət şərtindən asılıdır. Cəza isə yalnız höccət tamamlandıqdan sonra əmr və ya qadağa tərk olunduqda olmalıdır".[25]

Bu rəyi Əbu Hənifəyə, Şafeiyə, İbn Həzmə nisbət vermişdir. Peyğəmbərin (s) də sünnəsinə müvafiq olan budur. Peryğəmbər (s) belə buyurub: "Ümmətimdən doqquz şey (əməlin cəzası) götürülmüşdür: xəta, unutmaq, məcbur edildikləri, bilmədikləri, bacarmadıqları, yerinə yetirməyə məcbur qaldıqları..."[26]

---

[23] Qəsas, 59

[24] Qəmər, 42

[25] İbn Teymiyyə, Minhacus-sünnə, c. 3, s. 20.

[26] Sünəni İbn Macə, c. 1, s. 347, hədis 1660, 1661.

Əbu Hüreyrə Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Sizə nə əmr etdimsə, onu yerinə yetirin, nəyi sizə qadağan etdimsə, ondan çəkinin”.[27]

Həmçinin Əbu Hüreyrə belə nəql edir: “Rəsulullah (s) buyurub: “Sizə demədiklərimizi məndən soruşmayın. Həqiqətən də sizdən əvvəlkilər peyğəmbərlərinə suallar verməklə və ixtilaflar yaratmaqla həlak olmuşlar. Sizə bir şey əmr etsəm, bacardığınız qədər ona əməl edin və nəyi sizə qadağan etsəm, ondan çəkinin”.[28]

Həmçinin həmin kitabda Rəsulullahın (s) belə buyurduğu nəql olunur: “Yaxın zamanda insan kürsüsündə əyləşib mənim hədisimi söyləyəcək və deyəcək: Sizinlə bizim aramızda Allah-təalanı kitabı var. Orada rast gəldiyimiz halalı, halal, rast gəldiyiyimiz haramı isə haram bilirik”. Bilin ki, Rəsulullahın haram etdiyi Allahın haram etdiyi kimidir”. [29] Peyğəmbərin (s) “Rəsulullahın haram etdiyi Allahın haram etdiyi kimidir” buyurması Rəsulullahın haram etmədiyinin Allah-təala tərəfindən də haram edilmədiyinə dəlalət edir. Həmin əməl Allahın haram etmədiyi əməl kimidir. Bu və əvvəlki hədislər bu ayənin təfsiri və izahıdır: **“Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir”.**[30]

Bu müqəddimədən məqsədimiz Vahabi firqəsinin şəriət tərəfindən qadağan edilməyən və müsəlmanların yerinə yetirdiyi bəzi əməllərə etiraz etmələrininin heç bir əsasının olmamasını bəyan etməkdir. Bu məsələlərdən qəti şəkildə çəkinmək lazımdır. Bu, Allahın kitabı və Rəsulullahın sünnəsinə müxalif hökm çıxarmaqdır. Hətta dində olmayan

---

[27] Sünəni İbn Macə, c. 1, s. 5, bab ittibau sünnəti rəsulillah, hədis 1.

[28] Sünəni İbn Macə, c. 1, s. 5, hədis 12.

[29] Sünəni İbn Macə, babu təzim hədisin-nəbiyy (s), c. 1, s. 7, hədis 12.

[30] Həşr, 7

bir şeyi dinə daxil etməklə bidət yaratmaqdır. Elm olmadan hökm çıxartmaqdır. Hər hansı bir şeyin dindən olması ehtimalı onu dindən etmir. Əks təqdirdə Peyğəmbərin (s) "Nəyi qadağan etsəm, ondan çəkinin" hədisinin mənası olmazdı.[31]

Bu rəyin bəyanı üçün deyirik: Şəriət qanunlarının əsas və detalları var. Bunlardan biri də təvil və ictihad qanunudur. Bu müqəddiməni qeyd etməkdə məqsədimiz budur ki, bu ümmətdə təəssübkeşlik və cəhalət təsiri altında olanlar var. Öz rəylərinin hidayət yolu və din olduğunu iddia edirlər. Özlərindən başqalarına "Ey kafir! Ey müşrik!" deyə xitab edirlər. Onların yaşadıqları yerlərə, ixtiyarında olan ərazilərə təcavüz edirlər. Allah-təalaya və Rəsulullaha (s) müxalif çıxaraq müsəlmanları söyür, lənətləyir və ittiham edirlər. Onların bu təcavüzkarlıqlarının Quranda və sünnədə heç bir əsası yoxdur. Təəccüblüdür ki, onlar özlərini əhli-sünnə hesab edilər. Halbuki peyğəmbər sünnəsi onların etdikləri və törətdikləri əməllərin əksinədir!

İbn Teymiyyə müsəlman camaatına tənə vuranlara cavab verərək belə deyir: "Onların etdikləri bu işlərin çoxunun günah sayılmaması üçün müəyyən üzrləri var. Onların üzrləri bu əməllərin ictihad məqamında olmasını ehtiva edir. Əgər müctəhid doğrunu bularsa, onun iki mükafatı, xəta edərsə, bir mükafatı var. Raşidi xəlifələrdən nəql olunanların əksəriyyəti bu qəbildəndir.[32]

Mən deyirəm: Bu, Rəsulullahın (s) hədisindən götürülmüşdür: "Əgər hakim hökm verdikdə ictihad edərək doğrunu bularsa, iki mükafatı var. Əgər hökm verdikdə ictihad edərək  xəta edərsə, bir mükafatı var".[33]

İbn Teymiyyə belə deyir: "Sələfin, həmçinin Əbu Hənifə, Şafei, Sovri, Davud bin Əli və başqaları kimi fətva imamlarının rəyi budur ki, nə üsul,

---

[31] Minhacus-sünnə, c. 3, s. 19.

[32] İbn Teymiyyə,Minhacus-sünnə, c. 3, s. 19.

[33] Sünəni İbn Macə ,c. 2, s. 34, hədis 1872.

nə də furu məsələlərdə (nə etiqad, nə də şəri hökmlərdə) xəta edən müctəhid günahkar deyil. Həmçinin İbn Həzm onlardan və başqalarından bu rəyi nəql etmişdir. Buna görə də Əbu Hənifə, Şafei və başqaları xəttabilərdən savayı həvayi-nəfs əhlinin (batil firqələrin) şahidliyini qəbul edir, onların arxasında namaz qılmağı doğru hesab edirdilər. Kafirin isə müsəlmanlara qarşı etdiyi şahidlik qəbul olunmaz və onun arxasında namaz qılınmaz.

Onlar deyirlər: "Bu rəy səhabələrin, tabeinlərin, yaxşılıqla onların ardınca gedənlərin və din imamlarının rəyidir. Onların heç biri nə elmi, nə də əməli məsəllərdə xəta edən müctəhidlərdən heç kimi kafir və fasiq hesab etməmişdir".[34]

İbn Həzm deyir: "Bəziləri müsəlmanın etiqad və fətvada dediyi sözə görə kafir və fasiq olunmaması rəyindədirlər. Bir şey barədə ictihad edən, haqq bildiyini dindən hesab edən hər bir halda mükafat qazanar. Əgər doğrunu bularsa, iki mükafatı, xəta edərsə, bir mükafatı var".[35]

Mən deyirəm: Əgər müsəlmanların nəzərində din imamlarının dedikləri əsas və etimad ediləndirsə, görəsən onlar hansı şəri faktora görə özlərindən başqa müsəlmanları inkar edir, onlara küfr və şirk nisbət verirlər? Hətta onlara qarşı pis rəftar edir və onların məmləkətlərini biladul-hərb (döyüş yurdu; yəni malları və canlarını halal hesab edirlər) adlandırırlar.

Allah-təala buyurur: **"Həqiqətən, möminlər (dində) qardaşdırlar..."**[36] Həmçinin buyurur: **"Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan**

---

[34] İbn Teymiyyə, Minhacus-sünnə, c. 3, s. 20.

[35] əl-Fəsl fil-əhvai vəl-miləli vən-nihəl. C. 3, s. 247.

[36] Hücurat, 10

**xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!"**[37], **"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (ürəklərdə) bir sevgi yaradacaq. (Allah həm özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaq)".**[38], **"Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar)".** [39], **"Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər".**[40], **"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələrimizi anlayıb bilən bir tayfa üçün belə ətraflı izah edirik!"**[41]

Səhih hədis kitablarında "Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsuludur" deyən hər kəsin malının, namusunun və qanının hörmətli olmasını ehtiva edən rəvayətlər var. Həmin rəvayətlərdən aşağıdakıları qeyd edirik:

İbn Abbas nəql edir ki, Rəsulullah (s) Məaz bin Cəbəli Yəmənə göndərərkən ona belə demişdir: "Sən kitab verilmiş qövmlərə gedirsən. Onları dəvət etdiyin ən birinci məsələ Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun qulu və rəsuludur şəhadəti olsun. Əgər bu məsələdə sənə itaət etsələr, onlara bildir ki, Allah gecə və gündüz ərzində hər gün onlara beş namazı qılmağı vacib etmişdir. Əgər bu məsələdə də sənə itaət etsələr onlara bildir ki, Allah onların zənginlərindən sədəqə alınıb fəqirlərinə verilməsini vacib etmişdir. Əgər sənə itaət etsələr, onların malının hörmətinə məbadə toxunasan!".[42]

---

[37] Ali-İmran, 103

[38] Məryəm, 96

[39] Tövbə, 71

[40] Hicr, 47

[41] Tövbə, 11

[42] Səhih Buxari, kitabuz-zəkat, babu əxzus-sədəqəti.

Əli bin Əbu Talibdən (ə) nəql olunur ki, Xeybər savaşı günü Peyğəmbər (s) bayrağı ona verərkən o, belə söylədi: "Ya Rəsulullah, hansı əsasa görə insanlarla vuruşum?" (Peyğəmbər) dedi: "Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsuludur şəhadətini deyənədək onlarla vuruş. Əgər bunu qəbul etsələr, qanlarını səndən qorumuş olarlar".[43]

İbn Abbasdan nəql olunur ki, Peyğəmbər (s) tək olan Allaha iman gətriməyi əmr edərkən belə buyurdu: "Bilirsinizmi tək olan Allaha iman gətirmək nədir? Onlar: "Allah və rəsulu daha yaxşı bilir". (Peyğəmbər) dedi: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun rəsuludur şəhadəti, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və gəlirlərinizin xümsünü vermək..."[44]

Mən deyirəm: Ey Allahın kitabını tilavət edən və peyğəmbərlərin ağasını sünnəsindən xəbərdar olan, haqq əhlinə və müsəlman qardaşına düşmənçilik bəsləmək Allahın təyin etdiyi hüdudları aşmaq deyilmi? Məlumdur ki, İslamın rəyi və Muhəmməd peyğəmbərin (s) gətirdiyi təlimlər bu kimi təcəvüzkarlıqlardan uzaqdır. **"Onlar Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?!"**[45]

Kim öz rəyinə əsasən hökm verərsə Allah-təalanın Öz peyğəmbərinə "...onların nəfslərinin istədiyinə uyma...." buyuraraq qadağan etdiyi həvayi-nəfs ardınca getmişdir.

Allah əmr etmişdir ki, Onun nazil etdiyi qanunlar əsasında hökm verilsin. Kim bundan kənara çıxarsa, haqq ona bəyan olduqdan sonra Allaha qarşı çıxmışdır. Haqqa tabe olmağın meyarı Quran hökmünü qəbul

---

[43] Səhih Buxari, kitabul-iman, babu yuqatəlun-nasu hətta yəşhədu əl la ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah.

[44] Səhih Buxari, kitabul-iman. babu yuqatəlun-nasu hətta yəşhədu əl la ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah.

[45] Maidə, 50

etməkdir. Yoxsa bütün tayfalar cahillərin etdikləri kimi ədalət və yaxşılıqla hökm verdiklərini iddia edirlər. Belə ki, cəhalətin hökm sürdüyü cəmiyyətdə aralarında itaət olunan və ağsaqqal olan Qurana və sünnəyə əsasən deyil, mövcud adətlərə görə hökm çıxarır. Allah-təlanın kitabında buyurduğu bu ayələr onlara şamil olur: **"O halda onların arasında Allahın nazil etdiyi Kitabla hökm et. Onların nəfslərinin istədiyinə uyma. Allahın sənə nazil etdiyinin (hökmlərin) bir qismindən səni tovlayıb yayındıra biləcəklərindən ehtiyat edib özünü onlardan gözlə. Əgər onlar (bu hökmlərdən) üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Doğrudan da, insanların çoxu (Allahın itaətindən çıxmış) fasiqlərdir!".**[46], **"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır".**[47] Onlar Allahın və Rəsulullahın sözünün əksinə bir şeyin halal olduğunu demirdilər. Əgər belə etsəydilər, kafir olardılar. Məhz buna görə Allah-təala buyurur: **"Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!"**[48] Əgər müsəlmanlar arasında hər hansı bir məsələ barəsində ixtilaf və mübahisə yaranaranacağı fərz olunarsa, Allaha və Rəsuluna müraciət etmələri vacibdir. Allah-təala buyurur: **"...Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır".**[49] , **"Siz nəyin barəsində ixtilaf etsəniz, onun hökmü yalnız Allaha aiddir..."**[50]

---

[46] Maidə, 49

[47] Maidə, 47

[48] Maidə, 44

[49] Nisa, 59

[50] Şura, 10

Bütün bununla yanaşı əgər kimsə müsəlmanlardan bir tayfaya tənə vurarsa, söyərsə, küfr və dinsizlikdə ittiham edərsə, bu Allah-təalanın qadağan etdiyi təfriqə salmaq hesab olunur: **“(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur...”**[51], **“Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün! Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!..”**[52], **“(Allahdan tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar”.**[53]

Allah-təala möminlərə Onun ipinə möhkəm sarılmağı əmr edir və onları təfriqə salmaqdan çəkindirir. Allahın ipinə möhkəm sarılmaq Onun dininə əməl etmək mənasında təfsir edilmişdir. Şübhəsiz ki, Allahın dini məhz İslam dinidir. Allah-təala buyurur: **“Allah yanında (haqq olan) din, əlbəttə, islamdır...”**[54]

İslam - iki şəhadətə iman gətirməkdir.

Deməli, müsəlmanlar hamısı bir ümmətdir. Onlar üçün keçilməsi haram olan hüdudlar var. Allah-təala buyurur: **“Bunlar Allahın hədləridir (hökmləridir). Onlardan kənara çıxmayın...”** [55] Allah müsəlmanlara zülm etməyi haram etmişdir. Onlara bir-birinin qanlarını tökməyi, mallarını qəsb etməyi, şərəf və namuslarına toxunmağı haram etmişdir. Vida həccində Rəsulullah (s) belə buyurmuşdur: “Sizin qanlarınız, mallarınız, şərəf və namusunuzun hörmətini aradan aparmaq bu gününüz, bu ayınız (zilhiccə ayı), bu məmləkətiniz haram olduğu kimi

---

[51] Ənam, 159

[52] Ali-İmran, 102-103

[53] Ali-İmran, 105

[54] Ali-İmran, 19

[55] Bəqərə, 229

(hökmlərini pozmaq), bir-birinizə haramdır. Bunu sizə çatdırdımmı? Şahid olanlar burada olmayanlara çatdırsın!”[56]

Başqa bir rəvayətdə isə belə deyilir: “Diqqətli olun! Məndən sonra dinizdən dönüb bir-birinizin boynunu vurmayın!”[57]

Bu qəbildən olan hədislər sünni və şiə məzhəbinin bütün təbəqələrindən olan mühəddislər tərəfnidən nəql olunmuşdur. Qeyd etdiyimiz hədislərdən əlavə başqa hədislərin qeyd olunmasına lüzum yoxdur.

Bütün firqələr öz əqidəsini isbat etmək üçün səy edir. Həqiqətən də bütün firqələrin sonrakı əsrlərdə yaranmasına baxmayaraq hər birinin məhz özünün nicata çatan firqə olduğunu, başqa firqələrin isə cəhənnəm odunda olcağını iddia etməsi çox gülüncdür.

***Hər kəs Leyla ilə vüsala çatdığını iddia edir***
***Leyla isə onları vüsala çatması etiraf etmir.***
*(beytin məzmununun tərcüməsi)*

Həmin firqələrdən biri də iki əsr bundan əvvəl yaranmış Muhəmməd bin Əbdülvahabın firqəsidir. Müqəddiməni tamamlamadan öncə yaxşı olar ki, Muhəmməd bin Əbdülvahabın tərcümeyi-halından müəyyən məqamları qeyd edək:

Vahabi firqəsinin banisi Muhəmməd bin Əbdülvahab bin Süleyman Təmimidir. O, Nəcdin Uyeynə məntəqəsində doğulub ərsəyə yetişmişdir. Əhməd bin Hənbəlin fiqhini öyrənmişdir. Onun yanında olanlar müsəlmanların danışmadığı sözlər danışdığına şahid olmuşlar. Məkkə və Mədinə şəhərlərinə səfər etmişdir. Şeyx Abdullah bin İbrahim bin Yusufin yanıda dərs oxumağa başlamışdır. Rəsulullahın (s) qəbrinin yanında

[56] Səhih Buxari, c. 8, s. 108; Səhih Müslim c. 2, s. 889.

[57] Səhih Buxari, c. 8, s. 108.

ondan yardım diləməyi inkar etməyə başladı. Sonra Nəcdə qayıdıb Bəsrəyə səfər etdi. Şama getmək istəyirdi. Bəsrədə olduqda müsəlmanlar onun məsləyindən xəbər tutub onu Bəsrədən çıxartdılar. Qaçaraq Bəsrədən çıxıb getdi. Bir müddət sonra Nəcdin Hureymələ məntəqəsinə gəldi. Atası həmin məntəqədə idi. Nəcd əhalisinin əqidəsini inkar etməyə başladı. Atası onu bu işdən çəkindirdi. Lakin o, atasına məhəl qoymadı. Atası vəfat etdikdən sonra öz əqidəsini izhar etdi və müsəlmanlara qarşı çıxdı. Cahil insanlar ona tabe oldular. İş o yerə çatdı ki, insanlar ayağa qalxdılar, hətta onu qətlə yetirmək istədilər. Oranı da tərk edib Uyeynəyə qayıtdı. Həmin vaxt Uyeynənin başçısı Osman bin Əhməd Muəmmər idi. Muhəmməd bin Əbdülvahab onu şirnikləndirərək bütün Nəcdə sahib olacağını ona vəd verdi. Osman ona köməklik etdi. O, isə həddini aşaraq ilk olaraq Zeyd bin Xəttabın qəbrini dağıtdı. Bu hadisə çox səs-küy yaratdı. Bu xəbər Əhsa və Qətifin sahibi Süleyman bin Muhəmməd bin Əzizə çatdı. O, Osmana məktub yazaraq Məhhəmməd bin Əbdülvahabı qətlə yetirməyi ona əmr etdi. Məktub Osmana çatdıqda Muhəmməd bin Əbdülvahaba xəbər göndərib ona məntəqədən çıxmasını əmr etdi. O da hicri 1160-cı ildə Dəriyyə məntəqəsinə gəldi. Dəriyyə peyğəmbərlik iddiasında olan yalançı Müseyləmənin baş qaldırdığı məkan idi. Həmin məntəqənin sahibi Uneyzə qəbiləsindən olan Muhəmməd bin Səud idi. Hakimin xanımı vasitəsilə ona yol tapdı. Onu bütün Nəcdə hakim olmaqla şirnikləndirdi. Muhəmməd bin Səud müsəlmanların qanını tökmək naminə ona beyət etdi. İbn Səud ona yardım üçün ordu toplamağa başladı. Onun təriqətini yaymaq və rəvac vermək üçün hərbi gücdən istifadə etdi. Bundan sonra Muhəmməd bin Əbdülvahab Nəcd vilayətinin şəhərlərinin başçılarına və qazilərinə məktub yazaraq onları itaətə və tabe olmağa çağırdı. Bəziləri ona cavab verdi, bəziləri isə ona əhəmiyyət vermədilər. Dəriyyə əhalisindən ordu toplayaraq ona qarşı çıxan müsəlmanları qətlə yetirməyə başladılar. Hətta könüllü və məcbur olaraq

bəziləri onun itaətinə daxil oldu. Hicri 1206-cı ildə Muhəmməd bin Əbdülvahab ölənədək Səud xanədanı Nəcdə tamamilə hakim oldu. Onun yeni dini isə yaşadı və Səudiyyə höküməti bu əqidəni müdafiə etdi. Onlar müsəlmanları qətlə yetirdilər, məmləkətləri dağıtdılar, yandırdılar, bəndələr arasında fəsad yaydılar. Müsəlmanlar onların üzündən çox bəlalara məruz qaldılar. Onlar bu müddət ərzindən dindən kənar birini deyil, "la ilahə illəllah və Muhəmmədun rəsulullah" deyənləri qətlə yetirdilər. Qətl olunanların yeganə günahı Muhəmməd bin Əbdülvahabın yaratdığı yeni məsləyi qəbul edib onun fikirlərinə etiqad bəsləmələləri olmuşdur.

Muhəmməd bin Əbdülvahaba qarşı alimlərin çoxları etiraz etmişdilər. İndiyə qədər şərqdə və qərbdə İslam alimləri onların iddialarına cavab verməkdə davam edirlər. Ona etiraz edənlərin başında doğma qardaşı Şeyx Süleyman bin Əbdülvahab Nəcdi olmuşdur. O, belə demişdir: "Elm əhlinin vəsf etdiyi nicata çatacaq firqənin xüsusiyyətlərindən bir xüsusiyyət belə sizdə yoxdur".[58] Sizə təqdim etdiyimiz bu kitab onun rəddiyyə yazdığı kitabıdır. Onun "Fəslul-xitab fir-rəddi alə Muhəmməd bin Əbdülvahab" adlı digər rədiyyə kitabı da var. İsmail paşa "İzahul-məknun" kitabında bu barədə qeyd etmişdir.

[58] əs-Səvaiqul-ilahiyyə, s. 41. İstanbul çapı, 1399 h.

## MÜƏLLİF HAQQINDA

Süleyman bin Əbdülvahab bin Süleyman bin Əli bin Əhməd bin Raşid bin Yəzid bin Muşrif Nəcdi Hənbəli. Hicri 1210-cu ildə (1795 m.) vəfat etmişdir.[59]

Onun əsərlərindən aşağıdakıları qeyd edirik:

1. Fəslul-xitab fir-fəddi alə Muhəmməd bin Əbdülvahab.

2. əs-Səvaiqul-ilahiyyə fir-rəddi aləl-Vahabiyyə. Sizə təqdim etdiyimiz bu kitabdır.

**Sonda deyirik:** İslah və düzgünlük arzulayan, müştərək düşmənə qarşı eyni sırada yer almaq istəyən hər kəsə əl uzadırıq. Gəlin sıralarımızı birləşdirək, güclərimizi vahid nöqtəyə yönəldək və aramızdakı ortaq dəyərlərdən istifadə edək. Məntiqi üslubda, qardaşlıq ab-havasında ixtilaflı nöqtələri Quran və sünnə olan sabit şəri dəlillər əsasında obyektivcəsinə və elmi üslubda araşdıraq, qaranlıq və azğın fikirləri aradan qaldıraq.

Bu kitabın müəllifi məhz bu çəhətdən qardaşı Muhəmməd bin Əbdülvahabın fikirlərini müzakirə etmiş, islam məzhəblərinin etiqadlarına yönəlik hücumlarını dəf etmişdir. O, Allahın kitabından, müsəlmanların səhih kitablarından, böyük alimlərin rəylərindən və sələfin sünnəsindən çıxarışlar edərək bu kitabı doğrul yol arayanlar üçün hidayət, şeytanın azdırdığı insan üçün isə höccət olsun deyə yazmışdır.

[59] Kəşfuz-zunun, c. 4, s. 72; c. 6, s. 350; əl-Kəşşaf, Ətlas, s. 126, 127; Fihrəsut-teymuriyyə, c. 4, s. 120; İzahul-məknun, c. 2, s. 72, s. 190; Mucəmul-müəllifin, c. 1, s. 793.

## Bu kitabı tədqiq edərkən

Bu kitabı tədqiq edərkən İstanbul çapına etimad etdim. Ümumiyyətlə bu kitabın çapı münasib olmadığı üçün, mənbələrini təyin etməklə və bəzi qeydlər yazmaqla tədqiq edib, yenidən çap olunmasını istədim. Allah-təala bu əməlimi xalis olaraq dininin xidməti üçün atılmış bir addım kimi məndən qəbul etsin. Son duamız budur: Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Ən gözəl salam və salavat Muhəmməd və onun pak Əhli-Beytinə olsun!

**Seyid Sərvari**

**1996**

## Müəllifin müqəddiməsi

### Bağışlayan və mehriban Allahın adı ilə

Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur. O təkdir şəriki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd Onun qulu və rəsuludur. Allah onu müşriklərə xoş gəlməsə belə, hidayət (vasitələri) və haqq din ilə bütün dinlərə qalib etmək üçün göndərmişdir. Qiyamət gününədək ona və ailəsinə Allahın salam və salavatı olsun.

Süleyman bin Əbdülvahabdan Həsən bin İydana.

Hidayət yolunu tutanlara salam olsun!

Allah-təala buyurub: **"Gərək sizdən (aranızda) (insanları) xeyir işə dəvət edən, yaxşı işə buyuran və pisliklərdən çəkindirən bir dəstə olsun..."**[60] Peyğəmbər (s) buyurub: "Din səmimiyyətdir".[61] Sən bir neçə dəfə mənə yazıb mənim əqidəmi soruşmusan. Hətta mən qardaşın oğlunun dili ilə sənə öyüd-nəsihət verdim. Mən indi sənə elm əhlindən öyrəndiyim bəzi məsələləri qeyd edirəm. Əgər qəbul etsən – məqsəd məhz elə budur – Allaha həmd olsun! Əgər rədd etsən, yenə Allaha həmd olsun. Həqiqətən də Allah-təalanı məğlub edərək Ona asi çıxmaq olmaz. Hər bir hərəkət və sükunətdə Onun hikməti var.

Biz belə deyirik: Bil ki, Allah-təala Muhəmmədi (s) müşriklərə xoş gəlməsə belə, haqq din ilə bütün dinlərə qalib etmək üçün göndərmişdir. Ona hər şeyi bəyan edən kitab nazil etmişdir. Allah ona vədə verdiyini etdi, onun dinini bütün dinlərdən üstün etmişdir. Zəmanənin sonunadək,

---

[60] Ali-İmran, 109

[61] Səhih Müslim, c. 1, s. 53; Səhih Buxari, c. 2, s. 42, bab 12; Əbu Asim, əs-Sünnə,c, 2, s. 505, hədis 1089; Hədisin mətnli belədir: Əta bin Yezid Təmim Daridən belə nəql edir: "Peyğəmbər (s) buyurub: "Din səmimiyyətdir". "Kimə?" deyə soruşdular. (Peyğəmbər) buyurdu: "Allaha, Rəsuluna, müsəlmanlarn imamına və hamısına". Başqa bir hədisdə isə "Allaha, rəsulna və möminlərə" qeyd olunub. Bu hədisi Əbu Əvanə "əs-Sünən"də (c. 1, s. 37), Əbu Davud "əs-Sünən"də (c. 4, s. 102), Darəmi "əs-Sünən"də İbn Ömərdən (2754-cü hədis) və Tirmizi "əs-Sünən"də (1926-cı hədis) nəql etmişdir.

bütün möminlər bu dünyadan köçənədək bunu belə qərar vermişdir. Allah onun ümmətini ən xeyirli ümmət etmişdir. Necə ki, bu barədə belə buyurur: **“Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın) insanlar(ın)a zahir olmuş ən yaxşı ümmətsiniz...”**[62] Onları bütün insanlara şahid etmişdir. Allah-təala buyurur: **“Sizin üçün müstəqil bir qiblə təyin etdiyimiz kimi) sizi orta (ifrat və onun ziddi arasında mötədil) bir ümmət etdik ki, (Qiyamət günü) siz insanlara şahid olasınız...”**[63]Həmçinin buyurub: **“O, (Quran və İslam neməti ilə) sizi seçib və İslam dinində sizin üçün heç bir məşəqqət və dözülməz çətinlik qoymayıb...”**[64] Peyğəmbər (s) buyurub: “Siz yetmiş ümmət görəcəksiniz. Siz onların içərisində ən xeyirlisi və Allah yanında ən

---

[62] Ali İmran urəsi, ayə 110. Ayənin davamı: “...(onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların da içərisində bəzi iman gətirən şəxslər var, lakin çox hissəsi haqq yoldan çıxanlardır”.

[63] Bəqərə, 143. Ayənin davamı belədir: “...Peyğəmbər də (Muhəmməd əleyhisəllam da) sizə şahid olsun. (Ya Rəsulum!) İndi yönəldiyin qibləni (Kəbəni) yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün (qiblə) təyin etdik. Bu, (qibləni Beytülmüqəddəsdən Kəbəyə tərəf çevirmək) ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir. Allah sizin imanınızı (bundan əvvəl Beytülmüqəddəsə üz tutaraq qıldığınız namazlarınızı) əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir”.

[64] Həcc, 78. Ayənin tamamı belədir: “(Ey möminlər!) Allah yolunda layiqincə cihad edin. O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı – atanız İbrahimin dini (dinində olduğu) kimi. (Ey Muhəmməd ümməti!) Allah bundan (Quran nazil olmamışdan) əvvəl də, bunda (Quranda) da sizə müsəlman adını verdi ki, (qiyamət günü) Peyğəmbər (dinin təbliği, sizin ona iman gətirməyiniz, itaət etməyiniz barədə) sizə, siz də (əvvəlki peyğəmbərlərin Allahın hökmlərini öz ümmətlərinə çatdırdıqları halda) insanlara şahid olasınız. Elə isə (vaxtlı-vaxtında) namaz qılın, zəkat verin və Allaha sığının. (Allah) sizin ixtiyar sahibinizdir. O nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir!”

hörmətiisisiniz”. [65] Qeyd etdiklərimizin dəlilləri saysız-hesabsızdır. Peyğəmbər (s) buyurub: “Qiyamət gününədək bu ümmət doğru yolda olacaq”.[66] Bu hədisi Buxari nəql etmiş və **“Kim hidayət yolu ona aydın olduqdan sonra Bizim göndərdiyimiz peyğəmbərlə müxalifət və düşmənçilik etsə və möminlərin yolundan başqa bir yola tabe olsa, onu elə üz tutduğu tərəfə yönəldər, Cəhənnəmə daxil edər və onun hərarətini ona daddırarıq. Ora pis bir dönüş yeridir”**[67]ayəsinə əsasən bu ümmətin ardınca getməyin vacib olduğunu demişdir. Ümmətin icmasını qəti dəlil hesab etmiş və heç kimin ona qarşı çıxmasına icazə verilmədiyini demişdir. Qeyd etdiklərimizin dəlilləri elmlə məşğul olan hər kəsə məlumdur.

Bil ki, Muhəmmədin (s) gətirdiyi din barəsində cahil öz rəyini deməməli[68], əksinə elm əhlindən soruşmalıdır. Necə ki, Allah-təala buyurub: **“... Buna görə də əgər bilmirsinizsə, zikr əhlindən (öz əsrinizin din mütəxəssislərindən) soruşun”.**[69] Peyğəmbər (s) buyurub:

---

[65] Bu hədisi Təbərani əl-Kəbir kitabında (c. 19, s. 422, hədis 1023) Bəhz bin Həkəmdən, o da atasından, o da babasından nəql etmişdir.

[66] Səhih hədisdir. Buxari bu hədisi qeyd etmişdir. Səhih Buxari, c. 6, s. 385; Səhih Müslim, 1922-ci hədis; Hakim, əl-Mustədrək, c. 3, s. 617; Bəğəvi, Şərhus-sunnə, c. 14, s. 212, hədis 4011; Əbu Asim , əs-Sünnə, c. 3, s. 518, hədis 1122 və 1123: hədisin mətni belədir: “Yer üzərində iki nəfər qalanadək bu məsələ (İslam dini) Qüreyşdə olacaq”. Bu mətni Əhməd bin Hənbəl Müsnəddə c. 3, s. 243, 261 və 395 –də nəql etmişdir. Həmçinin bu hədisi nəql edənlər: İbn Həcər, Fəthul-Bari, c. 13, s. 101 və 107; Nəvəvi, Şərhu Səhih Müslim, c. 2, s. 119; İbn Əsir Covzi, Camiul-usul, c. 4, s. 43, kitabul-xilafə vəl-imarə, babl-əvvəl fil-əhkam, əl-fəslul-əvvəl, hədis 2017.

[67] Nisa, 115

[68] Müəllif Rəsulullahdan (s) nəql olunan hədisə işarə edir: “Üç şey həlaka aparanlardandır; itaət olunan simiçlik, tabe olunan həvayi-nəfs və insanın öz rəyini bəyənməsi”. Siyuti bu hədisi əl-Camius-səğir kitabında (c. 1, s. 419, hədis 3472) Təbəraniyə istinadən qeyd etmişdir.

[69] Nəhl, 43

“Məgər bilməsəydilər onlardan sual soruşulardımı? Cəhalətin dərmanı sualdır”.[70] Bu, sual soruşmağın mahiyyəti barədə icmadır. İmam Əbu Bəkr Hərəvi[71] belə deyir: “Alimlər hamılıqla icma ediblər ki, bu xüsusiyyətləri özündə cəm etməyən birinin dində və doğru məzhəbdə imam olması icazəli deyil. Həmin xüsusiyyətlər bunlardır:

Ərəb dilini, qrammatik qaydalarını, sözlərin mənalarını, ərəb şeirlərini, alimlərin və fəqihlərin ixtilafını bilməlidir.

Erab və növlərini bilməlidir.

Allahın kitabını, fərqli qiraətləri və qariləri bilməlidir.

Təfsir elmini, möhkəm və mütəşabih ayələri, nasix (sonradan nazil olan və əvvəlki ayənin hökmünü pozan ayə) və mənsuxu (hökmü pozulan ayə), qissələri (Qurani-kərimdə əvvəlki peyğəmbərlərin və ümmətlərin əhvalatlarını) bilməlidir.

Peyğəmbərdən (s) nəql olunan hədislərin səhihini, zəifini, mürsəlini, müsnədini, məşhur olanını bilməlidir. Həmçinin sahabələrin rəvayətlərini movquf və müsnəd olanını bilməlidir.

Təqvalı, dindar, özünü haramdan qoruyan, doğru danışan, etibarlı olmalıdır. Etiqadlarını Allah kitabı, Rəsulullahın (s) sünnəsi əsasında formalaşdırmalıdır.

Əgər bir insan bu xüsusiyyətləri özündə cəm edərsə, bundan sonra onun imam olması caizdir. Onun din və fətva məsələlərində içtihad etməsi və ona təqlid olunması icazəlidir. Əgər bu xüsusiyyətləri özündə cəm etməsə və ya hər hansı birinə xələl gətirsə, naqis olar. Onun imam olması və insanların ona təqlid etməsi icazəli deyil”. O, belə deyir: “Mən deyirəm:

---

[70] İbn Macə, əs-Sünən, kitabut-təharə, bab əl-Məcruh tusivuhu əl-cənabətu fəyxafu alə nəfsihi, hədis 572: Hakim, əl-Mustədrək, c. 1, s. 178 –də Əta və İbn Abbasdan; İbn Hibban Səhihində, hədis 2201, İbn Abbasdan; Daruqutni, əs-Sünən, c. 1, s. 190-də İbn Abbasdan və Cabir bin Abdullah Ənsaridən nəql etmişdir.

[71] Tərcümeyi-hal kitablarında onun barəsində bir məlumata rast gəlmədim.

“Əgər bu xüsusiyyətlərin ictihad və imamlıq üçün şərt olması sübuta yetərsə, bu xüsusiyyətlərə sahib olmayan hər bir kəs qeyd olunan xüsusiyyətlərə sahib olan şəxsə təqlid etməlidir”. Həmçinin deyir: “İnsanlar din xüsusunda iki qismə bölünür: ya müctəhiddir, ya da müqəlliddir. Müctəhidlər Qurani-kərim və sünnədən bəhs edən din elmində, eləcə də Quran və sünnənin sözlərini, sabit olan, nəsx və ya başqa səbəbə görə sabit olmayan, əsas və ikinci dərəcəli hökmləri anlamaq üçün ərəb dilində mütəxəssis olanlardır. Belə olduqda onun çatdığı ictihad dərəcəsinə çatmayan şəxsin ona təqlid etməsi doğrudur. Müctəhid olmayanın soruşub təqlid etməsi fərzdir (vacibdir). Bu məsələdə heç bir ixtilaf yoxdur”. Onun sözlərinə diqqət elə. Bu məsələ barəsində ixtilaf yoxdur.

İbn Qəyyim[72] “Əlamil-muqiin” kitabında belə deyir: “Quran və sünnədən hökm götürmək ictihad şərtlərinə sahib olmayan şəxsə icazəli

---

[72] Muhəmməd bin Əbu Bəkr bin Əyyub bin Səd bin Hureyz Zəri Diməşqi əl-Hənbəli. İbn Qəyyim Covziyyə Şəmsuddin Əbu Abdullah adı ilə tanımışdır. Üsuli fəqih, müctəhid, təfsirçi, kəlamçı, nəhv və hədis alimi. Dəməşq şəhərində (səfər ayının 7-si 691-ci ildə) anadan olmuşdur. Şəriət, həqiqət və ərəb dili elmlərində ustad olmuşdur. Hətta o, tədris, fətva vermək, imamlıq rütbəsinə yüksəlmişdir. Sədriyyədə tədris, Covziyyədə imamlıq etmişdir. Cüməaxşamı gününə keçən gecə İşa namazının azanı vaxtı rəcaəb ayının 13-ü hicri 7 hicri 715-ci (1350 miladi) ildə vəfat etmişdir. Əməvi camesində (məscidində) sonra isə Cərrah camesində onun cənazə namazı qılınmış Babus-sağir qəbiristanlığında dəfn edilmişdir. İbn Teymiyyə ilə yoldaşlıq etmiş Dəməşq qalasında onunla birlikdə həbs edilmişdir. Onun əsərlərindən aşağıdakıları qeyd etmək olar : 1. Əlamul-muqiin. 2. ət-Təfsirul-qəyyim. 3. Mədəraicus-salikin fi şərhi mənazilis-sairin. 4. Hadil-ərvah ilə biladil-əfrah. 5. əd-Dau vəd-dəva. 6. Bədaiul-fəvaid fin-nəhvi vəs-sərfi. 7. Əhkamu əhliz-zimmə. 8. Əxbarun-nisa.9. Tuhfətulmovdud bi əhkamil-movlud. 10. Şərhuş-şurutul-əmriyyə. Bax; Təbaqatul-hənabilə, c. 1, s. 350; c. 2, s. 351; əl-Ədvi, əz-Ziyarat, s. 20; əd-Durərul-kaminə, c. 3, s. 400, 403; ən-Nəcmuz-zahirə, c. 10, s. 249; Şəzəratuz-zəhəb, c. 2, s. 168, 170; Kəşfuz-zunun, s. 89, 125, 129, 168, 206.

deyil". Əhməd Munadi belə deyir: "Bir şəxs Əhməd bin Hənbəldən belə soruşdu: "Bir insan yüz min hədis əzbər bilərsə fəqih olarmı?". (Əhməd bin Hənbəl) dedi: "Yox". (Həmin adam) dedi: "İki yüz min hədis əzbərləyərsə?" (Əhməd bin Hənbəl) dedi: "Yox". (Həmin adam) dedi: "Əgər üç yüz min hədis əzbərləyərsə?" (Əhməd bin Hənbəl) dedi: "Yox". (Həmin adam) dedi: "Əgər dörd yüz min hədis əzbərləyərsə?" (Əhməd bin Hənbəl): "Bəli" -deyə cavab verdi". Əbülhüseyn belə deyir: "Babamdan Əhmədin nə qədər hədis əzbər bildiyini soruşdum. Babam belə dedi: "O, altı yüz min hədis barədə (suala) cavab vermişdir". Əbu İshaq belə nəql edir: "Mənsur camisində (məscidində) fətva verməyə başlayanda bu məsələni camaata dedim. Bir kişi mənə belə dedi: "Bəs sən bu qədər hədis əzbər bilirsən ki, insanlara fətva verirsən?". Mən ona dedim: "Mən yalnız bu sayda əzbər bilənin fətvasını nəql edirəm".[73] Əgər icma barəsində danışanları qeyd etsək, söhbət uzun olar. Hidayət istəyən üçün qeyd etdiklərimiz yetərlidir. Bu müqəddiməni sonra qeyd edəcəklərimiz üçün əsas olsun deyə yazdım. Bu gün insanlar özünü Quran və sünnəyə nisbət verib, kimə müxalif çıxdığına əhəmiyyət vermədən hökmlər istinbat edənlərlə qarşılaşır. Əgər beləsindən tələb etsən ki, rəylərini elm əhlinə təqdim etsin, bundan çəkinir. Əksinə insanların onun rəyinə əməl etmələrinin vacib olduğunu deyir. Ona müxalif olanı isə kafir adlandırır. Halbuki onda ictihad əhlinin xüsusiyyətlərindən bir xüsusiyyət belə yoxdur. Allaha and olsun ki, bir xüsusiyyətin onda birinə belə sahib deyil. Bununla yanaşı öz fikirlərini bir çox cahillər arasında yaymışdır. Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq! Ümmət hamısı bir fikirdədir. Bununla yanaşı öz rəylərindən əl çəkmir, ümmətin cahil və kafir olduğunu deyirlər. İlahi, yolunu azmışı hidayət elə, onu haqqa tərəf qaytar. Biz deyirik: Allah-təala buyurur: **"Şübhəsiz (peyğəmbərlərin gətirdikləri və şəriət şəklində bəşəriyyətə təqdim**

[73] Bəzi rəvayətlərdə «min min (bir milyon) hədis bilənin" qeyd olunmuşdur.

**etdikləri həqiqi) din Allah yanında həmin İslamdır…”**[74]Həmçinin buyurur: **“Kim İslamdan başqa bir din axtarışında olsa, əsla ondan qəbul olunmayacaq…”**[75]**“Beləliklə, əgər tövbə etsələr, namaz qılsalar və zəkat versələr yollarını açın ki, həqiqətən Allah çox bağışlayan və mehribandır”.**[76] Başqa bir ayədə isə **“onlar sizin din qardaşlarınız olacaqlar”**[77] deyə buyurulur. İbn Abbas belə deyir: “Bu ayə qiblə əhlinin (müsəlmanların) qanını tökməyi haram edir”. Həmçinin belə deyir: “Xəvariclər kimi qiblə əhli barədə olan Quran ayələrini təvil etməyin. Həmin ayələr kitab əhli və müşriklər barədə nazil olub. Onlar (xəvaric) bu ayələrin elmini anlamamış, məhz buna görə də qanlar tökmüş, əmlaklar qarət etmiş və sünnəyə əməl edənlərin zəlalət əhli olmalarına şahidlik etmişlər. Quranda nazil olanın elmini öyrənin”.

İbn Ömər xəvarici yaradılışın ən şər məxluqları hesab edirdi. O belə deyib: “Onlar kafirlər barədə nazil olan ayələri müsəlmanlara aid etmişlər”. Buxari bu hədisi ondan nəql etmişdir[78]. Allah-təala buyurub: “Şübhəsiz ki, din Allah yanında İslamdır”[79]Hər iki səhihdə (Səhih Buxari və Səhih Müslimdə) nəql olunduğu kimi Cəbrailin hədisində Peyğəmbər (s) belə buyurmuşdur: “İslam Allahdan başqa ilah yoxdur və Muhəmməd

---

[74] Ali-İmran, 19

[75] Ali-İmran, 85

[76] Tövbə, 5

[77] Tövbə, 10

[78] Səhih Buxari, bab qətlil-xəvaric bədə iqamətil-huccəti əleyhim: “Allah bir tayfanı doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən onları (haqq yolundan) sapdırmaz! Həqiqətən, Allah hər şeyi (olduğu kimi, layiqincə) biləndir”. (Tövbə, 115) İbn Ömər xəvarici yaradılışın ən şər məxluqları hesab edirdi. O belə deyib: “Onlar kafirlər barədə nazil olan ayələri müsəlmanlara aid etmişlər”.

[79] Ali-İmran, 19

Allahın Rəsuludur şəhadətini deməkdir”.[80] Yenə hər iki səhihdə İbn Ömərdən belə nəql olunur: “İslam beş şey üzərində qurulub: Allahdan başqa ilah yoxdur, Muhəmməd onun qulu və Rəsuludur şəhadəti…”[81] Həmçinin Əbdülqeysin nümayəndəsi hədisində buyurulur:“Sizə tək olan Allaha iman gətirməyi əmr etmişdir. Bilirsinizmi tək olan Allaha iman gətirmək nədir? Allahdan başqa ilah yoxdur, Muhəmməd onun Rəsuludur şəhadətidir”.[82] Bu hədis də iki səhih kitabdadır. Qeyd etdiklərimizdən başqa bir çox hədislər İslamı iki şəhadəti gətirmək və bu şəhadətin tələb etdiyi prinsiplər kimi vəsf etmişdir. Bu barədə ümmət icma etmişdir. Hətta ümmət “Şəhadət gətirənədək insanlarla vuruşmaq mənə əmr olunub”[83], həmçinin cariyənin (kənizin) hədisinə əsasən iki şəhadəti

---

[80] Səhih İbn Hibban, c. 1, s. 188, hədis 158 –də Abdullah bin Ömərdən; İbn Əsir Camiul-usul, c. 1, s. 109 və 208; Müslim Səhih Müslim, c. 1, s. 30, 31; Tirmizi əs-Sünən, hədis 2610; Nəsai əs-Sünən, hədis 4990; Əbu Davud əs-Sünən, hədis 4695; İbn Macə əs-Sünən, hədis 63; Əhməd bin Hənbəl əl-Müsnəd, hədis 5822.

[81] İbn Hibban əs-Səhihdə (c. 1, s. 188, hədis 158) İbn Ömərdən nəql etmişdir. Hədisin mətni belədir: “(İslam bunların üzərində qurulub: (namaz qılmaq, zəkat vermək, Ramazanda oruc tutmaq, Kəbəyə həcc etmək”. Camiul-usul kitabında (c. 1, s. 207) İbn Ömərdən nəql olunan hədisdə belə deyilir: “zəkat vermək, həcc etmək və Ramazanda oruc tutmaq”. Səhih Buxari, hədis 4243; Səhih Müslim hədis 16; Sünəni Tirmizi, hədis 2609; Sünəni Nəsai, hədis 5001; Müsnədi Əhməd bin Hənbəl, hədis 4783, 5639, 5979, 6265.

[82] İbn Hibban, əs-Səhih, v. 7, s. 36, hədis 4524. Həmin hədisdə Rəsulullahın (s) Əbdu Qeysin ağsaqqalına belə dediyi nəql olunur: “Səndəki iki xisləti Allah sevir: helm və yumuşaq rəftar”. Səhih Buxari, hədis 53; Səhih Müslim, hədis 17; Sünəni Tirmizi, hədis 1599, 2611; Sünəni Nəsai, hədis 5031; Sünəni Əbu Davud, hədis 3692, 3696, 4677; Müsnədi Əhməd bin Hənbəl, hədis 3396.

[83] Bu hədis səhihdir. Albani İrvaul-ğəlil (c. 8, hədis 3475) kitabında bu hədisi nəql etmişdir. Hədisin mətni belədir: “Ənəs bin Malikdən: “ İnsanlar Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsuludur deyənədək onlarla vuruşmaq mənə əmr olunub. Elə ki, dedilər, haqq istisna olmaqla qanlarını və mallarını məndən qorumuş olarlar”. Səhih Buxari, c. 1, s. 17, hədis 45, 2786.

dilinə gətirən şəxsə İslamın hökmlərinin şamil olması barədə də icma etmişdir. Həmin hədisdə (cariyənin hədisində) Peyğəmbər ondan:“Allah haradadır?” - deyə soruşur. Cariyə: “Göydədir” deyə cavab verir. Peyğəmbər: “Bəs mən kiməm?” -deyə soruşur. Cariyə: “Sən Allahın peyğəmbərisən” -deyə cavab verir. Rəsulullah (s) cariyənin sahibinə: “Onu azad et! O, mömin bir qadındır”[84] buyurmuşdur. Bütün bunlar iki səhih kitabda nəql olunmuşdur. Həmçinin “La ilahə illəllah əhlindən əlinizi çəkin”[85] hədisi də bu qəbildəndir. İbn Qəyyim belə deyir: “Müsəlmanlar icma ediblər ki, kafir Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsuludur deyərsə, İslama daxil olmuşdur”. Həmçinin müsəlmanlar icma etmişlər ki, əgər mürtədin (dindən çıxan) dindən çıxmasının səbəbi şirkdirsə, onun tövbəsi iki şəhadəti deməkdir. Savaşa gəlincə, əgər namaz qılmaq və zəkat vermək üçün insanlarla savaşan bir imam olararsa, vacibdir.

Bütün bunlar elm əhlinin kitablarında qeyd olunmuşdur. Öyrənmək istəyən bunlara rast gələ bilər. İslamın kamilliyinə görə Allaha həmd olsun!

---

[84] Səhih Müslim, c. 2, s. 70; Sünəni Əbu Davud, hədis 862; Sünəni İdn Əbu Asim, c. 1, s. 215, hədis 489, 590; Sünəni Nəsai, c. 1, s. 179, 180; Təyalasi, hədis 1105; Müsnədi Əhməd bin Hənbəl, hədis 17485, 18961, 1872.

[85] Təbərani, əl-Kəbir,c. 12, s. 221, hədis 13089 –da İbn Ömərdən nəql edir: Rəsulullah (s) buyurub: “La ilahə illəllah deyənlərdən əl çəkin. Onları günaha görə təkfir etməyin. Kim la ilahə illəllah deyəni təkfir edərsə, onun özü küfrə daha yaxındır”.

## BİRİNCİ FƏSİL

### Müsəlmanları təkfir etməkdən (kafir hesab etməkdən) çəkinmək

Əgər deyilənləri dərk etsəniz bilərsiniz ki, siz Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun qulu və rəsuludur şəhadətini deyənləri, namaz qılanları, zəkat verənləri, Ramazan ayında oruc tutanları, Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərinə iman gətirərək həcc edənləri, İslamın bütün ayinlərini yerinə yetirənləri lənətləyirsiniz. Onları kafir adlandırır, ölklərini biladul-hərb (döyüş ölkələri, yəni müharibə ediləcək ölkələr) hesab edirsiniz. Biz sizdən soruşuruq: Kimdir sizin imamınız? Bu məzhəbi kimdən öyrənmisiniz? Əgər desəniz ki, Allaha şərik qoşduqları üçün onları müşrik hesab edirik. Onlardan Allaha şərik qoşmayan kafir hesab olunmur. Çünki Allah-təala buyurur: **"Şübhəsiz, Allah Ona şərik qoşulmasını (bu günahı) bağışlamaz..."**[86] Bundan başqa bu mənada olan bir çox ayələr var. Elm-əhli Allaha şərik qoşanları kafirlərdən hesab etmişdir. Cavabında deyirik: Qeyd etdiyiniz haqq ayələr və elm əhlinin kəlamı haqdır. Lakin elm əhlindən olanlar Allaha şərik qoşmağı izah edərkən demişlər ki, kim müşriklərin "bunlar şəriklərimizdir" sözləri kimi Allaha şərik iddia edərlərsə, müşrikdir. Necə ki, ayədə buyurulur: **"...(Bizim rübubiyyətimizdə və) özünüz(ün ibadətiniz)də şəriklər güman etdiyiniz şəfaətçiləri sizinlə görmürük! Şübhəsiz, aranızdakı bağlılıqlar qırılmış və (Bizim şəriklərimiz olmalarını) güman etdiyiniz şey nəzərinizdən itmişdir»,**[87] **"onlara: «Yeganə olan Allahdan başqa heç bir tanrı yoxdur!» - deyildiyi zaman təkəbbür göstərirdilər",**[88] **"O, məbudların hamısını bir məbud edib?.."**[89]

---

[86] Nisa, 4

[87] Ənam, 94

[88] Saffat, 35

[89] Sad, 5

Bundan başqa digər ayələri, Rəsulullahın buyurduqlarını və elm əhlinin dediklərini qeyd edə bilərik. Lakin siz kim filan işi edərsə, müşrikdir deyib onu İslamdan çıxardırsınız. Bu hökm sizə hardandır? Bu hökmü öz düşüncənizə əsasən istinbat etmisiniz. Əvvəlki səhifələrdə qeyd etdik ki, ümmətin icmasına əsasən sizin kimilərin istinbat etməsi icazəli deyil. Sizin tabe olacağınız bir icma və ya aranızda tədlid olunması icazəli olan biri varmı. Baxmayaraq ki, təqlid edən şəxsin müctəhidinin rəyinə ümmət icma etməzsə, o, müctəhidinə tabe olaraq kimisə kafir hesab edə bilməz. Bizə deyin görək siz məzhəbinizi haradan götürmüsünüz? Əgər bizə haqqı bəyan etsəniz, Allahın boynumuzda olan əhdinə görə həmin haqqa tabe olmaq bizə vacibdir. Əgər məqsədiniz sizin özünüzə məxsus olan məfhumlardırsa, qeyd etdiyimiz kimi nə sizin, nədə bizim, nə də ki, Allaha və axirət gününə inanan hər hansı bir şəxsin ümmətin icmasına əsasən müsəlman olan birini təkfir etməyə (kafir hesab etməyə) haqqı yoxdur. O, müsəlmandır. Şirkə gəlincə, onun kiçik və ən kiçik, böyük və ən böyük, İslamdan çıxmağa səbəb olan və İslamdan çıxmağa səbəb olmayan növləri var. Bütün bunları, yəni İslamdan çımağa səbəb olan və ya səbəb olmayan növləri ictihad şərtlərini özündə cəm edən müsəlman imamlarının bəyan etməsi gərəkir. Əgər imamlar hər hansı bir məsələdə icma etsələr, heç kimin həmin məsələyə qarşı çıxmağa haqqı yoxdur. Əgər imamlar fərqli rəylər desələr, məsələ aydındır. Əgər sizdə elm əhlindən olanların aşkar bəyanı varsa, bizə bildirin. Biz də onu dinləyib itaət edək. Əks təqdirdə sizə və bizə vacib olan icmaya əsasən qəbul olunmuş prinsipə əməl etmək və möminlərin yolu ilə getməkdir. Siz həmçinin bu ayə ilə dəlil gətirirsiniz: **"... əgər (Allaha) şərik qoşsan, xeyir əməllərin batil və puç olacaq".**[90] Həmçinin peyğəmbərlərin barəsində nazil olan bu ayə ilə dəlil gətirirsiniz: **"Əgər onlar (o uca məqamlarına baxmayaraq Allaha) şərik qoşsaydılar, şübhəsiz,**

[90] Zümər, 65

**etdikləri bütün xeyir əməllər aradan gedər və puç olardı”.**[91] Həmmçinin bu ayə ilə: **“Həmçinin sizə mələkləri və peyğəmbərləri özünüzə Rəbb götürməyi əmr etməsi yaraşmaz...”**[92] Biz də bütün bunların haqq olduğunu deyirik. Lakin siz necə deyə bilərsiniz ki, Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun qulu və rəsuludur deyən müsəlmanın hazır olmayan və ya ölmüş birisini çağırması, onun üçün nəzir etməsi, Allahdan qeyrisi üçün qurban kəsməsi, qəbrə əl sürtməsi yaxud qəbrdən torpaq götürməsi böyük şirkdir? Bu şirkə görə onun xeyir əməlləri puç olur, malı, canı halal olur. Allahın bu ayədən və Qurani-kərimdəki digər ayələrdən məqsədi məhz budur! Əgər desəniz ki, Quran və sünnədən bunu anlayırıq, sizin anlayışınızın heç bir əsası yoxdur deyərik. Nə sizə, nə də hər hansı müsəlmana sizin anlayışınıza əsaslanmaq icazəli deyil. Qeyd etdiyimiz kimi istinbat mütləq ictihad əhlinə məxsusdur. Bununla yanaşı bir şəxsdə ictihad şərtləri cəm olarsa, hər hansı bir insana araşdırmadan onun rəyinə əməl etmək vacib deyil. Şeyx Təqiyuddin[93] belə demişdir: “Araşdırma aparmadan imama təqlid etməyi vacib edən şəxs tövbə etməlidir. Əgər tövbə edərsə, bağışlanar. Əks təqdirdə qətlə yetirilməlidir”. Əgər bu hökmləri İbn Teymiyyə və İbn Qəyyim kimi bəzi elm əhlinin sözlərindən götürmüşük, onlar bunu şirk adlandırmışlar desəniz, biz də belə deyərik: Bu, doğrudur. Bu iki şeyxə təqlid etməyə razıyıq. Bu şirkdir. Lakin onlar sizin kimi bu, böyük şirkdir, insanı İslamdan çıxardar, bütün məmləkətlərdə icra edilməlidir, bu

---

[91] Ənam, 88

[92] Ali-İmran, 80

[93] Əbdürrəhman bin Muhəmməd bin Əbdünnasir bin Tacur-riyasə əl-Məhəlli əz-Zubeydi əl-Qahiri əş-Şafei Təqiyuddin Əbu Muhəmməd. Tarixçi hədis alimi. Meylumidən dərs alıb ondan nəql etmişdir. Ramazan ayını birinci günü hicri 813-cü ildə vəfat etmişdir. Əsərlərindən: 1. Tarix. İbn Həcər ondan nəql etmişdir. 2. Şərhun alət-tənbih. Bax; Səxavi, əz-Zoovul-lami, c. 4, s. 135 və 138; İbn İmad, Şəzərat, c. 7, s. 101.

dindən çıxmışların hökmləridir, – hətta sizin rəyinizə əsasən – onları kafir hesab etməyən özü kafirdir, ona dindən çıxan şəxsin cəzası tətbiq olunmalıdır deməmişlər. Onlar – Allah onlara rəhmət eləsin – bunun şirk olduğunu demişlər, sərt davranmış, qadağan etmişlər. Lakin sizin dediyinizin heç onda birinin onda biri qədərini deməmişlər. Siz onların sözlərindən özünüzə xoş gələni götürmüsünüz. Onların sözləri bu əməllərin kiçik şirk olmasına dəlalət edir. Fərz olunsa ki, həmin əməllərin bəziləri deyənin halına və niyyətinə görə şirkdir. Lakin onlar sözlərində qeyd etmişlər ki, belə birinin əleyhinə höccət (dəlil) tamam olmadan ona küfr nisbət verilməz. Allahın izni ilə onların sözlərini müfəssəl surətdə qeyd edəcəyik. Lakin sizdən tələb olunan budur ki, elm əhlinin sözlərinə qayıdıb onların təyin etdikləri hüdudları keçməyəsiniz. Elm əhli müsəlmanın dindən çıxmasına səbəb olan bütün fel və sözləri qeyd etmişlər. Lakin Allahdan qeyrisi üçün nəzir edənin, Allahdan qeyrisindən bir şey tələb edənin, Allahdan qeyrisi üçün qurban kəsənin, qəbrə əl sürtüb torpağından götürən şəxsin mürtəd olduğunu deməmişlər. Halbuki siz onları mürtəd hesab edirsiniz. Əgər sizdə dəlil-sübut varsa bəyan edin. Çünki elmi gizlətmək caiz deyidir. Lakin siz bunu öz anlayışınıza əsasən deyir, icmanı tərk edir və Muhəmmədin (s) ümmətini təkfir edirsiniz. Belə ki, siz bu işləri edənin kafir olduğunu, həmçinin onu kafir hesab etməyənin də kafir olduğunu deyirsiniz. Bütün insanlara məlumdur ki, bu əməllər bütün müsəlman ölkələrində yayılıb. Bunun yeddi yüz ildən çoxdur ki, müsəlman məmləkətlərində bu əməllərin olduğu elm əhlinə məlumdur. Elm əhlindən bu əməlləri etməyənlər həmin əməlləri yerinə yetirənləri sizin rəyinizin əksinə olaraq kafir hesab etməmişlər və onlara mürtəd hökmünü tətbiq etməmişlər. Əksinə onlara müsəlman hökmlərini tətbiq etmişlər. Siz isə müsəlman məmləkətlərinə küfr və mürtəd hökmünü tətbiq edirsiniz. Müsəlman məmləkətlərini

biladul-hərb adlandırırsınız. Hətta Peyğəmbərdən (s) səhih hədislərdə[94] nəql olunan “onlar hər ikisi İslam məmləkəti olaraq qalacaq, orada bütlərə ibadət olunmayacaq, hətta Dəccal axır zamanda oradan başqa bütün məmləkətləri hökmü altına alacaq” kimi hədislərə baxmayaraq iki hərəmi (Məkkə və Mədinə) də belə hesab edirsiniz. İnşallah bu yazıda həmin hədislərin səhihliyini biləcəksən. Sizin nəzərinizdə bütün bu məmləkətlər biladu-hərb hesab olunur. Oranın əhalisinin hamısı kafirdirlər. Çünki sizin rəyinizə əsasən onlar bütlərə ibadət edirlər. Sizin nəzərinizə əsasən onların hamısı dindən çıxmağa səbəb olacaq şirk edirlər. Həqiqətən biz Allahınıq və həqiqətən biz Allaha qayıdacağıq! Allaha and olsun ki, bu Allah Rəsuluna və bütün alimlərin əleyhinə qalxmaqdır.[95] Bu məsələlər içərisində ən çox sərt danışdığınız və ümməti təkfir etdiyiniz nəzir məsələsidir. İbn Teymiyyə və İbn Qəyyim hər ikisi rəylərində aşkarcasına demişlər ki, bu əməllər dindən çıxmağa səbəb olacaq şirkdən deyil. Hətta rəylərində aşkar bəyan etmişlər ki, bu əməllərdən daha böyük şirklər var. Bu ümmətdən elələri var ki, həmin əməli yerinə yetirib və inadkarlıq edib. Bununla belə, onu kafir hesab etməmişlər. Bu barədə onların rəylərini qeyd edəcəyik.

**Nəzirə gəlincə,** Şeyx Təqiyyuddin və İbn Qəyyimin bu barədə rəylərini qeyd edirik. Onlar hər ikisi bu məsələdə ən kəskin danışanlar olmuş və bu əməli şirk adlandırmışlar. Şeyx Təqiyyuddin belə deyir: “Qəbirlərə və qəbir əhlinə (ölülərə) nəzir etmək, məsələn, İbrahim

---

[94] Səhih Buxari, c. 1, hədis 104; Səhih Müslim, hədis 1354; Sünəni Nəsai, hədis 3876; Müsnədi Əhməd bin Hənbəl, hədis 15938, 15942, 26619, 26623-də Əbu Şureyh Xuveyld bin Əmr bin Abdullahdan və Cabir bin Abdullah Ənsaridən nəql etmişdir; Sünəni Tirmizi, hədis 3922-də Ənəs bin Malikdən nəql olunmuşdur.

[95] Müəllif bu ayəyə işarə edir: **“Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlar, özlərindən əvvəlkilər nə cür rüsvay olmuşlarsa, o cür rüsvay olacaqlar. Biz artıq (Muhəmməd əleyhissəlamın haqlı olmasını sübut edən) açıq-aşkar ayələr nazil etdik. Kafirləri alçaldıcı bir əzab gözləyir!”** (Mücadilə, 5)

peyğəmbərə (ə) və ya filan şeyxə nəzir etmək günah nəzirdir. Həmin nəzri yerinə yetirmək icazəli deyil. Əgər nəzir etdiyini haqqı çatan fəqirlər və ya əməlisaleh insanlara sədəqə olaraq verərsə, bu Allah yanında onun üçün daha xeyirli və mənfəətlidir”.

Əgər nəzir edən kafir olsaydı, onun sədəqə verməsini əmr etməzdi. Çünki kafirin verdiyi sədəqə qəbul olunmur. Əksinə ona İslamı qəbul etməyi əmr edərdi və ona sən Allahdan qeyrisinə nəzir etməklə dindən çıxmısan deyərdi. Şeyx həmçinin belə deyir: “Kim bir quyunun, qəbiristanlığın, dağın və ya ağacın işıqlandırılmasını nəzir edərsə, yaxud ora və ya orada olana nəzir edərsə, həmin nəziri yerinə yetirmək caiz deyil. Həmin nəzirin sahibi bilinməsə (ümumi) mənafe üçün sərf olunmalıdır”. Əgər nəzir edən kafir olsaydı, nəzri ona geri qaytarmağı deyil, onun qətlə yetirilməsini əmr edərdi. Şeyx belə demişdir: “Kim Peyğəmbərin (s) qəbri üçün çıraq almağı nəzir edərsə, Peyğəmbərin (s) qonşularına (qəbrinin ətrafında yaşayanlara) sərf olunmalıdır”. Onun sözlərinə və təvilinə diqqət elə! O, bu işi edəni kafir sayırmı?! Onu kafir bilməyəni kafir hesab edirmi?! Yaxuda və elm əhlindən olan başqaları sizin dediyiniz kimi bu əməli küfrdən hesab edirlərmi?! Siz belə deyərək icmaya qarşı çıxırsınız. İbn Muflih əl-Furu kitabında ustadı Şeyx Təqiyyuddin ibn Teymiyyədən belə nəql edir: “Allahdan qeyrisinə nəzir etmək, məsələn yardım və ehtiyacın ödənilməsi üçün müəyyən şeyxə nəzir etmək Allahdan qeyrisinə and içmək kimidir. Başqası bunun günah nəzir olduğunu demişdir”. Bax buradakı şərtə! Yəni ondan yardım diləmək məqsədilə nəzir edərsə. Şeyx bunu Allahdan başqasına and içmək hesab etmişdir. Elm əhlindən olan başqası isə günah nəzir hesab etmişdir. Məgər onlar sizin dediyiniz kimi, kim belə edərsə kafirdir, kim onu kafir bilməzsə kafirdir demişlər? İlahi, saxta sözlərdən sənə pənah aparırıq! Həmçinin İbn Qəyyim Allahdan qeyrisinə nəzir etməyi kiçik şirikin sırasında qeyd etmişdir. Dəlil olaraq Əhmədin Peyğəmbərdən (s)

“Nəzir and içməkdir”[96] hədisini qeyd etmişdi. Sizin şirk hesab edib kafir adlandırdığınız hər bir şeyi qeyd edərək kiçik şirk hesab etmişdir.

**Allahdan qeyrisi üçün qurban kəsməyə gəlincə,** onu küfrə səbəb olan əməllərin deyil, haram əməllərin sırasında qeyd etmişdir. Yalnız bütlər üçün kəsilərsə və ya (qurban kəsməklə) Allahdan savayı günəşə və ulduzlara ibadət olunarsa, küfrdən hesab olunar. Şeyx Təqiyuddin isə onu haram əməllərdən, sahibini isə müsəlmana zərər verən şəxs kimi məlun (lənətlənmiş) hesab etmişdir. İnşallah onun sözlərini qeyd edəcəyik. Həmçinin elm əhli bu əməli Allahın adı çəkilmədən kəsilən heyvanlar babından saymışlar və bu əməlləri qadağan etmişlər. Bu işi yerinə yetirəni kafir hesab etməmişlər. Şeyx Təqiyuddin belə deyir: “Necə ki, Allahın şərəfləndirdiyi Məkkədə və başqa müsəlman məmləkətlərində cahillər cin üçün qurban kəsirlər. Məhz buna görə də Peyğəmbər (s) cinlərə qurban kəsməyi qadağan etmişdi”.[97] Şeyx sizin dediyiniz kimi “kim belə edərsə kafirdir və ya kim onu kafir bilməzsə kafirdir” deməmişdir.

Allahdan başqasından bir şey diləməyə gəlincə, Şeyx Təqiyyuddin – Allah ona rəhmət eləsin – fərq qoymuşdur. Əgər bir kəsdən günahların bağışlanması, Cənnətə daxil olmaq, cəhənnəm odundan xilas olmaq, yağış yağdırmaq, ağac bitirmək kimi rübubiyyətə məxsus olan işlər tələb olunarsa, bu şirk və zəlalətdir. Gərək onun tövbə etməsi tələb olunsun. Əgər tövbə edərsə, bağışlanar. Əks təqdirdə qətlə yetirilməlidir. Lakin müəyyən bir şəxs bunu edərsə, onun əleyhinə tərk etdikdə küfrə səbəb olacaq höccət tamamlanmadan bu hökm icra edilməz. Bu barədə onun

---

[96] Səhih Müslim, hədis 1645; Sünəni Tirmizi, hədis 1582” Sünəni Nəsai, hədis 3832; Sünəni Əbu Davud, hədis 3323; Müsnədi Əhməd bin Hənbəl, hədis 1680, 16868; 17874; 16889; 16970 Əqəbə bin Amirdən Peyğəmbərin (s) belə dediyini nəql edir: “Nəzirin kəffarəsi, and içməyin kəffarəsidir”.

[97] Beyhəqi əs-Sünən kitabında Zühridən nəql etmişdir.

sözlərini qeyd edəcəyik. Əgər desən ki, o, əl-İqna kitabında bunu qeyd edərək belə demişdir: “Kim özü ilə Allah arasında vasitə seçərsə, onlara dua edib onlardan diləyərsə və onlara təvəkkül edərsə, icmaya əsasən bu küfrdür”. Mən deyərim: “Bu, doğrudur. Lakin bəla elm əhlinin sözlərini anlamamaqdadır. Əgər onun sözünə diqqət etsəniz, onun sözlərini düzgün tərzdə yozmadığınızı anlayarsınız. Lakin bundan da təəccüblüsü budur ki, onun aşkar sözünü tərk edib müfəssəl olmayan sözə əsaslanaraq elm əhlinin rəyinə zidd hökm istinbat edirsiniz. Məhz rəyinizin və anladığınızın icma olduğunu iddia edirsiniz. Sizdən öncə sizin anladığınızı başqa bir kimsə deyibmi? Subhanəllah! Allahdan qorxmursunuz? Sən bax onun sözünə. O, “onlara dua edib təvəkkül edərsə” və “bir şey diləyərsə” deyir. Bax gör təvəkkül, diləmək və dua etmək arasında “vav” bağlayıcı ədatını işlətmişdir. Ərəb dilində dua mütləq mənada ibadətdir. Təvəkkül qəlbə məxsus olan bir əməldir. Diləmək isə sizin dua adlandırdığınız tələb mənasındadır. O, sözlərində yaxud deməyərək dua, təvəkkül və diləməyi cəm etmişdir. Siz təkcə diləmək xüsusiyyətinə görə təkfir edirsiniz. Sizin anladığınız bu sözlərin harasındadır? O, - Allah ona rəhmət eləsin – bu sözün əsasını başqa yerlərdə bəyan etmişdir. Həmçinin İbn Qəyyim bu sözün əsaslandığı prinsipləri bəyan etmişdir. Şeyx deyir ki, Sabii müşriklərdən elələri var ki, İslamı zahirdə qəbul edir, ulduzlara təzim edir. Belə iddia edir ki, ehtiyacları üçün onlara müraciət edir, onlara səcdə və dua edir. Sabii və Bərahman müşriklərindən İslama üzv olanlar ulduzlara ibadət barədə kitab da yazmışlar. Bu Kənanilərin sehrindəndir. Onlar nəmrudların hakimiyyətində yaşamışlar. Allah-təala hənəfilik (tövhid) dini ilə İbrahimi (ə) onlara göndərmişdir ki, yalnız Allaha ibadət etsinlər”. İbn Qəyyim deyir:“Onlar varlıq aləminin kamil, hikmətli, eyblərdən və nöqsanlardan pak olan yaradıcının olmasını təsdiqləyir, lakin belə deyirlər:“Onun hüzuruna yalnız vasitələrlə üz tuta bilərik, buna görə də ona yaxın olan

ruhani varlıqlarla ona yaxınlaşmaq vacibdir. Onlar rəbul-ərbabın (ilahlar ilahı) yanında bizim ərbabımız, ilahlarımız və şəfaətçilərimizdir. Biz onlara yalnız bizi Allaha yaxınlaşdırsın deyə ibadət edirik, onlardan ehtiyaclarımızı istəyirik. Onlara vəziyyətimizi və bütün işlərimizi təqdim edirik. Onlarda bizim və onların ilahı olan Allah yanında şəfətçi olurlar. Bu yalnız ruhani varlıqlardan yardım diləməklə, yalvarmaqla, onlara dua etməklə, namaz qılıb, zəkatlar vermək, qurbanlar kəsmək və buxur yandırmaqla mümkündür".

Onlar bütün peyğəmbərlərin gətirdikləri iki prinsipə görə küfr etmişlər. Birinci: Yalnız heç bir şəriki olmayan Allaha ibadət etmək və ondan başqa ibadət olunan hər hansı bir məbudu inkar etmək. İkinci: Allahın peyğəmbərlərinə iman gətirmək və Allah tərəfindən gətirdikləri hökmləri təsdiqləmək və onlara tabe olmaq". İbn Qəyyimin onlar barədə dediyi kəlama diqqət elə! Siz vasitələri gör necə də öz mənasından fərqli mənaya yozursunuz. Bu icmanı pozmaqla yanaşı Allahın, Onun peyğəmbərinin və islamın imamlarının kəlamlarını doğru olmayan tərzdə yozmağınızdan heç də təəccüblü deyil. Bundan da təəccüblüsü budur ki, siz bu sözlərlə onun deyənin və nəql eliyənin sözlərinin əksinə dəlil gətirirsiniz. Halbuki onların sözlərinin aşkar olduğunu görürsünüz. Sizin bu əməliniz möhkəmi tərk edib mütəşabihin ardınca getməkdən başqa bir şey deyil. Allah bizi və sizi həvayi-nəfsə uymaqdan qorusun.

Qəbirlərə əl sürtməyə, təbərrük etməyə, qəbirlərin torpağından götürməyə və onların ətrafında dövrə vurmağa gəlincə, elm əhli bunları qeyd etmişdir. Bəziləri bunu məkruh, bəziləri isə haram əməllərdən hesab etmişlər. Onlardan heç biri sizin dediyiniz kimi bunları edən mürtəddir deməmişdir. Hətta siz onları kafir hesab etməyənləri də təkfir edirsiniz. Cənazə kitabında dəfn və meyiti ziyarət etmək fəslində bu məsələ qeyd edilmişdir. Əgər dediklərimdən agah olmaq istəyirsənsə, əl-

Furu[98] və əl-İqna[99] kitablarını və başqa fiqh kitablarını mütaliə edə bilərsən. Əgər bu kitabların müəlliflərinə nöqsan tutsanız bunu etməyinizə təəccüb etmərik. Lakin məlumunuz olsun ki, onlar öz rəylərini qeyd etməmişlər, yalnız Əhməd bin Hənbəlin və onun tərəfdarları olan hidayət imamlarının rəylərini qeyd etmişlər. Ümmət onların hidayət və elmlərinə icma etmişdir. Əgər inadkarlıqdan əl çəkməsəniz, uca məqamlar iddiasında olsanız, hidayət imamlarına təqlid etmədən dəlillərə istinad etsəniz, yuxarıda qeyd etdiyimiz kimi icmaya qarşı çıxmış olarsınız.

---

[98] əl-Furu aləl-fiqhil-hənbəli. Bu kitab Əhməd bin Hənbəlin fiqhində yazılmış ən böyük və ən kamil kitabdır. Bu kitabı İbn Muflih Şəmsəddin Əbu Abdullah bin Muflih (vəfat tarixi 763 h.) yazmışdır.

[99] əl-İqna aləl-fiqhil-hənbəli. Hicavi Musa bin Əhməd bin Musa əl-Muqəddəsi (vəfat tarixi 968 h.) bu kitabı yazmışdır.

## İKİNCİ FƏSİL

### Cahil və xəta edənin üzürlü olması

Sizin iddia etdiyiniz kimi bu məsələlərin, yəni nəzir və bu kimi məsələlərin küfr olduğu fərz olunsa belə, əhli-sünnənin icma etdiyi başqa bir prinsip var. Şeyx Təqiyyuddin və İbn Qəyyim bu prinsipi qeyd etmişlər. Həmin prinsip budur: Bu ümmətdən cahil və xəta edən hər kəs küfr və şirkə səbəb olacaq əməl edərsə, tərk edilməsi küfrə səbəb olacaq höccət ona tamamilə bəyan olanadək bilmədiyi və xəta etdiyi üçün üzürlüdür. Həmin höccət onun kimi birinə qaranlıq qalmamalıdır. Yaxud hər bir müsəlmanın dəlil araşdırmadan bildiyi və aşkar icma olan İslam dininin məlum zəruri prinsiplərindən birini inkar etməməlidir. Allahın izni ilə bu barədə sonra danışacağıq. Bu məsələyə yalnız bidət əhli müxalif çıxmışdır. Əgər desən: **“Allah-təala “Qəlbi imanla rahatlıq tapdığı (və imanla bağlı) halda (küfr deməyə) məcbur olan şəxs istisna olmaqla...”**[100] buyurub. Bu ayə məcbur edilərək küfr sözləri deyən müsəlmanlar barəsində nazil olmuşdur”. Mən deyirəm: “Bu, haqdır. Sizin leyhinizə deyil, əleyhinizə olan bir dəlildir. Küfr danışan hər kəs Rəsulullahı (s) söymüş və dinindən çıxmışdır. İcmaya əsasən bu küfrdür. Bunu hər bir müsəlman bilir. Bununla yanaşı Allah-təala məcbur olaraq küfr sözü danışanı danlamamışdır. Lakin Allah-təala qəlbini bu küfrə açan kəsi kafir adlandırmışdır. Yəni bilərəkdən iman yerinə bu sözü seçən və ona razı olan şəxs kafirdir. Ayədə qeyd olunan bu küfr barəsində müsəlmanlar icma etmişlər və kitablarında nəql yazmışlar. Onu küfr əməllərdən hesab edən hər kəs kitabında qeyd etmişdir. Amma sizin müsəlmanları kafir hesab etdiyiniz bu məsələləri sizdən öncə elm əhlindən olan heç kim deməmiş və küfrə səbəb olan əməllərdən hesab etməmişdir. Əksinə bəziləri şirkin növlərindən, bəziləri isə haram

[100] Nəhl, 106

əməllərdən hesab etmişdir. Lakin heç biri “kim belə edərsə kafirdir, mürtəddir” deməmişdir. Sizin kimi bu ayə ilə onların əleyhinə dəlil gətirməmişlər. Lakin sizin bu dəliliniz təəccüblü deyil. Çünki siz ***“Və deyirdilər: “Yəni doğrudan biz divanə bir şairə görə öz tanrılarımızı tərk edək?!”***[101] ***“... Və o zaman ki, “ey Allahımız, əgər bu, Sənin tərəfindən (vəd olunmuş) həmin haqdırsa, onda göydən bizə daş yağdır...”***[102] ***“O, məbudların hamısını bir məbud edib?..”***[103] ayələrlə “Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun rəsuludur, Allahın heç bir şəriki yoxdur, Allahla yanaşı hər hansı bir varlığın ibadət olunmağa haqqı yoxdur” deyənlərin əleyhinə dəlil gətirirsiniz. Bu ayələrlə müsəlman olmasına Rəsulullahın (s) şahid olduğu və müsəlmanların da bu məsələdə icma edtiklərinə baxmayaraq, onların kafir olmasına dəlil gətirənin bu ayə ilə öz rəyinə dəlil gətirməsi təəccüblü deyil. Əgər doğru deyirsinizsə, sizin küfr hesab etdiyiniz sözlər və əməllər əsasında təkfir etdiklərinizin bu ayəyə əsasən kafir olduğunu deyənlərin adlarını qeyd edin. Lakin Allaha and olsun ki, sizin məsələniz Əbdülməlik bin Mərvanın məsəli kimidir. O, oğluna belə demişdir: “İnsanları itaətinə çağır. Kim səndən başını döndərərsə, qılıncla başını kəs”.[104] Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

---

[101] Saffat, 36

[102] Ənfal, 32

[103] Sad, 5

[104] Bax; əl-Bidayə vən-nihayə, c. 8, s. 281; c. 9. S. 77; Tarixu Bağdad, c. 10, s. 389; əl-Muntəzəm fi tarixil-uməmi vəl-muluk”, c. 6, s. 39. Tarixu Təbəri, c. 6, s. 423; Murucuz-zəhəb, c. 3, s. 166;

## ÜÇÜNCÜ FƏSİL

### Müsəlmanda küfr və İslamın olması mümkündür

Başqa bir prinsip də var. Həmin prinsip bundan ibarətdir: Müsəlman şəxsdə küfr və İslam, küfr və nifaq, şirk və iman cəm ola bilər.[105] Lakin İslamdan çıxmasına səbəb olacaq şəkildə təkfir olunmaz. Bu əhli-sünnə vəl-cəmaənin rəyidir. Bu barədə geniş surətdə danışacağıq. Buna yalnız bidət əhli müxalif ola bilər.

---

[105] Səhih Tirmizidə Abdullah bin Məsuddan belə nəql olunur: "Rəsulullah (s) belə buyurub: "Adəm övladına Şeytanın bir vəsvəsəsi və mələyin bir ilhamı var. Şeytanı vəsvəsəsinə gəlincə, şərlə uzaqlaşdırmaq (pis əməllə haqdan uzaqlaşdırmaq) və haqqı təkzib etməkdir. Mələyin ilhamına gəlincə, xeyirlə uzaqlaşdırıb (xeyir əməl etməyi təlqin edərək batildən uzaqlaşdırıb) haqqı təsdiqləməkdir..." hədis 1988. Səhih Buxaridə Əbu Hüreyrədən belə nəql olunur: "Rəsulullah (s) belə buyurub: "Zinakar zina edərkən mömin deyildir. Şərabxor şərab içərkən mömin deyildir. Oğru oğurluq edərkən mömin deyildir. İnsanların gözləri önündə qəsb edərkən o, mömin deyildir". hədis 2475, 5578, 6772; Həmçinin Səhih Müslim, hədis 57; Sünəni Tirmizi, hədis 2625, Sünəni Nəsai, hədis 4870, 4871, 4872; Sünəni Əbu Davud, hədis 4689; Sünəni İbn Macə, hədis 3936; Müsnədi Əhməd bin Hənbəl, hədis 7276, 27419; Sünəni Darəmi, hədis 2106. Sünən Əbu Davudda Əbu Hüreyrədən belə nəql olunur: "Rəsulullah (s) belə buyurub: "Bir insan zina edərsə, iman ondan xaric olar. Sanki kölgə kimi olar (iman kölgə kimi gedər). Əgər tərk edərsə, iman ona qayıdar". Sünəni Əbu Davud, hədis 4690; Sünəni Tirmizi, hədis 3653; Hakim, əl-Mustədrək, hədis 1022.

## DÖRDÜNCÜ FƏSİL

### Xəvaricin təkfir edilməməsi

Bil ki, camaatdan ayrılan ilk firqə Əli bin Əbu Talibin – Allah ondan razı olsun – zamanında ona qarşı çıxan xəvaric olmuşdur. Rəsulullah (s) onlar haqqında danışmış, onları qətl etməyi və onlarla vuruşmağı əmr etmişdir. Onlar barəsində belə demişdir: "Ox yaydan çıxdığı kimi İslamdan çıxacaqlar. Onlarla harda rastlaşsanız qətlə yetirin".[106]

"Onlar cəhənnəm köpəkləridir".[107]

"Onlar İslam əhlini qətlə yetirəcəklər".[108]

Həmçinin demişdir: "Onlar səmanın altında qətlə yetirilmiş ən pis ölülərdir".[109]

"Quran oxuyarlar. (Mədh olan ayələrin) onlara aid olduğunu güman edərlər. Lakin onların əleyhinədir".[110]

Bundan başqa Rəsulullahdan (s) onlar barəsində nəql olunan səhih hədislər var. Onlar Əli bin Əbu Talibin – Allah ondan razı olsun – zamanında üzə çıxmış, Əlini, Osmanı, Müaviyəni və onlarla olanları kafir

---

[106] Səhih Müslim, kitabuz-zəkat, babul-xəvaric şərrul-xəlqi vəl-xəliqə, hədis 1068; Səhih Buxari, kitabu istitabətul-murtəddin, bab mən tərəkə qitaləl-xəvaric littəlluf; Sünəni Tirmizi, kitabul-fitəni, bab fi sifətil-mariqə; İbn Əsir, Camiulusul, c. 1, s. 93, hədis7560; Sünəni Nəsai, hədis 2578, 4101; Sünəni Əbu Davud, hədis 4764; Sünəni İbn Macə, hədis 169; Müsnədi Əhməd bin Hənbəl, hədis 1062.

[107] Sünnə Tirmizi, hədis 4086, Həmmad bin Sələmədən nəql etmişdir. Təbərani, əl-Kəbir, c. 8, s. 168, hədis 10344; s. 269, hədis 8036; Sünəni İbn Macə, hədis 176.

[108] Camiul-usul fi əhadisir-rəsul, c. 10, s. 85, hədis 7553; Səhih Müslim, hədis 1064; Sünəni Nəsai, hədis 2578; Sünəni Əbu Davud, hədis 4764; Müsnədi Əhməd bin Hənbəl, hədis 11254; Sünəni İbn Macə, hədis 176, Sünəni Tirmizi, hədis 3000;

[109] Təbərani, əl-Kəbir, c. 8, s. 269, hədis 8038; s. 271, hədis 8044, hədis 1804, s. 267, hədis 8034.

[110] Səhih Müslim, c. 8, s. 180; Hakim, əl-Mustədrək, c. 2, s. 148; Heysəmi, Məcməuz-zəvaid, c. 6, s. 358, hədis 10446, hədis 1448; əl-Kənci Şafei, Kifayətut-talib,s. 176.

hesab etmişlər. Müsəlmanların qanlarını və mallarını halal bilmişlər. Müsəlman ölkələrini biladul-hərb, öz ölkələrini isə biladul-iman qərar vermişlər. Özlərinin Quran əhli olduqlarını iddia etmişlər. Sünnədən yalnız öz rəylərinə uyğun olanı götürmüşlər. Onlara müxalif olan və onların diyarından çıxan hər kəs kafirdir. İddia edirlər ki, Əli və səhabələri – Allah onlardan razı olsun – Allaha şərik qoşmuşlar. Onlar Quranda olanları bilməmişlər. İddialarına görə isə onlar Qurana əməl edənlərdir. Öz məzhəbləri üçün Quranın mütəşabih ayələri ilə dəlil gətirirlər. Peyğəmbəri təkzib edən müşriklər barəsində nazil olmuş ayələri İslam əhli və böyük səhabələr barəsində nazil olduğunu demişlər. Onları haqqa və mübahisəyə çağırırdılar. İbn Abbas – Allah ondan razı olsun – onlarla söhbət etmiş və onlardan dörd min nəfər haqqa dönmüşdü. Bu böyük məsələlər, aşkar küfr və onların müsəlman camaatından çıxmalarına baxmayaraq Əli – Allah ondan razı olsun – onlar barəsnidə belə demişdir: "Sizə qarşı döyüşə ilk biz başlamayacağıq, Allahı zikr etmək üçün Allahın məscidlərinə gəlməyinizin qarşısını almayacağıq. Bizimlə olduğunuz müddətcə qənimətləri sizdən əsirgəməyəcəyik".[111]

Daha sonra xəvaric bir dəstə yaradaraq müsəlmanlarla, İmam və onunla birlikdə olanlarla döyüşə başladılar. Əli – Allah ondan razı olsun – onlarla vuruşdu. Onların əlindən müsəlmanların başına ağır hadisələr gəldi. İndi onları qeyd etmək uzun olar. Bütün bunlarla yanaşı nə səhabələr, nə də tabeinlər, nə İslamın imamları, nə də ki, İmam Əli və başqa səhabələr onları təkfir etməmişdir. Bununla da sizin üçün höccət tamamlandı və haqqı sizə bəyan etdik.

Şeyx Təqiyyuddin belə deyib: "Nə Əli, nə səhabələrdən bir kəs, nə də ki, İslam əhlindən olan imamlar onları kafir hesab etməmişlər".

Allah sənə rəhm eləsin, Rəsulullahın (s) səhabələrinin İslam (müsəlman olduğunu) iddia edən şəxsin təkfir olunmasından necə

---

[111] əl-Muntəzəm fi tərixil-uməmi vəl-muluk, c. 5, s. 135, hicri 37-ci ilin hadisələri.

çəkinmələrinə diqqət elə! Onlar Rəsulullahdan (s) hədislər nəql edən səhabələrdir. Allah onlardan razı olsun.

İmam Əhməd deyir: "Rəsulullahdan (s) nəql olunan hədislərin səhih olmasının on qaydası var".

Elm əhli deyir ki, Müslim Səhihində onların hamısını qeyd etmişdir".[112]

Rəsulullahın (s) səhabələrinin və müsəlmanların imamlarının hidayətinə (düz yolda olmalarına) nəzər et! Bəlkə Allah səni də möminlərin yoluna hidayət edər! İndi sünnə hesab etdiyiniz bu bəlanın qəflətindən səni oyadar. Allaha and olsun ki, bu Əlinin və onunla olanların təriqəti deyil, onların (Əhməd bin Hənbəl və Müslimin) təriqətidir. Allah onların ardınca getməyi bizə nəsib etsin.

Əgər desən ki; Əli özü ğulatı (Əlini Allah hesab edənləri) qətlə yetirmiş, hətta onları odla yandırmışdır[113]. Halbuki onlar da ictihad etmişdilər. Səhabələr Riddə əhli ilə savaşmışlar. Mən də belə deyərəm: "Bütün bunlar haqdır. Ğulata gəlincə, onlar müşrik və zındıq idilər. Sözdə İslamı qəbul etmiş, küfrü isə aşkarcasına izhar etmişdilər. Bu heç kəsə qaranlıq deyildi. Əli – Allah ondan razı olsun – Kində qapısından onların qarşısına çıxanda ona səcdə etdilər. Onlara "bu nədir?" dedikdə onlar: "Sən Allahsan" dedilər. Onlara: "Mən Allahın qullarından biriyəm". Onlar: "Yox! Sən Allahsan" dedilər. Onların tövbə etmələrini tələb etdi. Əks təqdirdə qətlə yetiriləcəklərini dedi. Onlar tövbə etməkdən imtina etdilər. Sonra yerdə çuxur qazılmasını əmr etdi. Orada od qaladı. Onları oda yaxınlaşdırdı və belə dedi: "Əgər tövbə etməsəniz sizi bu alova atacam". Yenə tövbə etməkdən imtina etdilər. Əksinə ona "Sən Allahsan" dedilər.

---

[112] Səhih Müslim ,c. 8, s. 80; Heysəmi, Məcməuz-zəvaid, c. 6, s. 251-364; Müsnədi Əhməd bin Hənbəl, c. 5, s. 456; Təbərani, əl-Kəbir, hədis 2691; Müsnədi Bəzzaz, hədis 1849; Nəsai, əl-Xəsais, s. 326; Sibt bin əl-Covzi, Təzkirətul-xəvas, s. 199

[113] Muhibbiddin Təbəri, ər-Riyadun-nəzirə, mənaqibi əmirəl-möminin, s. 224, hədis 319; Əhməd bin Hənbəl, əl-Fəzail, c. 2, s. 664, hədis 989

Onların hamısını oda atdı. Alovun onları yandırdığını hiss etdikdə belə dedilər: "İndi bildik ki, həqiqətən də sən Allahsan. Çünki Allahdan başqa heç kim odla cəza verməz".

Alimlərin də kitablarında qeyd etdikləri Əlinin – Allah ondan razı olsun – zındıqları yandırması əhvalatı belədir. Əgər siz də məxluqa Allah deyən birini görsəniz onu yandırın. Əks təqdirdə isə Allahdan qorxun, batil rəylərinizlə və puç məfhumlarınızla haqqa batil donu geydirməyin, kafirlərlə müsəlmanları müqayisə etməyin!

## BEŞİNCİ FƏSİL

### Riddə əhlinin təkfir edilməməsi.

Siddiqin və səhabənin – Allah onlardan razı olsun – Riddə əhli ilə savaşmasına gəlincə, Rəsulullah (s) vəfat etdikdən sonra İslam dinində yalnız Mədinə, Məkkə, Taif və Bəhreynin kəndlərindən Cəvasa əhalisi qaldı. Riddə hadisəsi əhvalatı bir neçə ciliddən artıq yazılası mövzudur. Lakin elm əhlinin bu barədə bəzi sözlərini deyirik ki, sizin fikirlərinizin həqiqəti üzə çıxsın. Riddə əhlinin əhvalatı ilə dəlil gətirməyiniz elə birinci dəliliniz kimi batildir. İmam Əbu Süleyman Xəttabi[114] – Allah ona rəhmət eləsin – belə deyir:“Bilinməlidir ki, Riddə əhli bir neçə qismə bölünür. Bəzi qismləri İslamdan çıxmış və milləti (müsəlman ümmətini) tərk etmiş, bütlərə ibadəti ehtiva edən küfrlərinə dönmüşlər. Bəzi qismi isə İslam dinindən çıxmış, yalançı peyğəmbər Müseyləmənin ardınca getmişdir. Onlar Müseyləməni təsdiqləyən, onun peyğəmbərlik iddiasını qəbul edən Bəni Hənfə və başqa qəbilələrdən ibarət idilər. Bəzi qismi isə dindən çıxaraq Yəməndə peyğəmbərlik iddiasında olan Əsvəd Ənbəsiyə qoşulmuşdular. Bəziləri Tuleyhə Əsədinin peyğəmbərlik iddiasını təsdiqləyənlərdir. Onlar Ğətfan, Fəzarə qəbilələri və onlara tabe olanlar idi. Başqa bir qismi Səccahı (peyğəmbərlik iddiasını) təsdiqləyib ona qoşulmuşdu. Onların hamısı Peyğəmbərimizi (s) inkar edib, zəkat, namaz və islam şəriətini tərk etmişdilər. Mədinə məscidi, Məkkə və Bəhreynin Cəvasa kəndindən başqa yer üzündə Allaha səcdə ediləcək məkan

---

[114] Əhməd bin Muhəmməd bin İbrahim bin Xəttab Xəttabi; əl-Bəsti; Ömər bin Xəttabın qardaşı Əbu Süleyman Zeyd bin Xəttabın övladlarındandır. Hədis alimi, dilçi, fəqih, ədibdir. Rəbat şəhərində Bəst əyalətində anadan olmuş və orada vəfat etmişdir. Onun əsərlərindən aşağıdakıları qeyd etmək olar; 1. Məalimus-sünnə fi Kitabis-sünən. 2. Ğəribul-hədis. 3. Şərhul-Buxari. 4. Əlamul-hədis. 5. İslahul-ğələt. Hicri tarixi ilə 388-ci ildə Rəbatda Bəst əyalətində vəfat etmişdir. Bax; əl-Vafi, c. 6. S. 124; Mucəmul-udəba c. 4, s. 246; əl-Lubab, c. 2, s. 123 və 378; Miratul-cinan, c. 2, s. 435.

qalmamışdı. Başqa bir qism isə namazla zəkatı bir-birindən ayırmış, zəkatın imama verilməsinin vacibliyini inkar etmişlər. Onlar əsil həqiqətdə bağy əhli (həddi aşmışlar) idilər. Onlar Riddə əhli ilə bir yerdə olduqları üçün onları belə (bəğy əhli) adlandırmamışlar. Riddə əhli bəğy əhlinə nisbətdə daha təhlükəli idi. Onlarla vuruşmaq Əli bin Əbu Talibin – Allah ondan razı olsun – zamanındakı bəğy əhli ilə vuruşmaqdan daha çətin idi. Çünki onun zamanıda onlar şirk əhlinə qarışmamışdılar. Bunların məsələsində ixtilaf baş vermişdi. Hətta Ömərdə – Allah ondan razı olsun – şübhə yarandı. Əbu Bəkrin yanına gəldi və ona qarşı Peyğəmbərin (s) "İnsanlar La ilahə iləllah deyənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur. Kim La ilahə illəllah deyərsə, canı və malı qorunar"[115] hədisini söylədi. Qeyd etdiyimiz kimi Riddə əhli bir neçə qismə bölünmüşdür. Onların bir qismi müsəlmançılıqdan çıxaraq peyğəmbərlik iddiasında olan Müseyləmə və başqalarına tabe olmuşlar. Onlardan bəzilər bütünlüklə islam şəriətini inkar edirdi. Səhabələr – Allah onlardan razı olsun – məhz bunları kafir adlandırırdı. Həmçinin Əbu Bəkr onların arvad-uşaqlarının əsir götürülməsi rəyində idi. Səhabələrin əksəriyyəti bu məsələdə ona yardım etmişdilər. Səhabənin dövrü bitməmiş hamısı mürtədin əsir götürülməməsi məsələsində icma etdilər. Zəkat verməyin qarşısını almaq istəyənlərə gəlincə, onlardan bəziləri dində qalmışdır. Onlar bəğy əhlidirlər. Səhabələr onları şirk əhli və ya kafir adlandırmamışdılar. Dinin bəzi haqlarını inkar etdikləri üçün mürtədlərin sırasından hesab olunurdular. Riddə lüğəti mənada hər hansı bir qəbul olunmuş məsələyə qarşı çıxmaqdır. Həmin qövmün içərisində

---

[115] Səhih Buxari, hədis 1339, 1456, 1457; Müsnədi Əhməd bin Hənbəl, c. 1, s. 270, 271, hədis 117; Beyhəqi, c. 4, s. 104; Sünəni Nəsai, c. 6, s. 5 və c. 7, s. 78; Səhihi İbn Hibban, hədis 216. Səhih Müslim, hədis 20; Sünəni Tirmizi, hədis 2607; Sünəni Əbu Davud, hədis1556; Təylasi, hədis 1109; Sünəni İbn Macə, hədis 3929; Sünəni Darəmi, hədis 245; Müsnədi Şəhab, hədis 508, Təbərani, əl-Kəbir, c. 1, s. 217, hədis 592; c. 2, hədis 115; c. 6, hədis 5746; c. 8, hədis 8191.

itaətdən çıxanlar, haqqın qarşısını alanlar olduğu üçün onların adlarından tərifəlayiq sözlər götürüldü və onlara pis adlar verildi. Çünki onlar mürtəd olanlarla müştərək idilər". Sonra belə deyir: "Əgər zamanımızda hər hansı bir tayfa zəkatın vacibliyini inkar edərsə, zəkat verməkdən imtina edərsə, onların hökmü bəğy əhlinin hökmü kimidirmi? Biz belə deyirik: Müsəlmanların icmasına əsasən zəkat vacib olduğu üçün bu zamanda zəkatı inkar edən şəxs kafirdir. Alim və cahil olan hər kəs zəkatın vacibliyini bilir. Zəkatı inkar edən üzrlü sayılmaz. Həmçinin ümmətin icma etdiyi, yerinə yetirilməsinin vacibliyi bilinən namaz, xums, Ramazan ayının orucu, cənabət qüslü etmək, ribann (sələmin), arağın, məhrəmlərlə evlənməyin haram olması kimi dini məsələləri inkar edən hər bir şəxs bu hökmdədir. Yalnız İslamı yeni qəbul etmiş və hələ dinin hüdudlarını bilməyən istisna edilir. Əgər həmin şəxs bilməyərək bir şeyi inkar edərsə, kafir hesab edilməz. Digərləri kimi onun üzərində müsəlman adı qalar. Amma bir qadını bibisi və ya xalasının üstünə alınmasının haram olması, qəsdən qatil olanın irsdən məhrum olması, babanın miras payının altıda bir olması və buna bənzər hökmlərdə icma olunduğu yalnız elm əhli üçün bilindiyi halda həmin hökmləri inkar edən şəxs kafir hesab olunmaz. Çünki bu məsələlər hamı tərəfindən bilinmir". Xəttabinin sözləri burada bitir.

əl-Mufhim [116] kitabının müəllifi Əbu İshaqdan belə nəql edir: "Rəsulullah (s) vəfat etdikdə üç məscidin – Mədinə, Məkkə və Cəvasə məscidinin əhlindən başqa ərəblərin hamısı mürtəd oldu". Qeyd etdiklərimiz Riddə əhlinin barəsində elm əhlinin dedikləri bəzi sözlərdir. Bu barədə müfəssəl danışsaq mövzu uzanar. Qeyd etdiyimiz kimi sizin kimilərə və ya sizdən üstün olanlara istinbat və qiyas etmək icazəli deyil. Kiminsə ona təqlid etməsi caiz deyil. Əksinə müctəhidlərin mərtəbəsinə

---

[116] Əbulabbas Əhməd bin Ömər Qurtubinin "əl-Mufhim lima uşkilə min təlxisi kitabi Müslim" kitabına işarə edir.

çatmayan şəxsə müctəhidlərə təqlid etməsi vacibdir. Bu icmaya əsasəndir. Lakin bilin ki, Əbu Bəkr Siddiqin zamanında onun itaətindən çıxan hər bir kəs icmadan çıxmışdır. Çünki o və onunla olanlar elm əhli və islam əhli idilər. Onlar Allah-təalanın kitabında tərifləyib şənlərinə gözəl sözlər buyurduğu mühacir və ənsarlar idi. Əbu Bəkrin imamlığı haqq imamlığı idi. İmamətin bütün şərtləri onda cəm olmuşdur və bu barədə icma var.[117] Əgər aranızda Əbu Bəkr, mühacirlər və ənsar kimi biriləri varsa, ümmət sizlərdən birinin imamlığında icma etmişsə, özünüzü onlarla müqayisə edin. Əks təqdirdə isə sizi Allaha and veririk Allahdan və yaratdıqlarından həya edin! Öz həqiqi qiymətinizi bilin. Öz həqiqi qiymətini bilənə, onu layiq olduğu məqama endirənə, müsəlmanlardan şərrini uzaq tutana, möminlərin yolu ilə gedənlərə Allah rəhm eləsin. Allah-təala buyurur**: "Kim ... möminlərin yolundan başqa bir yola tabe olsa, onu elə üz tutduğu tərəfə yönəldər, Cəhənnəmə daxil edər və onun hərarətini ona daddırarıq. Ora pis bir dönüş yeridir".**[118]

---

[117]Bu barədə icma iddiası doğru deyil. Çünki Əbu Bəkrə beyət etməkdən Əli bin Əbu Talib (əleyhissalam), Təlhə, Zubeyr, Miqdad, Əmmar, Əbuzər, haşimilər, Səd bin Ubadə imtina etmişdilər. Səd onlarla birlikdə namaz qılmır, onlarla oruc tutmurdu. Həcc ziyarəti etdikdə onlarla birlikdə hərəkət etmirdi. Əbu Bəkr vəfat edib Ömər xəlifə olanadək belə etdi. Ömərin xəlifəliyinin əvvəlində Hərranda vəfat etdi. Heç kəsə beyət etmədi. Buna görə də müəllifin icma iddiası etməsi batildir. Bax; əs-Siyrətun-nəbəviyyə və əxbarul-xuləfa, s. 426: "Əli bin Əbu Talibin yanında olan dəstə ona (Əbu Bəkrə) beyət etməyin dedi", əl-Muntəzəm fi tarixil-uməmi vəl-muluk. C. 4, s. 67, 68.

[118] Nisa, 115

## ALTINCI FƏSİL

## Qədəriləri təkfir etməmək

Xəvaric barəsində səhabələrin və əhli-sünnənin rəyini qeyd etdik. Onlar xəvarici İslamdan çıxmış bir tərzdə təkfir etməmişlər. Onlar barəsində "cəhənnəm köpəkləri", "ox yaydan çıxdığı kimi İslamdan çıxacaqlar" deyilməsinə baxmayaraq, səhabələr onları təkfir etməmişlər. Çünki onlar pak İslama mənsubdurlar. Baxmayaraq ki, İslamın bir çox prinsiplərinə xələl gətirmişlər. Siz bu gün elə insanları təkfir edirsiniz ki, onlarda xəvaricin heç bir xisləti yoxdur. Hətta bu gün təkfir etdiklərinizin qanlarını və mallarını halal bilirsiniz. Onların əqidələri nicata çatacaq firqə olan əhli-sünnə vəl-cəmaə əqidəsidir. Allah bizi və sizi həmin firqədən qərar versin!

Sonra qədəriyyə[119] bidəti ortaya çıxdı. Bu, səhabələrin ən axır zamanında baş vermişdi. Qədəriyyə iki firqəyə bölünür. Bu firqədən biri qədər məsələsini tamamilə inkar etmiş və belə demişdir: "Allah-təala günahkarlara günah etməyi təqdir etməmişdir. Onun buna qüdrəti yetmir. Həmçinin O, zəlalətdə olanı hidayət etmir və buna qüdrəti çatmır. Onların nəzərində müsəlman özünü təslim edən, özünü namaz qılan edəndir. Həmçinin bütün itaətlər və günahlar bu cürdür. Hətta qul özünü yaradır. Qulu Allahla yanaşı xaliq hesab edirlər. Onların nəzərində Allah-təala heç nəyi təqdir etmir, heç kəsi hidayət etmir, heç kəsi azdırmağa qüdrəti yetmir. Bu kimi başqa küfr sözlər. Allah-təala məcusilərə (zərdüştlərə) oxşayanların dediklərindən uca və pakdır.[120] Qədərilərin

---

[119] Bax; Sünəni Əbu Davud, hədis 4692; Müsnədi Əhməd bin Hənbəl, hədis 22946; Sünəni Beyhəqi, c. 10, s. 205; Hakim, əl-Mustədrək, c. 1, səh 85; Səhihi İbn Hibban, hədis 1825.

[120] Abdullah bin Ömərdən belə nəql olunur: Peyğəmbər (s) buyurdu: "Qədəriyyə bu ümmətin məcusiləridir. Əgər xəstələnsələr onlara baş çəkməyin, ölsələr

ikinci firqəsi isə onların tam əksinə olanlardır. Belə iddia edirlər ki, Allah-təala məxluqu etdikləri işlərdə məcbur yaratmışdır. Küfr və günah insanın ağ və qara dərili yaradılması kimidir. Məxluqun bu məsələlərdə heç bir ixtiyarı yoxdur. Onlara görə bütün günahlar Allaha nisbət verilir. Bu əqidədə onların imamı "Sən məni azdırdığın üçün"[121] deyən İblisdir. Həmçinin "Allah istəsəydi nə biz, nə də atalarımız müşrik olardı"[122] deyən müşriklərin bu cür qəbih əqidələri var. Şeyx Təqiyuddin və İbn Qəyyim kimi elm əhli öz kitablarında bu barədə qeyd etmişlər. Bu böyük küfr və zəlalətlə yanaşı bunların ilk şəxsiyyətləri İbn Ömər və İbn Abbas kimi səhabələrin – Allah onlardan razı olsun – həmçinin, ən dəyərli tabeinlərin zamanında ortaya çıxmışdır. Onların zamanında səhabələr – Allah onlardan razı olsun – onların qarşısında dayanaraq Quran və sünnədən dəlil gətirərək onların zəlalətlərini onlara bəyan etmiş və onlardan üz döndərmişlər. Həmçinin tabeinlər və müxtəlif yerlərdən olan tərəfdaşları da belə etmişlər. Bu böyük küfrlə yanaşı nə səhabələr, nə də onlardan sonra gələn imamlar onları təkfir etməmişlər. Onların qətlini vacib hesab etməmiş, onlara Riddə əhlinin hökmlərini tətbiq etməmişlər. Nə də onlara "biz yalnız haqq söz dediyimizə görə bizim bu bəyanımızla höccət sizin

---

cənazələrində iştirak etməyin". İbn Abbasdan belə nəql edin: "Qədər əhli ilə oturub durmayın, onlarla münasibət saxlamayın". Həmçinin İbn Abbas belə nəql edir: "Peyğəmbər (s) belə buyurub: "Ümmətimdən iki sinifin İslamdan payı yoxdur: murciə və qədəriyyə". Bax; Camiul-usul, c. 10, s. 526; Sünəni Əbu Davud, c. 4, s. 222, hədis 6491; Sünəni Tirmizi, c. 4, hədis 2149; əl-Miləl vən-nihəl, c. 1, s. 111, 112.

[121]**"(İblis) dedi: "Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacam!"** ayəsinə işarə edir. (Əraf, 16)

[122]**"Müşriklər belə deyəcəklər: "Əgər Allah istəsəydi, nə biz, nə də atalarımız müşrik olar və nə də biz bir şeyi haram edə bilərdik. Onlardan əvvəlkilər də (öz peyğəmbərlərini) belə təkzib etmişdilər. Nəhayət, əzabımızı daddılar. (Onlara) de: "Bizim qarşımıza çıxara biləcək bir elminiz varmı? Siz yalnız zənnə qapılır və yalan uydurursunuz!"** ayəsinə işarə edir. (Ənam, 148)

əleyhinizə tamamlandı, bizə müxalif çıxdığınız üçün küfr etmisiniz” də deməmişlər. Necə ki, siz belə deyirsiniz. Onlara rədd cavabı verən, zəlalətlərini bəyan edən haqq sözdən başqa bir söz deməyən səhabə və tabeinlər olmuşdur. Hətta onların dəvətçi imamlarından birini  əmirlər qətlə yetirmişlər. Elm əhli qeyd etmişdir ki, zərərindən ehtiyat etdiyi üçün onu qətlə yetirmişdir. Qətlə yetirdikdən sonra isə ona qüsl verilmiş, kəfənlənmiş, cənazə namazı qılınmış və müsəlman qəbristanlığında dəfn edilmişdir. İnşallah Şeyx Təqiyyuddinin sözlərində bunun qeyd olunmasını deyəcəyik.

## YEDDİNCİ FƏSİL

### Mötəzilənin təkfir edilməməsi.

Bidət əhlindən üçüncü firqə mötəzilə[123] firqəsidir. Tabeinlərin zamanında meydana çıxmışlar. Küfrü ifadə edən sözlər demiş və əməllər etmişlər. Məşhur olanlardan Quranın xəlq olunması, Peyğəmbərin (s) günah əhli üçün şəfaət edəcəyinin inkar olunması, günah əhlinin cəhənnəm odunda əbədi qalması və bu kimi qəbahətli və biabırçı əqidələr. Elm əhli bütün bunları qeyd etmişlər. Onlar tabeinlərin zamanında meydana çıxmışlar və öz məzhəblərinə dəvət etmişlər. Tabeindən olan və sonrakı alimlər onların qarşısında dayanmışlar,onlara Quran, sünnə və ümmətin alimlərinin icması əsasında cavab vermişlər, batil əqidələrini bəyan etmişlər. Onlarla diskusiyalar aparmışlar. Bununla yanaşı onlar batillərinə israr etmiş və öz batillərinə dəvət etmiş və camaatdan ayrılmışlar. Alimlər onların bidət etdiklərini demişlər, lakin onları təkfir etməmiş və onlara Riddə əhlinin hökmünü tətbiq etməmişlər. Əksinə onları bidət əhli adlandırmışlar. İslamın miras, nikah, cənazə namazı, müsəlman qəbiristanlığında dəfn olunmaq kimi hökmlərini onlara şamil etmişlər. Əhli-sünnənin elm əhli onlara “biz haqdan başqa bir şey demirik. Artıq höccət sizin əleyhinizə tamamlanmışdır. Bizə müxalif çıxdığınız üçün küfr etmisiniz. Malınız, qanınız bizə haladır. Sizin ölkəniz biladul-hərbdir” deməmişlər. Necə ki, sizin məzhəbiniz belədir. Bu imamların mövqeləri sizin üçün batilinizdən çəkinib haqqa dönməniz üçün yetərli ibrət deyilmi?!

---

[123] Mötəzilə; Ədliyyə (ilahi ədalətə iman gətirən) təriqətindəndir. Hicri ikinci əsrin əvvəllərində meydana çıxmışdır. Bu məzhəbin kökü Həsən Bəsrinin şagirdi Vasil bin Ətaya gedib çıxır. Onların özlərinə məxsus kəlam üslubu, usul elmi vardı. Ağıl və təfəkkür cərəyanıdır. Ağıla həddindən artıq çox önəm vermişlər. Hətta ağılın hökm çıxarda bilməyəcəyi məqamlarda belə ağıla önəm vermişlər. Onların kitabları və elmi araşdırmaları tarixdə qalmışdır.

## SƏKKİZİNCİ FƏSİL

### Murciənin təkfir edilməməsi

Onlardan sonra "iman əməl deyil, sözdür" deyən murciə[124] ortaya çıxdı. Onların nəzərində iki şəhadəti deyən imanı kamil olan mömindir. Hətta ömründə Allah üçün bir rəkət namaz qılmamış, ramazan orucunu tutmamış, malının zəkatını verməmiş, hər hansı bir xeyir əməl etməmiş olsa belə! Əksinə onların nəzərində iki şəhadəti deyən Cəbrailin, Mikailin, peyğəmbərlərin imanı kimi imanı kamil olan mömindir. Bunadan başqa İslamda bidət edərək başqa qəbahətli sözlər demişlər. Baxmayaraq ki, elm əhli onların bidətçi olduqlarını demiş, zəlalətlərini üzə çıxarmış, Quran, sünnə və əhli-sünnə vəl-cəmaədən olan elm əhlinin icması əsasında haqqı onlara bəyan etmişlər, onlar yenə də öz zəlalətlərində və inadkarlıqlarında davam etmişlər. Özlərindən əvvəlki bidət əhlinin etdiyi kimi Quranın və sünnənin mütəşabih olanını tutaraq əhli-sünnəyə qarşı

---

[124] Murciə: أرجأ sözündən götürülmüşdür. Təxirə salmaq mənasındadır. Allah-təala buyurub: **"(Ya Rəsulum!) Onlardan (zövcələrindən) istədiyini (istədiyinin səninlə gecələmək növbəsini) <u>təxirə salar</u>, istədiyini də (gecəni onunla keçirmək üçün) öz yanına ala bilərsən. (Bir müddət özündən) ayırdığın (növbəsini təxirə saldığın, yaxud rici talaqla boşadığın) övrətlərindən də istədiyini (yenidən) öz yanına qaytarmaqdan sənə heç bir günah gəlməz".** (Əhzab, 51) Murciə islam təriqətlərindəndir. Bax; Lisanul-ərəb.

Hicri birinci əsrdə imanın mənası barədə mübahisələr yarandı. Xəvaric və mötəzilə arasında imanın həqiqəti barədə rəylər və fikirlər meydana çıxdı. Murciə bu rəydə idilər: "İman yalnız dildə sözlə təsdiqləməkdən ibarətdir". Təsdiqlə yanaşı əməl olmasa belə, imanın yalnız sözdə olmasını qəbul edib əməli bir kənara atdılar. Sanki onlar birinicini önə çəkib, ikincini təxirə salmışdılar. Onların bu fikri məşhurdur: "İmanla yanaşı günahın zərəri yoxdur. Necə ki, küfrlə yanaşı itaətin faydası yoxdur".

Onlar böyük və kiçik günahları edən, hətta namazı və orucu tərk edən, şərab içən, pis əməllər yerinə yetirən mömindir deyirdilər. Bax; əl-Fərq beynəl-firəq, s. 202; Buhusun fil-miləli vən-nihəli, c. 3, s. 73, 74.

inadkarlıq etmişlər. Onlardakı bu böyük nöqsanlara baxmayraq əhli-sünnə onları təkfir etməmiş, sizə qarşı olanlara nisbətdə sərgilədiyiniz məsləyiniz kimi bir məslək sərgiləməmişlər. Onların kafir olmalarına şahidlik etməmişlər, onların məmləkətini biladul-hərb qərar verməmişlər. Əksinə onlarla və onlardan öncə olan bidət əhli ilə iman qardaşlığını davam etdirmişlər. Onlara bu gün sizin dediyiniz kimi “Allaha və rəsuluna küfr etdiniz, biz sizə haqqı bəyan etdik, bizə tabe olmağınız vacibdir. Çünki biz Peyğəmbər məqamındayıq. Bizə qarşı xəta edən Allahın və Onun peyğəmbərinin düşmənidir” deməmişdirlər. Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

## DOQQUZUNCU FƏSİL

### Cəhəmiyyənin təkfir edilməməsi

Bunlardan sonra isə cəhəmiyyə[125] təriqəti meydana çıxdı. Ərşin üzərində ibadət olunan bir ilah yoxdur. Yer üzərində Allahın kəlamı yoxdur. Muhəmməd (s) meraca getməmişdir. Allah-təalanın Quranda özü üçün sabit etdiyi, Rəsulullahın bəyan etdiyi və səhabələrin, həmçinin onlardan sonra gələnlərin yekdil olaraq qəbul etdikləri sifətləri inkar edirlər. Onlar axirət günü Allah-təalanı görməyi də inkar edirlər. Kim Allah-təalanı Özünü vəsf etdiyi və Rəsulullahın (s) Onu vəsf etdiyi kimi vəsf edərsə, onların nəzərində kafirdir. Bundan başqa sırf küfr olan söz və əməllərini qeyd etmək olar. Hətta elm əhli onları Firona bənzədərək fironçular adlandırırdı. Belə ki, o, Allah-təalanı inkar etmişdir. Elm əhli onlara qarşı çıxmış, bidətlərini, zəlalətlərini aşkar etmiş, onları bidətçi,

---

[125] Cəhəmiyyə: Cəbr (fellərdə məcbur olmaq) və tətil (ilahi sifətlərin inkarı) əqidəsilə tanınmışlar. Bu təriqətin təsisçisi hicri 128-ci ildə vəfat etmiş Cəhəm bin Səfvan Səmərqəndi olmuşdur. Zəhəbi deyir: "Cəhəm bin Səfvan Əbu Muxriz Səmərqəndi. Yolunu azmış bidətçi və cəhəmiyyənin başıçısı olmuşdur. Kiçik tabeinlərin zamanında həlak olmuşdur. Onun bir şey nəql etdiyini bilmirəm. Lakin o, böyük məzhəb yaratmışdır". Mizanul-itidal, c. 1, s. 426, 1584-cü tərcümeyi-hal.

Muqrizi deyir: Cəhəmiyyə Cəhəm bin Səfvan Tirmizinin davamçılarıdır. Bəni Üməyyənin hakimiyyətinin ən son dövründə qətlə yetirilmişdir. O, aşağıdakıları inkar edir:

1. İlahi sifətlərin hamısını inkar edir. Allahı yaratdıqını sifətləri ilə vəsf etmək olmaz.

2. İnsanın heç bir şeyə qüdrəti çatmır. İnsan güc və qüdrətlə vəsf edilməz.

3. Cənnət və Cəhənnəm fənaya uğrayacaq, oradakıların hərəkətləri bitəcək. Muqrizi, c. 3, s. 349.

Onun məzhəbinin iki əsas qaydası var: Birinci: Cəbr və qüdrətin inkar edilməsi. İkinci: Allah-təalanın zatının kamal və camal sifətləri ilə vəsf olunmaması. Elə buradan da tətil əqidəsi meydana gəlmişdir.

fasiq adlandırmış, onları əvvəllki bidət əhlindən daha çox inkarçı və şəriətə daha az əməl edən hesab etmişlər. Onların ağıllarını şəriətdən daha əsas hesab etdiklərini demişlər. Elm əhli onların Cəd bin Dirhəm və Cəhəm bin Safvan kimi bəzi dəvətçilərinin qətlə yetirilməsi əmr etmişlər. Onlar qətlə yetirildikdən sonra isə qüsl verilmiş, cənazə namazları qılınmış və müsəlmanlarla bir yerdə dəfn olunmuşlar. Necə ki, Şeyx Təqiyuddin bu barədə danışmışdı. Sizin onların dediklərinin onda birini deməyənlərə və ya etməyənlərə belə, Riddə əhlinin hökmünü tətbiq etdiyiniz kimi, elm əhli onlara Riddə əhlinin hökmünü tətbiq etməmişdir. Hətta siz, Allaha and olsun ki, həvayi-nəfsinizə müxalif olduğu üçün sırf haqqı deyəni belə kafir hesab etmisiniz. Rafizi[126] firqəsi hamı tərəfindən tanındığı üçün onu qeyd etmirəm. Onların qəbahətli əməlləri məşhurdur. Qeyd etdiyimiz firqələrdən yetmiş iki firqə ayrılır. Hamısı sünnədə adı çəkilən zəlalət firqələridir. Peyğəmbərin (s) hədisində buyurulur: “Bu ümmət yetmiş üç firqəyə bölünəcək. Yetmiş ikisindən başqa”[127], yəni

[126] Rafizi tərk etmək mənasını verən rəfz sözündən götürülüb. Bax” Lisanul-ərəb, c. 7, s. 157. Bu, rafizi sözün lüğəti mənasıdır. Sonrakı əsrlərdə formalaşan terminoloji mənasına gəlincə, bəzən mütləq mənada Əhli-beyti sevənlərə, bəzən isə onların şiələrinə, üçüncü halda isə şiələrindən olan xüsusi tayfaya deyilirdi. Hər bir halda şiələrin belə adlandırılması bir siyasi məna kəsb edir. Bu barədə danışmağa lüzum yoxdur. Əsas məsələ bu terminin yaranma səbəbidir. İbn Mənzur bu terminin yaranma səbəbində belə deyir: “Rafizilər başçılarını tərk edib gedən qoşundur. Tərk edib gedən hər bir tayfa rafizədir, nisbi sifət olaraq “rafizi” deyilir. Rafizilər şiədən olan bir tayfadır. Onlar Zeyd bin Əlini tərk edib getdikləri üçün belə adlanmışlar”. Əsməi belə deyir: “Onlar Zeyd bin Əliyə beyət etmişdilər. Sonra ona dedilər ki, iki şeyxdən (Əbu Bəkr və Ömər) imtina et səninlə birlikdə vuruşaq. O isə bunu rədd etdi. Onu tərk etdilər, tək buraxıb getdilər. Buna görə də rafizi adlandılar”. əl-Fərq beynəl-firəq, s. 35.

[127] Səhih hədisdir. Aşağıdakı mənbələrdə qeyd olunmuşdur: Albani, Silsilətul-əhadisisəhihə, hədis 1492; Sünəni İbn Macə, hədis 3993, Camiul-usul, c. 10, s. 33,

yetmiş üçüncü firqə nicata çatan firqədir. Onlar Rəsulullahın (s) səhabələrindən başlayaraq axır zamana kimi davam edəcək əhli-sünnə vəl-cəmaədir. Bu firqə haqqa əməl etməkdədir. Allah öz güc və qüdrəti ilə onların ardınca getməyi bizə nəsib etsin. Bu firqənin hədislərindən qeyd etdiklərimi elm əhlinin kitablarından götürmüşəm, əksəriyyətini isə İbn Teymiyyə və İbn Qəyyimdən nəql etmişəm.

---

hədis 7490, 7491; Sünəni Əbu Davud, hədis 4596; Hakim, əl-Mustədrək, c. 3, s. 547; Sünəni İbn Əbu Asim. C. 2, s. 32, hədis 63, 64, 65; Sünəni Darəmi, hədis 2518.

## ONUNCU FƏSİL

### Sələfin rəyi islam firqələrini təkfir etməməkdir

İndi isə sənə bir şey xatırlatmaq istəyirəm. Sələf məzhəbindən olan elm əhli adı çəkilən bu firqələri təkfir etməmişdir. Şeyx Təqiyuddin əl-İman kitabında belə deyir: “İmam Əhməd xəvarici, murciəni, qədəriləri təkfir etməmişdir. Yalnız ondan və onun kimilərdən cəhəmiyyənin təkfir olunması nəql olunmuşdur. Baxmayaraq ki, Əhməd nə cəhəmiyyənin başçılarını, nə də “mən cəhəmiyəm” deyənə kafir deməmişdir. Hətta öz fikirlərinə dəvət edən, insanları bəlalara düçar edən, onların sözlərinə müvafiq olmayanlara ağır cəza verənlərin belə arxasında namaz qılmışdır. Əhməd və onun kimiləri onları təkfir etməmişdir. Əksinə başqa imamlar barəsində düşündüyü kimi onların imanlı olmasına və imamlıqlarına etiqad edir, onlara dua edir, arxalarında namaz qılmağın düzgün olmasını, onlarla birlikdə həcc və cihad etməyin caiz olmasını və onlara qarşı çıxmamağı söyləyirdi. Onların söylədikləri böyük küfr olan batil fikirləri inkar edirdi. Baxmayaraq ki, onlara bunun küfr olduğunu demirdi. Həmin küfrü inkar edir və imkan daxilində onlara rəddiyə cavabı verməyə çalışırdı. Sünnə və dinin bəyanı, kafir cəhəmi bidətlərinin inkarı üçün Allah və Rəsuluna (s) itaət etməklə imamlardan və ümmətdən olan möminlərin hüquqlarına riayət etməyi cəm edirdi. Baxmayaraq ki, onlar cahil bidətçi, zalim fasiqlər idi”. Şeyxin sözü burada tamamlandı.

Bu sözləri başqa meyillərdən uzaq olaraq düşün! Şeyx Təqiyuddin həmçinin belə deyir: “Qəlbində Rəsulullaha (s) və onun şəriətinə iman olan kəs bidətlərə dəvət etsədə bəzi etiqadında xəta etmişdi. Bu kimisi əsla kafir deyil. Xəvaric bidət, ümməti qətlə yetirmək və təkfir etmək xüsusunda insanlar arasında ən üzə çıxmışlar idilər. Səhabələr içərisində heç kim, nə Əli, nə də qeyrisi onları kafir hesab etməmişdir. Lakin onlara müsəlmanlar içərisində həddi aşmış zalımlar hökmünü vermişlər. Necə

ki, bir neçə yerdə onlardan belə nəql olunmuşdur. Həmçinin digər yetmiş iki firqə də belədir. Kim onlardan olarsa, batinində kafirdir. Kim batinində Allaha və Rəsuluna iman gətirərsə, təvildə xəta etməsinə və xətasının nə olmasından asılı olmayaraq batinində kafir deyildi. Ola bilər ki, onların bəzilərində nifaqın müəyyən növü olsun. Lakin cəhənnəmin ən aşağı qatında olan münafiqdəki nifaq növü onlarda yoxdur. Kim yetmiş iki firqənin hər biri kafirdir deyərsə, millətdən (ümmətin sırasından) çıxmış olar. O, Qurana, sünnəyə, səhabələrin icmasına, hətta dörd imamın və başqa imamların icmasına müxalif çıxmışdır. Onların (imamların) içərisində heç kim yetmiş iki firqədən birini təkfir etməmişdir". Onun sözləri burada bitdi.

Bu sözlərə diqqət elə! Səhabələrdən və əhli-sünnədən nəql etdikləri icmaya diqqət elə. Onların məzhəblərində olan böyük küfr barəsində qeyd etmişdik. Sən və tərəfdaşların məhz bu çuxura düşmüşdür. İbn Qəyyim İslamın prinsiplərinə müvafiq olan, lakin bəzi əqidə əsaslarında fərqlənən xəvaric, mötəzilə, qədəriyyə, rafizilər, cəhəmiyyə, murciənin ğulatları kimi bidət əhli barədə danışarkən deyir: "Bu qisimlərdən biri bəsirəti olmayan cahil müqəllid (təqlid edən) olandır. Əgər doğrunu öyrənməyə qüdrəti çatmazsa, kafir və fasiq hesab olunmaz. Şahidliyi rədd edilməz. Onun hökmü mustəzəf (zəif düşmüş) olan kişilər, qadınlar və uşaqlar hökmü kimidir. İkinci qisim soruşub doğrunu öyrənməyə, haqqı tanımağa qüdrəti var, lakin dünyaya, onun rəyasətinə və ləzzətlərinə başı qarışdığı üçün haqqı itirən hesab olunur və cəzaya layiqdir. Allahdan qorxmaq imkanı olduğu halda vacib olanı tərk etdiyi üçün günahkardır. Bu növdən olan şəxsdə bidət və həvayi-nəfsə tabe olmaq sünnədən üstün olarsa, onun şahidliyi rədd edilər. Əgər ondakı sünnə bidət və həvayi-nəfsindən artıq olarsa, onun şahidliyi qəbul olunar. Üçüncü qisim isə soruşub öyrənir, doğru ona bəyan olur, lakin təəssübkeşlik və ya ədavət üzündən qəbul etmir. Onun ən aşağı dərəcəsi fasiq olmasıdır. Onun təkfir

olunması isə ictihaddan asılıdır". Onun sözlərinə diqqət elə və düşün! O, bir çox kitablarında bu bölgünü qeyd etmişdir. Böyük şirk və böyük küfrlə vəsf olunmalarına baxmayaraq imamların və əhli-sünnənin onları təkfir etmədiklərini qeyd etmişdir. Kitablarının əksəriyyətində onların biabırçılıqlarını qeyd etmişdir. Dediklərimizin təsdiqi üçün onun sözlərinin bir qismini qeyd edirik. O, – Allah ona rəhmət eləsin –Allahın ilahi varlığını qəbul edənlər barədə danışarkən onların iki növ olduğunu deyir: Birinci:Məcusilər (zərdüştlər) və onlara bənzəyən qədərilər kimi rübubiyyət və üluhiyyətdə Allaha şərik qoşanlar. Onlar Allahla yanaşı başqa ilahı ona şərik qoşurlar. Qədəridən olan məcusilər əfallarda (fellərdə) Allahla yanaşı başqa xaliqi şərik qoşmuşlar. Onlara görə felləri Allahın yaratmır və bu Allahın qüdrətindən xaricdir. Fellər Allah-təalanı iradəsindən fərqli iradə və qüdrətlə baş verir. Onlar özlərini iradə sahibi qərar verirlər. Onların sözlərinin həqiqəti budur ki, Allah-təala canlıların fellərinin xaliqi və rəbbi deyildir". Onun kəlamı bitdi. İbn Qəyyim bu şirki başqa kitablarında da qeyd etmişdir. Onları aləmin iki xaliqi var deyən məcusilərə bənzədir. Təkfir barəsində danışarkən o və şeyxi bu məsələyə necə də diqqətli yanaşırlar. Əhli-sünnənin onları təkfir etmədiklərini qeyd edirlər. Hətta haqqı bildikdən və inadkarlıqdan sonra belə onların təkfir olunması ictihaddan asılıdır deyirlər. Onun bu sözünü əvvəlki səhifədə demişdik. Həmçinin o, cəhəmiyyəni ən qəbih vəsflərlə vəsf etmişdir. Onların şirkinin Firon şirki olduğunu demişdi. Onlar muəttilədir (Allahın sifətlərini inkar edənlərdir). Müşriklər onlardan daha az şirk edirlər. Nuniyyə[128] və Səvaiq kimi başqa kitablarında (İbn Qəyyim) onlara məsəl də çəkmişdir. Həmçinin mötəziləni necə də ən böyük qəbahətli vəsflərlə vəsf etmişdir. Onların sözlərinin və dəstələrinin bidət əhlindən olduğuna and içmişdir. Onların sözlərindən sonra bir xardal dənəsi qədər

---

[128] Nuniyyə nəzm üslubunda sələfiyyə əqidəsində yazılmış bir kitabdır. İbn Qəyyim tərəfindən yazılmışdır. İki cilddə çap edilmişdir.

iman qalmaz deyir. Nuniyyə kitabında onların təkfiri barədə danışarkən onları təkfir etməmişdir. Əksinə yuxarıda qeyd etdiyimiz kimi onlar barəsində geniş danışmışdır. Başqa bir yerdə isə əhli-sünnənin onların xətaya düşdüklərini deyir. Onların sözlərinə görə bir xardal dənəsi qədər iman qalmaz deyə and içmişdir. Dəlil gətirir ki, sizdə olan küfrə görə sizi təkfir etmirik. Çünki siz bizim nəzərimizdə cəhalət əhlisiniz. Nə küfrə, nə də imana layiq deyilsiniz. Allah-təalanın izni ilə Şeyx Təqiyuddinin sözləri və sələfin icması barədə geniş danışacağıq. Çünki təkfir xəvaricdən, mötəzilədən, rafizilərdən[129] olan bidət əhlinin sözüdür. Əbulabbas İbn Teymiyyə – Allah ona rəhmət eləsin – Furqan kitabında belə deyir: "İslama mənsub olan mötəzilə və bu kimi kəlam əhli doğru yola aparan peyğəmbərlər göndərən Allahın hidayəti ilə hidayət olunmayan Sabiilər və müşriklərin fikirlərini mənimsəmişlər. Onlar da (kəlam əhli) onların yolu ilə getmək istəmişlər. Necə ki, Peyğəmbər (s) belə xəbər vermişdir: "Sizdən öncəkilərin yolu ilə gedəcəksiniz".[130](Səhih hədis). Sonra belə

---

[129] Əgər müəllifin rafizi deməkdə məqsədi şiələrdirsə, bu onun tərəfindən – Allah ona rəhmət eləsin – bir xətadır. Şiə Əlini və övladlarını sevənlərdir. Çünki onlar Peyğəmbərin (s) əhli-beytidirlər. Allah-təala onların məhəbbətini vacib etmişdir. Allah-təala buyurur: **"(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm..."** (Şura, 23) Bu mənada şiəlik nasibilərdən (əhli-beytə düşmənçilik bəsləyənlər) başqa bütün müsəlmanlara şamildir. Çünki bütün müsəlmanlar peyğəmbər və əhli-beytinə namazlarında və dualarında salavat edirlər. Səhər axşam onlar barəsində nazil olan ayələri oxuyurlar. Amma əhli-beyt (ə) üslubuna müxalif və düşmən olan rafizi kəlməsi isə siyasi anlam daşıyır. Bu barədə cəhəmiyyə barəsindəki haşiyədə qeyd etmişik.

[130] Səhih Müslim, kitabul-ilmi, babu ittibai sünənil-yahudi vən-nəsara, hədis 2669; Səhih Buxari, kitabul-itisam, bab qovlun-nəbi (s): "lətəttəbiənnə sünənə mən kanə qəbləkum". Camiul-usul, c. 1, s. 35, hədis 7493; Sünəni Tirmizi, c. 2, s. 28, 28; Sünəni İbn Əbu Asim ,c. 1, s. 37, hədis 74, 75; Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 84, 89, 94, hədis 31; əl-Fasi, İslahul-məsacid.

deyir: “Bu kəlam alimləri qəlbləri Quran və İslam nuru ilə nurlandığı üçün daha çox haqqa dəlillərə daha çox tabe olurlar. Baxmayaraq ki, Rəsulullahdan (s) nəql olunan bir çox şeylərdə yollarını azmışlar. Onlar Allahın danışmaması və Onun elmi, qüdrəti, hər hansı sifəti olmadığını deməklə onlarla müvafiqdirlər”. Sonra davam edərək belə deyir: “Allahın danışması məsələsində peyğəmbərlərin hamısının müttəfiq olduqlarını, həmçinin, Quranın Allahın sözü və kəlamı olduğunu isbat etdiyini gördükdə bəzən həqiqi mənada deyil, məcazi mənada mütəkəllimdir (danışandır) deyirlər. Fəsada və inkara başlamadan əvvəl fitrətə qarşı küfrləri və bidətləri olduqda onların birinci sözləri belə idi”. Sonra belə deyir: “Bu Quran məxluqdur deyənin sözüdür”. Sonra davam edərək belə deyir: “Bunlar Allahın mütəkəllim (danışan) olmasını və ya ilahi kitabların dəlalət etdiyi, peyğəmbərlərin qövmlərinə anlatdığı və sağlam fitrət əhlinin müttəfiq olduğu tərzdə Allahın danışan olmasını inkar etmişlər”. Sonra davam edərək belə deyir: “Sabiənin qolları ilə Peyğəmbərə tabe olan mömin müsəlmanlar arasında xilaf baş verdi. Onlar peyğəmbərlərin dediklərinin bəzilərini inkar etdilər, Allahın kitabında ixtilafa düşdülər. Bəzilərinə iman gətirdilər. Möminlər Rəbləri tərəfindən onlara nazil olana iman gətirdilər. Bildilər ki, onların sözləri yəhudi və xristianların sözlərindən daha çirkindir. Hətta Abdullah bin Mubarək biz yəhudilərin və xristianların sözlərini nəql edir, cəhəmiyyənin sözlərini isə nəql etmirik deyirdi. Məmunun hakimliyi dövründə ikinci yüz illikdə müşriklərin qolu olan bunların və sabiilərə tabe olanların sayı çoxaldı. Sabiilərin, münəccimlərin və onlar kimilərin elmləri meydana çıxdı. Bu fikir elm və qılınc əhli arasında yayıldı. Xəlifələrdən, əmirlərdən, vəzirlərdən, fəqihlərdən, qazilərdən bəziləri və başqaları onlara qoşuldu. Mömin kişilər, mömin qadınlar, müsəlman kişilər və müsəlman qadınlar bunun bəlasına düşdülər”. Şeyxin – Allah ona rəhmət eləsin – sözləri bitdi. Bu sözlərə diqqət elə və düşün! Onları

ən böyük küfr, şirk və kitabın (Quranın) bəzi hissəsinə iman gətirmək, bəzi hissəsinə isə küfr etməklə vəsf edir. Onlar müşriklərin və sabiilərin qollarındandır. Onlar özlərindən öncə olan küfr əhlinin yolunu tutmuşlar. Onlar əql, nəql və fitrətə müxalif çıxmışlar. Onlar sözləri ilə bütün peyğəmbərlərə qarşı çıxmışlar. Onlar haqqa qarşı inadkarlıq etmişlər. Elm əhli onların sözlərinin yəhudi və xristianların sözlərindən daha çirkin olduğunu demişdir. Onlar haqqa görə mömin kişilərə və mömin qadınlara əzab vermişlər. Barələrində danışdığı mötəzilə, qədərilər, cəhəmiyyə, onların yollarını gedən bidət əhli və başqalarıdır. Xəlifələr dedikdə isə Məmun, Mötəsim, Vasiq və onların vəzirləri, qaziləri və fəqihləridir. Onlar İmam Əhmədi[131] – Allah ona rəhmət eləsin – qırmaclamış, həbs etmiş, Əhməd bin Bəsir Xuzaini və başqalarını qətlə yetirmiş, mömin kişilər və mömin qadınlara əzab vermişlər ki, onların rəylərini qəbul etsinlər. Onlar bunları təkfir etməmişdir deyərək Əhməd bin Hənbəlin, nə də sələfdən hər hansı bir kəsin onları təkfir etməmələrini nəzərdə tutur. Əhməd onların arxasında namaz qılmış, onlar üçün bağışlanmaq diləmiş, onlara namazda iqtida etməyin caiz olduğu və onlara qarşı çıxmağın caiz olmadığı rəyində olmuşdur. Əhməd onların böyük küfr olan sözlərini rədd etmişdir. Bu barədə onun sözlərini əvvəlki səhifələrdə qeyd etmişik.

[131] Əhməd bin Hənbəl Şeybani. Əsli Bəsrədəndir. Babası Hənbəl Abbasilərin yardımçılarındandır. Sərxəsdə vali olmuşdur. Atası Muhəmməd Mərvin əsgərlərindən idi. Anası hamiləikən Bağdada gətirmiş və o, hicri 163-cü ildə orada dünyaya gəlmişdir. Sonra atası gənc yaşında, təqribən otuz yaşında vəfat etmişdir. Əhməd yetim olaraq böyüdü. Hədis elmini öyrənməyə başladı. Həmin vaxt onun 15 yaşı vardı. Yəni hicri 179 -cu ildə. Ondan ilk hədis nəql edən Əbu Hənifənin səhabəsi Əbu Yusuf əl-Qazi olmuşdur. Buxari, Müslim, Əbu Davud, Əbu Zurə, Əbu Qasim Bəğəvi və çoxları ondan rəvayət nəql etmişdir. Onun təqribən 22 əsəri var. Ən məşhuru isə əl-Musnəd əsəridir. Bu kitab onun həyatında cəm etdiyi son əsəridir. Hicri tarixi ilə 241-ci ildə vəfat etmişdir. Bax; Əlamul-muqiin, c. 1, s. 31; Tarixu Bağdad, c. 4, s. 413, 414; Siyəru əlamin-nubəla, c. 11, s. 183, 184.

Müraciət edə bilərsən. Səni Allaha and verirəm, bir düşün! Sizin rəyiniz harda onun rəyi harda? Sizə müxalif olan hər kəs sizin nəzərinizdə kafirdir. Onu kafir hesab etməyən də kafirdir. Sizi Allaha and verirəm ki, batil və puç sözlərdən əl çəkin! Saleh sələfə iqtida edin, bidət əhlinin yolundan çəkinin! Pis əməli bəzənmiş halda görsənən və onu gözəl görən şəxs kimi olmayın.[132] Şeyx Təqiyuddin – Allah ona rəhmət eləsin – belə deyir: "İnkar olunan bidətlərdən biri də müsəlman məzhəblərindən bir məzhəbi təkfir etmək, qanlarını və mallarını halal bilməkdir. Bu, iki səbəbə görə təhlükəlidir:

**Birincisi:** Ola bilər ki, həmin məzhəbdəki bidət təkfir edən məzhəbdəki bidətdən daha böyük deyil. Hətta təkfir edən məzhəbin bidəti təkfir olunan məzhəbin bidətindən daha böyük ola bilər. Ola bilər ki, eyni dərəcədə olsun və ya az olsun. Ümumiyyətlə bir-birini təkfir edən bidət və həvayi-nəfs əhlinin vəziyyəti belədir. Bunlar o kəslərdəndirlər ki, Allah-təala onlar barəsində belə buyurur: **"Şübhəsiz, sənin dinlərini parçalayan və dəstə-dəstə olan kəslərlə heç bir əlaqən yoxdur..."**[133]

**İkincisi:** Əgər fərz olunsa ki, iki tayfadan biri bidət əhli, digəri isə sünnəyə müvafiqdir. Bu sünnəyə görə xəta söz deyən heç kimsə təkfir edilməz. Allah-təala belə buyurur: **"Ey Rəbbimiz, əgər biz unutsaq, ya xəta etsək, bizi cəzalandırma".**[134] Səhih hədisdə[135] Peyğəmbərin (s)

---

[132] Fatir surəsinin 8-ci ayəsinə işarə edir: **"Pis əməli (Şeytan tərəfindən) özünə yaxşı göstərilib onu yaxşı görən (Allahın doğru yola yönəltdiyi kimsəyə bənzəyirmi?!) Şübhəsiz ki, Allah istədiyini zəlalətə, istədiyini də doğru yola salar. (Ya Peyğəmbər!) Artıq onlara (Məkkə müşriklərinin haqq yoldan azmalarına) görə özünü üzüb həlak etmə. Həqiqətən, Allah onların nə etdiklərini biləndir!"**

[133] Ənam, 159

[134] Bəqərə, 286

[135] Hədis İbn Abbasdan nəql olunub: **"Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. (Allah) istədiyini**

belə buyurduğu nəql olunur: “Allah-təala belə edərək (cəzalandırmayaraq) belə buyurur: **“...Əgər bir yerdə səhv etsəniz, sizə günah yoxdur. Lakin (günah) qəlblərinizlə, qəsdən etmənizdir...”**[136] Səhih hədisdə Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Allah-təala ümmətim üçün xəta etdiklərini, unutduqlarını, məcbur edilərək etdiklərini bağışlamışdır”.[137] Bu həsən hədisdir. İbn Macə və başqaları bu hədisi nəql etmişdir. Səhabələr, onlara yaxşılıqla tabe olanlar və müsəlmanların imamları icma etmişlər ki, söz deyib xəta edən hər kəs təkfir edilməz. Hətta onun sözü sünnəyə müxalif olarsa belə. Lakin təkfir məsələsində insanlar arasında ixtilaf var. Bir neçə yerdə bunu qeyd etmişəm. Şeyx – Allah ona rəhmət eləsin – həmçinin belə deyir: “Xəvaricin

---

**bağışlar, istədiyinə də əzab verər”** ayəsi nazil olduqda (səhabələrin) qəlblərinə elə qorxu daxil oldu ki, başqa bir şeyə görə onların qəlblərinə belə bir qorxu daxil olmamışdır. Peyğəmbər (s) belə dedi: “Eşitdik, itaət etdik və təslim olduq deyin!”. Allah onların qəlblərində iman olduğunu görüb bu ayəni nazil etdi: “Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. (Möminlər deyirlər: ) “Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə!” Allah dedi: “Bunu da etdim”. “Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et!” Allah-təala dedi: “Bunu da etdim”. Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!” Allah dedi: “Bunu da etdim”. Bax; Səhih Müslim, hədis 126; Sünəni Tirmizi, hədis 2992; Müsnədi ƏHməd bin Hənbəl, hədis, 2071 və 2961.

[136] Əhzab, 5

[137] Səhih Buxari, kitabul-iman vən-nuzur, bab iza hənəsə nasiyən fil-iman və fil-itq babul-xətəui vən-nisyan; Səhih Müslim, kitabul-iman, bab təcavüzəllahu ən hədisin-nəfsi vəl-xatir, hədis 127; Sünəni Tirmizi, kitabut-talaqi, babu ma caə fi mən yuhəddisu bi talaqi imrəətihi, hədis 1183; Sünəni Əbu Davud, kitabut-talaqi, babul-vəsvəsəti fit-talaq, hədis 2209; Sünəni İbn Macə, kitabut-talaqi, babu mən tælləqə fi nəfsihi və ləm yətəkəlləm bihi, hədis 1540; İbn Əsir, Camiul-usul, c. 2, s. 62.

müsəlmanların vəhdətindən və imamlardan fərqli iki məşhur xüsusiyyətləri var:

**Birincisi:** Sünnədən xaric olmaq, pisi olmayanı pis, yaxşı olmayanı isə yaxşı hesab etmək.

**İkincisi:** Xəvaric və bidət əhli günah və pis əməllərə görə təkfir edirlər. Buna əsasən də müsəlmanların qanlarını və mallarını halal bilirdilər. İslam yurdu daru-hərbdir, onları yurdu isə daru-imandır. Rafizilərin, mötəzilənin, cəhəmiyyənin, hədis əhlinə mənsub olan ğulatların əksəriyyəti bu rəydədir.

Müsəlman olan kəs bu iki çirkin prinsip və onlardan irəli gələn bəzi müsəlmanları pisləmək, lənətləmək, qanlarını və mallarını halal bilmək kimi məsələlərdən ehtiyatlı olmalıdır. Bidət bu iki prinsipdən yaranır. Birinciyə gəlincə, onun səbəbi batil təvildir. Ya səhih olmayan, yaxud Rəsulullahdan (s) nəql olunmayan bir hədis onun əlinə düşmüşdür. O da hədisi nəql edənə təqlid etmişdir. Həmin şəxs nəqlində doğru olmamışdır və ya Allahın kitabından hər hansı ayəni təvil etmiş, lakin təvil doğru olmamışdır. Yaxud batil qiyas etmiş və ya hər hansı bir rəyin doğru olduğunu düşünüb onu qəbul etmişdir. Halbuki həmin rəy səhvdir". Sonra davam edərək belə deyir: "Əhməd insanların çoxunun xətasının təvil və qiyas cəhətindən olduğunu demişdir". Şeyx belə deyir: "Bidət əhli ya sözlərin dəlaləti, ya da məfhumlar baxımından doğruluğunu düşündükləri müqəddimə prinsiplər əsasında İslam dinini yenidən formalaşdırmaq istəyirlər. Allahın və Rəsulullahın (s) bəyanını düşünmürlər. Bu isə zəlalətdir. Əhməd Rəsulullahın (s), səhabələrin və tabeinlərin bəyanından dəlil gətirmədən Qurandan başa düşdüyünə əsaslanan şəxslərin əleyhinə danışmışdır. Müsəlmanların bütün imamlarının rəyi belədir. Onlar imkan daxilində Rəsulullahın (s) bəyanından əl çəkmirlər". Həmçinin Şeyx belə deyir: "Mənimlə həmsöhbət olan kəs bilir ki, mən həmişə kiminsə təkfir olunmasını, fasiq hesab edilməsini və ya ona günah nisbət verilməsini

qadağan edirəm. Yalnız müxalif olduğu təqdirdə onun kafir və ya fasiq, yaxud da günahkar olmasına dini dəlil olduğunu bilərsə bu istisnadır. Mən təsdiqləyirəm ki, Allah bu ümmətin xətasını əfv etmişdir. Bu elmi və əməli məsələləri də ehtiva edir. Sələf bu məsələlərdə ta əvvəldən ixtilaf etmişdir. Lakin heç kim onların kimisə təkfir etməsi, fasiq və günahkar hesab etməsinə rast gəlməmişdir. Necə ki, Şureyh "bəl əcibtu və yəsxərun" qiraətini inkar edərək demişdir ki, Allah təəccüb etməz". Sonra davam edərək belə deyir: "Sələf arasındakı ixtilaf savaşla nəticələnmişdir. Əhli-sünnə müttəfiqdir ki, savaşan qarşı tərəflər hamısı mömindirlər. Savaş onların sabit ədalətlərinə xələl gətirməz. Çünki savaşan əgər təcavüzkardırsa, deməli o, təvil etmişdir. Təvil isə fasiq adlanmağın qarşısın alır. Onlara sələfdən və imamlardan filan-filan deyənin təkfir olunması barədə mütləq danışmalarını da bəyan edirdim. Bu doğrudur. Lakin burada mütləq deyimlə müəyyən deyim arasında fərq qoyulmalıdır. Ümmətin ilk ixtilaf etdiyi ana prinsiplərdən birincisi cəza məsələsidir. Qurani-kərimdə cəza verilməsi barədə mətnlər mütləq və ümumidir. Məsələn, Allah-təala buyurur: **"Həqiqətən yetimlərin mallarını zülm ilə yeyənlər..."**[138] Həmçinin kim filan işi edərsə, onun üçün belə olar və ya o belədir. Bu mətnlər mütləq və ümumi mənadadır. Bu, sələfin "kim belə deyərsə, o, kafirdir". Sonra davam edərək belə deyir: "Təkfir vəd olunan cəzadandır. Bu Rəsulullahın (s) dediyini təkzib hesab etdikdədir. Amma ola bilər ki, insan İslam dinini yeni qəbul edib, yaxud uzaq bir çöllükdə böyüyüb ərsəyə çatıb. Ola bilər ki, həmin mətnləri eşitməyib, yaxud eşidib, lakin onun nəzərində sabit deyildir. Bəlkə də təvil etməyi vacib edən bir səbəb var, lakin xəta etmişdir. Mən daima iki səhihdə olan bir

[138] Nisa, 10

hədisi xatırlayıram: Bir kişi ailəsinə “mən ölərkən məni yandırın”[139] demişdir. Bu kişi Allahın qüdrətinə, kül olub zərrələrə döndükdən sonra onu yenidən dirildəcəyinə şəkk etmişdir. Hətta yenidən dirilməyəcəyinə etiqad edirdi. Bu bütün müsəlmanların ittifaqına əsasən küfrdür. Lakin o, cahildir və bilmirdi. Allaha iman gətirmişdi və Allahın ona cəza verəcəyindən qorxurdu. Buna görə də Allah onu bağışladı. Təvil edən, ciddi-cəhdlə Rəsulullaha (s) tabe olan ictihad əhli bağışlanmağa bunun kimisindən daha çox layiqdir”. Şeyx – Allah ona rəhmət eləsin – təkfir məsələsində mübahisə edən iki nəfər barəsində soruşulanda uzun-uzadı cavab verərək belə deyir: “Əgər fərz olunsa ki, bir kəs kafir olmadığını düşündüyü bir şəxsdən müsəlman qardaşına yardım məqsədilə təkfiri dəf edərsə, bu gözəl şəri bir məqsəddir. Əgər o, bu məsələdə ictihad edib haqqı bularsa, onun iki mükafatı var. Əgər ictihad edib xəta edərsə, onun bir mükafatı var”. Allah ona rəhmət eləsin, həmçinin, belə demişdir: “Təkfir dini prinsipin zəruriliyini bilərək inkar etmək, yaxud icma olunmuş mütəvatir hökmü inkar etməklə olur”. Bu sözə diqqət elə! Məgər bu sizin “Bu, kafirdir, onu kafir bilməyən də kafirdir” dediyiniz kimidirmi?

---

[139] Səhih Müslim, c. 2, s. 325; Səhih Buxari, c. 6, s. 379, 380; Sünəni İbn Macə (Albaninin Səhihus-sünən kitabı) c. 2, s. 419, hədis 3432, 4255: Müsnədi Əhməd bin Hənbəl, c. 7, s. 378, hədis 7635. Həmin hədis budur:

Əbu Hüreyrə Rəsulullahın (s) belə buyurduğunu nəql edir: “Bir kişi özünə zülm etmişdir (günaha aludə olmuşdur). Ölüm anı gəldikdə övladlarına belə vəsiyyət etdi: “Mən ölsəm məni yandırın. Sonra mənim külümü toz edin. Sonra (külümü) küləyə sovurun və dənizə atın. Allaha and olsun ki, əgər Rəbbim məni dirildə biləcəksə mənə heç kəsə verməyəcəyi bir əzab verəcək”. (Əbu Hüreyrə) deyir: “Belə də etdilər”. Allah-təala yerə belə deyəcək: “Götürdüyünü mənə təhvil ver”. Dərhal həmin adam ayaq üstə olacaq. (Allah) ona deyəcək: “Bu işi etməyə səni nə vadar etdi?” (Həmin) adam deyəcək: “Ya Rəbbi, Sənin qorxundan (belə elədim)”. Buna görə onu bağışlayacaq”. Sünəni Nəsai, hədis 2079, 2080; Müsnədi Əhməd bin Hənbəl, hədis 7635- də Huzeyfə bin Yəmani Əbəsidən, 10744-də Əbu Səid Xudridən, 3776-də Abdullah bin Məsuddan nəql etmişdir.

O, deyir ki, əgər ondan təkfiri dəf edərkən xəta edərsə, onun bir mükafatı var. Bax və onun birinci sözünü düşün! O, budur ki; söz küfr ola bilər, lakin onu deyən və ya yerinə yetirən lazımı tərzdə elm ona yetişmədiyi ehtimal olunduğu üçün təkfir edilməz. Ya elmi ona çatmamış, ya elmi ona çatmış, lakin anlamamış, yaxud anlamış, lakin onun təvilini vacib edən bir səbəbi var. Habelə bu kimi qeyd etdiklərini düşün! Ey Allahın bəndələri, ayılın və haqqa dönün! Saleh sələfin ardınca gedin. Onlar dayandığı yerdə siz də dayanın. Şeytan sizi aldadıb İslam əhlini təkfir etməyi sizə gözəl göstərməsin. Sizə müxalif olmağı insanları təkfir etməyin meyarı etmisiniz. İslamın meyarı isə sizin razılığınızdır. Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

Allaha, Allah barəsində olana, Allahın və Rəsulunun istədiyinə iman gətirdik. Allah bizi və sizi həvayi-nəfsə tabe olmaqdan xilas etsin.

İbn Qəyyim – Allah ona rəhmət eləsin – küfrün növləri barədə danışarkən belə deyir: "Cuhud (inkar) küfrü iki növdür: mütləq olan ümumi küfr və müqəyyəd olan xüsusi küfr. Mütləq küfr Allahın nazil etdiyi hər şeyi və Rəsulullahın (s) peyğəmbərliyini inkar etməkdir. Xüsusi küfr isə islamın fərzlərindən (vacib əməllərindən) və ya haram əməllərdən hər hansı birini və ya Allahın Özünü vəsf etdiyi vəsflərdən birini, yaxud Allahın Muhəmmədə xəbər verdiyi bir xəbəri bilərəkdən və ya hər hansı bir məqsədlə ona müxalif olanın rəyinə qarşı çıxmaq üçün inkar etməkdir. Bu, ya cəhalət, ya da təvil üzündən ola bilər. İki səhihdə, sünəndə və müsnədlərdə Əbu Hüreyrədən nəql olunana əsasən təkfir edilməz. Əbu Hüreyrə Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Bir kişi ailəsinə heç bir xeyir etməmişdir – başqa rəvayətdə bir kişi özünə zülm etmişdir buyurulur. Can verərkən və ya övladlarına vəsiyyət etmişdi ki, ölərkən onu yandırsınlar. Sonra külünün yarısını çöllərə, digər yarısını isə dənizə töksünlər. Allaha and olsun ki, əgər Allahın ona (yenidən diriltməyə) qüdrəti çatarsa, ona yaratdıqlarından heç kimə verməyəcəyi

bir əzab verər. O, öldükdə əmr etdiyini yerinə yetirdilər. Allah dənizə əmr etdi və dəniz onda olanları bir yerə cəm etdi. Çölə əmr etdi və çöl onda olanları cəm etdi. Sonra (onu dirildib) ona dedi: "Niyə belə etdin?". O: "Ya Rəbbi, sənin qorxundan belə etdim. Sən bunu bilirsən". Allah onu bağışladı".[140] Bu adam Allahın qüdrətini inkar edirdi. Yenidən dirilməni və məadı inkar edirdi. Bununla yanaşı Allah onu bağışladı və onu cahilliyinə görə üzürlü saydı. Çünki onun elmi ancaq bu qədər idi. İndakarlıq edərək inkar etməmişdir. Bu Allah qullarını bilmədikləri üçün əzabın aradan qaldırılmasında üzürlü saymaz deyənin sözünün batil olması üçün ən böyük dəlildir. Çünki həmin cahilin elmi bu qədərdir".Şeyxulislam İbn Teymiyyədən[141] bu ümmətdə baş verən təkfir barədə kim bunu əvvəl etmiş və meydana çıxartmışdır deyə soruşdular. O, belə cavab vermişdir: "Bunu İslamda ilk edənlər mötəzilə olmuşdur. Başqaları da onlardan götürmüşdür. Həmçinin xəvaric də təkfiri ilk edənlərdir. İnsanlar bu barədə ixtilafa düşmüşlər. Bəzilər bu barədə Malikdən, həmçinin Şafeidən iki rəy nəql etmişlər. Əhməddən iki rəvayət nəql etmişlər. Əbulhəsən Əşəri və tərəfdaşlarından isə bu barədə iki rəy nəql olunmuşdur. Bu məsələdə həqiqət budur: ola bilər ki, söz küfr olsun və onu deyənin kafir olması mütləq mənada deyilsin. Məsələn, kim belə

[140] Müsnədi Əhməd bin Hənbəl, hədis, 22742, 10744; Sünəni İbn Macə, hədis 3432, Səhih Buxari, c. 6, s. 379 və380; Səhih Müslim, c. 2, s. 325.

[141] Əhməd bin Əbdülhəlim bin Abdullah bin Xızr bin Muhəmməd bin Xızr bin Əli bin Abdullah bin Teymiyyə Hərrani Diməşqi Hənbəli Təqiyuddin Əbulabbas. Hədis, təfsir və fiqh alimi. Hicri 661-ci ildə rəbiəl-əvvəl ayının 10-u Hərranda dünyaya gəlmişdir. Atası ilə Dəməşq şəhərinə gəlmişdir. Dəməşqdə, Misirdə, Suğurda hədis söyləmişdir. Qahirə qalasında, İskəndəriyyədə, Dəməşq qalasında həbs olunmuş, dəfələrlə işgəncə çəkmişdir. Dəməşq qalasında iki dəfə həbs olunmuş və sonuncu dəfə 20 zilqidə hicri 728-ci ildə orada vəfat etmişdir. Bax; Təzkirətul-huffaz, c. 4, s. 278; əl-Bidayə vən-nihayə, c. 14, s. 132; Təbaqatul-hənabilə, c. 1, s. 337; c. 2, s. 341; ən-Nucumuz-zahirə, c. 9, s. 27 və s. 272.

deyərsə, kafirdir deyilsin. Lakin həmin sözü deyən müəyyən bir şəxs təkfir edilməz. Ta ki, sultan və ya itaət olunan əmir tərəfindən şəriət hökmünün bəyanı tərk edənin kafir olacağı bir höccət formasında olsun. Necə ki, şəriət hökmlərindən bəhs edən kitablarda belə deyilir. Əgər hökmü bilərsə, cəhalət ondan gedərsə, höccət onun əleyhinə tamamlanmışdır. Bu Quran və sünnədə qeyd olunan, ilahi cəza barədə bəhs edən dini mətnlərdə belədir. Belə dini mətnlər çoxdur. Həmin mətnlərin tələbinə müvafiq müəyyən şəxsə aid olmadan mütləq formada deyilməsi vacibdir. Məsələn, bu kafirdir, fasiqdir, məlundur, qəzəbə uğramışdır, cəhənnəmdə yanmağa layiqdir deyilməz. Xüsusilə də, həmin şəxsin fəzilətləri və yaxşı əməlləri olarsa. Peyğəmbərlərdən başqasının kiçik və böyük günahlar etməsi mümkündür. Bununla yanaşı həmin şəxs siddiq və ya şəhid yaxud da əməlisaleh ola bilər". Başqa yerlərdə də bu barədə geniş danışaraq günahların tövbə, istiğfar, pislikləri pozan yaxşı əməllər, kəffarə olan müsibətlər, qəbul olan şəfaət, sırf Allahın iradəsi və ya rəhməti ilə aradan getməsi mümkündür demişdir. Əgər **"Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı Cəhənnəmdir",** [142] **"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər",**[143]**"Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun hədlərini aşarsa..."** [144] **"Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin...",**[145] **"Hər kəs təcavüz və zülm etməklə bu işləri görərsə..."**[146] bundan başqa ilahi cəza barədə olan ayələr, həmçinin Peyğəmbərin (s) "Araq içənə və ya

---

[142] Nisa surəsi, ayə 93.

[143] Nisa surəsi, ayə 10.

[144] Nisa surəsi, ayə 14.

[145] Bəqərə surəsi, ayə 188.

[146] Nisa surəsi, ayə 30.

valideyininin üzünə ağ olana Allah lənət edər", "Kim yer üzərində fəsad yayarsa və ya kim Allahdan qeyrisi üçün qurban kəsərsə Allah ona lənət edər"[147] yaxud "Allah oğruya lənət edər", "Allah sələm yeyənə, verənə, şahidlik edənə, yazana lənət edər"[148], "Allah sədəqəni qadağan edənə və həddini aşana lənət edər"[149] və ya "Mədinədə bir hadisə törədənə və ya hadisə törədənə sığınacaq verənə Allahın, mələklərin və bütün insanların lənət olsun"[150] bundan başqa ilahi cəza barəsində olan rəvayətlərə əsasən bu əməllərin bəzilərini edən şəxsə müəyyən edə bilməzsən. Bu müəyyən şəxsə qeyd olunmuş ilahi cəzalar aid olacaq deyə bilməzsən. Çünki cəzanı aradan aparacaq tövbə kimi əməlin olması mümkündür". Sonra davam edərək belə deyir: "Bu əməlləri edən ictihad və ya təqlidə əsasən onu

---

[147] Müsnədi Əhməd bin Hənbəl, c. 1, səh. 9, hədis 5716: Müsnədi Əbu Yəla Mosuli, hədis 5583; Təbərani, əl-Kəbir, hədis 753; Beyhəqi, Şuəbul-iman, hədis 5583-də Abdullah bin Ömərdən; İbn Əbu Şeybə, əl-Musənnəf, c. 6, s. 447; Sünəni Əbu Davud, hədis 3674; Sünəni İbn Macə, hədis 3380; Səhih Buxari, c. 12, s. 72; Səhih Müslim, c. 2, s. 32; Sünəni Nəsai, c. 2, dəh. 254; İbn Macə Albaninin Səhihus-sünən əsəri, c. 2, s. 87, hədis 2096, 2583. Hədisin mətni: Əbu Hüreyrə belə nəql edir: "Rəsulullah (s) belə buyurub: "Allah oğruya lənət etsin. Yumurta oğurlayar, buna görə əli kəsilər, ip oğurlayar əli kəsilər". Bu hədis aşağıdakı mənbələrdə də Əbu Hüreyrədən nəql olunub: İrvail-ğəlil fi təxrici mənaris-səbil, hədis 2410; Müsnədi Əhməd bin Hənbəl, c. 7, s. 240, hədis 7430.

[148] İbn Macə, Səhihus-sünən, hədis 1935; Sünəni Tirmizi, hədis 1119; Müsnədi Əhməd bin Hənbəl, c. 2, s. 67, hədis 1635, Əli bin Əbu Talibdən (ə) nəql olunmuşdur. Müsnədi Bəzzaz, hədis 820; Müsnədi Əbu Yəla Mosuli, hədis 402, 516, Əbdürrəzzaq, əl-Musənnəf, hədis 10792; Səhih Buxari, hədis 5347, Əbu Cuheyfə vəhəb bin Abdullah Səvaifən; Səhih Müslim, hədis 1598; Sünəni Nəsai, hədis 3416, Abdullah bin Məsuddan.

[149] İbn Xuzeymə, əs-Səhih.

[150] Səhih Buxari, kitabul-itisam fil-kitabi vəs- sünnə, bab əsimə mən avə muhdisən, hədis 1867, Səhih Müslim, hədis 1366; Müsnədi Əhməd bin Hənbəl, hədis 13087, 13128, Ənəs bin Malikdən. Həmçinin Müsnədi Əhməd, hədis 1309; Səhih Müslim, hədis 1978; Sünəni Nəsai, hədis 4422, Əli bin Əbu Talibdən (ə) nəql olunmuşdur.

mübah hesab edə bilər. Məqsəd budur ki, o, üzürlüdür. Cəzanın ona şamil olması üçün maneə var. Necə ki, tövbə, pislikləri aradan aparan yaxşı əməllər, kəffarə olacaq müsibətlər və bundan başqa cəzanın ona yetişməsinin qarşısını alacaq maneələr var. Bu məsləyə əməl etmək vacibdir. Bundan başqa olan digər iki məslək isə çirkindir. Birincisi, qeyd olunan mətnlərə əsasən bu cəzaların hər bir kəsə aid edilməsini iddia etmək. Bu günah əmələ görə təkfir edən xəvaricin, mötəzilənin və başqalarının rəyindən daha çirkindir. Bunun batil olması məlumdur. Dəlilləri başqa yerdə var. Cəza barəsində olan bu və digər mətnlər haqdır. Lakin bunları edən müəyyən şəxsin həmin cəzaya yetişəcəyini demək olmaz. Qiblə əhlindən müəyyən birinin cəhənnəmə vasil olacağını demək olmaz. Çünki şərtlərdən biri aradan gedər və ya maneə hasil ola bilər. Beləcə bu sözləri deyən təkfir edilməz. Ola bilər ki, bu sözü deyənə haqqı tanımaq üçün dini mətnlər gəlib çatmamışdır. Ola bilər ki, gəlib çatmışdır, lakin onun nəzərində sabit olmamış, yaxud dərk edə və anlaya bilməmişdir. Ola bilər ki, elə bir şübhəyə məruz qalmışdır ki, Allah onu bağışlayacaq. Allaha və Rəsuluna iman gətirən, İslamı aşkar edən, Allahı və Rəsulu sevən şəxs söz və ya əməl cəhətindən bəzi günahları etsə belə, Allah onu bağışlayar. İstər ona şirk, istərsə də günah deyilsin. Rəsulullahın (s) səhabələri və müsəlmanların imamlarının əksəriyyəti bu rəydədir.

İmamların məzhəbi bu təfsilatladır, yalnız növ və cinsdə fərq var. İmam Əhməd, Malik, Əbu Hənifə, Şafei kimi İslam imamlarından nəql olunan rəy budur ki, "iman sözdür əməl deyil" deyən murciəni təkfir etmirdilər. Onlardan nəql olunan mətnlərdə xəvaricin, qədərilərin və başqalarının təkfir edilməsindən çəkinmək aşkarcasına məlumdur. Yalnız İmam Əhməd cəhəmiyyənin təkfir olunmasını deyirdi. Çünki o, onların əli ilə möhnət çəkmiş və məqsədlərinin həqiqətini bilmişdir. Onların məqsədləri ilahi sifətlərin inkar edilməsidir. Cəhəmiyyənin təkfir

edilməsi sələf və imamlar arasında məşhurdur. Lakin onların başçılarını təkfir etmirdilər. Halbuki bir sözə dəvət edən ona dəvət etməyib yalnız onu deyəndən daha təhlükəlidir. Müxalif olanı cəzalandıran dəvət edəndən daha xətərlidir. Təkfir edən cəzalandırandan daha xətərlidir. Bununla yanaşı əmr sahiblərindən cəhəmiyyənin sözlərini demişlər: Quran məxluqdur, Allah axirət günü görsənməyəcək, Allahı tanımaq üçün Quranın və səhih hədislərin zahiri dəlil deyil, din yalnız onların bərbəzəkli rəyləri, batil xəyalları, azğın ağılları ilə kamil olur, Allahın dini barəsində onların xəyalları və cahillikləri Allahın kitabından və Rəsulullahın (s) sünnəsindən, səhabələrin və yaxşılıqla onlara tabe olanların icmasından daha aydın və aşkardır, cəhəmiyyənin və muəttilənin (ilahi sifətləri inkar edənlərin) rəyləri Allahın dinində bir şeyin inkarı və isbatı xüsusunda daha hökmlüdür. Bütün bunlara görə müsəlmanlar bəlalara düçar oldular. Onlar İmam Əhmədi həbs edib qırmancladılar, bir dəstə insanı qətlə yetirdilər, bəzilərini çar-mıxa çəkdilər. Bununla yanaşı əsiri azad etmirdilər, beytulmaldan onlarla müvafiq olanlara və sözlərini təsdiqləyənlərə verirdilər. Onların əli ilə İslamda çoxlu problemlər yarandı. Öz yerində bunlar qeyd olunubdur. Şəkdən də pis olan bu əqidə ilə yanaşı İmam Əhməd onlara mərhəmət etmiş, onlar üçün bağışlanmaq diləmiş və belə demişdir: “Onların Rəsulullahı (s) təkzib etməsini və gətirdiyi şəriəti inkar etdiklərini bilmirəm. Lakin onlar təvil edib xətaya yol verdilər və rəyi deyənlərə təqlid etdilər”. İmam Şafei muəttilə imamlarından olan Həfs Fərd ilə Quran barəsində diskussiya edərkən o belə dedi: “Quran məxluqdur”. İmam Şafei ona: “Uca Allaha küfr etdin” deyərək onu təkfir etdi. Lakin buna görə ona dindən çıxmış hökmü vermədi. Əgər onun mürtəd və kafir olduğunu düşünsəydi, onu qətlə yetirməyə səy edərdi. Alimlər onun, Ğəlyan Qədri, Cəd bin Dirhəm, cəhəmiyyənin imamı Cəhəm bin Səfvan və başqa dəvətçilərin qətlinə fətva verərdilər. İnsanlar onlara cənazə namazı

qılmış, onları müsəlmanlarla birlikdə dəfn etmişlərdi. Əgər onlar kafir olsaydılar müsəlmanlar onlara başqaları kimi baxardılar. Bu məsələlər başqa yerdə izah edilmişdir". Şeyxin sözü burda bitdi. Bu sözlərin böyük həcmli olmasına baxmayaraq qeyd etdim ki, əvvəldə deyilənlər, səhabələrin və sələfin icması darədə olan mövzu daha da aydın olsun. Əgər bu onların küfrüdürsə, iki şeyxin sözlərində onun şirkdən də böyük olduğunu əvvəlki səhifələrdə dəfələrlə qeyd etmişik. Bununla yanaşı Əhməd bin Hənbəlin zamanınadək səhabələrdən, tabeinlərdən və onların ardıcılları, onlarla diskussiya edən, haqqı onlara bəyan edən elm əhli, onların sözlərinin Qurana, sünnəyə və ümmətin səhabələrindən olan sələfinin icmasına, bundan əlavə ağıl və nəqlə müxalif olmasına, həmçinin bunun elm əhli tərəfindən onlara tamamilə bəyan edilməsinə baxmayaraq, onları, hətta qətlə yetirdikləri dəvətçilərini belə kafir adlandırmamışdılar.

Bunda sizin üçün yetərli bir ibrət yoxdurmu? Müsəlmanlar təkfir edir, qanlarını və mallarını halal bilirsiniz. Onların yaşadıqları məmləkətləri biladul-hərb hesab edirsiniz. Halbuki onlar yuxarıda qeyd etdiyimizin heç onda birinin onda birini etməmişlər. Əgər onlarda kiçik və ya böyük şirk olarsa, bu onların cahilliyindəndir. Onlar üçün tərk edildikdə küfrlə nəticələnən höccət tamamlanmamışdır. Belə güman edirsiniz ki, İslamın imamları olan bu görkəmli şəxsiyyətlərin sözləri ilə höccət tamamlanmadı, lakin sizin sözlərinizlə höccət tamamlandı. Əksinə siz Allaha and olsun ki, kafir adlandırdıqlarınızı kafir hesab etməyənləri də təkfir edirsiniz. Hətta onda şirk və küfr olmasa belə! Allahu əkbər! Siz çox pis iş edirsiniz! Ey Allahın qulları, Allahdan qorxun! Şiddətli əzabı olandan qorxun! Möminlərə əziyyət verdiniz. **"Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər!"**[151]Allaha

[151] Əhzab surəsi, ayə 58.

and olsun ki, sizin nəzərinizdə Allah qullarının günahı dini mətnlərin müsəlman olmasına dəlalət edən şəxsləri təkfir etməmələridir. Həmçinin bütün müsəlmanlar onların müsəlman olmasına icma etmişdir. Əgər sizə tabe olsalar Allah-təalanı və Rəsulunu (s) qəzəbləndirmiş olarlar. Əgər sizin rəylərinizə qarşı çıxsalar, onların kafir və mürtəd olmalarına hökm verərsiniz. Peyğəmbərdən (s) belə nəql olunmuşdur: "Ümmətim üçün onları qətlə yetirəcək aclıqdan və hücum edəcək düşmənlərdən qorxmuram. Lakin ümmətim üçün zəlalət imamlarından qorxuram. Əgər onlara itaət etsələr onları fitnəyə salarlar, əgər onlara qaşı çıxsalar onları qətlə yetirərlər".[152] Bu rəvayəti Təbəri Əbu Umamənin hədislərindən nəql etmişdir. Əbu Bəkr Siddiq – Allah ondan razı olsun – belə deyirdi: "Allaha itaət etdikcə mənə itaət edin. Əgər Ona asi olaramsa, mənim sizin üzərinizdə itaət haqqım yoxdur".[153]Həmçinin deyərdi: "Mən xəta edə və ya doğru ola bilərəm".[154] O, bir iş etmək istəyəndə səhabələri bir yerə toplayar və onlarla məşvərət edərdi. Ömər də Əbu Bəkrin dediyi kimi deyərdi, onun kimi edərdi. Həmçinin Osman və Əli də – Allah onların hamısından razı olsun – belə edərdilər. Elm əhlindən olan imamlar onların rəyinə əməl etməkdə heç kimi məcbur etməmişdir. Hətta Rəşid (Harun ər-Rəşid) insanları İmam Malikin – Allah ondan razı olsun – Muvatta kitabından öyrənməyə məcbur etmək istəmişdir. Malik ona belə demişdi: "Ey əmirəlmöminin, belə etməyin. Elm məndən qeyrisindən yayılmışdır". Yaxud da bu mənada bir söz demişdir. Həmçinin əhli-sünnə alimlərinin hamısı insanları onların rəylərinə əməl etməkdə məcbur

---

[152] Təbərani, əl-Mucəmul-kəbir, c. 8, s. 149, hədis 7653, Əbu Əmamə Bahilidən; Heysəmi, Məcməuz-zəvaid, c. 7, s. 239; Müsnədi Əhməd bin Hənbəl, hədis 21888; Sünəni Əbu Davud, hədis 4252; Sünəni İbn Macə, hədis 3952, Rəsulullahın (s) nökəri Sovbandan nəql etmişdir.

[153] əl-Muntəzəm fi tarixil-uməmi vəl muluk, c. 7, s. 68, 69, 70, hicri 11-ci ilin hadisələri.

[154] Həmin mənbə.

etməmişdilər. Siz isə sizin rəyinizi deməyəni təkfir edirsiniz. Səni Allaha and verirəm, məgər siz məsumsunuz?! Sizin sözlərinizə əməl etmək vacibdirmi? Əgər yox desən, bəs nə üçün rəyinizi qəbul etməyi ümmətə vacib edirsiniz? Yoxsa siz imam olduğunuzu və itaətinizin vacib olduğunu iddia edirsiniz? Səni Allaha and verirəm, de görüm: sizlərdən hər hansı bir kəsdə imamlıq şərtləri varmı? Allah xatirinə buraxın bu təəssübkeşliyi! Tutaq ki, elm əhlinin kəlamını bilməyən avamı, cahili üzürlü bildik, bəs Allahla qarşılaşdıqda, Onun yanında səni kim üzürlü sayacaq? Allaha xatir ayıl və göylərin və yerin qüdrətlisi olan Allahın cəzasından qorx! Sənə elm əhlinin sözlərini, nicata çatacaq firqə olan əhli-sünnə vəl-cəmaənin icmasını nəql etdik. İnşallah deyilənlər Allah hidayət etmək istədiyi şəxsin hidayətinə səbəb olar.

## ON BİRİNCİ FƏSİL

### İman, küfr və nifaqın müsəlmanda cəm olması

İbn Qəyyim Şərhul-mənazil kitabında belə deyir: "Əhli-sünnə müttəfiqdirlər ki, bir şəxsdə Allahın vilayəti və ədavət iki fərqli cəhətdən ola bilər: İki cəhətdən Allah üçün sevimli və nifrətə layiq ola bilər. Hətta onda iman və nifaq, iman və küfr ola bilər. Onlardan birinə digərinə nisbətdə daha yaxın olur. Bununla da layiq olduğuna daha yaxın olur. Allah-təala buyurur: **"...Onlar o gün imandan çox küfrə yaxınlaşmışdılar..."**[155], **"Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar"**[156]. Allah-təala şirklə yanaşı onların imanının olmasını təsbit edir. Əgər bu şirklə yanaşı Allahın peyğəmbərlərinin də təkzibi olsaydı, onların imanlarının bir mənfəəti olmazdı. Əgər peyğəmbərlərin təsdiqi ilə yanaşı şirkin növlərini etmiş olsalar da bu, onları peyğəmbərlərə və axirət gününə iman gətirməkdən xaric etməz. Onlar böyük günah edənlərdən daha çox cəzaya layiqdirlər. Bu prinsipə əsasən əhli-sünnə böyük günahları edənin cəhənnəmə daxil olacaqlarını, sonra cəhənnəmdən çıxaraq cənnətə daxil olacaqlarını demişlər. Çünki onlar bu iki səbəbi qəbul edirlər. İbn Qəyyim deyir: "İbn Abbas – Allah ondan razı olsun – **"...Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!"**[157] ayəsi barəsində belə deyir: Bu islamdan çıxaracaq küfr deyildir. Əgər onu edərsə küfr edər. Lakin Allaha və axirət gününə küfr etmək kimi deyil. Tavus və Əta da belə demişlər". Onun sözü bitdi. Şeyx Təqiyuddin belə deyir: "Səhabələr və tabeinlər belə deyirdilər: Bir qulda iman və nifaq olar. Allahın bu ayəsi buna dəlalət edir: **"...Onlar o**

---

[155] Ali İmran surəsi, ayə 167.

[156] Yusuf surəsi, ayə 106.

[157] Maidə surəsi, ayə 44.

**gün imandan çox küfrə yaxınlaşmışdılar...”[158]**. Bu sələfin sözlərində çox qeyd edilmişdir. Bəyan edirlər ki, qəlbdə iman və nifaq ola bilər. Quran və sünnə buna dəlalət edir. Buna əsasən də Peyğəmbər (s) belə buyurur: “Kimin qəlbində bir zərrə iman olan olarsa, cəhənnəm odundan çıxar”.[159] Bununla da məlum olur ki, kimdə ən az belə iman olarsa, cəhənnəm odunda əbədi qalmayacaq. Əgər onda çoxlu nifaq olarsa, cəhənnəmdə həmin miqdarda əzab çəkəcək sonra oradan çıxacaq”. Sonra davam edərək belə deyir: “İnsanda iman şöbəsindən bir şöbə və nifaq şöbəsindən bir şöbə olur. Ola bilər ki, müsəlman olsun və onda İslamdan çıxmasına səbəb olmayacaq küfr də olsun. Necə ki, səhabə İbn Abbas və qeyriləri küfrdən fərqli küfr olduğunu demişdir. Sələfin ümumi rəyi budur”. Bu fəsilə diqqət elə və onların sələfdən nəql etdikləri icmaya nəzər sal. Siz ən az küfrə görə təkfir edirsiniz. Hətta küfr etdiyini zənn etdiyinizi belə təkfir edirsiniz. Hətta aşkarca İslamı qəbul etmiş birini belə təkfir edirsiniz. Sizin kafir hesab etdiyinizi Allah-təalanın qorxusundan kafir hesab etməyən belə, sizin nəzərinizdə kafirdir. Böyük Allahdan istəyirik ki, sizi zülmətlərdən nura çıxartsın. Bizi və sizi Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər, şəhidlər və salehlərin olduğu doğru yola hidayət eləsin.

---

[158] Ali İmran surəsi, ayə 167.

[159] Səhih Müslim, c. 1, s. 125; Sünəni İbn Macə, hədis 4312; Müsnədi Təyalasi, hədis 1966; Sünəni Tirmizi, c. 2, s. 98; Sünəni İbn Xüzeymə, hədis 189: Səhih Buxari c. 4, s. 454. Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 116; Sünəni İbn Hatəm, c. 4, s. 411; Sünəni İbn Əbu Asim, c. 2, s. 395, hədis 849, Əbu Səid Xudridən və Ənəs bin Malikdən belə nəql edir: “Rəsulullah (s) belə buyurub: “(Allah buyuracaq) qəlbində bir xardal dənəsi miqdarında iman olanı cəhənnəm odundan çıxarın!” Səhih Müslim, hədis 193; Müsnədi Əhməd bin Hənbəl, hədis 2187; Səhih Buxari, hədis 7510.

## ON İKİNCİ FƏSİL

### Şəriət hökmlərinin batinə deyil, zahirə əsasən tənzimlənməsi

Şeyx Təqiyuddin Kitabul-imanda belə deyir: “İman dünyada hökmlərin icra edildiyi zahirdir. İman batinəəsaslanmır. Allaha və axirtə gününə iman gətirdik deyən münafiqlər mömin deyillər. Onlar zahirdə mömindirlər. Müsəlmanlarla birlikdə namaz qılırlar, onlarla evlənirlər, onlardan irs aparırlar. Necə ki, Rəsulullahın (s) zamanında olan münafiqlərə Peyğəmbər nə evlənməkdə, nə də miras məsələlərində küfrü izhar (aşkar) edən kafirlərin hökmünü verməmişdir. Hətta insanlar içərisində nifaqda ən məşhur olan Abdullah bin Ubəy öldükdə oğlu ondan irs apardı. O, (Abdullahın oğlu) ən xeyirli möminlərdən idi. Həmçinin münafiqlərdən ölənlərin mömin varisləri onlardan irs aparırdılar. Əgər onların bir varisi ölərdisə, müsəlmanlarla birlikdə ondan irs aparardılar. Baxmayaraq ki, onun batində münafiq olduğunu bilirdilər. Həmçinin cəza və hüququ məsələlərdə də digər müsəlmanlar kimi idilər. Onlar Peyğəmbərlə (s) birlikdə savaşa gedirdilər. Onlardan bəziləri Təbuk döyüşündə Peyğəmbəri (s) qətlə yetirmək belə istəmişdilər. Bununla yanaşı zahirə əsasən onlara iman əhlinin hökmləri tətbiq olunur”. Sonra belə deyir: “Onların qanları və malları qorunur. Kafirlərdən halal olan onlardan halal olmaz. Peyğəmbər (s) belə buyurub: “İnsanlar Allahdan başqa ilah yoxdur və mən Onun elçisiyəm” deyənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur. Elə ki, bunu dedilər qanları və malları haqqı ilə qorunar. Onların hesabı Allaha aiddir”.[160] Həmçinin Üsaməyə belə demişdir: “Onu la ilahə illəllah deyəndən sonra qətlə yetirdin?!”. Üsamə

---

[160] Səhih Buxari, hədis 1399, 1456, 1357; Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 270, 271, hədis 117, Əbu Hüreyrədən; Sünəni Nəsai, c. 6, s. 5; c. 7, s. 78; İbn Hibban, əs-Səhih, hədis 216; Səhih Müslim, hədis, 20; Sünəni Tirmizi, hədis 2607; Sünəni Əbu Davud, hədis 1556.

dedi: “Canını qurtarmaq üçün belə dedi”. (Peyğəmbər) dedi: “Sən onun qəlbini açıb içinə baxmışdın?”[161]

Həmçinin Peyğəmbər (s) buyurub: “Mənə insanların qəlblərini, batinlərini arayıb-araşdırmaq əmr edilməmişdir. [162] Ondan (Peyğəmbərdən) bir kəsin qətlə yetirilməsi üçün izin alındıqda belə deyərdi: “Məgər o namaz qılmır? Məgər şəhadət gətirmir?” Əgər ona bir kəs barəsində : “O, münafiqdir” deyilərdisə, o, həmişə belə deyərdi.[163] Onların qanları və malları barədə başqalarının malları və qanları barədə verdiyi hökm kimi hökm verirdi. Onların qanlarını və mallarını halal bilmirdi. Baxmayaraq ki, onların çoxunun nifaqını bilirdi”. Şeyxin sözü bitdi. İbn Qəyyim Əlamul-muqiin kitabında belə deyir: “İmam Şafei belə deyir: “Allah-təala itaətini xəlqə vacib etmişdir. Onlara bu məsələdə heç bir ixtiyar verməmişdir. Onlara kiminsə eybi barədə dəlil və ya gümanla hökm çıxartmaq səlahiyyəti verməmişdir. Çünki onların elmləri peyğəmbərlərinin elmindən naqisdir. O, peyğəmbərlərinə bir şeylə qarşılaşdıqda dayanmağı və əmrinin gəlməsini tapşırmışdır. Allah-təala höccətləri onlara aşkar etmişdir. Dünyadakı hökmünü məhkumun zahirinə əsasən vermişdir. Peyğəmbərinə (s) vacib etmişdir ki, müsəlman olanadək onlarla vuruşsun. İslamı qəbul etsələr onların qanlarının tökülməsinin qarşısını alsın. Bil ki, onların həqiqətən də, müsəlman olmalarını Allah-təaladan başqa heç kim bilmir. Bundan sonra Allah-təala peyğəmbərinə İslamı aşkar edib başqa əqidəni gizləyənləri tanıtdırdı.

---

[161] Səhih Müslim, hədis 96; Sünəni Əbu Davud, hədis 2643; Müsnədi Əhməd bin Hənbəl, hədis 21295.

[162] Səhih Buxari, hədis 4351; Səhih Müslim, hədis 1064; Müsnədi Əhməd bin Hənbəl, hədis 10625, Əbu Səid Xudridən..

[163] Səhih Müslim, hədis 33; Müsnədi Əhməd bin Hənbəl, 23259, Osman bin Malikdən; Sünəni Nəsai, hədis 3982; Müsnədi Əhməd bin Hənbəl, hədis 15727; Sünəni Darəmi, hədis 2446, Ovs bin Huzeyfə Səqəfidən nəql olunur; Malik bin Ənəs, əl-Muvatta, hədis 415, Ubeydullah bin Udəy bin Xiyardan nəql olunur.

Onlara islam hökmündən fərqli hökm verməsinə izin verməmişdir. Həmçinin ona icazə verməmişdi ki, dünyada onların zahirinə müxalif hökm versin. Allah-təala Peyğəmbərə (s) belə buyurmuşdur: **“Bədəvi ərəblər: “Biz iman gətirdik!” – dedilər. (Ya Peyğəmbər! Onlara) de: “Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: “Biz islamı qəbul etdik!” – deyin...”**[164]. Yəni deyin ki, qətlə yetirilməkdən və əsir düşməkdən qorxduğumuz üçün sözdə İslamı qəbul etdik. Bundan sonra onlara bildirir ki, əgər Allah-təalaya və Onun Peyğəmbərinə (s) itaət etsələr onlara mükafat verəcəkdir. Münafiqlər barəsində – onlar ikinci sinifdir – Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: **“Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk! – deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbər olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir. Onlar (yalan) andlarını özlərində sipər edib (xalqı) Allah yolundan döndərirlər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir!”**[165] Yəni onlar qətlə yetirilməkdən qorunmaq üçün and içirdilər. Həmçinin Allah buyurur: **“(Münafiqlər) sizdən olmaya-olmaya mütləq sizdən olduqları barədə Allaha and içərlər...”**[166]Allah Peyğəmbərə onların zahirinə əsasən hökm verməyi və iman hökmünə müxalif hökm verməməyi əmr etmişdir. Allah-təala Peyğəmbərinə (s) münafiqlərin cəhənnəmin ən aşağı qatında olacaqlarını xəbər vermişdir. Allah-təala öz hökmünü onların batininə əsasən verir. Peyğəmbərin (s) dünyada onlar barəsindəki hökmünü isə zahirə əsasən olmasını qərar vermişdir”.

Sonra davam edərək belə deyir: “Allah onların yalan dedikləri hər sözü təkzib etmişdir. Peyğəmbər (s) bu barədə Allahdan xəbər vermişdir. Malik bizə İbn Şəhabdan, o da Əta bin Yəziddən, o da Ubeydullah bin

---

[164] Hücurat surəsi, ayə 14.

[165] Münafiqun surəsi, ayə 1, 2.

[166] Tövbə surəsi, ayə 56.

Yəzid bin Udəy bin Xiyardan belə nəql edir: “Bir kişi Peyğəmbərin (s) yanına gəlib bir söz dedi. Onun nə dediyi məlum olmadı. Rəsulullah (s) onun dediyini aşkar etdi. O, Peyğəmbərə münafiqlərdən bir nəfəri qətlə yetirməyi demişdi. Peyğəmbər (s) ona belə dedi: “Məgər o, la ilahə illəllah demirmi? (Həmin adam) dedi: “Bəli deyir. Onun qıldığı namaz həqiqi deyil”. Peyğəmbər (s) buyurdu: “Allah onun kimiləri qətlə yetirməyi mənə qadağan etmişdir”.[167] Bundan sonra “Allahdan başqa ilah yoxdur deyənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur”[168] hədisini dedi. Onların yalan və ya doğru dedələri, qəlblərində olanların sorğu-sualı qəlblərdən agah olan Allaha aiddir. O, peyğəmbərlərinin və yaratdıqlarının hökmü olmadan onlara hökm verəcək. Bununlada Rəsulullahın (s) insanlar arasında zahirə əsasən cəza və ya başqa mülki məsələlərdə hökm verməsi məlum olur. O, insanlara bildirmişdi ki, bütün hökmləri onların zahirinə əsasəndir. Allah isə qəlblərdəkinə əsasən hökm

---

[167] Səhih İbn Hibban, c. 7, s. 584, hədis, 594. Abdullah bin Udəy Ənsaridən belə nəql olunur: “Peyğəmbər (s) insanların arasında əyləşmişdi. Bir kişi gəlib ona söz demək üçün izin sitədi. Ona münafiqlərdən bir kişinin qətlə yetirilməsi barədə gizli söz dedi. Peyğəmbər (s) uca səslə dedi...” Müsnədi Əhməd bin Hənbəl, hədis 23158; Ənəs bin Malik, əl-Muvatta, hədis 415.

[168] Səhih Buxari, c. 1, səg. 417; Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 199 və 225; Bəğəvi Şərhus-sunnə, c. 1, s. 67, hədis 44; Sünəni Əbu Davud, hədis 2641; Sünəni Tirmizi, hədis 2611; Səhih İbn Hibban, c. 1, s. 200, hədis 175 və hədis 218; c. 7, s. 557, hədis 5865. Ənəs bin Malikdən belə nəql olunur: “Rəsulullah (s) belə buyurub: “İnsanlar Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsuludur deyənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur. Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun rəsuludur deyərlərsə, qibləmizə tabe olarlarsa, kəsdiyimiz heyvanların ətindən yeyərlərsə, qıldığımız namazları qılarlarsa, onların qanı və malı bizə haramdır. Müsəlmanlar üçün olanlar onlar üçündür, onların (müsəlmanların) əleyhinə olanlar onlarında əleyhinədir”. Bu hədis İbn Ömərdən, Əbu Hüreyrədən, Ənəs bin Malikdən və Həmid Tavildən nəql olunmuşdur.

verir. Kim zahirə xilaf hökm çıxararsa, Quran və sünnəyə müxalif olduğu üçün mənim nəzərimdə düzgün deyildir”.

Sonra davam edərək deyir: “Kim İslam sözünü izhar edərsə, yəni Allahdan başqa ilahın olmamasına və Muhəmmədin (s) onun peyğəmbəri olmasına şəhadət gətirərsə, bu ondan qəbul olunar. Ondan batinindəkini aşkar etmək və dediyinin mənası barədə sual soruşulmaz. Onun batinindəkilər və qəlbindəkilər peyğəmbərə və ya başqasına deyil, məhz Allaha aiddir. Bu Allahın dini və ümmətin alimlərinin icmasıdır”. Şafeinin – Allah ona rəhmət eləsin – sözləri burda bitdi. İbn Qəyyim Şafeinin sözlərini nəql etdikdən sonra belə deyir: “Bu hökmlər Peyğəmbər (s) tərəfindən icra olunmuşdur. Sonra səhabələr, onlara yaxşılıqla tabe olan tabeinlər və imamlar, ümmətindən onun ardınca gedən alimlər bu yolla getmiş və qiyamətə qədər gedəcəklər”.

## ON ÜÇÜNCÜ FƏSİL

### Müsəlmanları təkfir etməyin caiz olmamasının dəlilləri

İctihad şərtlərini özündə cəm etməyən birinə təqlid etməyin və dində ona tabe olmağın caiz olmaması, elm əhlinin rəyləri və icmaları barədə danışdıq. Dedik ki, ictihad şərtlərini özündə cəm etməyən şəxsin təqlid etməsi vacibdir. Bu məsələdə heç bir ixtilaf yoxdur. Həmçinin dedik ki, əhli-sünnənin icmasına əsasən kim Rəsulullahın (s) şəriətini təsdiqləyərsə və əməl edərsə, onda böyük küfr və şirkdən bir xislət olsa belə, tərk edilməsi küfrlə nəticələnən höccət tamam olmadan onu təkfir etmək olmaz. Höccət güman yolu ilə deyil, qəti şəkildə məlum olan icma ilə tamam olur. Höccəti tamamlayan imam və ya onun naibi olmalıdır. Küfr yalnız İslam dininin – Allahın varlığı, vəhdaniyyəti, peyğəmbərlik kimi zəruri prinsiplərini yaxud namazın vacibliyi kimi aşkar məsələləri inkar etdikdə baş verir. Peyğəmbəri (s) təsdiqləyən müsəlman onun səviyyəsində olacaq birinə qaranlıq qalan şübhəyə istinad edərsə, təkfir edilməz. Əhli-sünnə vəl-cəmaə məzhəbi İslama mənsub olanları təkfir etməkdən çəkinir. Hətta onlar zərərlərini dəf etmək üçün qətl fərmanı verdikləri bidət imamlarını belə təkfir etməkdən çəkinirlər. Bir şəxsdə küfr, iman, nifaq və şirk cəm ola bilər. Hər küfrə görə təkfir edilməz. Kim İslamı təsdiqləyərsə, istər doğru olsun, istər yalan, bu ondan qəbul olunar. Hətta onda nifaqın bəzi əlamətləri aşkar olarsa belə. Təkfirçilər özləri həvayi-nəfsə uyan bidət əhlidirlər. Cəhalət təkfir olunmamamaq üçün üzr hesab olunur. Həmçinin zəif olsa belə, şübhə də bucürdür. Bundan başqa məsələləri əvvəlki səhifələrdə qeyd etmişdik. Sizin müsəlmanların və onların imamlarının sıralarında təfriqə saldığınız bidətinizdən dönməniz üçün qeyd etdiklərimiz yetərlidir. Biz özümüzdən bir şey istinbat etmədik. Yalnız alimlərin kamil ictihad əhlindən nəql etdiklərini qeyd etdik. İndi isə Allahdan qeyrisini çağıran, Allahdan

qeyrisi üçün nəzir edən, Allahdan qeyrisi üçün qurban kəsən, qəbrə əl sürtən və ya təbərrük edən müsəlmanı təkfir etməyinizin doğru olmaması barədə dəlilləri qeyd edək. Siz sadalanan işləri yerinə yetirənləri kafir hesab etməyənləri belə, təkfir edirsiniz. Hətta islam məmləkətini küfr və hərb məmləkəti qərar vermisiniz. Sizin bu məsələdə əsas dəliliniz Qurandan istinbat etdiklərinizdir. Qeyd edildiyi kimi sizin kimilərin istinbat etməsi caiz deyil. Sizin elm əhlinə iqtida etmədən müstəqil şəkildə anladığınıza etimad etməniz caiz deyil. Allaha və axirət gününə iman gətirən heç kim islam imamlarına iqtida etmədən anladığınız məsələlərdə sizə təqlid edərsə bu icazəli deyil. Əgər desəniz ki, bu əməllərin bəzilərinin şirk olması xüsusunda bəzi elm əhlinə təqlid edirik. Bizdə deyərik ki, bəli düzdür. Sizinlə razıyıq ki, bu əməllərdən eləsi var ki, şirkdir. Lakin elm əhlinin "bu Quranda Allah-təalanın buyurduğu, qanın və malın halal olmasına səbəb olan böyük şirkdir" deməsini hardan götürmüsünüz? Hardan deyirsiniz ki, onlara mürtəd hökmü tətbiq edilməlidir? Hardan deyirsiniz ki, onların kafir olmasında şəkk edən özü kafirdir? Deyin görək müsəlmanların imamlarından kim bunu demişdir? Onların sözlərini nəql edin. Bu sözlərin yazıldığı kitabların adlarını sadalayın! Bu məsələdə icma ediblər, yoxsa ixtilaf ediblər? Biz bəzi elm əhlinin kəlamlarını mütaliə etdik, lakin sizin bu sözlərinizə rast gəlmədik. Əksinə sizin sözlərinizə zidd olan dəlillərlə rastlaşdıq. Küfr Allahın varlığı, vəhdaniyyəti, peyğəmbərlik kimi zəruri prinsipləri, yaxud İslamın beş ərkanı kimi vacibliyində qəti şəkildə icma edilmiş məsələlərin inkarı ilə olur. Bununla yanaşı kim cəhalət üzündən bunları inkar edərsə, cəhaləti aradan gedənədək kafir hesab edilməz. Cəhalət aradan getdikdən sonra inkar edərsə, Allah-təalanı və Rəsulullahı (s) inkar etmiş olur. Sizin istinad edərək təkfir etdiyiniz məsələlər zəruri məsələlərdən deyil. Əgər desəniz ki, bu alimlərin icma etdiyi bir məsələdir. Sizə deyərik ki, bu barədə alimlərin rəylərini bizə deyin. Onlardan nəinki namaz qədər aşkar

olan bir məsələ barəsindəki icma kimi, min və ya yüz və yaxud on, heç olmasa bir nəfərin belə rəyini deyin. Əgər əl-İqna kitabında Şeyxə nisbət verilən "Kim Allahla öz arasında vasitələr qərar verərsə" sözlərinə rast gələcəksinizsə, bu müfəssəl deyildir. Bu məfhumların elm əhli tərəfindən müfəssəl izahını təqdim edin ki, cəhalət bizdən uzaqlaşsın. Lakin ən təəccüblüsü budur ki, siz qeyd etdiklərimi təkfir edərkən bu xüsusiyyətlər barədə danışanların sözünə əsaslanırsınız. Lakin onun və kitablarında bu sözü nəql edənlərin məqsədinə müxalif olan mənaya dəlil gətirirsiniz. Halbuki onlar nəzir, qurban kəsmək və bəzi dualar barədə danışmışlar. Bəziləri təbərrük, qəbrə əl sürtmək, təbərrük məqsədilə qəbirlərin torpağından götürmək və qəbirlərin başına dolanmaq kimi məsələləri məkruh əməllərdən hesab etmişlər. Alimlər kitablarında bunu qeyd etmişlər. Onlardan olan əl-İqna kitabının müəllifi belə deyir: "Qəbrin yanında yatmaq, onu suvamaq, əhəngləmək, ətirləmək, öpmək, tavaf etmək, yanında buxur yandırmaq, üzərində yazı yazmaq, qəbri çuxurda basdırmaq, xəstəlikdən sağalmaq üçün türbətdən şəfa diləmək məkruhdur. Bütün bunlar bidətdir". Siz bu işlərə görə təkfir edirsiniz. Əgər desəniz ki, əl-İqna kitabının müəllifi əl-Furu kitabının müəllifi kimi hənbəli alimlərindəndir. Cahildirlər və dinin zəruri prinsiplərini bilmirlər. Hətta sizin prinsiplərinizə əsasən kafirdirlər. Cavabında belə deyərik: Onlar öz rəyləri və ya özlərindən üstün olanın rəyi barədə danışmayıblar. Onlar İslam imamlarından biri, ümmətin imamlığında icma etdiyi Əhməd bin Hənbəlin rəyini nəql ediblər. Belə güman edirsiniz ki, cahil olan şəxs elm əhlindən olan imamlara deyil, sizə təqlid etməlidir? Qeyd etdiyimiz kimi elm əhli icma etmişdir ki, yalnız müctəhid imamlara təqlid etmək caizdir. İctihad rütbəsinə çatmayan hər kəs ictihad əhlinin rəyini və fətvasını nəql etməlidir. Fətva soruşan biri onlardan fətva soruşduqda sanki imamlardan soruşur. Çünki onlar öz rəylərini deyil, ictihad və təqlid əhlinin rəyini deyirlər. Elm əhlinin əksəriyyəti bunu deyir. Əgər mütaliə

etsən rast gələrsən. Qeyd edilənlərdə sənə kifayət edəcək qədər məlumat var. Məqsədimiz budur ki, müsəlmanların təkfir olunması üçün dəlil gətirdiyiniz rəylər sizin məqsədinizi ehtiva etmir. Çünki dəlil gətiridiyiniz bu rəylərin sahibləri nəzir, dua, qurban kəsmək və başqa məsələləri qeyd etmişlər, lakin bunun dindən çıxmağa səbəb olan küfr hesab etməmişlər. Yalnız Şeyx bəzi yerlərdə günahların bağışlanması, yağışın yağdırılması və bitkilətin bitməsi kimi duanın (burada yardım diləmək) müəyyən növünün küfr olmasını qeyd etsədə, tərk olunacağı halda küfrlə nəticələnən höccət tamam olmadan və şübhə aradan getməyincə onu yerinə yetirəni təkfir etməyin caiz olmadığını demişdir. Qeyd olunan duanın küfrə səbəb olması rəyi üçün icma olduğunu deməmişdir ki, siz də bu sözə əsasən dəlil gətirəsiniz. Hətta Allaha and olsun ki, sizin sözünüzə əsasən Şeyxin özü və tərəfdarları belə təkfir edilməlidir. Allahdan salamtlıq diləyirik! Sizin bu sözdən anladığınızın səhv olduğuna dəlalət edən dəlillərdən biri də budur: Onlar mürtədlik bölümündə hər məzhəbin imamına uyğun olaraq küfrə səbəb olan əməlləri qeyd etmişlər. Onlardan heç kim "Allahdan qeyrisinə nəzir etmək küfrdür" deməmişdir. Hətta sözləri ilə dəlil gətirdiyiniz Şeyxin özü belə, yardım istəmək məqsədilə şeyxlərə nəzir etmək məxluqa and içmək kimidir demişdir. Necə ki, əvvəlki səhifələrdə bunu qeyd etmişdik. Məxluqa and içmək böyük şirk deyildir. Əksinə Şeyx deyir: "Kim ehtiyaclarının həll olunması üçün nəzir edin deyərsə, tövbə etməsi tələb olunmalıdır. Əgər tövbə edərsə, bağışlanar. Əks təqdirdə isə yer üzərində fəsad yaydığı üçün qətlə yetirilməlidir". Şeyx onun qətlini küfr deyil, həd cəzası olaraq təyin etmişdir. Həmçinin nəzirlər barəsində onun dediklərini qeyd etmişdik. Onlar Allahdan qeyrisindən tələb etmək küfrdür deməmişlər. Allahın izni ilə onun küfr olmadığını qeyd edəcəyik. Həmçinn Allahdan qeyrisi üçün qurban kəsmək küfrdür deməmişlər. Belə güman edirsiniz ki, onlar bu sözləri deyib mənasını anlamırdılar? Yoxsa onlar insanları azdırmaq

istəyirdilər? Yaxud onlar sizin anladığınız mənadan insanları uzaqlaşdırmaq istəyirdilər? Yoxsa siz onların sözlərindən başa düşdüklərinizi onlar anlamamışlar? Yaxud müsəlmanın təkfir edilməsinə, malının və canını halal olmasına səbəb olacaq aşkar küfrü tərk etmişlər? Bunu bəyan etməmişlər, əksinə ona xilaf olan mənanı bəyan etmişlər, ta siz gəlib onların sözlərindən bunu istinbat etmisiniz? Allaha and olsun ki əsla yox! Onun məqsədi hara, sizin məqsədiniz hara? Onlar bir vadidə, siz isə başqa vadidəsiniz?

Sizin sözlərinizin və təkfirinizin doğru olmamasına dəlillərdən biri də budur ki, namaz iki şəhadətdən sonra İslamın ən böyük rüknlarındandır (əsaslarındandır). Bununla yanaşı kim riya edərək namaz qılarsa, Allah onun namazını geri qaytarar və qəbul etməz. Hətta Allah-təala belə deyər: “Mən şəriklikdə ən zəngin şərikəm. Kim bir əməl edib həmin əməldə mənimlə yanaşı başqasını da şərik qoşarsa, onu və şərikini tərk edərəm”.[169] Qiyamət günü ona belə deyər: “ Kimin üçün əməl etmisənsə, ondan da savabını tələb elə”.[170] Riyanın əməli batil etdiyi deyilmişdir. Lakin bunu edən kafirdir, malı və qanı halaldır, hətta sizin dediyiniz kimi, kim onu kafir hesab etməzsə, kafirdir deməmişlər. Daha yumuşaq yanaşmışlar. Həmçinin nəzirdən, duadan və qeyrisindən daha əzəmətli olan namazın ən böyük əməllərindən olan səcdə barəsində təfsilə vararaq demişlər: Kim günəşə, aya, ulduza və ya bütə səcdə edərsə, küfr etmişdir. Qeyd olunanlardan qeyrisinə səcdə etməyə gəlincə, təkfir etməmişlər.

---

[169] Səhih Müslim, hədis 2985; Sünən İbn Macə, hədis 4202; Müsnədi Əhməd bin Hənbəl, hədis 7939, 9633; Hakim, əl-Mustədrək, c. 2, s. 517. Bikar bin Quteybə Qazinin yolu ilə nəql etmişdir; İbn Kəsir, ət-Təfsir, c. 1, s. 82. Təbəranin rəvayətinə əsasən nəql etmişdir; Siyuti, əd-Durrul-mənsur, c. 6, s. 325. Əbd bin Həmidə nisbət vermişdir; Sünən Tirmizi, c. 3, s. 210. Hatəm bin İsmayılın rəvayətlərindən.

[170] Sünəni İbn Macə, hədis 4203; Sünəni Tirmizi, hədis 3154; Müsnədi Əhməd bin Hənbəl, hədis 15411, 17431. Əbu Səd bin Əbu Fəzalə Ənsaridən; Hakim, əl-Mustədrək, c. 4, s. 402. Zəhəbi, əl-Kəbir, c. 19, s. 314, hədis 709.

Əksinə bunu ən böyük haram əməllərdən hesab etmişlər. Lakin məsələnin həqiqəti budur ki, siz elm əhlinə və onların rəylərinə təqlid etməmisiniz. Sizin üçün əsas olan anladığınız və istinbatınızdır. Siz bunun haqq olduğunu iddia edirsiniz və kim inkar edərsə, zəruri prinsipləri inkar etmişdir deyirsiniz. Sizin dəlil gətirdiyiniz mütəşabih sözlər aydın deyil. Biz sizdən tələb edirik ki, bizə və insanlara elm əhlinin imamlarının sizin rəyinizə uyğun gələn sözlərini bəyan edəsiniz. Onların sözlərini barənizdəki şübhələri aradan aparmaq üçün nəql edirsiniz. Sizdə yalnız söymək, küfrlə ittiham etmək var. Allah bəla endirib məhv etdiyi qövmlər kimi olmaqdan bu ümmətin aqibətini qorusun.

## ON DÖRDÜNCÜ FƏSİL

### Müsəlmanların təkfir edilməsinin caiz olmamasının başqa dəlilləri

Təkfir etməyinizin düzgün olmadığına dair dəlillərdən birə də budur ki, (Allahdan qeyrisinə) nəzir etmək İslam dinindən çıxaracaq küfr deyil. Çünki Peyğəmbər (s) səhih hədisdə buyurmuşdur ki, cəzalar şübhə ilə rədd edilər. Hakim, Əbu Əvanə, Bəzzaz bu hədisi səhih sənədlə nəql etmişdirlər. Həmçinin İbn Sunni İbn Məsuddan – Allah ondan razı olsun – Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Əgər çöllükdə birinizin miniyi itərsə üç dəfə belə çağırsın: “Ey Allahın bəndələri, onu tutun! Ey Allahın bəndələri, onu tutun! Ey Allahın bəndələri, onu tutun! Çünki Allahın yer üzərində hazır olan elə bəndələri var ki, onu tutub saxlayacaq”.[171] Təbərani belə nəql etmişdir ki, kim köməklik istəyərsə, “Ey Allahın qulları, mənə yardım edin!”[172] desin. Bu hədisi imamlar kitablarında ümməti qorumaq üçün nəql etmişlər və inkar etməmişlər. Həmin alimlərdən Nəvəvi əl-Əzkar, İbn Qəyyim əl-Kəlimut-təyyib, İbn Muflih əl-Ədəb kitabında nəql etmişdir. İbn Muflih əl-Ədəb kitabında bu hədisi nəql etdikdən sonra belə deyir: “Abdullah bin İmam Əhməd deyir ki, atamın belə dediyini eşitdim: “Beş dəfə həcc ziyarətinə getdim. Onlardan ikisini miniklə, üçünü isə piyada getmişəm. Yaxud üçünü miniklə, ikisini piyada getmişəm. Bir dəfə həccə gedəndə yolu azdım. Özümdə piyada idim. Başladım belə deməyə: “Ey Allahın qulları, bizə yol göstərin!” Bu sözü o qədər dedim ki, sonda yolu tapdım”. Siz hazır olmayanı və ya meyiti çağıranı kafir hesab edirsiniz. Hətta iddia edirsiniz

---

[171] Musnədi Əbu Yəla Mosuli, hədis 5269. İbn Sunni və Əbu Əvanə ondan nəql etmişlər. Hamısı bu rəvayəti Abdullah bin Məsuddan nəql etmişdir; Təbərani, əl-Kəbir, hədis 10518; Heysəmi, Məcməuz-zəvaid, c. 10, s. 109; Albani, əs-Silsilətuz-zəifə, c. 2, s. 108, 109.

[172] Bax; Təbərani, əl-Mucəmul-kəbir.

ki, Allahı və Rəsulullahı (s) təkzib edən müşrik kafirlər çöldə və ya dəryada Allahdan qeyrisini çağırandan daha az şirk etmişdir. Buna dəlil olaraq nə sizin, nə də qeyrisinin etimad etməsi düzgün olmayan məfhumlarınıza əsalanırsınız. Bu hədisi və onun məzmununa əməl edən alimlərin dediklərini böyük şirk olduğunu iddia etdiyiniz bir şübhəyə çevirmisiniz. Hamımız Allahınıq, hamımız Allaha dönəcəyik!

Muxtəsəru rovzə[173] kitabının müəllifi belə deyir: "Doğrusu budur ki, iki şəhadəti gətirən təvilə istinad etdiyi halda onun kimisinə aydın olmayan bidətə görə mütləq surətdə təkfir edilməz. Şeyximiz Əbulabbas İbn Teymiyyə bu rəyi üstün hesab etmişdir". Belə güman edirsən ki, hazır olmayanı çağırmaq aşkar küfrdür və İslamın imamları bunu bilməmişdir? Belə güman edirsən ki, sizin sözünüz doğrudur və sizin sözlərinizlə insanlar üzərində höccət tamamlanmışdır. Biz sizə sözləri ilə dua və nəzirə görə müsəlmanların təkfir edilməsinə dəlil gətirdiyiniz Şeyx Təqiyuddinin rəyini qeyd edirik. Baxmayaraq ki, qeyd edilənlər yetərlidir. Lakin artıq fayda üçün onu qeyd edirik. Şeyx – Allah ona rəhmət eləsin – İqtida əs-sirat əl-mustəqim[174] kitabında belə deyir: "Kim bir yerə üz tutub oradan xeyir istəyərsə, bu əməli şəriət bəyənmirsə, bu əməl pis

[173]Müəllif Rovzətut-talibin kitabına işarə edir. Adı çəkilən kitabın müəllifi Şeyx Muhyiddin Əbu Zəkəriyyə Yəhya bin Şərəf bin Məra Xəzami Şafeidir. Hicri 631-ci ildə Hərran əyalətinin Nəva kəndində anadan olub. Dəməşqlə həmin yerin arası iki günlük məsafə qədərdir. Rəcəb ayının on dördündə vəfat etmişdir. Məşhur rəyə əsasən öz məmləkətində dəfn olunmuşdur.

[174] Müəllif İbn Teymiyyənin İqtida əs-sirat əl-mustəqim fi muxalifəti əshabil-cəhim kitabına işarə edir. İbn Teymiyyə Təqiyuddin bin Əhməd bin Əbdülhəlim bin Əbdüssəlam bin Abdullah bin Xızr bin Muhəmməd bin Teymiyyə Nəmiri Hovrani Dəməşqi. Teymiyyə ulu babası Muhəmmədin atasıdır. Ona nisbət verilərək belə adlanmışdır. Hicri 661-ci ildə Dəclə Fərat arasında ən böyük şəhər olan Hərranda anadan olmuşdur. Hicri 728-ci ildə zil-qidə ayında vəfat etmişdir. Əvvəlki səhifələrdə onun tərcümeyi-halını qeyd etmişik.

işlərdəndir. Bir hissəsi digər hissəsindən daha şiddətlidir. Həmin yerin ağac, bulaq, arx, dağ və ya bağ olmasında heç bir fərq yoxdur. Bundan da qəbihi budur ki, həmin yerdə nəzir edildikdə qəbul olunur deyildiyi üçün orada nəzir edə. Necə ki, bəzi azğınlar belə deyir. Alimlərin ittifaqına əsasən bu nəzir günah nəzirdir. Belə nəzirə əməl etmək caiz deyildir". Sonra – Allah ona rəhmət eləsin – Hicazın bir çox məmləkətlərində belə yerlərin çox olduğunu qeyd etmişdir. Həmçinin adı çəkilən kitabda başqa bir yerdə belə deyir: "Diləyənlər ola bilər ki, məqsədin hasil olması üçün haram dua etsinlər. Bu duadan onlara böyük zərər gələr". Sonra davam edərək belə deyir: "Onun yaxşılıqları ola bilər və Allah buna görə onu bağışlayar. Bizə nəql ediblər ki, Mədinədə Peyğəmbərin (s) qəbrinin yanında olan bir insan ondan yemək istəmişdir. Haşimilərdən bəziləri onun yanına gəlib belə deyiblər: "Bunu sənə Peyğəmbər (s) göndərdi və dedi ki, çıx burdan. Bizim yanımızda olan belə bir şey istəməz". Şeyx belə deyir: "Bəzilərinin ehtiyacları həll olunmuşdur". İctihadlarına və ya təqlidlərinə, yaxud elmdə naqis olduqlarına görə onlara belə deməmişdir. Həqiqətən də cahilin elə günahları bağışlanar ki, başqası üçün onlar bağışlanmaz. Buna görədə bu babda dediklərinin əksəriyyəti elmi az olanlar barəsindədir. Əgər bu şəriət baxımından olsaydı, elm əhli buna daha layiq olardı. O, feli icra edənin əfv olunması, onun bağışlanması ilə həmin felin mübah olması arasında fərq qoymuşdur. Bilirsən ki, bəzi insanlar dəfn olunmuş peyğəmbərlərdən və əməlisalehlərdən ehtiyacını istəmiş və onların ehtiyacları həll olunmuşdur. Onlar qeyd etdiyimə əsəasən istisnadır. Bu şəriət baxımından deyil ki, ona tabe olunsun. Əməllərin müstəhəb və sünnə olması Allahın kitabı, Rəsulullahın (s) sünnəsi və ilk iman gətirənlərin etdikləri ilə sübuta yetir. Bundan başqası bidətlərdəndir. Faydası olmasına baxmayaraq müstəhəb hesab olunmaz. Həmçinn deyir ki, şəriətdə haram olan nəzirlər orada qəyyum olanlar, bəzi ziyarətgahlarda etikaf edib orada qalanlar üçün yemək mənbəyidir.

Həmin nəzir edənlərdən biri deyir ki, xəstələndim və nəzir etdim. Başqa biri isə deyir ki, müharibəyə qatıldım nəzir etdim. Digər biri isə deyir ki, gəmiyə mindim nəzir etdim. Bəzisi deyir ki, həbs olundum nəzir etdim. Onların içlərində bu növ nəzirlər formalaşmışdır. Nəzir onların istəklərinin hasil olmasının, qorxduqlarının dəf olunamasının səbəbidir. Doğru danışan Peyğəmbər (s) belə buyurub: "Əgər nəinki Allaha qarşı çıxmaq, hətta Allahın itaətini nəzir edərsə, xeyirə səbəb olmaz".[175] Bir çox insanların belə dediyinə rast gəlirsən:"Filan yerdə nəzir qəbul olunur". Yəni onlar nəzir etmişlər ki, ehtiyacları həll olsun və ehtiyacları həll olmuşdur".

Sonra belə deyir: "Nəql olunur ki, bir kişi yuxuda Peyğəmbərin (s) yanına gəlib quraqlıq olmasından şikayət etdi. Gördü ki, Ömərə yağış yağmasını istəmək üçün insanlarla (namaza) çıxmağı əmr etdi".[176] Bu kimi hallar Peyğəmbərdən (s) sonra da çox baş vermişdir. Bundan başqa bəzilərinin Peyğəmbərdən (s) və ya ümmətindən olan bəzilərindən ehtiyaclarını istəmişlər və onların ehtiyacı həll olunmuşdur. Bu kimi hallar çox baş vermişdir. Lakin bilməlisən ki, Peyğəmbərin (s) və ya başqalarının istəkdə bulunan həmin şəxslərin istəklərinə cavab vermələri belə bu istəyin müstəhəb olmasına dəlalət etmir. Həmin diləkdə bulunanların əksəriyyəti mulhid (inkarçı) idi. Əgər onlara cavab

---

[175] Müəllif Abdullah bin Ömərin nəql etdiyi hədisə işarə edir: Peyğəmbər (s) buyurub: "Nəzir nəyisə tezləşdirib, nəyisə təxirə salmaz. Nəzirlə simic olan üzə çıxar". Səhih Buxari, hədis 6693; Sünəni Nəsai, hədis 3802; Sünəni Əbu Davud, hədis3287; Müsnədi Əhməd bin Hənbəl, hədis 5253; Sünəni Darəmi, hədis 2340.

[176] Müəllif Ömər bin Xəttabın nəql etdiyi hədisə işarə edir. Bir kişi quraqlıqdan Peyğəmbərə (s) şikayət etdi. Peyğəmbəri yuxuda gördü. Ona Ömərin yanına getməyi əmr edirdi. Ömər Peyğəmbərin əmisi Abbas bin Əbdülmüttəlibə xatir yağış yağmasını istəyərək belə dedi: "İlahi, biz sənə peyğəmbərimizlə təvəssül edirdik, Sən də bizə yağış yağdırırdın. Biz peyğəmbərimizin əmisi ilə təvəssül edirik ki, bizə yağış yağdır". Bundan sonra onlara yağış yağdı". Səhih Buxari, hədis 964.

verilməsəydi imanları dəyişərdi. Həmçinin diriykən ondan (Peyğəmbərdən) istəyənlər də belə idi". Həmçinin Şeyx – Allah ona rəhmət eləsin – belə deyir: "Hətta bəzi qəbirlərə ildə bir dəfə cəm olurlar. Məhərrəm ayında və ya səfər ayında və yaxud da aşura günü müxtəlif ölkələrdən ora səfər edirlər. İlin müəyyən günlərində Ərafatda və Müzdəlifədə toplandıqları kimi həmin qəbrin yanıda cəm olurlar. Bəlkə də bu toplanma dində və dünyada ən pis əməldir. Hətta bəziləri deyirlər ki, filanın qəbrinə həccə gedirik. Bir sözlə bu qəbirlərin yanında toplanmaq Peyğəmbərin (s) məhz qadağan etdiyi əməldir.[177] Əhməd bin Hənbəl – Allah ona rəhmət eləsin – məhz bunu inkar edərək belə demişdir: "İnsanlar bu məsələdə həddindən artıq ifrata varmışlar və çoxalmışlar". İmam Əhməd Hüseynin – Allah ondan razı olsun – qəbri yanında edilən əməlləri qeyd etmişdir. Şeyx belə demişdir: "Misirdə Nəfisənin qəbri yanında edilən əməllərdə buna aiddir. İraqda Əlinin qəbri deyilən qəbrin, Hüseynin qəbri və İslam məmləkətlərində olan, sayılması mümkün olmayan çoxlu qəbirlər yanıda edilənlər bu əməllərdəndir". Şeyxin sözü burda bitdi.

Ey Allahın qulları! Şeyxin bu sözləri sizin onun sözünə istinad edərək dəlil gətirdiyiniz anlayışınızı rədd edir və müsəlmanları təkfir etməyinizə ziddir. Biz faydanın tamam olması üçün bəzi məqamları qeyd edirik. O,

---

[177] Səhih Müslim, hədis 1970;, Sünəni Tirmizi, hədis 1052; Sünəni İbn Macə, hədis 1562;, 1563; Hakim, əl-Mustədrək, c. 1, s. 370; Səhih İbn Hibban, hədis 3164, hədis 3165; Müsnədi Əhməd bin Hənbəl, hədis 13735, 14155, 16764, Əbu Mərsəd Ğənvidən belə nəql olunur: "Peyğəmbər (s) belə buyurub: "Qəbirlərin üzərində oturmayın və namaz qılmayın". Cabir bin Abdullah Ənsaridən belə nəql olunur: "Peyğəmbər (s) qəbirlər üzərində namaz qılmağı qadağan etmişdir". Səhih İbn Hibban, hədis 2318; Ənəs bin Malikdən və Cabir bin Abdullahdan və Mərsəd Ğənvidən nəql olunmuşdur. Səhih Müslim, hədis 972; Sünəni Tirmizi, hədis 1050; Sünəni Nəsai, hədis 760; Sünəni Əbu Davud, hədis 3329.

bir yerə gedib bulaqlarda, ağaclarda, mağaralarda nəzir etmək barədə danışır. Bu nəziri pis əməllərdən hesab edir və ona əməl etməyin vacib olmadığını deyir. Lakin sizin kimi bunu edən kafirdir, mürtəddir, malı və qanı halaldır deməmişdir.

Həmçinin deyir ki, insanlar içərisində onun zəlalət adlandırdığı bu kimi şeylər üçün nəzir etməyi əmr edənlər var. Lakin sizin kimi onları təkfir etməmişdir.

Həmçinin belə yerlərin və qəbirlərin qədim zamanlardan İslam məmləkətlərini bürüdüyünü demişdir. Nə o, nə də elm əhlindən olan başqası həmin məmləkətlərə biladul-hərbdir deməmişdir. Halbuki siz belə məmləkətlərin əhalisini kafir hesab edirsiniz. Hətta onları kafir hesab etməyənləri belə kafir adlandırırsınız.

Həmçinin o, qəbiristanlıq əhlindən bir şey istəmək və bu əməlin yayılması və çoxalması barədə danışır. O, bunun yalnız haram olmasını demişdir. Hətta bu məsələdə müctəhidlərin və ya təqlid edənlərin yaxud da cahillərin xətasının cəzasının olmamasını demişdir. Siz isə bu məsələlərə görə onları Rəsulullahı (s) təkzib edən və Qureyş müşriklərindən də kafir hesab edirsiniz.

Həmçinin deyir ki, müsəlman şəxs bunun Allahın dinindən olmamasını bilməlidir. Siz isə belə deyirsiniz; Bunun küfr olması zəruridir. Hətta yəhudilər və xristianlar bunu bilirlər. Bunu edəni kafir hesab etməyən özü kafirdir.

Ey Allahın bəndələri, ayılın!

Həmçinin o, Peyğəmbərin (s) və başqalarının mulhid olanların istəklərini qəbul etmələri onların imanlarını iztirabdan qurtarmış və onları mömin etmişdir. Onların istəklərinin qəbul olunması imanlarının aradan getməməsi üçün Allah-təala tərəfindən bir rəhmətdir. Siz isə kim belə edərsə kafirdir, həmçinin, kim onu kafir hesab etməzsə, kafirdir deyirsiniz. Bu məsələlər, yəni Peyğəmbərdən (s) bir şey istəmək

səhabələrin zamanıda da baş vermişdir. Necə ki, bir nəfər yuxuda Peyğəmbərə (s) quraqlıqdan şikayət edir. Peyğəmbər ona əmr edir ki, Ömərin yanına getsin. Ömərin isə buna etiraz etməsini deməmişdir. Siz isə bunun kimisini kafir hesab edirsiniz. Bu kimi hallar İmam Əhmədin zamanından əvvəl İslam imamlarının zamanında da baş vermişdir. Bəziləri bunu inkar etmişdir. Hətta bu məsələ davam edərək İslam məmləkətlərini tamamilə əhatə etmişdir. Sizin təkfir etdiyiniz bu əməllərin hamısını etmişlər. Müsəlmanların imamlarından heç kimin onların kafir olması barədə bir şey nəql etməmişdir. Onlar mürtəddirlər deməmişlər və ya onlara qarşı cihad etməyi əmr etməmişlər. Onlar sizin kimi müsəlmanların məmləkətlərini şirk və hərb diyarı adlandırmamışlar. Siz hətta bu əməllərə görə təkfir etməyəni belə, təkfir edirsiniz. Halbuki o, bu əməlləri etməmişdir. Yoxsa imamların əsrindən səkkiz yüz il keçdikdən sonra bu məsələlərə görə təkfir etməyin icmaya əsasən olduğunu güman edirsiniz? Bununla yanaşı ki, bu müddət ərzində alimlərdən heç kim bu əməlin küfr olduğunu deməmişdir. Aqil insan belə bir gümanda olmaz. Sizin sözünüzdən bu nəticə alınır ki, Əhmədin – Allah ona rəhmət eləsin – zamanından sonra ümmətin hamısı – alimləri, əmirləri, ümumiyyətlə hamısı kafirdirlər, mürtəddilər. Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq! Allah yardımçımız olsun! Yoxsa sizdən olan avamlar kimi höccət yalnız bizimlə tamamlanır, bizi qəbul etməyən İslam dinini tanımamışdır deyirsiniz? Ey Allahın bəndələri, qurtarın! Şeyxin sözləri sizin bu əməlləri böyük şirk hesab etmənizin xəta olmasına dəlildir. Sizin anladığınız məfhumlara görə bu əməllər Allahla öz arasında vasitələr qərar verən şəxsin sözlərindəndir. Allah bizi və sizi zəlalətə düşməkdən agah etsin!

## ON BEŞİNCİ FƏSİL

### Müsəlmanların təkfir edilməsinin caiz olmamasının başqa bir dəlili

Sizin rəyinizin batil olmasının dəlillərindən biri də Müslimin Səhihində Sovbanın Peyğəmbərdən (s) nəql etdiyi hədisdir. Həmin hədisdə belə deyilir: “Allah-təala yer üzün mənə göstərdi. Yerin şərqini və qərbini gördüm. Ümmətimin hakimiyyəti yer üzünün mənə göstərildiyi məkan qədər əhatə edəcək. Qızıl və gümüş xəzinələri mənə verildi. Rəbbimdən istədim ki, ümmətimi ümumi qıtlıqla həlak etməsin, onlara özlərindən başqa heç kimi hakim etməsin ki, onları özlərinə halal bilsinlər. Rəbbim mənə dedi: “Ya Muhəmməd, Mən bir hökm verdikdə sənin istədiyini ümmətinə verməyə mane olacaq bir şey yoxdur. Onları qıtlığa görə həlak etmərəm və özlərindən başqasını, hətta yerin hər tərəfindən onların üzərinə axışsalar belə, onlara hakim etmərəm ki, onları özlərinə halal etsinlər. Onlar özləri bir-birini həlak edəcək və bir-birini əsir edəcəklər”.[178] Bu hədis dəlalət edir ki, Peyğəmbər (s) xəbər vermişdir ki, bu ümmətə özlərindən başqa heç bir düşmən hakim olmayacaq. Yalnız onları bir-birinə hakim edəcək. Hadisələrdən xəbərdar olan hər kəsə məlumdur ki, sizin təkfir etdiyiniz bu məsələlər yeddi yüz ildən çoxdur ki, bütün müsəlman məmləkətlərini əhatə etmişdir. Necə ki, bunu qeyd etmişdik. Əgər bu sizin iddia etdiyiniz kimi böyük bütlərə ibadət etmək, (Allahla bəndələr arasında) vasitələr seçmək olsaydı, bu məmləkətlərdə yaşayanlar kafir olardılar və ya sizin dediyiniz kimi onları kafir hesab etməyən də kafir olardı. Məlumdur ki, alimlər və əmirlər onları kafir hesab etməmişlər. Onlara mürtəd hökmünü tətbiq etməmişlər.

---

[178] Səhih Müslim , hədis 2889; Sünəni Əbu Davud, hıdis 4252; Sünəni Trimizi, hədis 2177; Sünəni İbn Macə, hədis 3952; Müsnədi Əhməd bin Hənbəl, c. 5, s. 278, 274; Bəğəvi, Şərhus-sünən, c. 14, s. 215, hədis 4015; Səhih İbn Hibban, c. 8, səh .252, hədis 6679.

Baxmayaraq ki, bu işlərin İslam ölkələrində yerinə yetirilməsi gizli olmayan bir təzahürdür. Şeyxin dediyi kimi bir çox insanların qida mənbəyi olmuşdur. Bütün məmləkətlərdən həccə səfər etmələrindən daha əzəmətli şəkildə belə yerlərə səfər edirlər. Bütün bunlarla yanaşı sizin dediyinizi elm və ya qılınc əhlindən (hakimiyyətdə olanlardan) bir kəsin dediyini xəbər verməmişlər. Əksinə onlara müsəlman hökmlərini tətbiq etmişlər. Əgər bu əməllərlə bütlərə ibadət edən kafir olsaydılar, alimlər və əmirlər də onlara İslam hökmlərini tətbiq etsəydi, alimlər və əmirlər bu əməlləri ilə kafir olardılar. Çünki Allahla yanaşı başqa ilahı Ona şərik qoşan müşrikləri kafir hesab etməyən kafirdir. Deməli, bu ümmətdən deyildirlər. Əksinə Allahın bu ümmətə hakim etdiyi, onları özlərinə halal bilən kafirlərdirlər. Bu isə hədisi inkar edir. Düşünən hər kəs hədisin zahirindən bunu anlayır. Allah doğruya müvəffəq edəndir! Ondan başqa Rəb yoxdur. Əgər desən ki, bu hədisi Bərqani də nəql etmiş və bunu əlavə etmişdir: "Ümmətim üçün zəlalət imamlarından qorxuram. Əgər onların üzərinə qılınc qoyularsa, qiyamətədək o qılınc qalxmaz. Ümmətimdən müşriklərə qoşulan diri biri qalmayanadək qiyamət qopmaz. Hətta ümmətimdən bir camaat bütlərə ibadət edəcək. Ümmətimdə otuz yalançı olacaq. Hamısı peyğəmbər olduğunu iddia edəcəkdir. Mən isə peyğəmbərlərin sonuncusuyam və məndən sonra heç bir peyğəmbər yoxdur. Ümmətimdən bir tayfa haqq olacaq və onlara yardım olunacaq. Allahın əmri gələnədək onları xar edənlər (tərk edənlər) onları zəlil edə bilməyəcək".[179]

Mən deyirəm: Bu da, həmçinin, sizin əleyhinizə olan dəlildir və birinci rəyə müvafiqdir. Yəni Peyğəmbər (s) dediyi "Ümmətim üçün zəlalət imamlarından qorxuram" dediyi sözə uyğundr. Bu dəlalət edir ki, Peyğəmbər küfr və böyük şirkdən deyil, zəlalət imamlarından

[179] Müsnədi Əhməd bin Hənbəl, c. 12, s. 338, 339, hədis 17251; Sünən İbn Macə, hədis 3952; Sünəni Əbu Davud, hədis 4252. Əqəbə bin Amirdən nəql olunmuşdur.

qorxmuşdur. Necə ki, baş verən reallıq məhz budur. Əgər müsəlmanlar ondan sonra kafir olsaydılar, onların (kafirlərin) ümmətə hakim olub həlak etmələrini istəmiş olardı və ümmət üçün onlardan və qılıncların boyunlarına qoyulmasından qorxardı. Xəbər vermişdi ki, qılınc boyunlarına qoyularsa, bir daha qalxmaz. Belə də oldu. Bu onun peyğəmbərliyinin əlamətlərindəndir. Hər şey onun dediyi kimi baş verdi.

Ümmətimdən müşriklərə qoşulan diri biri qalmayanadək qiyamət qopmaz sözlərinə gəlincə isə, bu da doğrudur.

Hətta ümmətimdən bir camaat bütlərə ibadət edər sözlərinə gəlincə, bu da baş vermişdi.

Ümmətimdən bir tayfa haqq olacaq və onlara yardım olunacaq sözü islam məmləkətlərini dolduran bu ümmətin bütə ibadət etməyəcəyinə dəlalət edir. Əgər onların əməlləri bütə ibadət etmək sayılasaydı, ilahi yardım alan tayfa onları qətlə yetirərdi. Sizdən əvvəl bu ümmətdən heç kim bu məqsədlə savaşmamış, bu əməlləri edəni təkfir etməmiş, malını, qanını halal bilməmişdir. Əgər qədim dövrlərdə və ya müasir dövrümüzdə sizin kimi biri varsa bizə deyin! Hardan tapa bilərsiniz?! Qeyd etdiklərimiz hədisin əvvəlindən sonunadək aydındır. Aləmlərin Rəbbinə həmd olsun!

## ON ALTINCI FƏSİL

### Müsəlmanları təkfir etməyin batil olmasının digər dəlili

Müsəlmanları təkfir etməyinizin batil olmasının dəlillərindən biri də Səhih Buxaridə Müaviyə bin Əbu Süfyandan nəql olunan hədisdir. Həmin hədisdə deyilir: Peyğəmbərin (s) belə dediyini eşitdim: “Allah kimin xeyrini istəyərsə, onu dində fəqih edər. Mən (neməti) bölənəm, əta edən isə məhz Allahdır. Qiyamət qopanadək və ya Allah-təalanın əmri gələnədək bu ümmət doğru yolda olacaq”.[180]

Burada Peyğəmbər (s) xəbər vermişdi ki, bu ümmət axır zamanadək doğru yolda olacaq. Məlumdur ki, sizin təkfir etdiyiniz bu məsələlər qədimdən bu günədək islam məmləkətlərini bürümüşdür. Əgər bu böyük bütlər olsaydı, bu işləri edənlər bütlərə ibadət etmiş olsaydılar və bu ümmət doğru yolda olmazdı. Əksinə bütlərin ibadət edildiyi, bütpərəstlərə İslam hökmləri tətbiq olunan küfr məmləkəti olardı. Belə olan halda hanı bu doğru yol?!

Ədər desən ki, səhih hədislərdə Peyğəmbərdən (s) bunun əksi nəql olunmuşdur. Məsələn, Peyğəmbər (s) buyurub: “Sizdən öncəkilərin ardınca gedəcəksiniz”.[181] Həmçinin bu mənada hədislər var.

---

[180] Səhih Buxari, c. 1, s. 46, kitabul-ilmi, bab mən yuridullah bihi xeyrən; Təbərani, əl-Kəbir, c. 9, s. 151, hədis 8756, Əbu Ubeydə Abdullah bin Ömərdən nəql etmişdir; həmçinin c. 19, s. 348, 349. hədis 810, 812, Müaviyə bin Əbu Süfyandan nəql etmişdir. Müsnədi Əhməd bin Əhməd, c. 4, s. 96, 100; Səhih Müslim, hədis 16472; Malik, əl-Muvatta, hədis 1667; Sünəni Darəmi, hədis 226, Müaviyə bin Süfyandan nəql olunur.

[181] Müsnədi Əhməd bin Hənbəl, c. 5, s. 340; Heysəmi, Məcməuz-zəvaid,c. 7, s. 261; Təbərani, əl-Kəbir, c. 6, s. 186, hədis 5943; s. 204, hədis 6017. Səhl bin Səd belə nəql edir: “Rəsulullah (s) buyurdu: “Sizdən öncəkilərin yolunu qarış-qarış, dirsək-dirsək gedəcəksiniz. Hətta onlar kərtənkələ yuvasına girsələr, siz də girəcəksiniz”. Biz dedik: “Ya Rəsulullah, yəhudilər və xristianlar kimi?”. (Peyğəmbər) dedi: “Yəhudi və xristianlardan başqa bəs kimin?”.

Peyğəmbər (s) buyurub: "Bu ümmət yetmiş üç millətə (məzhəbə) bölünəcək. Bir millətdən başqa hamısı cəhənnəmdədir".[182]

Mən deyirəm: Bu haqdır. Allaha həmd olsun ki, buna qarşı çıxmırıq. Alimlər bunu bəyan edib izahını vermişlər. Peyğəmbərin "bu ümmət bölünəcək" dediyi qeyd etdiyimiz kimi həvayi-nəfs əhlidir. Onların heç biri kafir deyildir, əksinə hamısı müsəlmandırlar. Yalnız Rəsulullahı (s) təkzib edənlərdən başqa. Beləsi Şeyxin kəlamında deyildiyi kimi əhli-sünnənin rəyinə görə münafiqdir.

Peyğəmbərin (s) "birindən başqa hamısı cəhənnəmdədir"[183] sözlərinə gəlincə, bu insan öldürmək, yetim malı yemək, sələm almaq və başqa böyük günah əhlinə vəd edilən cəza kimi bir cəzadır. Nicata çatacaq firqəyə gəlincə, elm əhlinin dediyi kimi bütün bidətlərdən uzaq olan, Peyğəmbərin (s) hidayətinə tabe olan firqədir. Bu barədə elm əhli tərəfindən icma var.

---

Səhih Buxari, hədis 3456, 7320; Səhih Müslim, hədis 2669; Sünəni İbn Macə, hədis 3994; Hakim, əl-Mustədrək, c. 1, s. 37; Bəğəvi, Şərhus-sünnə, c. 3, s. 120, 122. Əbu Hüreyrə və Əbu Səid Xudridən nəql olunmuşdur.

[182] Səhih İbn Hibban, hədis 1834; Sünəni Əbu Davud, c. 2, s. 332; Sünəni Tirmizi, c. 3, s. 367; Sünəni İbn Macə, c. 2, 479; Sünəni İbn Əbu Asim, c. 1, s. 33, hədis 66, 67, Əbu Hüreyrədən nəql olunmuşdur; Albani, Silsilətul-əhadisis-səhihə, hədis 203; Təbərani, əl-Kəbir, c. 19, s. 377, hədis 885.

[183] Cəzəri, Camiul-usul, c. 1, s. 33, hədis 749. Əbu Hüreyrədən nəql olunur. Sünəni Əbu Davud, hədis 4599; Sünəni Tirmizi, hədis 2642, kitabul-iman, bab ma caə fi iftiraqi həzihil-ümmə. Tirmizi deyir: "Əbu Hüreyrənin hədisi həsən və səhihdir". Səhih Buxari, c. 13, s. 255, kitabul-itisam, bab qovlun-nəbiyyu (s) "lətətbəunə mən kanə qəbləkum"; Səhih Müslim, hədis 2669, kitabul-ilmi, babu ittibai sünəni yəhud vən-nəsara"; Bəğəvi, Şərhus-sünnə, c. 14, s. 392, hədis 4196, babu təğəyyurun-nasi və zihabus-salihin.

Peyğəmbərin (s) “Sizdən öncəkilərin ardınca gedəcəksiniz”[184] sözlərinə gəlincə, Şeyx – Allah ona rəhmət eləsin – dediyi kimi bu bütün ümmətin barəsində xəbər deyil. Peyğəmbərdən (s) mütəvatir olaraq nəql olunur ki, onun ümmətində qiyamətə qədər haqq olan tayfa olacaq. Xəbər vermişdir ki, ümmət zəlalətdə icma etməz. Bu dində elə bir ağac əkilər ki, sonadək onun itaətində olacaq. Onun doğru dediyindən məlum oldu ki, onun ümmətində hidayətinə, yəni xalis İslam dininə sarılacaq bir qövm olacaq. Həmçinin yəhudi və ya xristian qollarına bənzəyəcək azğın qövmlər də olacaq. Baxmayaraq ki, insan hər azğınlığa görə təkfir olunmaz, hətta fasiq də hesab olunmaz.

Şeyx – Allah ona rəhmət eləsin – belə deyir: “İnsanlar Rəsulullahın (s) besətindən (peyğəmbər olaraq göndərilmədən) öncə cahiliyyət içində idi. Rəsulullahın (s) besətindən sonra isə, mütləq mənada cahiliyyət yoxdur. Qiyamət gününədək onun ümmətindən bir tayfa ən üstün olacaq. Mütləq olmayan cahiliyyətə gəlincə, müsəlmanların məmləkətlərində və ya bəzi şəxslərdə bu növ cahiliyyət ola bilər. Məsələn, Peyğəmbər (s) buyurub: “Ümmətimdə dörd şey cahiliyyətdəndir”.[185]

Cahiliyyət dini axır zamana kimi bütün möminlərin son nəfəsi bitənədək geri qayıtmayacaq”. Şeyxin sözü burda bitdi.

Bununla da sənə bəyan oldu ki, Rəsulullahdan (s) nəql olunan hədislərə və görkəmli alimlərin izahına əsasən İslam dini bütün İslam məmləkətlərini ehtiva etmişdir. Sizin sözlərinizin əksinə olaraq bütün

---

[184] Səhih Buxari, c. 13, s. 255, kitabul-itisam, bab qovlun-nəbiyyu (s) “lətətbəunə mən kanə qəbləkum”; Səhih Müslim, hədis 2669, kitabul-ilmi, babu ittibai sünəni yəhud vən-nəsara”; Bəğəvi, Şərhus-sünnə, c. 14, s. 392, hədis 4196, babu təğəyyurun-nasi və zihabus-salihin.

[185] Səhih Müslim, hədis 934, kitabul-cənaiz, babu ət-təşdidu fin-nihayəti; İbn Əsir Covzi, Camiul-usul, c. 1, s. 110, hədis 8588, Əbu Malik Əşəridən nəql olunub, s. 737, hədis 943, s. 738, hədis 9432; Səhih Müslim, hədis 67, kitabul-iman, babu itlaqu ismul-kufri alə təni fin-nəsəbi vən-niyahəti; Sünəni Trimizi, hədis 1001.

firqələr İslam dinindədir. Əgər sizin məzhəbiniz doğru olarsa, deməli, səkkiz yüz ildən bəri sizdən başqa yer üzərində müsəlman yoxdur. Həddindən artıq təəccüblüdür ki, Rəsulullah (s) və elm əhli nicata çatacaq firqəni vəsf etmişdir. Lakin onlardakı xislətdən bir dənə də olsun sizdə yoxdur. Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

## ON YEDDİNCİ FƏSİL

### Cahil olaraq qəbirlər üçün qurban kəsənə küfr hökmü tətbiq olunmaz

Sizin rəyinizin doğru olmamasına dəlalət edən dəlillərdən biri də Beyhəqinin, İbn Udəyin və başqalarının Peyğəmbərdən (s) nəql etdiyi hədisdir: Peyğəmbər (s) buyurub: "Bu elmi bir təbəqədən ədalətli olan xələflər daşıyacaq. Ucalıq istəyənlərin təhrifini, batil əhlinin qatqılarını və cahillərin təvilini ondan arındıracaqlar".[186]

əl-Ədəb kitabında qeyd edilir: "Əhməddən bu hədis barədə soruşdum. Səhihdir - deyə cavab verdi.

İbn Qəyyim belə deyir: "Bu bir neçə yolla nəql olunan bir hədisdir". Burada Peyğəmbər (s) Allah bəyan etmək üçün göndərdiyi elmini daşıyanların ümmətin hər bir təbəqəsindən olan ədalətli olanlar kimi vəsf etmişdir. Dəfələrlə deyildi ki, yerinə yetirən şəxsi kafir adlandırmağınız bu əməllər yeddi yüz ildən bəri ümmətin içində mövcuddur. Hətta İbn Qəyyim qeyd edir ki, bütün yer üzünü bürümüşdü. Şamda və müsəlmanların başqa məmləkətlərində, hətta bütün məmləkətlərdə var. Qəbirlərə səcdə etmək, qəbirlər üçün qurban kəsmək, qəbirlərdən qurtuluş diləmək, yardım diləmək, nəzirlər etmək və başqa xətərli şeylər qeyd etmişdir. Bundan sonra hələ bu barədə müxtəsər olaraq qeyd etdiyinə and içmişdir. Onların etdikləri əməllər onun qeyd etdiyindən daha böyükdür.

O, belə deyir: "Onların bütün bidətlərini və şirklərini qeyd etmədik". Bununla yanaşı nə o, nə də onunla eyni zamanda və ya ondan öncə olan, yaxud da ondan sonra olan, Peyğəmbərin (s) ədalətlə və dinin hifzi ilə

---

[186] Hakim, əl-Mustədrək, c. 4, s. 449, s. 550; c. 2, s. 71. Ömər bin Xəttabdan və İmran bin Hasindən nəql olunur. ət-Təlxis kitabında belə deyilir: "Buxari və Müslimin şərtinə əsasən uyğundur. Hədisin bəziləri Hişam bin Dəstivaninin Yəhyadan nəql etdiyi yolla nəql edilmişdir.

vəsf etdiyi, dini ğulatların sözlərindən, cahillərin təvilindən və batil əhlinin xüsusiyyətlərindən qoruyan elm əhlindən biri aşkar küfr hökmünü tətbiq etməmişlər. Onlar müsəlmanların məmləkətlərini küfr məmləkəti adlandırmamışlar. Məmləkətlərə (müsəlmanların məmləkətlərinə) və insanlara hücum etməmişlər. İnsanları kafir adlandırmamışlar. Məhz onlar haqqa yardım edən və qiyamət gününədək yardım olunan tayfadır. İbn Qəyyim sizin təkfir etdiyiniz, hətta təkfir etməyəni kafir hesab etdiyiniz bu əməlləri bütün ümmətin yerinə yetirdiyini qeyd etmişdir. Siz isə iddia edirsiniz ki, bu böyük bütdür və bütün İslam ölkələrini əhatə etmişdir. Hətta İbn Qəyyim belə demişdi: "Bu əməldən xilas olmaq çətin bir iş deyil, çətin olan bunu inkar edənə düşmənçilik etməməkdir". Ümmətdən kim bu əməli etmirdisə ona qarşı çıxırdılar, ona düşmənçilik edirdilər. Əgər sizin dedikləriniz haqdırsa – Allaha pənah aparırıq – deməli, bütün ümmət Alalha böyük şirklə şərik qoşmuşdur. İbn Qəyyimin zamanından da əvvəl ümmət bu əməli gözəl hesab etmiş, ona qarşı çıxanı pisləmişdir. Deməli qeyd etdiyimiz hədis və bundan əvvəlki hədis sizin rəyinizi alt-üst edir. Allahın xeyirə müvəffəq etdiyi bəndə üçün bu aşkardır! Allaha həmd olsun!

## ON SƏKKİZİNCİ FƏSİL

### Peyğəmbərin (s) “Ümmətimdən bir tayfa haqq olaraq qalacaq” hədisi

Sizin rəyinizin batil olmasının dəllillərindən biri də hər iki səhihdə qeyd olunan bu hədisdir. Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Qiyamət gününədək ümmətimdən bir tayfa haqq olaraq qalacaq. Xar edənlər və müxalif olanlar onlara heç bir zərər verə bilməz”.[187]

Şeyx Təqiyuddin belə deyir: “Bu hədisi qeyd edərkən ümmət Peyğəmbərin (s) xəbər verdiyi kimi idi. Belə ki, o demişdir: “Ümmət içində elm və qılıncla zahir olan bir tayfa olacaq, ondan əvvəlkilərin başına gələnlər onun başına gəlməyəcək”.[188]

Yəni onlar Bəni İsrailə və başqalarına bənzəməyəcəklər. Belə ki, onlar haqq iddiası etməklə yanaşı məğlub olanlar idilər. Müsəlmanlar əksinə yer üzünün bir ərazisində məğlub olsalar, başqa ərazidə bir yardım olunan ümmət ortaya çıxmışdır. Düşmən onların hamısına qalib olmamışdır. Lakin onların arasında ixtilaf və fitnələr yaranmışdır.

Həmçinin o, belə deyir: “Əhli-sünnə vəl-camə məzhəbi qiyamət gününədək zahir olacaq. Peyğəmbər (s) məhz onların barəsində “Qiyamət gününədək ümmətimdən bir tayfa...” deyə buyurmuşdur.

---

[187] Səhih Müslim, hədis 1920, kitabul-imarə; Sünəni Əbu Davud, hədis 4352; Sünəni Tirmizi, hədis 2177, 2230; İbn Əsir Cəzəri, Camiul-usul, c. 9, s. 204, 205, hədis 6776; Sələmə bin Nufeyl Kindi, Sovban, Müaviyə bin Əbu Süfyan, Qurrə bin İyas, İmran bin Hasin, Cabir bin Abdullah, Əqəbə bin Amirdən nəql edilmişdir. Sünəni İbn Macə, hədis 3952; Müsnədi Əhməd bin Hənbəl, hədis 14655, Cabir bin Abdullah Ənsaridən nəql etmişdir.

[188] Başqa mətndə “Ümmətimdən bir tayfaya qiyamət qopanadək yardım olunacaq. Onları xar edənlər (tərk edənlər) onlara heç bir zərər verə bilməzlər”. Müaviyə bin Qurrədən belə nəql olunub. Bax; Sünəni Tirmizi, hədis 2192; Sünəni İbn Macə, hədis 6 və 7; Albani, əs-Silsilətus-səhihə, hədis 5 və 6; Müsnədi Əhməd bin Hənbəl, hədis 15169, 15170, 19849, 19854. Qurrə bin İyas Məzənidən nəql etmişdir.

Bu hədisin dəlalət etdiyi məna budur: Rəsulullahın (s) dediyi bu tayfa sizin iddia etdiyiniz kimi gizli deyil, aşkardır. Həmçinin onlara ilahi yardım olunur və onlar zəlil deyillər. İslam məmləkətləri bir gün də olsun onlardan xali olmamışdır. Həmçinin Şeyxin dediyi kimi "düşmənlər onlara hakim ola bilməmişdir ki, onları zəlil etsinlər". Doğru danışan Peyğəmbərin (s) sözünə əsasən onların vəsfi belədir. Siz yeddi yüz ildən bəri İslam məmləkətlərində mövcud olan bu əməllərə görə onları təkfir edirsiniz, onların Allahdan qeyrisinə ibadət etdiklərini iddia edirsiniz, onların Quranda qeyd olunduğu kimi Allahla öz aralarında vasitələr qərar verdiyini deyirsiniz. Bununla yanaşı hər hansı bir zaman kəsiyində sizin dediyinizi heç kim deməmiş, sizin etdiyinizi heç kim etməmişdir. Siz şübhələrinizə heç bir dəlil tapa bilmirsiniz. Yalnız Əlinin (ə) ona Allah deyənləri qətlə yetirməsini, Siddiqin Riddə əhli ilə savaşmasını və elmlə məşğul olan hər bir şəxs tərəfindən gülünclə qarşılanan bəzi mətnlərdən anladığınız məfhumlara istinad edirsiniz.

Çaşqınlığın və qaranlığın aradan getməsinə görə Allaha həmd olsun. Əgər dinləyən qulaq sahibi olarsa, Allaha and olsun ki, təkcə bu hədis sizin rəyinizin batil olması üçün yetərlidir. Allahdan sizi həlakdan xilas etməsini diləyirik!

## ON DOQQUZUNCU FƏSİL

### Peyğəmbərin (s) “Küfrün başı şərq tərəfdədir” buyurması

Sizin rəyinizin batil olmasına dəlalət edənlərdən biri də Əbu Hüreyrənin – Allah ondan razı olsun – Peyğəmbərdən (s) nəql etdiyi bu hədisdir: “Küfrün başı şərq tərəfdədir”.[189]

Başqa bir rəvayətdə belə buyurulur: “İman Yəmənə aid, fitnə isə bax burdadır, Şeytanı buynuzunun çıxdığı yerdə”.[190]

Hər iki səhihdə İbn Ömərdən – Allah ondan razı olsun – Peyğəmbərin (s) üzü şərqə tərəf dayanaraq belə dediyi nəql olunur: “Fitnə bu tərəfdəndir”.[191]

---

[189] Səhih Buxari, c. 6, s. 450; Səhih Müslim, hədis 52, 85; Müsnədi Əhməd bin Hənbəl, c.2, s. 418, s. 424, 506; Maliki, əl-Məaric, c. 2, s. 870; Bəğəvi, Şərhus-sünnə, c. 14, səh, 204, hədis 4003.

[190] Səhih Buxari, c. 6, s. 241, kitabu bidul-xəlqi, babu sifəti İblis və cunuduhu, həmçinin, kitabul-cihad, bab ma caə fi buyuti əzvacin-nəbiyy, həmçinin, kitabul-ənbiya, babun-nisbətul-yəməni ilə İsmail, kitabut-talaqi, babul-işarəti fi-talaqi vəl-umur, kitabul-fitən, babu qovlin-nəbiyyi (s) “əl-fitnətu min qibəlil-məşriqi”. Səhih Müslim,hədis 2905, kitabul-fitən və əşratus-saəti, babul-fitnəti minəl-məşriqi min heysu yətləu qarna əş-şeytan; Müsnədi Əhməd bin Hənbəl, c. 2, s. 23, s. 29, s. 111, s. 121; Sünəni Tirmizi, hədis 2299; Bəğəvi, Şərhus-sünnə,c. 13, s. 203, hədis 404, babu zikri əhlil-yəməni və zikr Uveys Qərəni; s. 202, hədis 4002.

[191] Səhih İbn Hibban, c. 8, s. 223, hədis 6614, s. 224, İbn Ömərdən belə nəql olunur: “Rəsulullahı (s) şərqə işarə edərək belə dediyini gördüm: “Həqiqətən də fitnə buradandır, fitnə burdandır. Şeytanın buynuzu buradan çıxacaq”. Səhih Buxari, c. 6, s. 241, kitabu bidul-xəlqi, babu sifəri İblis və cunuduhu; Səhih Müslim, kitabul-fitəni və əşratus-saəti, babul-fitnəti minəl-məşriqi min heysu yətləu qarna əş-şeytan; Sünəni Tirmizi, hədis 2269; Səhih Buxari, kitabul-fitəni, babu qovlin-nəbiyyi (s) “əl-fitnətu min qibəlil-məşriqi”, hədis 668. Abdullah bin Ömərdən belə nəql olunur: “O, Peyğəmbərin (s) üzünü şərqə tərəf tutaraq belə dediyini eşitmişdi: “Bilin ki, fitnə bu tərəfdəndəir, Şeytanın buynuzunun çıxdığı yerdən”. Bəğəvi, Şərhus-sünnə ,c. 13, s. 203, hədis 404, babu zikri əhlil-yəməni və zikr Uveys Qərəni; s. 202, hədis 4002.

Həmçinin Buxari də ondan nəql edir: “İlahi, Şamımıza və Yəmənimizə bərəkət ver! İlahi, Şamımıza və Yəmənimizə bərəkət ver!” Dedilər: “Nəcdimizə də!” (Peyğəmbər üç dəfə dedi): “Zəlzələlər və fitnələr orada baş verəcək. Şeytanı buynuzu oradan çıxacaq”.[192]

Əhməd bin Hənbəl İbn Ömərdən (Peyğəmbərin belə dediyini) nəql edir: “İlahi, Mədinəmizdə, şəhərlərimizdə, Yəmənimizdə və Şamımızda bizə bərəkət ver!” Sonra üzü günçıxan tərəfə dayanıb belə dedi: “Şeytanın buynuzu buradan çıxacaq”.[193]

Həmçinin buyurub: “Zəlzələlər və fitnələr bu tərəfdəndir”.[194]

Mən deyirəm: Şəhadət verirəm ki, Rəsulullah (s) doğru buyurub. Allahın salam, salavatı və bərəkəti ona, ailəsinə və bütün səhabələrinə olsun. Əmanəti yerinə çatdırmış və peyğəmbərliyini yerinə yetirmişdir.

Şeyx Təqiyyuddin belə deyir: “Şərq dedikdə Mədinədən şərqi nəzərdə tutulur. Peyğəmbərlik iddia edən yalançı Müseyləmə oradan çıxmışdır. Peyğəmbərdən sonra baş verən ilk hadisə bu olmuşdur. Çoxlu insanlar ona tabe olmuşlar. Xəlifə Siddiq onlarla vuruşmuşdur...” Şeyxin sözü burada bitdi.

---

[192] Səhih Buxari, c. 2, s. 432, kitabul-istisqa, babu ma qilə fiz-zəlaili vəl-ayat; Sünəni Tirmizi, hədis 3948; Bəğəvi, Şəhus-sünnə, babu zikriş-şam, c. 14, s. 206, hədis 406; İsfəhani, əl-Hilyə, c. 6, s. 133; Səhih İbn Hibban, hədis 7301.

[193] Müsnədi Əhməd bin Hənbəl, hədis 6055; İbn Xüzeymə, əs-Səhihə, hədis 209, Əli bin Əbu Talibdən (ə); Səhih Müslim, hədis 1383; Malik, əl-Muvatta, c. 2, s. 885; Bəğəvi, Şərhus-sünnə, c. 7, s. 315, hədis 2012.Əbu Hüreyrədən nəql olunur. Babu fəzlil-mədinəti və hubbin-nəbiyyi (s) iyyaha və duaihi ləha.

[194] Səhih Buxari, c. 2, s. 432, kitabul-istisqa, babu ma qilə fiz-zəlazil vəl-ayat; Sünəni Tirmizi, hədis 3948; Bəğəvi, Şərhus-sünnə, c. 14, s. 206, 207, hədis 4006. İbn Ömərdən, o da Nafedən, o da İbn Oufdan belə nəql etdilər: “Dedilər: “Ya Rəsulullah (s), Nəcdimiz üçün də dua elə!” Belə güman edirəm ki, üçüncü dəfə dedi: “Orada zəlzələlər və fitnələr olacaq. Şeytan oradan çıxacaq”; Müsnədi Əhməd bin Hənbəl, hədis 5951; Səhih İdn Hibban, hədis 7301.

Bu hədisin dəlalətinin bir neçə cəhəti var. Aşağıda həmin cəhətləri qeyd edirik:

– Peyğəmbər (s) bəyan edir ki, iman Yəmənə aiddir. Fitnə isə şərq tərəfdən çıxacaq. Bunu bir neçə dəfə təkrarlamışdı.

– Peyğəmbər (s) Hicaz və oranın əhalisi üçün dəfələrlə dua etmişdir. Şərqdə, xüsusilə Nəcdə fitnələr olacağı üçün oranı əhalisinə dua etməkdən imtina etmişdir.

– Peyğəmbərdən (s) sonra baş verən birinci fitnə bizim torpaqlarda baş verdi... Müsəlmanı kafir hesab etdiyiniz bu məsələlər, hətta kafir hesab etməyəni təkfir etdiyiniz bu məsələlər uzun illərdən bəri Məkkəni, Mədinəni, Yəməni bürümüşdür.

Hətta bizə çatan xəbərə görə bu kimi məsələlər ən çox Yəməndə və Hərəmeyndə (Məkkə və Mədinə) baş vermişdir. Bizim bu məmləkətimiz fitnələrin baş verdiyi ən birinci yerdir. Qədim və yeni çağımızda müsəlman məmləkətlərində bundan çox fitnələrin baş verdiyini bilmirik. İndi sizin rəyiniz budur; bütün insanlar sizə tabe olmalıdırlar. Kim sizə tabe olarsa, öz şəhərində sizin dediklərinizi aşkar edə və öz məmləkətlərinin əhalisini təkfir edə bilməzlər. Onun sizin yanınza hicrət etməsi vaicbdir. Siz yardım olunan tayfasınız. Bu isə qeyd olunan hədisə ziddir. Allah-təala Rəsulullaha (s) qiyamət gününə qədər ümmətin başına gələcək hadisələri xəbər vermişdi. Peyğəmbər (s) də onlara başlarına gələcək hadisələri xəbər vermişdir. Əgər şərq məmləkətlərinin, xüsusilə də Müseyləmənin məmləkəti olan Nəcdin iman yurdu olacağını, iki hərəmin və Yəmənin küfr, bütlərin ibadət ediləcəyi, hicrət edilməsi vacib olan məmləkətlər olacağını bilsəydi, şərq əhlinə, xüsusilə də Nəcd üçün dua edərdi. İki hərəmin və Yəmənin əhalisinə bəd dua edərdi, onların bütlərə ibadət edəcəyini deyərdi və onlardan imtina edərdi. Lakin bunun tam əksi olmuşdur. Peyğəmbər (s) ümumi olaraq şərq, xüsusi olaraq isə Nəcddən Şeytanın buynuzunun çıxacağanı demişdir. Fitnələr orada baş

verəcək və oradan çıxacaq. Onlara dua etməkdən imtina etdi. Bu sizin iddianızın əksinədir. Bu gün isə Rəsulullahın (s) dua etdiyi insanlar sizin nəzərinizdə kafirdirlər. Peyğəmbərin (s) dua etməkdən imtina etdiyi, Şeytanın buynuzunun oradan çıxacağını, fitnələrin orada baş verəcəyini dediyi məmləkətləri isə iman yurdu adlandırır və ora hicrət etməyin vacib olduğunu deyirsiniz.

Qeyd etdiklərimiz hədislərdən tamamilə aşkar bilinən bəyandır.

## İYİRMİNCİ FƏSİL

### Peyğəmbərin (s) "Məndən sonra şirk edəcəyinizdən qorxmuram" buyurması

Sizin rəyinizin batil olmasının dəlillərindən biri də iki səhihdə Əqəbə bin Amirdən nəql olunan hədisdir: Peyğəmbər (s) minbərə çıxdı və belə buyurdu: "Mən sizin məndən sonra şirk edəcəyinizdən qorxmuram. Lakin sizin üçün dünya malından (ona bağlanmağınızdan) qorxuram. (Qorxuram ki) bir-birinizlə rəqabət aparıb dünya malı uğrunda bir-birinizi qətlə yetirib sizdən öncəkilər həlak olduğu kimi həlak olasınız". Əqəbə deyir: "Mən Rəsulullahı (s) axırıncı dəfə bu sözləri deyərkən mənbərdə gördüm".[195]

Bu hədisin dəlalət cəhəti budur: Peyğəmbər (s) qiyamət gününədək ümmətinin başına gələcək hadisələri xəbər verir. Necə ki, başqa hədislərdə bu barədə buyurmuşdur. Lakin indi həmin hədisləri qeyd etməyin məqamı deyil. Bu səhih hədisdə xəbər verir ki, ümmətinin bütlərə ibadət etməyəcəyindən əmindir. Buna görə onlar üçün qorxmur. Bu barədə onlara xəbər verir. Lakin onlar üçün qorxduğu şeyi onlara bildirmiş və onları xəbərdar etmişdir. Bununla yanaşı Peyğəmbərin qorxduğu şey baş verdi. Bu hədis sizin rəyinizə müxalifdir. Sizin rəyinizə əsasən Peyğəmbərin ümməti bütlərə ibadət edir. Bütlər onların

---

[195] Səhih Buxari, c. 5, s. 214, hədis 3816, kitabul-məğazi, babu Ğəzvətu Uhud; Təbərani. əl-Kəbir, c. 17, s. 279, hədis 768; Səhih Müslim, hədis 2296, kitabul-fəzail, babu isbat hovzu nəbiyyinə (s) və sifatuhu. Əqəbə bin Amirdən nəql olunur. Hədisin tamamı belədir: "Peyğəmbər (s) səkkiz il sonra dirilər və ölülərə vida edən şəxs kimi Ühüd şəhidlərinə dua etdi. Sonra minbərə çıxdı və belə dedi: "Mən sizdən öncə gedəcəm və sizə şahid olacam. Sizin görüş yeriniz hovuzun yanındadır. Mən bu məqamımdan ona baxıram. Mən sizin şirk edəcəyinizdən qorxmuram. Lakin sizin üçün dünya malına bağlanmağınızdan və onun uğrunda bir-birinizlə mübarizə aparacağınızdan qorxuram".

məmləkətlərini əhatə etmişdir. Şərqin bir ucundan qərbin bir ucuna, Ruma, Yəmənə qədər hamısı sizin iddianıza əsasən bütlərlə doludur. Siz deyirsiniz ki, kim bu əməlləri edəni təkfir etməzsə kafirdir. Məlumdur ki, müsəlmanlar hamısı İslama mənsub olan hər kəsə İslam hökmlərini tətbiq edirlər. Bu əməlləri edən heç kimi təkfir etməmişlər. Sizin rəyinizə əsasən sizin məmləkətinizdən başqa bütün İslam məmləkətləri küfr diyarıdır. Təəccüblüdür ki, sizin ölkənizdə baş verənlər iyirmi ilə yaxın zamanda baş vermişdir. Bu hədislə sizin xəta etdiyiniz aydın olur. Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

Əgər desən ki, "Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Sizin üçün ən çox qorxduğum şey şirkdir".[196]

Mən deyirəm: Bu doğrudur. Rəsulullahın (s) hədisləri bir-birinə zidd olmaz. Lakin Peyğəmbərdən (s) nəql olunan bir hədisdə onun ümməti üçün şirkdən qorxduğunu və həmin şirkin kiçik olduğunu demişdir. Necə ki, Şəddad bin Ovsun[197], Əbu Hüreyrənin[198], Mahmud bin Ləbidin

---

[196] Səhih hədisdir: Müsnədi Əhməd bin Hənbəl, c. 13, s. 270, hədis 17056. Şəddad bin Ovsdan belə nəql olunur: "Rəsulullahın (s) belə buyurduğunu eşitdim: "Ümmətim üçün şirk və gizli şəhvətdən qorxuram". Mən dedim: "Ya Rəsulullah, səndən sonra ümmətin şirk edəcəkmi?" (Peyğəmbər) dedi: "Bəli. Amma onlar nə günəşə, nə aya, nə daşa və ya nədə bütə ibadət edəcəklər. Lakin əməlləri ilə riya edəcəklər. Onlarda gizli şəhvət olacaq. Onlardan biri oruc tutacaq şəhvət istəklərindən birinə məruz qalacaq və orucunu tərk edəcək". Heysəmi, Məcməuz-zəvaid, c. 10, s. 220; Təbərani, əl-Kəbir, c. 17, hədis 818; c. 18, hədis 593; Səhih İbn Hibban, hədis 80; Müsnədi Bəzzaz, hədis 170; Müsnədi Əhməd bin Hənbəl, hədis 1291: Heysəmi, Məcməuz-zəvaid, hədis 9159. Məaz bin Cəbəldən nəql olunur. Təbərani, əl-Mucəmus-səğir, hədis 979.

[197] Müəllif Şəddad bin Ovsun hədisinə işarə edir. Bir gün o, ağladı. Ona: "Səni ağladan nədir? – deyə soruşdular. Belə dedi: "Rəsulullahdan (s) bir şey eşitmişdim. Onu xatırladım, məni ağlatdı. Rəsulullahın (s) belə dediyini eşitdim: "Ümmətim üçün şirk və gizli şəhvətdən qorxuram". Mən dedim: "Ya Rəsulullah (s), ümmətin səndən sonra şirk edəcəkmi?" (Peyğəmbər) dedi: "Bəli. Amma onlar nə günəşə, nə aya, nə daşa nə də bütə ibadət edəcəklər. Lakin əməlləri ilə riya edəcəklər. Gizli şəhvətə

hədisində belə deyilir. Bu hədislərin hamısında Peyğəmbərin (s) ümməti üçün kiçik şirkdən qorxduğu deyilir. Həmçinin bu bütün yer üzünü bürümüşdür. Həmçinin Peyğəmbər (s) müsəlmanların fitnə və dünya malı uğrunda bir-birilə savaşmalarından qorxurdu. Bu da baş verdi. Kiçik şirk sizin böyük şirk adlandırdığınızdır. Siz buna görə müsəlmanları təkfir edirsiniz. Hətta onları təkfir etməyəni də təkfir edirsiniz. Hədislər bir-birini təsdiqlədi və haqq bəyan oldu. Allaha həmd olsun!

---

gəlincə, sizlərdən biri oruc tutacaq, şəhvətə məruz qalacaq və orucunu tərk edəcək". Bax: Sünəni İbn Macə, hədis 4205; Müsnədi Əhməd bin Hənbəl, hədis 17056. Həmzə Əhməd Zeyn bu hədisi həsən hesab etmişdir.

[198] Müəllif Əbu Hüreyrənin nəql etdiyi bu hədisə işarə edir: Peyğəmbər (s) buyurdu: "Qiyamət günü olduqda Allah-təala bəndələr arasında hökm etmək üçün enər. Hər bir ümmət diz çökəcək. Ən birinci Quranı cəm edən, Allah yolunda savaşan, çox malı olan şəxs çağıralacaq. Allah-təala Quran oxuyana deyəcək: "Sənə Peyğəmbərinə nazil etdiyimi öyrətmədimmi?" O, deyəcək: "Şübhəsiz ki, Ya Rəbbi". (Allah) deyəcək: "Öyrəndiyindən nəyə əməl etdin?" O, deyəcək: "Gecələr və gündüzlər onunla ibadət edirdim". Allah deyəcək: "Yalan deyirsən". Mələklər deyəcək: "Yalan deyirsən". Allah deyəcək: "Sən filankəs qaridir deyilməsini istəmisən..." Bax; Səhih Müslim, hədis, 1905: Sünəni Tirmizi, hədis 4043; Səhih Müslim, hədis 2296; Təbərani, əl-Kəbir, c. 17, s. 279, hədis 768.

## İYİRMİ BİRİNCİ FƏSİL

### Peyğəmbərin (s) "Şeytan ərəbistan yarmadasında ibadət olunmaqdan ümidsiz olmuşdur" buyurması

Sizin rəyinizin batil olmasının dəlillərindən bir də Səhih Müslimdə Cabir bin Abdullahın Peyğəmbərdən (s) nəql etdiyi bu hədisdir. O həzrət buyurub: "Həqiqətən də Şeytan namaz qılanların ərəbistan yarmadasında ibadət olunacağından ümidsizdir. Lakin onların arasını vuracaq".[199]

Hakim, Əbu Yəla və Beyhəqi İbn Məsuddan belə nəql edir: "Rəsulullah (s) belə buyurdu: "Həqiqətən Şeytan ərəblərin torpaqlarında ibadət olunacağından ümidsiz olmuşdur. Lakin ondan başqa həqir işləri onlara rəva görmüşdür. Həmin əməllər həlak edən günahlardır".[200] Hakim bu hədisi səhih hesab etmişdir.

İmam Əhməd, Hakim, İbn Macə Şəddad bin Ovsdan belə dediyini nəql etmişlər: "Rəsulullahın (s) belə dediyini eşitdim: "Ümmətim üçün şirk edəcəklərindən qorxuram!"

Mən dedim: "Ya Rəsulullah, səndən sonra ümmətin şirk edəcəkmi?"

(Peyğəmbər) belə dedi: "Bəli. Onlara gəlincə, nə günəşə, nə aya, nə də bütə ibadət edəcəklər. Lakin əməlləri ilə riya edəcəklər".[201] Hakim bu hədisi səhih hesab etmişdir.

---

[199] Səhih Müslim, hədis 2812, kitabu sifatul-munafiqin, babu təhrişuş-şeytan, Cabir bin Abdullah Ənsaridən nəql olunur; Sünəni Tirmizi, hədis 248, 5082; Sünəni Əbu Davud, hədis 3318; Sünəni İbn Macə, hədis 3055; Təbərani, əl-Mucəmul-kəbir, c. 17, s. 31, hədis 58. Süleyman bin Əmr bin əl-Əhvas, o da atasından belə nəql etmişdir: "Rəsulullahın (s) belə buyurduğunu eşitdim... sonra hədisi nəql etdi.

[200] Sünəni Tirmizi, hədis 2238, 5082; Sünəni Əbu Davud, hədis 3318; Sünəni İbn Macə, hədis 3055; Təbərani, əl-Kəbir, c. 17, s. 31, hədis 58.

[201] Müsnədi Əhməd bin Hənbəl, c. 13, s. 270 ,hədis 17056 ,17075; Heysəmi, Məcməuz-zəvaid, c. 10, s. 220; Hakim, əl-Mustədrək, c. 1, s. 679, hədis 1844; Sünəni İbn Macə, hədis 4205. Daruqutni və başqaları bu hədisi zəif hesab etmişdir. İbn Hibban isə səhih hesab etmişdir.

Mən deyirəm: Bu hədisin dəlalətinə əsasən Allah-təala öz qeybi elmindən qiyamətə qədər baş verəcək hər şeydən peyğəmbərini xəbərdar etmişdir. Peyğəmbər (s) xəbər vermişdir ki, həqiqətən də Şeytan ərəbistan yarımadasında namaz qılanların bütlərə ibadət edəcəklərindən ümidsiz olmuşdur. İbn Məsudun hədisində isə belə deyilir: Şeytan ərəblərin torpaqlarında bütə ibadət ediləcəkdən ümidsiz olmuşdur. Şəddadın hədisinə əsasən isə onlar bütlərə ibadət etməyəcəklər. Bu isə sizin rəyinizə müxalifdir. Bəsrə və onun ətrafında, İraqda Dəclədən aşağıda Əlinin və Hüseynin – Allah onların ikisindən də razı olsun – qəbirləri olan yerdə, həmçinin, Yəmən və Hicaz bütün bunlar ərəb torpaqlarıdır. Sizin rəyinizə əsasən bütün bu yerlərdə Şeytana ibadət edilir, həmin yerlərdə bütlərə ibadət edilir və onların hamısı küfr etmişdir. Sizin nəzərinizdə onları kafir hesab etməyən də kafirdir. Bu hədislər sizin rəyinizə müxalifdir. İndi deyə bilməzsiniz ki, Riddə əhli zamanıda ərəblərin torpaqlarında şirk baş vermişdir. Çünki bu çox qısa bir zamanda baş vermişdir və nəzərə çarpmayacaq dərəcədədir. Elə bil ki, küfr diyarından bir və ya daha çox ərəblərin ərazisinə girib orada Allahdan qeyrisinə ibadət etmişlər. Lakin sizin böyük şirk və bütlərə ibadət etmək hesab etdiyiniz bu əməllər uzun illərdir ki, ərəb ölkələrini bürümüşdür. Bu hədislərlə sizin bu əməllərinin böyük bütlər olması barədəki rəyinizin batil olduğu aşkar olur. Həmçinin nicata çatacaq firqənin yer üzünün uzaq tərəflərində və onlardan heç bir xəbərin olmaması barədə rəyinizin də batil olduğunu sübuta yetirir. Əgər bu əməllər bütlərə ibadət etmək və böyük şirk olsaydı, qiyamət gününə kimi yer üzündə aşkar olan nicata çatan və (ilahi) yardım olunan firqə onlarla vuruşardı. Qeyd etdiyimiz bu dəlil həddindən artıq aşkar və aydındır...

Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

Təəccüblüdür ki, siz bu işləri, yəni qəbirlər və onun ətrafında nəzir kimi edilən əməllərin böyük bütlər olduğunu iddia edirsiniz. Bu

məsələnin həddindən artıq aşkar olmasını, hətta yəhudilərin və xristianların da bildiklərini deyirisiniz. Mən bu cəfəng iddianıza cavab olaraq sizə deyirəm ki, bu böyük bir böhtandır. Dəfələrlə qeyd etdik ki, səkkiz yüz ildir ki, ümmətin hər tərəfində belə qəbirlər mövcuddur. Heç kim bunu böyük bütlərə ibadət adlandırmamışdır. Heç kim bu işləri edən Allahla yanaşı başqa ilah qərar vermişdir deməmişdir. Bu işi edənlərə bütlərə ibadət edənlərin və ya mürtədlərin hökmünü tətbiq etməmişlər.

Əgər siz desəniz ki, yəhudilər, həmçinin xristianlar iftiraçı bir qövmdür. Bu ümmətə iftira atan onlar kimi bu ümmətdən olan bidətçilər də iftiraçıdırlar. Onlar bu işlərin böyük bütlərə ibadət etmək olduğunu deyirlər. Biz də sizə deyərik ki, doğru deyirsiniz. Onlar bu ümmətə iftira, böhtan atmışlar, bu ümmətə həsəd aparırlar və bu ümməti daha böyük məsələlərdə ittiham etmişlər. Lakin Allah-təala onları xar edəcəkə, vəd verdiyi kimi dinini bütün dinlərdən üstün qərar verəcək: **“Müşriklərin xoşuna gəlməsə də, onu (islamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!”**[202]

Lakin mən deyirəm: Rəsulullah (s) Mədinəyə, onun ətrafına və Yəmənə dua etməkdə necə də doğru etmişdir. Onun yanında olanlar Nəcd üçün də dua elə dedikdə belə buyurmuşdur: “Zəlzələlər və fitnələr oradan çıxacaq”. Allaha and olsun ki, şəhvətlərin fitnəsi əsil fitnədir, hamının tanıdığı zülmətdir. Bu İslam dininə xilafdır. Bu məsələdən tövbə etmək vacibdir. Bu İslam dinindən azdıran şübhələr fitnəsindən daha yüngüldür. Bunu edənlər əməlləri baxımından xəsarətə uğrayanlar olacaqlar:**“O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər”.**[203]

---

[202] Tövbə surəsi, ayə 33.

[203] Kəhf surəsi, ayə 104.

Səhih hədisdə Peyğəmbərin (s) üç dəfə “Tənə vuranlar həlak olacaqlar”.[204] Buyurduğu nəql olunur.

Həqiqətən, biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

Allah bizi və sizi bu həlakdan xilas etsin! Həqiqətən də, O, mərhəmətlidir!

---

[204] Səhih Müslim, hədis 2670; Sünəni Əbu Davud, hədis 4608; Müsnədi Əhməd bin Hənbəl, hədis 3655; Təbərani, əl-Kəbir, hədis 10368; Müsnədi Əbu Yəla Mosuli, hədis 5004, 5242; Bəğəvi, Şərhus-sünnə, hədis 3396; Təhzibul-kamal, c. 12, s. 42; Müsnədi Bəzzaz, hədis 290. Hamısı İbn Məsuddan nəql etmişlər.

## İYİRMİ İKİNCİ FƏSİL

### Peyğəmbərin (s) "Şeytan sizin torpaqlarda ibadət olunacağından ümidsiz olmuşdur" buyurması

Sizin rəyinizin batil olmasına ehtiva edən dəlillərdən biri də İmam Əhmədin, Timizinin, Nəsainin, İbn Macənin Əmr bin Əhvasdan nəql etdiyi hədisdir. Həmin hədisdə deyilir: "Rəsulullahın vida həccində belə buyurduğunu eşitdim: "Həqiqətən də Şeytan sizin bu ölkənizdə ibadət olunmaqdan ümidsiz olmuşdur. Lakin bəzi həqir (alçaq, pis) əməllərinizlə ona itaət edəcəksiniz və o, bununla razılaşacaq".[205] Hakimin əl-Müstədrəkində İbn Abbasdan belə nəql olunur: "Peyğəmbər (s) vida həccində xütbə söylədi və belə dedi: "Şeytan sizin torpaqlarda ibadət olunacağından ümidsiz olmuşdur. Lakin o, bundan başqa sizin həqir əməllərinizlə razı qalacaq. Ehtiyatlı olun ey insanlar!... Mən sizin üçün elə bir şey qoyub gedirəm ki, əgər odan yapışsanız məndən sonra heç vaxt azmayacaqsınız: (Həmin şey) Allahın kitabı və peyğəmbərinin sünnəsidir".[206]

Bu səhih hədisə əsasən Rəsulullah (s) xəbər vermişdir ki, Şeytan Məkkə şəhərində ibadət ediləcəyindən ümidsiz olmuşdur. Həmçinin, kiminsə bu davam etməyəcək deyə düşünməsinin deyə o həzrətin "heç vaxt" demşdir. Bu Peyğəmbər (s) tərəfindən bir xəbərdir. O, əksinin baş verəcəyi bir şey xəbər verməz. Həmçinin bu o həzrət (s) tərəfindən ümmətinə verdiyi bir müjdədir. O, ümmətinə yalnız doğru bir şeyi müjdə verər. Lakin o həzrət ümməti bütlərə ibadət etməkdən başqa digər günah

---

[205] Sünəni Tirmizi, hədis 3087, kitabut-təfsir, babu təfsiri surətit-tovbə; kitabul-fitəni, babu təhricid-dima, hədis 2610; İbn Əsir Cəzəri, Camiul-usul, c. 1, s. 259, 260, hədis 52. İbn Əhvasdan nəql olunur; Sünəni İbn Macə, hədis 2055; Müsnədi Əhməd bin Hənbəl, 15081. Əmr bin Əhvas Cəşəmidən nəql olunur.

[206] Hakim Nişapuri, əl-Mustədrək, kitabul-ilmi, c. 1, s. 39, İbn Abbasdan nəql olunur.

əməllərdən çəkinməyi tapşırdı. Bu qeyd olunan hədisin mətnindən aşkarcasın başa düşülür. Sizin böyük şirk hesab etdiyiniz və yerinə yetirəni bütlərə ibadət edənlər adlandırdığınız bu əmələr ən çox Məkkədə mövcuddur. Şərəfli Məkkə şəhərinin əmirləri, alimləri və avamları altı yüz ildən çox bir müddətdə bu əməlləri etmişdir. Bununla yanaşı onlar sizin bu rəylərinizə görə sizə düşmənçilik edir, sizi söyürlər və sizə lənət oxuyurlar.[207] Onların hakimləri, alimlər sizin böyük şirk adlandırdığınız bu əməlləri edənlərə İslam hökmlərini tətbiq etmişlər. Əgər sizin iddia etdiyiniz kimi doğrudan da, onlar aşkar küfr edirdilər, bu hədis sizin iddianızı rədd edir və məzhəbinizin batil olduğunu bəyan edir.

Bundan əlavə, iki səhih kitabda və başqa kitablarda qeyd olunan hədislərə əasasən Rəsulullah (s) Məkkənin fəthindən sonra buyurub: “Bu gündən sonra hicrət yoxdur”.[208]

Elm əhli Məkkədən hicrət etmək yoxdur mənasını bəyan etmişlər və bildirmişlər ki, Peyğəmbərin (s) bu sözü deməsi dəlalət edir ki, Məkkə sizin rəylərinizin əksinə iman yurdu olaraq qalacaq. Halbuki sizin iddianıza görə oradan iman yurduna, yəni Rəsulullahın (s) fitnələr məmləkəti adlandırdığı yerə (Nəcdə) hicrət etməyi vacib bilirsiniz.

---

[207] Qeyd edək ki, müəllif bu kitabı hicri on ikinci əsrin əvvəlində yazmışdır. Yəni iki yüz il bundan öncəki vəziyyətdən söhbət edir. Həmin zamanda vəhabilər Nəcd əyalətindən çıxdılar və Məkkə və Mədinə olmaqla hər tərəfdən ümmətin alimləri onlara qarşı çıxdı.

[208] Səhih İbn Hibban, c. 7, s. 57, hədis 4573, İbn Abbasdan nəql olunur; s. 179, hədis 4847, Aişədən nəql olunur; Müsnədi Əhməd bin Hənbəl, c. 12, s. 244, hədis 15243, İbn Məsuddan nəql olunur; s. 126, hədis 15243. Səfvan bin Üməyyədən nəql olunur; Səhih Buxari, hədis 2783, hədis 2825; Sünəni Tirmizi, hədis 1590; Sünəni Darəmi, hədis 2512; Hakim, əl-Mustədrək, c. 2, s. 257. İbn Abbasdan nəql olunur; Səhih Müslim, hədis 1864, Aişədən nəql olunur.

Allahın haqqa müvəffəq etdiyi, təəssübkeşliyi və batilə meyl etməyi tərk edən hər kəs üçün dediklərimiz aşkar və aydındır.Allah yardımçımız olsun! Yalnız Ona təvəkkül edilər!

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

### Peyğəmbərin (s) "Mədinə onlar üçün xeyirlidir. Əgər bunu bilsəydilər" buyurması

Məzhəbinizin batil olmasının dəlillərindən biri də Müslimin Səhihində Sədin Peyğəmbərdən (s) nəql etdiyi hədisdir: "Mədinə onlar üçün xeyirlidir. Əgər bunu bilsəydilər. Kim oranı sevmədən oranı tərk edərsə, Allah ondan xeyirlisi ilə onu əvəzləyər. Oranın çətinliklərinə, istisinə, fəqirliyinə və əziyyətinə dözən şəxs qiyamət günü şəfaətçi və ya şahid olaram".[209]

Həmçinin Müslim Səhihində Əbu Hüreyrədən belə nəql edir: "Rəsulullah (s) buyurub: "Mədinənin istiliyinə və çətinliyinə ümmətimdən kim dözərsə, qiyamət günü onun şəfaətçisi olaram".[210]

Hər iki səhih kitabda Cabirdən belə nəql olunur: "Mədinə körük[211] kimidir. Pisi uzaqlaşdırar, yaxşını saxlayar".[212]

---

[209] Səhih Müslim, hədis 388, Səddən nəql olunur; Müsnədi Həmidi, hədis 865; Səhih Buxari, hədis 1875; Əbdürrəzzaq, əl-Müsənnəf, hədis 17159; Müsnədi Əhməd bin Hənbəl, c. 5, s. 129, 220; Bağəvi, Şərhus-sünnə, hədis 3018; Təbərani, əl-Kəbir, c. 7, 72, hədis 6407, 6412, 6409.

[210] Səhih Müslim, hədis 1374, kitabul-həcc, babut-tərğib fi suknal-mədinəti vəs-səbr alə bəlvaiha; Sünəni Tirmizi, kitabul-mənaqib, babu ma caə fi fəzlil-mədinə, hədis 3920. Əbu Hüreyrə, Abdullah bin Ömər bə Əbu Səid Xudridən nəql olunmuşdur. Müsnədi Əhməd bin Hənbəl, hədis 7852.

[211] Burada körük təşbih məqsədilə deyilir. Körük alovu həmişə şöləli edir və külü ondan uzaqlaşdıraraq alovu azalmağa və ya sönməyə qoymur.

[212] Səhih İbn Hibban, c. 18, s. 18, s. 19. Hədis 3724, 3725. Cabir bin Abdullah Ənsaridən nəql olunur; Müsnədi Əhməd bin Hənbəl, c. 12, s. 80, hədis 15070; Səhih Müslim, hədis 2575; Səhih Buxari, hədis 1871; Malik bin Ənəs, əl-Muvatta, hədis 1640, Əbu Hüreyrədən nəql olunur.

Həmçinin hər iki səhih kitabda Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Mədinənin çuxurlarında mələklər var, oralara taun və Dəccal girməz".[213]

Hər iki səhih kitabda Ənəs bin Malik Peyğəmbərdən (s) belə nəql edir: "Məkkə və Mədinədən başqa elə bir şəhər yoxdur ki, ora Dəccal ayaq basmasın. Oranın (Məkkə və Mədinənin) elə bir çuxuru yoxdur ki, orada ayaqyalın mələklər olmasın".[214]

Hər iki səhih kitabda Əbu Sədin hədisi nəql olunub: "Mədinədə kim hiylə edərsə, duz suda əridiyi kimi əriyib yox olar".[215]

Sünəni Tirmizidə Əbu Hüreyrənin belə hədisi nəql olunur: "İslam şəhərlərindən ən son xarabalıq olacaq şəhər Mədinədir".[216]

Bu hədislərin bir necə cəhətdən dəlaləti var. Həmin cəhətlərin bəzilərini qeyd edirik:

Birinci: Peyğəmbər (s) Mədinədə məskunlaşmağa təşviq etmiş və oranın başqa yerlərdən xeyirli olduğunu demişdir. Kim oranı sevmədən oranı tərk edərsə, Allah ondan da xeyirlisini əvəzləyər. Həmçinin o həzrət (s) xəbər vermişdir ki, kim orada məskunlaşarsa, onun şəfaətçisi olar və qiyamət günü ona şahid olar. Həmçinin, bunun ümməti üçün hər hansı bir

---

[213] Səhih Buxari, c. 3, s. 28, kitabul-umrəti, babu la yədxulud-Dəccalu əl-mədinətə; Səhih Müslim, c. 2, s. 1005, hədis 1379, kitabul-həcci, Siyanətul-mədinəti min duzulit-tauni vəd-dəccal; Malik bin Ənəs, əl-Muvatta, kitabul-vamii, babu fi vəbail-mədinəti; Müsnədi Əhməd bin Hənbəl, c. 9, s. 33, hədis 8862. Hamısı Əbu Hüreyrədən və İbn Ömərdən nəql etmişdir.

[214] Səhih Buxari, c. 4, s. 81, kitabu fəzailil-mədinəti, babu la yədxulud-dəccalul-mədinətə; Səhih Müslim, kitabul-fitən, babu fid-Dəccal və təhricl-mədinəti aleyhi və qətluhal-muminin və ihyaihi, hədis 2934; İbn Əsir Cəzəri, c. 9, s. 328. Hədis 6949.

[215] Səhih Buxari, c. 4, s. 81, kitabu fəzailil-mədinəti, babu əsimə mən kadə li əhli mədinəti; Səhih Müslim, kitabul-həcci, babu mə ərадə li əhlil-mədinəti bi suuin əzabəhullahu; İbn Əsir Cəzəri, Camiul-usul, c. 9, s. 325, hədis 6944.

[216] Səhih İbn Hibban .c. 8, s. 272, hədis 6738; Sünəni Tirmizi, hədis 3919.

zaman məxsus olmayacağını demişdir. Mədinə körük kimidir. Pisləri təmizləyir. Bu şəhər mələklər tərəfindən qorunur. Taun və dəccal axır zamanadək ora daxil olmayacaq. Kim orada hiylə edərsə, duz suda əridiyi kimi əriyər, yox olar. Həmçinin orda ölməyə imkan edə bilərsə, orada vəfat etsin (dəfn olunsun) demişdir. Ən sonda Mədinə xaraba olacaq ən axırıncı şəhər olacaq. Bütün bu sözlər sizin bu işləri edənləri bütlər adlandırıb təkfir etməyinizə, bu əməlləri edənləri böyük şirk edərək müşrik adlandırmağınıza, onları kafir hesab etməyənləri təkfir etməyinizə müxalifdir.

Mədinəni və əhalisini tanıyan hər kəsə məlumdur ki, bu kimi əməllər orada Zübeyr şəhərindəkindən və bütün İslam şəhərlərindəkindən daha çoxdur. Bu əməllər altı yüz ildən çox müddət ərzində əsirlərdir ki, davam edir. Mədinənin bütün başçıları, alimləri, əmirləri oranın əhalisinə İslam hökmlərini tətbiq etmişlər. Onlar sizin düşmənlərinizdirlər və sizin təkfir olan məzhəbinizi, bu əməlləri büt adlandırmalarınızı, Allahla yanaşı başqa ilah qəbul etmək kimi səciyyələndirmənizi, onları kafir hesab etmənizi lənətləyirlər.

Bu hədislər sizin məzhəbinizi rədd edir və müsəlman olan şəxsə sizin məzhəbinizdən çıxmağı vacib edir.

Bu hədislər sizin məzhəbinizi və bu əməllərin böyük bütlər olmasını iddia etmənizə müxalifdir.

Bu hədislər sizə qoşulmaq daha xeyirlidir iddianıza ziddir.

Bu hədislər sizin Mədinə əhalisinə Rəsulullah (s) şəfaət etməyəcək iddianızı rədd edir. Çünki icmaya əsasən kim Allahla yanaşı başqa ilah qərar verərsə, onun itaət olunan bir şəfaətçisi olmayacaq.

Bu hədislər sizin iddialarınızı rədd edir və axır zamanda gələn Dəccal Mədinəyə girməyəcəyi barədə Peyğəmbərin (s) verdiyi müjdə məsələni daha aydınlaşdırır. Dəccalın fitnəsindən böyük fitnə yoxdur. O, insanlardan Allahdan qeyrisinə ibadət etməyi tələb edəcək. Əgər bu

əməllər sizin iddia etdiyiniz kimi Allahdan başqa ilah qərar vermək, bütə ibadət etmək, böyük şirklə Allaha şərik qoşmaqdırsa, bu əməllər altı yüz və ya yeddi yüz il, yaxud daha çox və ya az müddət ərzində Mədinəni bürümüşsə, Mədinənin bütün əhalisi bu əməlləri inkar edənlərə qarşı çıxırlarsa, Dəccalın Mədinəyə daxil olmamasının nə faydası var? Məgər Dəccal insanlardan şərik qoşmaqdan başqa bir şey tələb edəcəkmi? Dəccalın müşriklərin yaşadığı yerə daxil olmaması barədə Peyğəmbərin (s) müjdə verməsinin nə anlamı var?

Həqiqətən, biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

Əgər məzhəbinizin nəticəsini, rəyinizin həqiqətini bilsəydiniz, Allahdan utanmasanız da, insanlardan da utanarsınız! Kim bu hədisləri diqqətlə düşünərsə, qeyd etdiyimiz dəlillərdən əlavə bu hədislərin sizin rəyinizin batil olmasına dəlalət etdiyini anlayar.

Allahdan özüm və sizin üçün afiyət və fitnələrdən salamat qalmağı diləyirəm!

## İYİRMİ DÖRDÜNCÜ FƏSİL

### Peyğəmbərin (s) “Gecə və gündüz keçməmiş Lat və Uzza ibadət olunacaq”.

Sizin rəyinizin batil olmasına dəlalət edən dəlillərdən biri də Müslimin Aişədən – Allah ondan razı olsun – nəql etdiyi hədisdir: Rəsulullahın (s) belə buyurduğunu eşitdim: “Gecə və gündüz keçməmiş Lat və Uzzə ibadət olunacaq”. Mən dedim: “Ya Rəsulullah, mən zənn edirdim ki, Allah-təala **“Müşriklərin xoşuna gəlməsə də, onu (islamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!”**[217] ayəsini nazil etdikdən sonra bu iş tamam olmuşdur. (Peyğəmbər) buyurdu: “Allah istəyənədək belə olacaq. Sonra Allah bir xoş külək əsdirəcək və qəlbində xardal dənəsi qədər iman olan hər kəs vəfat edəcək. (Yer üzündə) xeyiri olmayanlar qalacaq və onlar atalarının dininə dönəcəklər”.[218]

İmran bin Hasin Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Ümmətimdən bir tayfa haqq uğrunda vuruşmağa davam edəcək. Hətta sonuncuları Məsihlə savaşacaq”.[219]

Cabir bin Somrə Peyğəmbərin (s) belə dediyini nəql edir: “Qiyamət gününədək bu din qalacaq və müsəlmanlardan bir dəstə bu din uğrunda vuruşacaq”.[220] Müslim nəql etmişdir.

---

[217] Tövbə surəsi ,ayə 33.

[218] Səhih Müslim, kitabul-fitən, babu la təqumus-saətu hətta tubəd əl-Latu vəl-Uzzə; İbn Əsir, Camiul-usul ,c. 1, s. 36, hədis 7495.

[219] Səhih İbn Hibban, c. 8, s. 294, hədis 6795; Əbdürrəzzaq, əl-Musənnəf, hədis 57; Müsnədiş-şamiyyin; Sünəni Nəsai, c. 9, s. 214, s. 215; İbn Əsakir, Tarixi Diməşq, c. 1, s. 103, 104.

[220] Səhih Müslim, hədis 1922; Müsnədi Əhməd bin Hənbəl, hədis 20479; Təbərani, əl-Kəbir, c. 2, s. 225, hədis 1931.

Əqəbə bin Amir belə nəqledir: “Rəsulullahın (s) belə buyurduğunu eşitdim: “Ümmətimdən bir dəstə Allah əmri uğrunda düşmənlərinə qarşı vuruşacaqlar və müxalif çıxanlar onlara zərər verə bilməz. Qiyamət günü gələnədək onlar bu halda olacaqlar...” Abdullah bin Ömər dedi: “Bəli. Sonra Allah müşk kimi bir külək əsdirəcək. İpək kimi yumuşaq. Qəlbində xardal dənəsi qədər iman olan hər kəsin canını alacaq. Sonra qiyamət qopanadək insanların şər olanları qalacaq”.[221] Müslim rəvayət etmişdir.

Həmçinin Müslim Abdullah bin Ömərdən belə nəql edir: “Rəsulullah (s) belə buyurdu: “Dəccal ümmətimin içində üzə çıxacaq və qırx gün qalacaq”.[222] Sonra hədisi qeyd edir. Həmin hədisdə İsanın Dəccalı qətlə yetirməsi deyilir. Hədis küləyin əsməsini, möminlərin canının alınması, insanların şər olanlarının qalması qeyd edildikdən sonra belə deyilir: Şeytan onların gözlərinə görsənib deyəcək: “Əməl etməyəcəksinizmi?” Deyəcəklər: “Bizə nə əmr edirsən?” Şeytan da onları bütlərə ibadət etməyi əmr edəcəkdir”.[223]

Mən deyirəm: Bu səhih hədislərdə sizin məzhəbinizin batil olmasına aşkar dəlillər var. Bütün bu hədislər aşkarcasına qeyd edir ki, axır zamanda bütün möminlərin son nəfəsi çıxdıqdan sonra bu ümmətdə bütlərə ibadət olunacaq. Çünki Peyğəmbər (s) bütlərin ibadət olunacağından danışmış və bunun baş verəcəyini demişdir. Siddiqə (Aişə) mübarək ayənin məzmununa əsasən Muhəmmədin dininin bütün dinlərdən üstün olacağını deyir. Rəsulullah (s) da ona məqsədini bəyan edir. Ona bildirir ki, ayənin məzmunu haqdır. Bütlərə ibadət etmək bütün möminlər vəfat etdikdən sonra baş verəcək. Bundan öncə isə olmayacaq.

---

[221] Səhih Müslim, kitabul-fitən, babu xurucid-dəccal və məksuhu fil-ərzi və nuzuli İysa və qətluhu iyyahu.

[222] Səhih Müslim, kitabul-fitən, babu xurucid-dəccal, hədis 2940; İbn Əsir Cəzəri, Camiul-usul, c. 1, s. 418, hədis 7938. Abdullah bin Ömərdən nəql olunmuşdur.

[223] Bax; Səhih Müslim, hədis 2940. Abdullah bin Əmrdən nəql olunan uzun bir hədisdə qiyamətin əlamətlərindən danışır.

Bu, sizin məzhəbinizə ziddir. Sizin sözlərinizə görə Lat və Uzza müsəlmanların məmləkətlərində uzun əsirlər ibadət edilmişdir. Sizin şəhərinizdən başqa heç bir şəhər bundan xilas olmamışdır. Sizin bu sözününz səkkiz ilə yaxındır ki, üzə çıxmışdır. İddia edirsiniz ki, məhz sizin sözlərinizlə raşılaşan müsəlman, sizə müxalif olan isə kafirdir.

Bu səhih hədis düşünən hər bir kəs üçün sizin rəyinizin batil olmasını açıq aşkar bəyan edir. İmranın hədisində belə deyilir: "Yardım olunan tayfa haqq uğrunda savaşacaq. Hətta onların sonuncusu Dəccal Məsihlə vuruşacaq".[224]

Həmçinin Əqəbənin hədisində bir dəstə haqq uğrunda savaşacaq. Onlar qiyamət qopanadək düşmənlərinə qalib gələcəklər. Məlumdur ki, Dəccalın insanları Allah-təaladan qeyrisinə ibadət etməyə çağıracaq. Əgər Allah-təaladan qeyrisinə ibadət etmək bütün müsəlman məmləkətlərində açkarcaına yayılmışdırsa, bütün peyğəmbərlərin ümmətlərini edəcəyi fitnədən xəbərdar etdikləri Dəccalın fitnəsinin nə mənası var? Həmçinin Peyğəmbərimiz (s) də onun fitnəsindən xəbərdar etmişdir. Bəs hanı haqq uğrunda vuruşan dəsdə ki, sonuncuları bu müşriklərlə vuruşarkən Dəccalla vuruşacaqlar? Sizin iddianıza görə həmin dəstə Allahla yanaşı başqa ilah qərar vermişlər. Siz deyirsiniz ki, gizlidirlər? Lakin hədisdə onların aşkar olamaları deyilir. Deyirsiniz ki, onlar Dəccalın zamanında gələcək, lakin bu hədislərdə onların əvvəlcədən olub sonadək davam edəcəkləri deyilir.

Bizə deyin görək! Sizdən əvvəl kim bu sözləri demişdir ki, biz də onu təsdiqləyək. Əks təqdirdə onlar siz deyilsinizmi?

Əzəmətli Allaha and olsun ki, bu sizə qarşıdır, sizin rəyinizin batil olmasının bəyanıdır. Hər bir azğının zəlalətini bəyan edən kamil şəriəti gətirən Peyğəmbərə Allahın salam və salavatı olsun.

---

[224] İbn Əsir Cəzəri, Usulul-hədis, hədis 1048, 6776, 6778, 6779, 7496, 7832, 7917, 8879.

Həmçinin Abdullah bin Ömərin hədisində deyilir ki, Şeytan möminlərin vəfatından sonra insanlara görünəcək və onları itaət etməyə çağıracaq. İnsanlar ona deyəcəklər: “Bizə nə əmr edirsən?” Onlara bütə ibadət etməyi əmr edəcək. Əgər sizin iddia etdiyiniz kimi müsəlmanların Hicaz, Yəmən, Şam kimi şərq və qərbdəki bütün məmləkətlərini bütlər və bütlərə ibadət etmək bürümüşdürsə, bütün möminlər öldükdən sonra bütlərə ibadət ediləcək deyə xəbər verən bu hədislərin nə anlamı var? Axır zamanda Dəccalla vuruşmağın nə mənası var? Sizin iddianıza əsasən təqribən altı yüz və ya yeddi yüz il uzun müddət ərzində bütpərəstlərə qarşı vuruşmurlar. Allaha and olsun ki, hər şey məhz elə Allah buyrduğu kimidir:**“...Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər (qəlb gözü) kor olar”.**[225]

Hədislərdən qeyd etdiyimiz bu məqamlar haqqın ardınca gedənlər və doğru yolu tutanlar üçün kifayət edər.

Amma həvayi-nəfsin  kor etdiyi şəxs Allahın haqqında buyurduğu şəxs kimidir: **“Əgər Biz (istədikləri kimi) mələkləri onlara göndərsəydik, ölülər onlara danışsaydı və hər şeyi dəstə-dəstə toplayıb onların qarşısına qoysaydıq belə, Allah istəmədikcə, onlar iman gətirməzdilər...”**[226]

Biz şəriətə müxalif çıxana müxalifik. Ondan istəyirik ki, tək olan Allaha xatir Allahın Rəsulullaha göndərdiyi şəriəti bizə təqdim eləsin. Ümmətin alimlərindən istədikləri alimlərinin rəylərini desinlər. Allahla əhd bağlayırıq ki, əgər haqq onlarla olacaqsa, biz onlara tabe olacayıq. Lakin çox təəccüblüdür ki, sizlərin bəziləriniz Qədamə bin Məzunun və onunla olanların əhvalatını dəlil gətirilər. Belə ki, onlar **“İman gətirib yaxşı işlər görənlərə pis əməllərdən çəkinib iman gətirdikləri, saleh əməllər etdikləri, sonra pis əməllərdən çəkinib iman gətirdikləri, sonra yenə**

[225] Həcc surəsi, ayə 46.

[226] Ənam surəsi, ayə 111.

**də pis əməllərdən çəkinib yaxşı işlər gördükləri təqdirdə, daddıqları (yeyib içdikləri) şeylərdən ötrü günah tutulmaz..."[227]** ayəsini təvil edərək şərabı halal hesab etmişlər. Ömər və bütün səhabələr icma ediblər ki, onlar fikirlərindən dönüb haramı təsdiqləmişlər. Batil düşüncələrindən dönməsələr qətlə yetirilməli idilər.

Mən deyirəm: Şərabın haramlığı Quran və sünnəyə, ümmətin bütün alimlərinin, əsasən İslam dininin zəruri prinsiplərindəndir. Bununla yanaşı mühacirlər, ənsarlar və onların zamanındakı hər bir müsəlman şərabın haram olmasında icma etmişdir. Həmin vaxt bütün ümmətin vahid imamı vardı. Nə Ömər, nə də səhabələr onları təkfir etməmişdilər. İmam onlara bəyan edib onları haqqa çağırdıqdan, Quran və sünnədən çıxarılan höccət tamamlandıqdan və ümmətin icmasından sonra inadkarlıq edərlərsə, ümmətin imamlığına icma etdiyi ədalətli imam onlara qətl cəzası verməli idi.

Bütün bunlarla yanaşı siz Alalha və axirət gününə inanan şəxsin ardınızla getməməsi və sizə təqlid etmələri icazəli olmayan insanları batil rəylərinizə müxalif olduqları üçün təkfir edirsiniz! Bu əhvalatla onlara dəlil gətirirsiniz! Əgər başqa biri bu əhvalata əsaslanaraq sizin əleyhinizə dəlil gətirsə, sizin yolunuzu şərabı halal bilənlərin yolu ilə eyni qərar versə, bu Allaha and olsun ki, haqqa daha yaxın olardı. Siz özünüzü Ömər, bütün mühacirlər və ənsarlar kimi hesab edirsiniz. Hamımız Allahdanıq və hamımız Allaha dönəcəyik! Bu ən ağır bəladır!

Həqiqətən çox təəccüblüdür ki, Şeyxin əl-İqna kitabında qeyd olunan "Kim Əli (ə) ilahdır, Cəbrayıl səhv edib deyərsə, kafirdir. Onu kafir hesab etməyən də kafirdir"sözlərilə dəlil gətirisiniz. Çox təəccüblüdür! Görəsən Allahla yanaşı başqa – istər Əli, istərsə də qeyri birinin – ilah olduğuna inanan bir kəsin müsəlman olmamasında iki müsəlman arasında bir ixtilaf varmı?! Məgər müsəlman olan şəxs Ruhul-əmminin peyğəmbərliyi

---

[227] Maidə surəsi, ayə 93.

Əliyə deyil Muhəmmədə (s) verməsini deyən şəxsin müsəlman olmasında şəkk edirmi?! Lakin siz “Kim Əli ilahdır” sözünü deyirsiniz, sonra isə kim belə edərsə onu ilah edər deyərək cahilləri azdırırsınız. Nə üçün elm əhli kim məxluqdan bir şey istəyərsə, ona nəzir edərsə və filan filan edərsə, onu ilah etmiş olar deməmişdir. Bu sizin elm əhlinin adından ortaya çıxardığınız terminlərdir. Siz Allah-təalanın və Rəsulullahın (s) kəlamını öz batil düşüncənizə uyğun olaraq yozursunuz.

Həqiqətən biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq!

## İYİRMİ BEŞİNCİ FƏSİL

### Şirk əhlinin məzhəbinin xüsusiyyətləri

İndi isə peyğəmbərləri (Allahın salam və salavatı onlara olsun) təkzib edən müşriklərin məzhəblərinin xüsusiyyətləri barədə bəzi elm əhlinin sözlərini qeyd edək.

İbn Qəyyim belə deyir: "İnsanlar hidayət və haqq dində idilər. Ən birinci bütlərə ibadət etməklə və qiyaməti inkar etməklə insanları azdıran Şeytan olmuşdur. Həmçinin qəbirlərin üstündə etikaf etmək və qəbir əhlini təsvir etməklə insanları azdıran Şeytan olmuşdur. Allah-təala kitabında onlar barəsində belə buyurur: **"Və (tabeçiliyində olanlara) dedilər: "Öz tanrılarınızı tərk etməyin, (xüsusilə) Bəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri atmayın!"**[228]

İbn Abbas belə deyir: "Bu adlar Nuhun qövmündən olan əməlisaleh insanların adları idi. Onlar vəfat etdikdən sonra Şeytan onun qövmünə vəsvəsə etdi ki, onların oturduğu yerlərə gedib daşlar qoyun və onların adları ilə adlandırın. Onlar belə etdilər. Onlar həlak olanadək onlara ibadət etmədilər. Həlak olduqdan sonra isə (onlardan sonra gələnlər) bütlərə ibadət edənlər oldular".[229]

Allah Nuhu onlara göndərdi ki, tək olan Allaha ibadət etsinlər. Onu təkzib etdilər. Allah da onları tufanla həlak etdi. Daha sonra Əmr bin Amir İbrahimin (ə) dinini dəyişmiş ilk şəxsdir. Dəniz sahilindən Nuh qövmünün bütlərini çıxartdı və ərəbləri onlara ibadət etməyə çağırdı. Ərəblər bunu etdilər. İbrahimin (ə) dinini bütlərə ibadət etməklə

---

228 Nuh surəsi, ayə 23.

229 Bax; Təfsiru İbn Abbas, s. 502; Təfsiri Təbəri; Camiul-bəyan ən təvili Ayil-Quran, c. 29, s. 62; İbn Kəsir, ət-Təfsir, c. 8, s. 262; Siyuti, əd-Durrul-mənsur, c. 6, s. 469.

dəyişdirdilər. İbrahimin dinindən yalnız Kəbəni və həcci əzəmətli tutmaq qaldı.

Nəzar təlbiyə edərkən belə deyirdi: “Ləbbeykə la şərikə ləkə illə şərikən huvə ləkə təmlikuhu və ma mələk”. (Ləbbeykə! Sənin şərikin yoxdur! Yalnız bir şərikin var ona da sahibsən, o isə sahib deyil).

Sonra davam edərək deyir: “Hər vadinin ibadət edəcəyi bir bütü vardı. Sonra Allah-təala Muhəmmədi (s) tövhidlə göndərdi. Qureyş belə dedi: **“Əcaba, o, (Allahdan başqa heç bir tanrı yoxdur deməklə) tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da, çox təəccüblü bir şeydir”.**[230] Onlardan hər hansı biri səfər edərkən bir yerdə dayandıqda dörd daş götürərdi. Ən yaxşısını seçib onu Rəbb edər digər üçünü isə qəzavü-qədərinin uğurlu olması üçün seçirdi. Ordan da səfər etdikdə tərk edər, növbəti yerdə dayandıqda yenə bu cür edərdi.

Hənbəl Rəca Utarididən belə nəql edir: “Cahiliyyət dövründə daşa ibadət edirdik. Elə ki, daha gözəl görnüşlü bir daş tapırdıq onu (ibadət etdiyimizi) atıb həmin daşı götürürdük. Əgər daş tapmasaydıq bir ovuc torpaq götürüb qoyunu sağıb südünü onun üstünə tökürdük və onun ətrafında dövrə vururduq”. Əbu Osman Hindi belə nəql edir: “Cahiliyyət dövründə daşa ibadət edirdik. Bir carçının belə car çəkdiyini eşitdik: “Ey səfərə çıxanlar, Rəbbiniz həlak olmuşdur. Özünüzə Rəbb seçin”. Hamar və daşlı yerlərdə axtarmağa başladıq. Elə bu an birinin belə səslədiyni eşitdik: “Biz Rəbbiniz və ya ona oxşarını tapdıq” Onların yanına gəlib bir daş tapdıqlarını gördük. Onun üçün bir dəvə qurban kəsdik. Rəsulullah (s) Məkkəni fəth etdikdən sonra Kəbənin ətrafında üç yüz altmış büt vardı. Əlindəki yayla onların üzlərinə və gözlərinə vuraraq belə deyirdi: **“De: “Haqq (islam) gəldi, batil (şirk və küfr) yox oldu. Çünki batil**

---

[230] Sad surəsi, ayə 5.

**(öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!"**[231] Bütlər üz üstə yerə düşürdü. Sonra bütlərin məsciddən çıxarılıb yandırılmasını əmr etdi".

Sonra belə deyir: "Şeytanın insanları yoldan çıxartmasının bir neçə üslubu vardı. Bəzi tayfaları ölülərinə təzim etməklə bütlərin ibadətinə vadar edir. Həmin bütləri ölülərinin surətində düzəldirdilər. Necə ki, Nuhun qövmü belə etmişdir. Bəziləri həmin bütləri iddialarına əsasən yaradılışa təsir edən ulduzlar surətində qərar vermişdir. Onlar üçün ibadət evləri tikib ora qəyyumlar təyin edib həcc ayini kimi ayinlər icra etmişlər, qurbanlar kəsmişlər. Günəşə ibadət etmək də bütlərə ibadət etməkdən sayılır. Müşriklər iddia edirdilər ki, günəş mələklərdən biridir. Onun ağlı və ruhu var. O, ayın və ulduzların nurunun mənbəyidir. Onların nəzərində günəşdən aşağı olan mövcudların hamısı ondandır. Günəş onların nəzərində səma mələyidir. Məhz buna görə də təzim və səcdəyə layiqdir.

Onların ibadətləri barədə şəriətləri budur ki, onlar müəyyən bir bütü ilah seçib onun üçün müəyyən bir ev tikib gün ərzində ona üç dəfə namaz qılırdılar. Ehtiyac sahibləri gəlib onun üçün namaz qılır, oruc tutur və dua edərdilər. Günəş doğduqda, batdıqda və ortada olduqda hamısı səcdə edirdilər.

Başqa bir tayfa isə ayı büt seçmişlər və onun təzim və ibadət olunmağa layiq olduğunu, aşağı aləmin idarəçiliyinin ona məxsus olduğunu düşünmüşlər. Aya ibadət etmişlər, namaz qılmışlar və ona səcdə etmişlər. Ayların müəyyən günlərində onun üçün oruc tuturdular. Sonra yemək və içməklə bütlərin yanına gəlib şənlik edərdilər. Bəziləri ulduzlara ibadət edir, onların hər birinə heykəl tikirdilər. Hər bir heykəlin özünə məxsus ibadəti vardı. Bütün bunlar bütpərəstlik əqidəsindən qaynaqlanırdı".

Sonra davam edərək belə deyir: "Bəziləri oda ibadət edirdi. Oddan ibadət olunacaq bir simvol düzəltmişdilər. Çoxlu böyük məbədlər

---

[231] Səba surəsi, ayə 49.

tikmişlər. Həmin məbədlər üçün qəyyumlar və xidmətçilər təyin etmişlər. Bir an belə həmin evlərdə yanan odu sönməyə qoymurlar. Onların ibadətlərindən biri də budur ki, həmin odun ətrafında dövrə vurular. Hətta bəziləri məbuda yaxınlaşmaq üçün özünü oda atır. Bəziləri isə oda yaxınlaşmaq məqsədilə övladını oda atır. Onların içərisində oda ibadət edən abidlər, zahidlər, oruc tutanlar və etikaf edənlər də var. Onların oda ibadət etmələrinin fərqli formaları var.

İnsanlardan bəziləri suya ibadət edirdilər. Suyun hər bir varlığın əsası olduğunu iddia edirdilər. Suyu zikr etmək, həmd etmək və ona səcdə etmək kimi ibadətləri var.

İnsanlar içərisində inəklərə ibadət edənlər kimi heyvana ibadət edənlər də var. Hətta bəziləri ata da ibadət etmişlər. Hətta bəziləri insana, bəziləri ağaca, bəziləri isə Şeytana ibadət etmişlər. Allah-təala buyurur: **"Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, Şeytana ibadət etməyin..."**[232]

Onlardan bəziləri varlıq aləminin yaradıcısı olmasını, onun hikmətli, müqəddəs, eyb və naqisliklərdən pak olduğunu təsdiqləmişlər. Lakin Allaha yalnız vasitələrlə yaxınlaşmağın mümkün olduğunu deyirlər. Onlar deyirlər ki, Ona qəribə ruhani varlıqların vasitələri ilə yaxınlaşmaq bizə vacibdir. Biz onlara yaxınlaşmaqla onları vasitə seçirik. Onlar tanrıların tanrısı, ilahların ilahı yanıda bizim rəblərimiz, ilahlarımız, şəfaətçilərimizdir. Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik. Buna görə də ehtiyaclarımızı onlardan diləyirik və vəziyyətimizi onlara təqdim edirik. Bütün işlərimizdə onlara meyl edirik. Onlar da bizim və onların da ilahı olan Allah yanında şəfaət edirlər. Bu isə yalnız ruhani varlıqların mədədi ilə baş verir. Onlar dua etmək, buxur yandırmaq, namaz qılmaq, zəkat vermək, qurban kəsmək kimi əməllər

---

[232] Yasin surəsi, ayə 60.

edirdilər. Bu kimi şəxslər bütün peyğəmbərlərin gətirdiyi iki əsas prinsipi inkar etmişdilər:

**Birinci:** Tək olan və şəriki olmayan Allaha ibadət etmək.

**İkinci:** Peyğəmbərlərə iman gətirmək və onların Allah tərəfindən gətirdikləri şəriəti təsdiqləmək.

Başqa ümmətlərdən olan müşriklərin əqidələri bu cürdür".

Sonra belə deyir: "Quran, ilahi kitablar bu dinin batil olduğunu və bu dinə inananların kafir olmasını aşkarcasına bəyan edir. Allah-təala başqasının ona bənzədilməsini, oxşadılmasını və Ona tay tutulmasını qadağan etmişdir. Müşriklər Allaha bənzətdiklərini xaliq kimi əzəmətli tutub onlara ibadət edir, onlara ilahi xüsusiyyətləri nisbət verirdilər. İbadət etdiklərinin ilah olduğunu aşkarcasına bəyan edirdilər. Vahid ilah olmasını inkar edirdilər. Belə deyirlər: ***"Gedin öz tanrılarınıza (ibadətdə) möhkəm (səbatlı) olun..."***[233] Bununla da onun ibadət olunan, qorxulub ümid bəslənən, səcdə edilib böyük tutulan, uğruna qurbanlar kəsilən bir ilah olduğunu bəyan edirdilər. Qeyd etdiklərimizdən başqa yalnız Allah-təalaya məxsus olacaq xüsusiyyətləri onlara nisbət verirlər. Allah-təala buyurur: ***"...İndi siz də Allaha (Onun heç bir oxşarı və bənzəri olmadığını) bilə-bilə şəriklər qoşmayın!"***[234]

***"İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) bənzər bilib, onları Allahı sevən kimi sevənlər də var..."***[235]

Onlar məxluqları Xaliqə bənzədirlər, oxşadırlar və Ona tay tuturlar.

İbn Zeyd bu ayə barəsində deyir: "Onunla (Allahla) yanaşı ilahlar qərar vermişlər".

Züccac deyir: "Allaha bənzər və oxşar qərar verməyin". Allah-təalanı buyurduğu bu ayə qeyd olunan mənadadır: ***"Göyləri və yeri (yoxdan)***

---

[233] Sad surəsi, ayə 6.

[234] Bəqərə surəsi, ayə 22.

[235] Bəqərə surəsi, ayə 165.

***xəlq edən, zülmətləri və nuru yaradan Allaha həmd (şükür və tərif) olsun! (Bu qüdrəti gördükdən) sonra kafir olanlar yenə (bütləri) öz Rəbbinə tay tuturlar”***.[236]

İbn Abbas – Allah ondan razı olsun – deyir: “Allah buyur ki, mənim nemətlərimi və rübubiyyətimi təsdiqlədikdən sonra bütlər və daşlar kimi yaratdıqlarımı mənə tay tuturlar”.

Züccac deyir: “Bil ki, bu ayədə Allah sadalaqdıqlarının yaradıcısıdır. Onu yaradanın heç bir bənzəri yoxdur. Bil ki, kafirlər Onun üçün tay və bənzər qəbul edirlər və başqasını ona bərabər tuturlar”.

Allah-təala buyurur: ***“...Heç (Allahın özündən başqa) Ona bənzərini (Onun adını daşıyan başqa birisini) görmüsənmi?”***[237]

İbn Abbas – Allah ondan razı olsun – deyir: “(Ayədə “səmiyya” deyilir. İbn Abbas bunu izah edərək belə deyir) Oxşar və bənzər qərar verirlər. Məxluqu ibadətə və təzimə layiq surətdə Xaliqə bənzətmək qadağandır”.

Aşağıdakı ayələr də bu mənadadır:

***“Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!”***[238]

***“...Ona bənzər heç bir şey yoxdur...”***[239]

Bu ayələrdə Allah şərik və ya Onunla yanaşı ibadət və təzimə layiq bir varlığın mövcud olması inkar olunur. Belə bir oxşarın qəbul olunması qadağan olunur və bu şirkin köküdür. Məhz buna əsasən də Peyğəmbər (s) şirkin kökü olan təşbihin ifadəsini əks etdirən Allaha səcdə edilən kimi məxluqa səcdə etməyi və ya and içməyi, yaxud Allah istəsə və mən istəsəm deməyi qadağan etmişdir”. Burada İbn Qəyyimin sözləri bitdi.

Bu sözləri ona görə qeyd etdik ki, müşriklərin xüsusiyyətlərini biləsiniz. Anlayasınız ki, sizin yerinə yetirilməsinə görə təkfir etdiyiniz,

---

[236] Ənam surəsi, ayə 1.

[237] Məryəm surəsi, ayə 65.

[238] İxlas surəsi, ayə 4.

[239] Şura surəsi, ayə 11.

müsəlmanları İslamdan xaric etdiyiniz bu əməllər iddia etdiyiniz kimi bütün peyğəmbərləri təkzib edən müşriklərin etdiyi böyük şirk deyil. Sizin yerinə yetirilməsinə görə təkfir etdiyiniz əməllər bu şirkin qollarındandır. Buna əsasən də alimlərdən kim “bu şirkdir” deyərək şirk adlandırırsa, məqsədi kiçik şirkdir. Bəzilər isə bu əməlləri şirk adlandırmamış, haram əməllərdən hesab etmişdir. Alimlərdən bəziləri isə bu əməlləri məkruh əməllərdən hesab etmişdirlər. Bunlar hamısı elm əhlinin kitablarında qeyd olunmuşdur. Axtaran bu hökmlərlə rastlaşar.

Allah-təala bizi və bütün müsəlmanları nifrət etdiyi əməllərdən uzaqlaşdırsın! Amin! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

## İYİRMİ ALTINCI FƏSİL

### Müsəlmanın xüsusiyyətlərini bəyan edən hədislər

Bu məktubu Peyğəmbərin (s) müsəlmanın xüsusiyyətləri barədə buyurduğu hədisləri qeyd etməklə tamamlayıq.

**Birinci hədis:** Ömərdən nəql olunan hədisdə Cəbrayıl (əleyhissalam) Peyğəmbərdən (s) İslam barədə soruşduqda o, belə deyir: “Allahdan başqa ilah olmamasına, Muhəmmədin Onun rəsulu olmasına şəhadət verəməli, namaz qılmalı, zəkat verməli, ramazanda oruc tutmalı, imkanın olduqda evi ziyarət etməlisən (həcc ziyarətini etməlisən)...” (Cəbrayıl) dedi: “Doğru deyirsən. Mənə iman barəsində xəbər ver”. (Peyğəmbər) dedi: “Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə iman gətirməlisən. Qədərin xeyirinə də, şərrinə də (hər ikisinin Allahdan olmasına) iman gətirməlisən”. (Cəbrayıl) dedi: “Doğru deyirsən. Ehsan barədə mənə xəbər ver”. (Peyğəmbər) dedi: “Allaha elə ibadət edəsən ki, sanki Onu görürsən. Sən Onu görməsən də, O səni görür”. (Cəbrayıl) dedi: “Doğru deyirsən”.[240] Hədisin ardı var.

Bu hədisdə Peyğəmbər (s) “Bu Cəbrayıl idi. Sizə dininizi öyrətmək üçün gəlmişdi” deyir. Buxari və Müslim bu mənada hədis nəql etmişlər.

**İkinci hədis:** İbn Ömər – Allah ondan razı olsun – belə nəql edir: “Rəsulullahın (s) belə buyurduğunu eşitdim: “İslam beş şey üzərində qurulub: Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsludur şəhadəti, namaz qılmaq, zəkat vermək, evi (Kəbəni) ziyarət (həcc) etmək və Ramazan orucu”.[241] Buxari və Müslim bu hədisi nəql etmişlər.

---

[240] Səhih Müslim, hədis 8; Sünəni Tirmizi, hədis 2610; Sünəni Əbu Davud, hədis 4695; Sünəni Nəsai, c. 8, s. 97; Bəğəvi, Şərhus-sünnə, hədis 2; Səhih Buxari, c. 1, s. 106, s. 115. Kitabul-iman, babu sualu Cəbrail ən-nəbiyy (s).

[241] Səhih Buxari, c. 1, s. 8 və 9, hədis 1 və 2.

**Üçüncü hədis:** Hər iki səhih kitabda İbn Abbasdan – Allah ondan razı olsun – belə nəql olunur. Əbdülqeys nümayəndə heyəti Rəsulullahın (s) yanına gəldiər və dedilər: "Ya Rəsulullah, biz sənin yanına yalnız haram ayda gələ bilirik. Səninlə bizim aramızda Məzər qəbiləsinin kafirləri var. Bizə elə bir şeyi əmr et ki, bizdən sonrakı nəslə də deyək və onu etməklə Cənnətə daxil olaq". (Peyğəmbər) onlara tək olan Allaha iman gətirməyi əmr etdi. Sonra onlara dedi: "Bilirsiniz tək olan Allaha iman gətirmək nədir?" Onlar: "Allah və rəsulu daha yaxşı bilir". (Peyğəmbər) dedi: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun rəsuludur şəhadəti, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və gəlirlərinizin xümsünü vermək". Sonra belə dedi: "Bunları qoruyun (yerinə yetirin) və özünüzdən sonrakılara xəbər verin".[242]

**Dördüncü hədis:** İbn Abbas – Allah ondan razı olsun – belə nəql edir: "Peyğəmbər (s) Məazı Yəmənə göndərəndə belə buyurdu: "Sən kitab verilmiş qövmlərə gedirsən. Onları dəvət etdiyin ən birinci məsələ Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun qulu və rəsuludur şəhadəti olsun. Əgər bu məsələdə sənə itaət etsələr, onlara bildir ki, Allah gecə və gündüz ərzində hər gün onlara beş namazı qılmağı vacib etmişdir. Əgər bu məsələdə də sənə itaət etsələr onlara bildir ki, Allah onların zənginlərindən sədəqə alınıb fəqirlərinə verilməsini vacib etmişdir".[243] Buxari bu hədisi nəql etmişdir.

---

[242] Səhih Buxari, c. 1, s. 120, 125, kitabu babu ədail-xumsi minəl-iman; Səhih Müslim, hədis 17, kitabul-iman, babul-əmri bil-imani billahi və rəsulihi və şəraid-din vəd-dua ileyhi vəs-sual ənhu; Bəğəvi, Şərhus-sünnə, c. 1, s. 44, hədis 2, kitabul-iman, babul-əmali minəl-iyman və ənnəl-iyman yəzidu və yənqus.

[243] Səhih Buxari, c. 8, s. 51, kitabul-məğazi, babu bəsi Əbu Musa və Məazin iləl-yəməni qəblə hiccətil-vida, kitabuz-zəkati, babu vucubiz-zəkati və babu la tuxəz sərairə əmvalin-nasi fis-sədəqəti, babu əxzus-sədəqəti minəl-ğənaimi və turəddu fil-fuqara; Səhih Müslim, kitabul-iman, babud-duai iləş-şəhadəteyni vəş-şərail-islamiyyə, hədis 19; Bəğəvi, Şərhus-sünnə, c. 5, 472, hədis 1557. İbn Abbasdan nəql olunmuşdur;

**Beşinci hədis:** İbn Ömər belə nəql edir: "Rəsulullah (s) buyurub: "Peyğəmbər (s) belə buyurub: "İnsanlar Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun elçisidir deyib, namaz qılıb, zəkat verənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur. Elə ki, bunu etdilər qanları və malları haqqı ilə qorunar. Onların hesabı Allaha aiddir".[244]

**Altıncı hədis:** Əbu Hüreyrə - Allah ondan razı olsun – belə nəql edir: "Peyğəmbər (s) belə buyurub: "İnsanlar Allahdan başqa ilah yoxdur deyənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur. Elə ki, bunu dedilər qanları və malları haqqı ilə qorunar. Onların hesabı Allaha aiddir".[245] Buxari, Müslim, Əhməd, İbn Macə, İbn Xüzeymə "Muhəmməd Onun elçisidir deyib, namaz qılıb, zəkat verənədək onlarla vuruşmaq mənə əmr olunmuşdur. Elə ki, bunu etdilər qanları və malları mənə haram edilmişdir" əlavəsi ilə nəql etmişlər.[246]

**Yeddinci hədis:** Əbu Hüreyrə – Allah ondan razı olsun – belə nəql edir: "Rəsulullah (s) belə buyurub: "Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun rəsuludur şəhadətini deyənədək, mənə və gətirdiyim şəriətə iman gətirənədək insanlarla vuruşmaq mənə əmr olunmuşdur.

---

Səhih Müslim, hədis 19; Sünəni Tirmizi, hədis 625; Sünəni Nəsai, hədis 2435; Sünəni Əbu Davud, hədis 1548; Sünəni İbn Macə, hədis 1783, Müsnədi Əhməd bin Hənbəl, hədis 2072; Sünəni-Darəmi, hədis 1614. Hamısı İbn Abbasdan nəql etmişdir.

[244] Səhih Buxari, hədis 1399, 1456, 1357; Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 270, 271, hədis 117, Əbu Hüreyrədən; Sünəni Nəsai, c. 6, s. 5; c. 7, s. 78; İbn Hibban, əs-Səhih, hədis 216; Səhih Müslim, hədis, 20; Sünəni Tirmizi, hədis 2607; Sünəni Əbu Davud, hədis 1556.

[245] Səhih Buxari, hədis 1399, 1456, 1357; Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 270, 271, hədis 117, Əbu Hüreyrədən; Sünəni Nəsai, c. 6, s. 5; c. 7, s. 78; İbn Hibban, əs-Səhih, hədis 216; Səhih Müslim, hədis, 20; Sünəni Tirmizi, hədis 2607; Sünəni Əbu Davud, hədis 1556.

[246] Səhih Buxari, c. 1, s. 70, 72. Kitabul-iman, babu fə in tabu və əqamus-salətə və atuz-zəkatə fə xəllu səbiləhum; Səhih Müslim, hədis 22, Müsnədi Əhməd bin Hənbəl, c. 3, səh, 199; Sünəni Tirmizi, hədis 2617; Sünəni Əbu Davud, hədis 3917.

Əgər bunu edərlərsə, haqq istisna olmaqla qanlarını və mallarını məndən qorumuş olarlar”.[247] Müslim bu rəvayəti nəql etmişdir.

**Səkkizinci hədis:** Bureydə bin Hasib belə nəql edir: “Peyğəmbər (s) bir ordunu göndərəndə belə deyərdi... Sonra hədisi qeyd edir. Həmin hədisdə buyurulur: “Əgər bir şəhərin və qalanın əhalisin mühasirəyə alsanız, onlar Allahdan başqa ilah yoxdur şəhadətini desələr, sizin haqqınız olan onların da haqqı, sizə vacib olan onlara da vacib olar”.[248] Müslim bu hədisi nəql etmişdir.

**Doqquzuncu hədis:** Miqdad bin Əsvəd (Peyğəmbərə) belə dediyini nəql edir: “Ya Rəsulullah! Əgər müşriklərdən biri ilə qarşılaşsam, o mənimlə vuruşaraq qılıncla zərbə vurub əlimin birini kəsdikdən sonra bir ağacın arxasına sığınıb “Allaha təslim oldum” deyərsə, bundan sonra onunla vuruşummu?” (Peyğəmbər) dedi: “Onu öldürmə”. Mən dedim: “Ya Rəsulullah, o, mənim bir əlimi kəsdikdən sonra bunu demişdir. Onu öldürməyimmi?” (Peyğəmbər) dedi: “Onu öldürmə. Həqiqətən də o, onu qətlə yetirmədən əvvəl artıq sənin məqamındadır. Sən isə (əgər onu qətlə yetirsən) onun bu sözü demədən əvvəlki məqamındasan”.[249] Buxari və Müslim bu hədisi nəql etmişlər.

**Onuncu hədis:** Üsamənin hədisi. Həmin hədisdə Üsamənin la ilahə illəllah dedikdən sonra birini qətlə yetirməsi və qiyamət günü həmin la ilahə illəllah ilə nə edəcəyi barədə söhbət gedir. Üsamə Peyğəmbərə dedi: “Ya Rəsulullah, o, canını qurtarmaq üçün belə dedi”. (Peyğəmbər) dedi: “Məgər onun qəlnini yarıb baxmısan”. Sonra isə bir neçə dəfə dedi:

---

[247] Səhih Müslim, kitabul-iman, babul-əmri bi qitalin-nasi hətta yəqulu la ilahə illəllah, hədis 21: Səhih Buxari, kitabuz-zəkati, babu vucubiz-zəkat, c. 3, s. 211; Bəğəvi, Şərhus-sünnə, babul-beyəti aləl-islami əşəraihi, c. 1, s. 66, hədis 32.

[248] Səhih Müslim, hədis 1731; Sünəni Tirmizi, 1617; Sünəni Əbu Davud, hədis 2612; Müsnədi Əhməd bin Hənbəl, hədis 22521; Sünəni Darəmi, hədis 2442.

[249] Səhih Buxari, hədis 4019; Səhih Müslim, hədis 95; Sünəni Əbu Davud, hədis 2644; Müsnədi Əhməd bin Hənbəl, hədis 23299.

“Qiyamət günü bu la ilahə illəllaha görə kim sənə yardım edəcək”. Üsamə dedi: “Hətta təmanna etdim ki, kaş ki, həmin günü İslamı qəbul etmiş olaydım”.

Bu hədis hər iki səhih kitabda Üsamədən nəql olunmuşdur. Üsamə belə nəql edir: “Rəsulullah (s) bizi Cuheynədəki Hirqaya göndərdi. Sübh tezdən quyularının yanında onlarla qarşılaşdıq. Mən və ənsardan olan bir kişi onlardan birinin ardına düşdük. Elə ki, onu tutduq la ilahə illəllah dedi. Ənsarlı ondan əlini çəkdi. Mən isə əlimdəki nizə ilə onu vurub qətlə yetirdim. Geri qayıdanda bu hadisə Rəsullaha (s) yetişdi və mənə belə dedi: “Ey Üsamə, la ilahə illəllah deyəndən sonra onu qətlə yetirdinmi?” Bu sözü o qədər təkrar etdi ki, hətta kaş həmin günü İslamı qəbul edəydim deyə təmənna etdim”. Başqa bir rəvayətdə isə: “Sən onun qəlbini yarmışdınmı” deyilir.

İbn Mərdəveyh Teymi atasından, o da Üsamədən belə nəql edir:“La ilahə illəllah deyən birini heç vaxt qətlə yetirmərəm”.

Səd bin Malik belə deyir: “Allaha and olsun ki, mən heç vaxt la ilahə illəllah deyən birini qətlə yetirmərəm”.[250]

**On birinci hədis:** İbn Ömərdən belə nəql olunur: “Rəsulullah (s) Xalid bin Vəlidi – Allah ondan razı olsun – Bəni Cüzeymə qəbiləsinə göndərdi. Xalid onları İslama dəvət etdi. Onlar İslamı qəbul etməyi yaxşı ifadə etmədilər. “Dinimizi tərk etdik! Dinimizi tərk etdik!” deməyə başladılar. Xalid onları qətlə yetirib əsir tutmağa başladı. Ta ki, Rəsulullahın (s) yanına gəldik. Hadisəni ona danışdıq. Peyğəmbər əllərini qaldırıb belə

---

[250] Səhih Buxari, c. 9, s. 4, kitabud-diyat; Səhih Müslim, c. 1, s. 97, hədis 99; Müsnədi Əhməd bin Hənbəl,c. 17, s. 82,hədis 21642.

dedi: "İlahi, Xalidin etdiyi əməldən sənə sığınıram!" İki dəfə bunu təkrar etdi. Bu hədisi Əhməd və Buxari nəql etmişdir.[251]

**On ikinci hədis:** Ənəsdən belə nəql olunur: "Rəsulullah (s) bir qövmə hücum etdikdə sübh olmamış hücum etməzdi. Azan səsi eşidərsə, dayanardı. Əgər azan səsi eşitməzsə, sübh olduqdan sonra hücum edərdi". Əhməd və Buxari bu hədisi nəql etmişlər.

Həmçinin ondan nəql olunur: "Fəcr doğduqdan sonra hücum edərdi. Azana qulaq asardı. Azan səsi eşitsə dayanardı. Əks halda isə hücum edərdi. Bir kişinin: "Allahu əkbər! Allahu əkbər!" dediyini eşitdi. Rəsulullah (s) dedi: "Fitrətə görə (belə dedi)". Sonra (həmin adam) dedi: "Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur". (Peyğəmbər) dedi: "Sən Cəhənnəmdən çıxdın". Sonra həmin adamın keçi otardığını gördülər". Müslim bu rəvayəti nəql etmişdir.[252]

**On üçüncü hədis:** İsam bin Məzəni belə nəql edir: "Peyğəmbər (s) döyüşə bir qoşun göndərəndə belə deyərdi: "Bir məscid görsəniz və ya səsləyən eşitsəniz heç kimi qətlə yetirməyin".[253] Əhməd, Əbu Davud, Tirmizi və İbn Macə bu rəvayəti nəql etmişdir.

**On dördüncü hədis:** Ümmü Sələmə Peyğəmbərdən (s) belə nəql edir: "Sizə əmirlər hakim olacaqlar. Sizin yaxşı bildiklərinizi inkar edəcəklər. Kim inkar edərsə, sağ qalacaq.

---

[251] Səhih Buxari, hədis 4339, 7189; Əbdürrəzzaq, əl-Musənnəf, hədis 9434, 18721; Tavahi, Muşkilul-asar, 2331; Beyhəqi, Dəlailun-nubuvvəti, c. 5, s. 113; Müsnədi Əhməd bin Hənbəl, hədis 6382; Sünəni Nəsai, hədis 5405; Səhih İbn Hibban, hədis 4749.

[252] Səhih Müslim, hədis 382; Sünəni Tirmizi, hədis 1618; Səhih Buxari, c. 4, s. 123, hədis 2943, kitabul-cihadi vəs-seyri, babu duaun-nəbiyy iləl-İslam, Ənəs bin Malikdən nəql olunur; Sünəni Əbu Davud, hədis 2634; Sünəni Darəmi, hədis 2445; Əhməd bin Hənbəl, hədis 11942.

[253] Sünəni Əbu Davud, kitabul-cihad, babu dual-muşrikin, hədis 4635; Sünəni Trimizi, kitabus-seyri, hədis 1549; Bəğəvi, Şərhus-sünnə, c. 11, s. 60, hədis 2703, babul-kəffi ənil-qitali izə rəa şiarul-islam; Müsnədi Əhməd bin Hənbəl, hədis 15278.

(Səhabələr) dedilər: “Ya Rəsulullah, onlarla vuruşmayaqmı?” (Peyğəmbər) dedi: “Namaz qıldıqları müddətcə yox!”[254] Müslim bu rəvayəti nəql etmişdir.

**On beşinci hədis:** Ənəs belə nəql edir: “Rəsulullah (s) buyurdu: “Kim bizim qıldığımız namazı qılarsa, müsəlman olarsa, qibləmizə üz tutarsa, kəsdiyimizi yeyərsə, həmin adam Allah və Rəsulununun zimmətində (öhdəsində) olan müsəlmandır. Allahın zimmətində olanı alçaltmayın”.[255] Buxari bu rəvayəti nəql etmişdir.

**On altıncı hədis:** Əbu Səid xəvaric barəsində hədisdə belə nəql edir: “Zulxuveysərə Peyğəmbərə dedi: “Allahdan qorx!” (Peyğəmbər) dedi: “Vay olsun sənə! Məgər mən yer üzərində Allahdan daha çox qorxan şəxs deyiləmmi?” (Əbu Səid) dedi: “Sonra həmin adam çıxıb getdi”. Xalid dedi: “Ya Rəsulullah, onun boynunu vurummu?” Peyğəmbər dedi: “Bəlkə o, namaz qılır”. (Xalid) dedi: “Nə qədər namaz qılan var ki, qəlbində olmayanı dili ilə deyir”. Rəsulullah (s) buyurdu: “Mənə insanların qəlblərini araşdırmaq və içlərini yarmaq əmr olunmayıb”.[256] Müslim bu rəvayəti nəql etmişdir.

**On yeddinci hədis:** Ubeydullah bin Ubeyddən; İbn Udəy bin Xiyardan belə nəql edir: “Ənsardan bir kişi Peyğəmbərin (s) yanına gəlib bir söz dedi. Ondan münafiqlərdən birini qətl etmək üçün icazə istəyirdi.

---

[254] Səhih Müslim, hədis 1854; Sünəni Tirmizi, hədis 2265; Sünəni Əbu Davud, hədis 4760; Müsnədi Əhməd bin Hənbəl, hədis 25989, 26037, 26066, 26188. Ümmü Sələmədən nəql olunmuşdur.

[255] Səhih Buxari, kitabus-salət, babu fəzli istiqbalil-qibləti, c. 1, s. 174, hədis 391, kitabul-əzahi, babu mən zəbəhə qəbləs-salətə əadəhu, c. 7, s. 186, hədis 5563. Ənəs bin Malikdən nəql olunmuşdur. Sünəni Nəsai, hədis 4997.

[256] Səhih Buxari, hədis 3244, 3610, 5058, 6931, 6933; Səhih Müslim, hədis 1063: Sünəni Nəsai, hədis 10898; Sünəni Əbu Davud, hədis 4764, 4765; Sünəni İbn Macə, hədis 169, Müsnədi Əhməd bin Hənbəl, hədis 10625, 10734; Malik, əl-Muvatta, hədis 477.

Rəsulullah (s) onun dediyini aşkar etdi. Peyğəmbər (s) ona belə dedi: "Məgər o, la ilahə illəllah demirmi?" Ənsarlı dedi: "Bəli. Lakin onun şəhadəti həqiqi deyil". (Peyğəmbər) dedi: "Məgər o namaz qılmırmı?". (Ənsarlı) dedi: "Bəli. Lakin onun namazı həqiqi deyil". Peyğəmbər (s) buyurdu: "Allah onun kimilərini qətlə yetirməyi mənə qadağan etmişdir".[257] Şafei və Əhməd bu rəvayəti nəql etmişlər.

**On səkkizinci hədis:** İki səhih kitabda Əbu Hüreyrədən – Allah ondan razı olsun – belə nəql olunur: "Bir bədəvi ərəb Peyğəmbərin (s) yanına gəldi və belə dedi: "Mənə elə əməl öyrət ki, onu yerinə yetirsəm Cənnətə daxil olum". (Peyğəmbər) dedi: "Allaha ibadət edəcəksən, Ona şərik qoşmayacaqsan, vacib namazları qılacaqsan, vacib zəkatı verəcəksən və Ramazanda oruc tutacaqsan". (Həmin adam) dedi: "Canım əlində olana and olsun ki, bu əməllərə nəyisə artırmaram və bu əməllərdən nəyisə azaltmaram". O, çıxıb gedəndə Peyğəmbər (s) dedi: "Cənnət əhlindən olan bir insana baxmaq kimi xoşdursa, bu adama baxsın!"[258]

**On doqquzuncu hədis:** İmran bin Murrə Cəhənidən belə nəql olunur: "Bir kişi Rəsulullahın (s) yanına gəlib dedi: "Ya Rəsulullah! Əgər Allahdan başqa ilah yoxdur, sən Onun rəsulusan şəhadətini desəm, (gün ərzində vacib olan) beş namazı qılsam, Ramazan orucunu vaxtında tutsam mən kimlərdənəm?" (Peyğəmbər) buyurdu: "Siddiqlərdən və şəhidlərdənsən".[259] İbn Hibban, İbn Xüzeymə bu rəvayəti nəql etmişlər.

---

[257] Müsnədi Əhməd bin Hənbəl, c. 4, s. 88, 99; Sünəni Təyalasi, hədis 1109; Sünəni Nəsai, c. 7, s. 80, 81; Sünəni İbn Macə, hədis 3929; Sünəni Darəmi, hədis 2550; Müsnədi Şəhabi, hədis 508; Təbərani, əl-Kəbir, c. 1, s. 207, hədis 592: Səhih Müslim, hədis 33; Malik bin Ənəs, əl-Muvatta, hədis 415.

[258] Səhih Buxari, c. 3, s. 267, hədis 41, kitabuz-zəkat, babul-beyəti alə iytaiz-zəkat; Sünəni Nəsai, c. 7, s. 147, hədis 4175; Səhih Müslim, hədis 14; Müsnədi Əhməd bin Hənbəl, hədis 831.

[259] Səhih İbn Hibban; Səhih İbn Xüzeymə. Hər ikisi İmran bin Murrə Cəhənidən nəql etmişdir.

**İyirminci hədis:** Abbas bin Əbdülmüttəlibdən belə nəql olunur: "Rəsulullah (s) belə buyurdu: "Allahı Rəbb, İslamı din və Muhəmmədi peyğəmbər olaraq qəbul edən imanı dadmışdır".[260] Müslim bu rəvayəti nəql etmişdir.

**İyirmi birinci hədis:** Səd Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Kim müəzzinin "Əşhədu əl lə ilahə iləllahu vəhdəhu la şərikə ləh və ənnə Muhəmmədən əbduhu və rəsuluhu" (Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Muhəmməd Onun qulu və peyğəmbəridir) dediyini eşidərkən Allahı Rəbb, İslamı din olaraq qəbul edirəm deyərsə, günahları bağışlanar".[261] Müslim bu rəvayəti nəql etmişdir.

**İyirmi ikinci hədis:** İki səhih kitabda Əbu Hüreyrədən – Allah ondan razı olsun – belə nəql olunur: "Rəsulullah (s) belə buyurub: "İmanın yetmişdən artıq növü var. Ən üstünü Allahdan başqa ilah yoxdur şəhadətidir. Ən aşağısı isə əziyyət verən bir şeyi yoldan kənarlaşdırmaqdır. Həya da imandan bir şöbədir".[262]

---

[260] Səhih Müslim, hədis 34; Müsnədi Əbu Yəla Mosuli, hədis 6692; Sünəni Tirmizi, hədis 2623; Səhih İbn Hibban, hədis 1694; Müsnədi Əhməd bin Hənbəl, c. 3, shə. 299, hədis 1778, 1779;

[261] Səhih Müslim, babul-azan, hədis 386. Əbd bin Həmid Müsnədində, hədis 142; Sünəni İbn Macə, hədis 721; Müsnədi Bəzzaz, hədis 1130; Sünəni İbn Xüzeymə, hədis 421, 422; Müsnədi Əhməd bin Hənbəl, c. 3, s. 134, hədis 1565; Sünəni Nəsai, hədis 679; Sünəni Əbu Davud, hədis 525; Sünəni Tirmizi, hədis 210. Səd bin Əbu Vəqqasdan nəql olunur.

[262] Səhih İbn Hibban, c. 1, s. 192, hədis 166, 167. Əbu Hüreyrədən nəql olunur. Səhih Müslim, c. 2, s. 1148, hədis 1510, kitabul-itq, babu fəzli itqil-vələd; Sünəni Tirmizi, c. 4, s. 315, hədis 1906; Sünəni Əbu Davud, hədis 5137; Sünəni İbn Macə, hədis 3659; Səhih Buxari, c. 1, s. 9, kitabul-iman, babul-əbvabil-iman və ləfzuhu bidi və sittun; Müsnədi Əhməd bin Hənbəl, hədis 9097, 9455, 9456. Əbu Hüreyrədən nəql olunur.

**İyirmi üçüncü hədis:** İbn Abbasın – Allah hər ikisindən razı olsun – belə dediyi nəql olunur: “Əbu Talib xəstələndi. Qureyş camaatı onun yanına gəldilər. Peyğəmbər (s) də onun yanına gəldi”. Sonra hədisi nəql edir. Həmin hədisdə deyilir: “Peyğəmbər (s) belə buyurdu: “Onlardan bütün ərəblərin din olaraq inanacaqları və əcəmlərin onlara cizyə (can vergisi) verməsinə səbəb olacaq bir kəlmə istədim”. Hamısı dedi: “Bir kəlmə?!” (Peyğəmbər) dedi: “La ilahə illəllah kəlməsi”. Hamısı dəhşət içində üst-başlarını çırparaq belə deyirdilər: **“Əcaba, o, (Allahdan başqa heç bir tanrı yoxdur deməklə) tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da, çox təəccüblü bir şeydir”.**[263] Əhməd, Nəsai, Tirmizi bu hədisi nəql etmişdir. Tirmizi bu hədisi həsən hədis hesab etmişdir.[264]

**İyirmi dördüncü hədis:** İki səhih kitabda Səid bin Musəyyibdən onun da atasından belə nəql olunur: “Əbu Talib can üstə olanda Rəsulullah (s) onun yanına gəldi və orada Əbu Cəhl və Abdullah bin Uməyyəni gördü. (Peyğəmbər) belə dedi: “Ey əmi, la ilahə və illəllah kəlməsini de ki, Allah yanında səni müdafiə edim”. Əbu Cəhl və Abdullah bin Uməyyə dedi: “Əbdülmüttəlibin millətindən (dinindən) imtina edirsən?” Əbu Talib son sözündə belə dedi: “Əbdülmüttəlibin milləti”. La ilahə illəllah deməkdən imtina etdi”.[265]

**İyirmi beşinci hədis:** Əbu Bəkr Siddiqin nəql etdiyi hədis. “Ya Rəsulullah, bu işdən nicat tapmağın yolu nədir?” dedim. Rəsulullah (s)

---

[263] Sad surəsi, ayə 5.

[264] Müsnədi Əhməd bin Hənbəl, hədis 9648; Hakim. əl-Mustədrək, c. 1, s. 431. Hakim bu hədisi səhih hesab etmişdir. Zəhəbi onunla müvafiqdir. Sünəni Tirmizi, hədis 3232. Abdullah bin Abbasdan nəql olunur.

[265] Səhih Buxari, c. 2, s. 119, kitabul-cənaiz, babu izə qaləl-muşriku indəl-movti la ilahə illəllah; Səhih Müslim, c. 1, s. 55, hədis 25. Kitabul-iman, babud-dəlili alə sihhətis-sələm; Sünəni Tirmizi, c. 5, s. 341, hədis 31188. Kitabut-təfsiri, babu təfsiri surətil-qəsəs; Müsnədi Əhməd bin Hənbəl, hədis 23162. Museyyib bin Həzən Məxzumidən nəql etmişlər.

belə buyurdu: “Kim əmimə təqdim etdiyim, lakin onun qəbul etmədiyi sözü qəbul edərsə, bu nicat yoludur”.[266] Əhməd bin Hənbəl bu hədisi nəql etmişdir.

**İyirmi altıncı hədis:** Ubadədən belə nəql olunur: “Rəsulullah (s) belə buyurdu: “Kim “Allahdan başqa ilah yoxdur. O, təkdir. Onun şəriki yoxdur. Muhəmməd Onun qulu və rəsuludur. İsa Allahın qulu və rəsuludur, Məryəmə təqdim etdiyi bir kəlmə (“ol!” kəlməsi ilə onu Məryəmin bətnində yaradıb) və Onun tərəfindən olan (canlara həyat bəxş edən) bir ruhdur. Cənnət və Cəhənnəm haqdır” deyərsə, onun əməllərinə rəğmən Allahın onu Cənnətə daxil etməsi haqdır”.[267] Buxari və Müslim bu rəvayəti nəql etmişdir.

**İyirmi yeddinci hədis:** Ənəs belə nəql edir: “Peyğəmbər (s) Məaza dedi: “Elə bir adam yoxdur ki, “Allahdan başqa ilah yoxdur, Muhəmməd Onunun rəsuludur” şəhadətini səmimi qəlbdən deyə, Allah cəhənnəm odunu ona haram etməsin”. (Məaz) dedi: “Ya Rəsulullah, insanlar bir-birlərini müjdələsinlər deyə bunu xəbər vermimi?” (Peyğəmbər) dedi: “Onda bunu anlamadan deyəcəklər”. (Peyğəmbər) bunu Məaza o, can üstə olarkən demişdi”.[268] Buxari və Müslim bu hədisi nəql etmişlər.

**İyirmi səkkizinci hədis:** Ubadədən belə nəql olunur: “Rəsulullah (s) belə buyurdu: “Kim “Allahdan başqa ilah yoxdur. Muhəmməd Onun qulu

---

[266] Müsnədi Əhməd bin Hənbəl, c. 10, s. 259, hədis 9648, 9576; Beyhəqi, Şuəbul-iman, hədis 92, 93; Müsnədi Əbu Yəla Mosuli, hədis 9, 10.

[267] Səhih Buxari, c. 1, s. 519, hədis 425, kitabus-salət, babul-məsacidi fil-buyut; Səhih Müslim, c. 1, s. 61, hədis 33. Kitabul-iman bid-dəlili alə ənnə mən matə alət-tövhidi dəxələl-cənnətə, Ənəs bin Malikdən nəql etmişdir; Müsnədi Əhməd bin Hənbəl, c. 16, s. 386, hədis 22574, 22610.

[268] Səhih Buxari, c. 1, s. 199, kitabul-ilmi, mən xəssə bil-ilmi dunə qovmin kərahiyyətə ən la yəfhəmu; Səhih Müslim, kitabul-iman, babud-dəlili alə ənnə mən matə alət-tövhidi dəxələl-cənnətə qətən; Bəğəvi, Şərhus-sünnə, c. 1, s. 94, hədis 49, babu mən matə la yuşriku billahi şeyən.

və rəsuludur" deyərsə, Allah cəhənnəm odunu ona haram edər".[269] Müslim bu hədisi nəql etmişdir.

**İyirmi doqquzuncu hədis:** Əbuzərdən belə nəql olunur: "Rəsulullah (s) belə buyurub: "Elə bir qul yoxdur ki, Allahdan başqa ilah yoxdur deyə, sonra ölə, Allah onu cənnətə daxil etməyə".[270] Buxari və Müslim bu hədisi nəql etmişlər.

**Otuzuncu hədis:** İki səhih kitabda Ətbandan belə nəql olunur: "Rəsulullah (s) belə buyurub: "Allah-təala "Allahdan başqa ilah yoxdur" deyərək Allahın razılığını istəyən kəsə cəhənnəm odunu haram etmişdir".[271]

**Otuz birinci hədis:** Əbu Hüreyrədən – Allah ondan razı olsun – belə nəql olunur: "Rəsulullah (s) başmaqlarını ona verərək belə demişdir: "Bu başmaqlarımı apar. Bu bağın arxasında Allahdan başqa ilah yoxdur deyərək şəhadət gətirən kiminlə qarşılaşsan, onu Cənnətlə müjdələ".[272] Müslim bu hədisi nəql etmişdir.

**Otuz ikinci hədis:** Əbu Hüreyrə – Allah ondan razı olsun – belə nəql edir: "Ya Rəsulullah, sənin şəfaətinlə ən xoşbəxt olan şəxs kimdir? – deyə soruşdum. (Peyğəmbər) belə buyurdu: "Şəfaətimlə ən xoşbəxt insan

---

[269] Səhih Müslim, kitabul-iman, babud-dəlili alə ənnə mən matə alət-tövhidi dəxələl-cənnətə qətən, hədis 28; Müsnədi Əhməd bin Əhməd, c. 16, hədis 22574, 22610; Səhih Buxari, c. 1, s. 219, hədis 425, kitabus-salət, babul-məsacidi fil-buyut.

[270] Səhih Buxari, c. 1, s. 238. Kitabul-libas, babus-siyabil-biyz; Səhih Müslim, kitabul-iman, c. 1, s. 94; Bəğəvi, Şərhus-sünnə, babu mən matə lə yuşriku billahi şeyən, c. 1, s. 96, hədis 51.

[271] Səhih Buxari, c. 5, s. 2063, hədis 5086, kitabul-ətiməti, bab 14, Ətban bin Malikdən nəql olunur; Səhih Müslim,hədis 33; Müsnədi Əhməd bin Hənbəl, hədis 16047, 23258.

[272] Səhih Müslim, hədis 31.

qəlbindən ixlasla Allahdan başqa ilah yoxdur deyən şəxsdir".[273] Bu hədisi Buxari nəql etmişdir.

**Otuz üçüncü hədis:** Ümmü Sələmənin hədisi. Həmin hədisdə deyilir: "Rəsulullah (s) buyurdu: "Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur və mən Onunun rəsuluyam. Allah şəkk etmədən bunu deyən hər hansı bir qulu ilə qarşılaşarsa onu Cənnətdən uzaqlaşdırmaz".[274] Buxari bu hədisi nəql etmişdir.

**Otuz dördüncü hədis:** Osman bin Əfvandan – Allah ondan razı olsun – belə nəql olunur: "Rəsulullah (s) buyurub: "Kim "Allahdan başqa ilah yoxdur" şəhadətini bilərək ölərsə, Allah onu Cənnətə daxil edər".[275] Müslim bu hədisi nəql etmişdir.

**Otuz beşinci hədis:** Ənəsin şəfaət barədə hədisi. Həmin hədisdə Peyğəmbər (s) belə buyurur: "Qəlbində arpa ölçüsü qədər xeyir olan və la ilahə illəllah deyən şəxs cəhənnəmdən çıxacaq. Sonra qəlbində buğda ölçüsü qədər xeyir olan və la ilahə illəllah deyən şəxs cəhənnəmdən çıxacaq. Sonra qəlbində zərrə qədər xeyir olan və la ilahə illəllah deyən şəxs cəhənnəmdən çıxacaq".[276] Buxari, Müslim bu hədisi nəql etmişdirlər. Səhihdə bu hədisə yaxın Əbu Səiddən və Siddiqin Əhməddən nəql etdiyi bir hədis qeyd olunmuşdur.

---

[273] Səhih Buxari, kitabur-riqaq, babu sifətil-cənnəti vən-nar, c. 5, s. 6201, 2402. Əbu Hüreyrədən nəql olunur; c. 1, s. 49, hədis 99; Müsnədi Əhməd bin Hənbəl, hədis 8641.

[274] Səhih Buxari, c. 2, s. 889, hədis 2352, kitabuş-şərikəti, babuş-şərikəti fit-təam; c. 3, s. 1088, hədis 2820; Müsnədi Əhməd bin Hənbəl, hədis 9170.

[275] Səhih Müslim, c. 1, hədis 26; Müsnədi Bəzzaz, hədis 415; Səhih İbn Hibban, hədis 201; Sünəni İbn Mundə, hədis 33; Müsnədi Əhməd bin Hənbəl, c. 1, s. 509, hədis 463, 529,hədis 498; Müsnədi Əbd bin Həmid, hədis 55; Sünəni İbn Əbu Şeybə, c. 3, s. 238; Nəsai, əməlul-yovmi bəl-leylə, hədis 114; Sünəni Nəsai, hədis 1113, 1115.

[276] Səhih Buxari, hədis 7410; Səhih Müslim, hədis 193; Sünəni Tirmizi, hədis 2593; Müsnədi Əhməd bin Hənbəl, hədis 11743, 1236, 13516.

**Otuz altıncı hədis:** Məazın nəql etdiyi hədis. Peyğəmbər (s) buyurub: “Kimin son sözü Allahdan başqa ilah yoxdur olarsa, Cənnətə daxil olar”.[277]

**Otuz yeddinci hədis:** Məazdan Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Cənnətin açarları la ilahə illəllahdır”.[278] İmam Əhməd və Bəzzaz bu hədisi nəql etmişdir.

**Otuz səkkizinci hədis:** Əbu Hüreyrədən – Allah ondan razı olsun – belə nəql olunur: “Peyğəmbər (s) bizim yanımızda idi. Bilal azan verdi. Azanı tamamladıqdan sonra Rəsulullah (s) buyurdu: “Kim əminliklə bunun kimi (azanın sözlərini) deyərsə, Cənnətə daxil olar”.[279] Nəsai və İbn Hibban bu hədisi nəql etmişlər.

**Otuz doqquzuncu hədis:** Rufaə Cəhənidən belə nəql olunur: “Rəsulullah (s) belə buyudu: “Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur və mən Onun rəsuluyam şəhadətini səmimi qəlbdən kim deyərsə, Allah yanında ölməz. (Allah) onu Cənnətə gedən yola yönəldər”.[280] Əhməd bu hədisi nəql etmişdir.

**Qırxıncı hədis:** İbn Ömər – Allah onların hər ikisindən razı olsun – belə nəql edir: “Rəsulullahın (s) belə buyurduğunu eşitdim: “Mən elə bir kəlmə bilirəm ki, kim həmin kəlməni qəlbən deyərsə və ona olan imanla

---

[277] Səhih Müslim, kitabul-cənaiz, babu təlqinil-movta la ilahə illəllah, hədis 916; Sünəni Əbu Davud, kitabul-cənaiz, babu təlqinil-meyyit, hədis 3117; Nəsai, əl-Cənaiz, c. 4, s. 5, babu təlqinil-meyyit; İbn Macə, Kitabul-cənaiz, babu ma caə fi təlqinil-meyyiti la ilahə illəllah, hədis 1445; Hakim, əl-Mustədrək, c. 1, s. 351.

[278] Müsnədi Əhməd bin Hənbəl, c. 16, s. 198, hədis 22001.

[279] Səhih İbn Hibban, c. 3, s. 89, hədis 1665, fi zikril-bəyani bi ənnəaalahə cəllə və əla innəmə yəğfiru lill-muəzzini və yədxuluhul-cənnətə izi kanə alə yəqinin minhu; Sünəni Nəsai, c. 4, s. 346.

[280] Müsnədi Əhməd bin Hənbəl, c. 12, s. 495, hədis 16167; Sünəni İbn Macə, kitabuz-zöhd, sifətu Muhəmmədin (s), c. 2, s. 1422, hədis 4285; Səhih İbn Hibban, hədis 212.

ölərsə, Allah cəhənnəm odunu ona haram edər. (Həmin kəlmə) La ilahə illəllahdır”.[281] Hakim bu hədisi nəql etmişdir.

**Qırx birinci hədis:** Əbu Hüreyrədən – Allah ondan razı olsun – belə nəql olunur. Rəsulullahın (s) belə dediyini eşitdim: “Ölüm mələyi can üstə olan bir insanın bədən üzvlərini araşdırdı və bir xeyir əməl tapmadı. Sonra qəlbini yarıb baxdı orada da bir xeyir tapmadı. Sonra çənəsini yarıb araşdırdı dilnin ucunda bir şey tapdı. Onun dili la ilahə illəllah deyirdi. Allah ixlas kəlməsinə görə onu bağışladı”.[282] Təbərani, Beyhəqi, İbn Əbu Dünya bu hədisi nəql etmişdirlər.

**Qırx ikinci hədis:** Əbu Səid Peyğəmbərdən (s) belə nəql edir: “Musa dedi: “Ya Rəbbi, mən elə bir şey öyrət ki, onunla səni zikr və dua edim”.

Allah dedi: “La ilahə illəllah de”.

Musa dedi: “Ya Rəbbi, bütün qulların bunu deyir”.

Allah dedi: “La ilahə illəllah de”.

Musa dedi: “Yalnız mənə məxsus olan bir şey istiyirdim”.

Allah dedi: “Ey Musa, əgər yeddi göy və yeddi qat yer tərəzinin bir gözündə olarsa, la ilahə illəllaha bərabər gəlməz”.[283] İbn Sünni, Hakim, İbn Hibban bu hədisi nəql etmişdir.

**Qırx üçüncü hədis:** Əbu Hüreyrə – Allah ondan razı olsun – belə nəql edir: “Rəsulullah (s) belə buyurdu: “Kim la ilahə illəllah deyərsə, ömrünün

---

[281] Hakim, əl-Mustədrək, c. 1, s. 72 və 351. Osman bin Əfvandan və Abdullah bin Ömər bin Xəttabdan nəql olunmuşdur; Müsnədi Əbu Yəla Mosuli, hədis 64; Səhih İbn Hibban, hədis 204.

[282] Beyhəqi, Şuəbul-iman, hədis 1015, 9335; Təbərani, əl-Kəbir; İbn Əbu Dünya Əbu Hüreyrədən nəql etmişdir.

[283] Səhih İbn Hibban, c. 8, s. 35, hədis 6185, zikru kəlimillahi rəbbihi yuəllimihi şeyən yəzkuruhu bihi; Hakim, əl-Mustədrək, c. 1, s. 528; Əbdürrəzzaq, əl-Musənnəf, c. 2, s. 1393.

bir günü ona mənfəət verəcək. Ondan öncə başına müsibətlər gələcək".[284] İbn Hibban, Təbərani, Bəzzaz bu hədisi nəql etmişdir. Raviləri səhih hədis raviləridir.

**Qırx dördüncü hədis:** Abdullah bin Ömərdən belə nəql olunur: "Rəsulullah (s) belə buyurdu: "Sizə Nuhun oğluna nə vəsiyyət etdiyini deyimmi?" Nuh dedi: "Ey oğlum, mən sənə iki şeyi tövsiyə edirəm: "Sizə Allahdan başqa ilah yoxdur kəlməsini tövsiyə edirəm. Bu kəlmə tərəzinin bir gözünə qoyularsa, göylər və yer başqa gözünə qoyularsa, onlardan ağır gələrdi. Göylər və yeri onu əhatə etsə də onları yararaq Allaha çatar".[285] Bəzzaz, Nəsai və Hakim bu hədisi nəql etmişdirlər.

**Qırx beşinci hədis:** Abdullah bin Əmr Peyğəmbərdən (s) belə nəql edir: "Mənim və peyğəmbərlərin dediyimiz ən xeyirli söz qəlbən deyilən: "Allahdan başqa ilah yoxdur. Təkdir, şəriki yoxdur. Mülk və həmd Ona məxsusdur. O, hər şeyə qadirdir" kəlməsidir".[286] Tirmizi bu hədisi nəql edir.

**Qırx altıncı hədis:** Əbu Hüreyrə – Allah ondan razı olsun – belə nəql edir: "Rəsulullah (s) buyurdu: "İmanınızı təzələyin!" (Səhabələr) dedilər: "Ya Rəsulullah, imanımızı necə təzələyək?" (Peyğəmbər) dedi: "La ilahə illəllah sözünü çox deyin".[287] Əhməd və Təbərani bu hədisi nəql etmişdirlər.

---

[284] İbn Hibban, c. 2, s. 106, zikrul-kəlimatil-ləti izə qaləhal-məruul-muslimu sədəqahu rəbbuhu cəllə əla aleyha; Təbərani, əl-Kəbir, c. 1, hədis 1123; c. 6, hədis 5555; c. 12, hədis 13595; Beyhəqi, Şuəbul-iman, hədis 97.

[285] Hakim, əl-Mustədrək; Müsnədi Bəzzaz. Abdullah bin Ömərdən nəql olunmuşdur.

[286] Sünəni Tirmizi, hədis 3585.

[287] Müsnədi Əhməd bin Hənbəl, c. 8, s. 304, hədis 8387; s. 395, hədis 8695; Hakim, əl-Mustədrək, c. 2, s. 224; Təbərani, əl-Kəbir, c. 9, s. 422, hədis 1429; Siyuti, əl-Camius-səğir. Əbu Hüreyrədən nəql etmişdir. Bu hədisin səhih olduğuna işarə etmişdir.

**Qırx yeddinci hədis:** Abdullah bin Ömərdən belə nəql olunur: "Rəsulullah (s) buyurdu: "Qiyamət günü ümmətimdən bir kişi insanların başına keçəcək. Onun üçün göz görən miqdarda doxsan doqquz əməl dəftəri təqdim ediləcək. Sonra Allah belə deyəcək: "Əməlləri yazan mələklərimin bu yazılarında sənə zülm olunduğu bir şey varmı?" (Həmin adam) deyəcək: "Yox, ya Rəbbim". Allah deyəcək: "Sənin bir üzürün varmı?" (Həmin adam) deyəcək: "Yox, ya Rəbbim". Allah-təbarəkə və təala deyəcək: "Sənin bizim yanımızda elə bir yaxşılığın var. Bu gün sənə zülm olunmaz". Onun üçün bir vərəq çıxaracaqlar. Həmin vərəqdə belə yazılıb: "Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur və Muhəmməd Onun qulu və rəsuludur". Allah deyəcək: "Onu gətirin". (Həmin adam) deyəcək: "Ya Rəbbi, bu əməl dəftərləri ilə yanaşı bu nə vərəqdir?" Allah deyəcək: "Sənə zülm olunmayacaq". Onun əməl dəftərini tərəzinin bir gözünə, həmin vərəqi o biri gözünə qoyacaq. Əməl dəftəri yoxa çıxdı və həmin vərəq ağır gəldi. Allahın ismindən ağır heç nə olmayacaq".[288] Tirmizi, İbn Macə, Beyhəqi, İbn Hibban və Hakim bu hədisi nəql etmişdir. Hakim bu hədisin Buxari və Müslimin şərtlərinə uyğun olduğunu demişdir.

**Qırx səkkizinci hədis:** Abdullah bin Ömər Peyğəmbərdən (s) belə nəql edir: "La ilahə illəllah Allaha yetişənədək Allahla onun arasında heç bir hicab olmaz".[289] Tirmizi bu hədisi nəql etmişdir.

**Qırx doqquzuncu hədis:** Huzeyfə Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Köynəyin naxışları aradan getdiyi kimi İslam da aradan gedəcək. Hətta nə oruc, nə sədəqə, nə namaz, nə də həcc bilinəcək. Bir gecədə Allah kitabına elə hücum olunacaq ki, yer üzündə bir ayə belə qalmayacaq. İnsanlar içində böyük şeyx və böyük möcüzə tayfaları

---

[288] Sünəni Tirmizi, Albaninin tədqiqi ilə, c. 2, s. 332, 333, hədis 2126, 2788, 2127, 2789; Sünəni İbn Macə, Albaninin tədqiqi ilə, hədis 4300.

[289] Sünəni Tirmizi, hədis 3518.

qalacaq. Onlar da belə deyəcəklər: “Ata-babalarımızın la ilahə illəllah dediyini görmüşdük. Biz də bu kəlməni deyirik”. Silə bin Zifr Huzeyfəyə belə deyir: “La ilahə illəllah kəlməsinin onlara bir faydası olmayacaq. Onlar oruc, namaz, sədəqə və həcc nədir bilmyəcəklər”. Hüzeyfə ondan üzünü çevirdi. O, bu sözü üç dəfə təkrar elədi. Hər dəfə Hüzeyfə ondan üzünü çevirdi. Üçüncü dəfədə üzünü ona tərəf tutdu və dedi: “Ey Silə, onları cəhənnəm odundan xilas edəcəksənmi? Ey Silə, onları cəhənnəm odundan xilas edəcəksənmi? Ey Silə, onları cəhənnəm odundan xilas edəcəksənmi?”[290] İbn Macə və Hakim bu hədisi nəql etmişdir. Hakim bu hədisin Müslimin şərtinə əsasən uyğun olduğunu demişdir.

**Əllinci hədis:** Ənəs bin Malik – Allah ondan razı olsun – Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Üç şey imanın əsasıdır: La ilahə illəllah deyəndən əl çəkib günaha görə onu təkfir etməyəcəksən və hər hansı əmələ görə onu İslamdan xaric hesab etməyəcəksən”.[291] Əbu Davud bu hədisi nəql etmişdir.

**Əlli birinci hədis:** Abdullah bin Ömər Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “La ilahə illəllah əhlindən əl çəkin. Onları günaha görə təkfir etməyin. Kim la ilahə illəllah əhlini təkfir edərsə, özü küfrə daha yaxındır”.[292] Təbərani bu hədisi nəql etmişdir.

**Əlli ikinci hədis:** İki səhih kitabda Abdullah bin Məsuddan – Allah ondan razı olsun – belə nəql olunur: “Peyğəmbər (s) müsəlmanı söymək

---

[290] Sünəni İbn Macə, c. 2, s. 378 , hədis 3273, 4049. Xədicədən nəql etmişdir. Hakim Nişapuri, əl-Mustədrək, c. 4, s. 545. Bu hədisin Müslimin şərtinə uyğun olduğunu demişdir.

[291] Sünəni Əbu Davud, kitabul-cihad, babun fil-ğəzvi məə əimmətil-covr, hədis 2532.

[292] Təbərani, əl-Kəbir, c. 12, s. 211, hədis 13089.

fisqdir (günahdır), onunla vuruşmaq isə küfrdür”.[293] Həmçinin hər iki səhih kitabda Əbuzər Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Heç kim başqasını fisqlə və ya küfrlə ittiham etməsin. Əgər qarşı tərəf onun ittiham etdiyi kimi deyilsə, dedikləri ona aid olar”.[294]

Həmçinin iki səhih kitabda Sabit bin Zəhhakın Peyğəmbərdən (s) belə nəql etdiyi qeyd olunur: “Kim möminə küfrlə böhtan atarsa, onu qətlə yetirən şəxs kimidir”.[295]

Həmçinin iki səhih kitabda Əbu Hüreyrədən – Allah ondan razı olsun – və Abdullah bin Ömərdən – Allah ondan razı olsun – belə nəql olunur: “Rəsulullah (s) belə buyurdu: “Hər hansı insan qardaşına: “Ey kafir” deyərsə, bu söz ikisindən birinə aid olar”.[296]

Allah-təala ən yaxşısını bilir. Onun lütfünü diləyir və aqibətimizi İslam və imanla tamamlamasını istəyirik. Onu qəzəbləndirən əməllərdən bizi uzaqlaşdırsın! Bizi və bütün müsəlmanları doğru yola hidayət etsin!

---

[293] Səhih Buxari, kitabul-fitən, babu qovlin-nəbiyyi (s) “mən həmələ aleyna əs-silah fə leysə minna”; Səhih Müslim, kitabul-birri vəs-siləti, babun-nəhy ənil-işarəti bis-silahi iləl-muslimi, hədis 2617” Sünəni Tirmizi, hədis 2163.

[294] Səhih Buxari, kitabul-ədəbi, babu ma yənha minəs-səbab vəl-lən, c. 10, s. 388; Bəğəvi, Şərhus-sünnə, c. 13, s. 132, hədis 3552.

[295] Səhih Buxari, kitabul-hudud, babu qəzfi-əbd; Səhih Müslim ,kitabul-iman, babl-ğəliz alə mən qəzəfə məmlukəhu biz-zina, hədis 1660; Sünəni Əbu Davud, kitabul-iman fi həqqil-məmluk, hədis 5165; Sünəni Tirmizi, kitabul-birri vəs-silə, babun-nəhyi ən zərbil-xədəmi və şəmtihim, hədis 1940.

[296] Səhih Buxari, kitabul-ədəb, babu mən kəffərə əxahu biğeyri təvil, c. 10, s. 448; Səhih Müslim, kitabul-iman, babu bəyanu halil-iman mən qalə li əxihil-muslim ya kafir, hədis 60; Malik, əl-Muvatta, kitabul-kəlam, babu ma yəkrəhu minəl-kalam, c. 2, s. 984; Bəğəvi, Şərhus-sünnə, bab vəid, mən səbbə muslimən av ramahu bi kufrin, c. 13, s. 132, hədis 3551.

Əvvəldə, sonda, aşkarda və gizlində Allaha həmd olsun! Allahın salam və salavatı ağamız Muhəmmədə, onun Əhli-Beytinə və səhabələrinə olsun![297]

[297] Aləmlərin Rəbbi olan allaha həmd olsun! Peyğəmbərlərin ən xeyirlisi Muhəmmədə və onun pak əhli-beytinə salam və salavat olsun!

Şeyx Süleyman bin Əbdülvəhhab Nəcdinin "əs-Səvaiqul-ilahiyyə fir-rəddi aləl-vahhabiyyə" kitabının tədqiqi və yazdığım qeydlər bununla da bitdi. Allah-təaladan bu kitabın mömin bəndələrinə faydalı olmasını, onların sıralarını birləşdirməsini, Allahın kitabı və Muhəmməd peyğəmbərin (s) sünnəsində vəhdətə gəlmələrini diləyirəm. Amin! Amin! Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

Sərvari.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. əl-İhsan fi təqribi səhih ibn Hibban, Şueyb Arnautun tədqiqi ilə. Beyrut.

2. İrvaul-ğəlil fi təxrici əhadis mənarus-səbil, Muhəmməd Nasiruddin Albani.

3. əl-İstiyab fi əsmail-əshab, İbn Əbdülbirr. Beyrut.

4. əl-Əsmau vəs-sifat, Beyhəqi. Beyrut.

5. əl-İsabə, İbn Həcər. Beyrut.

6. Tarixu Bağdad, Xətib Bağdadi. Beyrut.

7. əl-Əlam, Zərəkli. Beyrut.

8. Tarixus-siqat, İcli, Əbdülmuti Qələçinin tədqiqi ilə.

9. ət-Tarixul-kəbir, Buxari.

10. Təzkirətul-huffaz, Zəhəbi.

11. Təqribut-təhzib, İbn Həcər, Əbdülğəffar Bağdadinin tədqiqi ilə.

12. Şuəbul-iman, Beyhəqi, Muhəmməd Səid Zəğlulun tədqiqi ilə.

13. Səhih sünəni Tirmizi, Albani.

14. Səhih Buxari, Buxari.

15. Səhih Sünəni İbn Macə, Albani.

16. Səhih İbn Xüzeymə, Muhəmməd Mustafa Əzəminin tədqiqi ilə.

17. Səhih Sünəni Əbu Davud, Albani.

18. Səhih Sünən Nəsai, Albani.

19. Səhih Müslim, Fuad Əbdülbaqinin tədqiqi ilə.

20. əz-Zuəfa, əl-Kəbiri əl-Əqili, Əbdülmuti Qələçi. Beyrut.

21. əz-Zuəfa, Nəsai,Muhəmməd Zayidin tədqiqi ilə.

22. əl-İləl, İbn Əbu Asim, Muhibbuddin Xətibin tədqiqi ilə.

23. əl-İləl, Daruqutni, Məhfuz Sələfi.

24. əl-İləl əl-Mutənahiyyə, İbn Covzi, İrşadul-haqq Əsərinin tədqiqi ilə.

25. Fəthul-bari, İbn Həcər.

26. əl-Kamil, İbn Udəy, Suheyl Zəkar və Yəhya Ğəzavinin tədqiqi ilə.

27. Kəşful-əstar ən zəvaidil-bəzzaz, Heysəmi, Həbiburrəhman Əzəminin tədqiqi ilə.

28. Lisanul-ərəb, İbn Mənzur.

29. Lisanul-mizan, İbn Həcər.

30. əl-Məcruhin, İbn Hibban, Mahmud Zayidin tədqiqi ilə.

31. Məcməuz-zəvaid, Heysəmi, Abdullah Muhəmməd Dərvişin tədqiqi ilə.

32. əl-Mustədrək, Hakim.

33. Musnədi Əhməd bin Hənbəl, Əhməd Muhəmməd Şakirin tədqiqi ilə.

34. Musnədi Həmidi, Həbiburrəhman Əzəminin tədqiqi ilə.

35. Musnədi Şihab Qəzai, Həmidi Sələfinin tədqiqi ilə.

36. Musnədi Əbu Davud, Təyalasi.

37. Musnədi Əbu Yəla Mosuli, Hüseyn Əsədin tədqiqi ilə.

38. əl-Musənnəf, İbn Əbu Şeybə.

39. əl-Musənnəf, Əbdürrəzzaq, Həbiburrəhman Əzəminin tədqiqi ilə.

40. əl-Mucəmus-səğir, Təbərani, Əbdürrəhman Osmanın tədqiqi ilə.

41. əl-Muvatta, Malik bin Ənəs, Muhəmməd Fuad Əbdülbaqinin tədqiqi ilə.

42. əl-Mucəmul-kəbir, Təbərani, Həmdi Sələfi.

43. əl-Muntəzəm fit-tarix, İbn Qəyyim Covzi, Muhəmməd Əbdülqadir Ətanın tədqiqi ilə.

44. əl-Kamil, İbn Əsir Cəzəri.

45. Şərhus-sünnə, Bəğəvi, Şüeyb Arnautun tədqiqi ilə.

46. əl-Bidayə vən-nihayə, İbn Kəsir.

47. Təfsiru Təbəri.

48. Təfsiri ibn Kəsir.

49. əd-Durrul-mənsur, Siyuti.

50. Təcəmətu əl-İmam Əli bin Əbu Talib min tarixi Diməşq, Mahmudinin tədqiqi ilə.